Bildiyimiz kimi C_1-C_4 qazlarının ayrılmasında membran texnologiyası iqtisadi cəhətdən səmərəli alternativ kimi inkişaf edir. Membran texnologiyası aşağı kapital və əməliyyat xərcləri, yüksək enerji səmərəliliyi və avtomatlaşdırma imkanı ilə fərqlənir. Sellüloza asetat, poliimid, polisiloksan və perftorlu polimerlərdən qazların təmizlənməsi üçün istifadə olunur. Hər polimerin keçiriciliyi, seçiciliyi və kimyəvi sabitliyi müxtəlifdir və plastikləşməyə qarşı müqaviməti müəyyən tətbiq sahələrində vacibdir. Blok-sopolimerlər (məsələn, Pebax) hidrofil və hidrofoblar arasında tarazlıq yaradaraq yüksək keçiricilik və mexaniki möhkəmlik təmin edir. Anodik alüminium oksid membranları nanokanallı struktura malik olub yüksək keçiricilik və tənzimlənə bilən parametrlərlə seçilir, lakin həssaslığı onların sənayedə tətbiqini məhdudlaşdırır. Məsaməli içi boş lifli polipropilen membranlar kimyəvi dayanıqlığı ilə seçilir və müxtəlif istehsal üsulları ilə hazırlanır. Belə membranlar qazların qurudulması,ayrılması və filtrasiya proseslərində geniş istifadə olunur.

Membranlar vasitəsilə C_1-C_4 qazlarının ayrılması texnologiyaları hazırda kiçik bazar payına (10%-ə qədər) malikdir. Bunun əsas səbəbləri ənənəvi absorbsiya və adsorbsiya metodlarının işləmə sxemi və membran texnologiyalarının yüzlərlə və minlərlə milyon nm^3/il həcmində emal proseslərinə mürəkkəbliyidir. Lakin, böyük qaz yataqların işlənməsi başa çatdıqca, mürəkkəb qaz tərkibli və neft-qaz kondensat yataqlarına tələbat artdıqca yüksək məhsuldarlığı olan və mürəkkəb texniki xidmət tələb etməyən sadə qurğular effektiv olduğnu sübut edir. Membran texnologiyaları belə qurğuların yaradılması üçün lazımi potensiala malikdir. Membranların köməyi ilə qazı su buxarından və daha yüksək karbohidrogenlərdən eyni vaxtda qurutmaq, həmçinin turşu komponentlərdən təmizləmək mümkündür.

Membran texnologiyalarının əsas üstünlüklərinə aşağıdakılar daxildir: aşağı kapital və əməliyyat xərcləri; kompaktlıq, etibarlılıq və yüngüllük; enerji səmərəliliyi, ekoloji cəhətdən təmiz; tam avtomatlaşdırma imkanı.

Membran qurğuları ənənəvi qaz emal proseslərinə inteqrasiya edilə bilər ki, bu da əməliyyat xərclərinin 20-40% azalmasına imkan yaradır. MTR şirkəti Pebax 1074 blok-sopolimeri əsasında membran rulon kartriclərindən absorbsion texnologiyalarla birlikdə istifadə etməyi təklif edir. Hal-hazırda membran bazarında sellüloza asetat və polidimetilsiloksan əsaslı membranlar üstünlük təşkil edir [1]. Laboratoriya tədqiqatları poliefir-blok-poliamidlər (Pebax) kimi yeni polimerlərin tətbiqinə yönəlmişdir. Membranların qaz keçiriciliyi və seçiciliyi polimerin xüsusiyyətlərindən asılıdır, lakin praktikada polimerlərin plastikləşməsi səbəbindən ideal göstəricilərdən 2-5 dəfə aşağı effektivlik nümayiş olunur. Bu problem xüsusilə yüksək karbohidrogen tərkibli xam qazlarda müşahidə edilir. Membranların qaz ayırma effektivliyi tullantı qazında və çıxış axınında komponentlərin qismən təzyiqlərinin fərqindən asılıdır. Kütlə ötürmə prosesi aşağıdakı düsturla ifadə olunur: $x_1 \cdot p_1 > x_2 \cdot p_2$.

Burada x_1, x_2 qazın mol fraksiyaları, p_1 və p_2 isə təzyiqlərdir. Membran təmizlənməsi zamanı metan itkisi 10% və ya daha çox ola bilər. Zərərləri azaltmaq üçün təmizlənmənin ikinci mərhələsi olan dövrlər istifadə olunur. Bundan əlavə, qazın membran prosesinə daxil olmadan əvvəl kondensatdan və diametri 3 mikrondan çox olan mexaniki hissəciklərdən təmizlənməsi lazımdır ki, bu da əlavə kapital və əməliyyat xərcləri yaradır. Son illərdə inkişaf edən membran texnologiyasının alternativ istiqaməti membran

kontaktorlarından istifadə edərək membran və udma proseslərinin birləşməsidir. Bu üsul qaz və maye fazalarının ayırıcısı kimi çıxış edən, daimi təmas sahəsini təmin edən və fazaların bir-birinə nüfuz etməsinin qarşısını alan membran vasitəsilə çirkləndirici komponentlərin maye absorbentlər tərəfindən udulmasına əsaslanır. Aşağıda təbii və neft qazının hazırlanmasının əsas problemlərinin həlli üçün membran materiallarının və membran texnologiyalarının xüsusiyyətlərini daha ətraflı nəzərdən keçiririk.

Cədvəl 1

Su buxarının çıxarılması üçün membranların qaz nəqli parametrləri

Polimer	**P(H_2O),m^3/m^2 atm saat**	**Ayırma faktoru(H_2O/N_2)**	**Şərtlər**
Sellüloza asetat	0,036	190000	35°C, 27 атм
Pebax 1074	0,18	6060	30°C, 1 атм
Nafion 117	1,5	4,1 · 106	30°C, 35°C, 1 атм
PDMS	0,16	38	30°C, 35°C, 1 атм

Qazları qurutmaq və turşu komponentləri çıxarmaq üçün dörd əsas polimer növü istifadə olunur: sellüloza asetat, poliimidlər, siloksanlar və perftorlu polimerlər. Sellüloza asetata əsaslanan asimmetrik membranlar 1980-ci ilin əvvəllərində "Grace Membrane Systems", "Separex" və "Cynara" sənayedə tədbik edilmişdir və hazırda bazarın 80%-ni təşkil edir. Bu membranlar dəniz platformalarında quraşdırılan qurğular və tərkibində yüksək miqdarda karbon dioksid olan qazı təmizlənməsi üçün geniş tətbiq olunur [2].

Nəticədə, membran üsulu qaz emalı və təmizlənməsi sahələrində müasir və effektiv həll yolları təklif edir. Gələcəkdə isə bu sahədəki elmi və texnoloji nailiyyətlər membran sistemlərinin daha dayanıqlı və yüksək performanslı olmasına imkan yaradacaq.

Summary. Membrane technology is emerging as a cost-effective alternative for the separation of C1-C4 gases. Membrane technology is characterized by low capital and operating costs, high energy efficiency, and automation capabilities. Cellulose acetate, polyimide, polysiloxane, and perfluoropolymers are used for gas purification. Each polymer has a different permeability, selectivity, and chemical stability, and its resistance to plasticization is important in certain applications. Block copolymers (e.g., Pebax) provide a balance between hydrophilic and hydrophobic properties, providing high permeability and mechanical strength.

Keywords: catalytic cracking; absorption; absorbent; membrane method; methane; ethane; butane

ƏDƏBİYYAT

1. CO_2 separation from humidified ternary gas mixtures using a polydecylmethylsiloxane composite membrane [Текст] / A. Brunetti [и др.] // Fuel Processing Technology. – Netherlands, 2020. – Т. 210. – С. 106550.
2. Baker, R. W. Natural gas processing with membranes: An overview [Текст] / R. W. Baker, K. Lokhandwala. – 04.2008.

ФОТОМЕТРИЧЕСКОЕ ОПРЕДЕЛЕНИЕ ИОНОВ МЕДИ(II) НА ОСНОВЕ 4-ГИДРОКСИ-3-

НИТРОФЕНИЛ-(2,3,4-ТРИГИДРОКСИФЕНИЛ) ДИАЗЕНА

Нубар Алиева[1]
Сахил Гамидов[2]
Фаргана Алиева[1]
Миная Мамедова[1]
Полад Мамедов[1]
eliyeva.nubar2021@gmail.com
Бакинский Государственный Университет[1]
Азербайджанский Технологический Университет [2]

В данной работе изучено комплексообразование меди(II) с реагентом 4-гидрокси-3-нитрофенил-(2,3,4-тригидроксифенил)диазеном(R), синтезированным на основе пирогаллола.

Были изучены спектры поглощения комплексов Cu(II) с R в диапазоне 350–700 нм в зависимости от pH среды. Установлено, что комплекс медь–реагент (Cu–R) проявляет максимальное поглощение при λ = 540 нм при оптимальном значении pH = 5.[1] Выявлено, что для полного связывания иона меди необходимо взять 2 мл 10^{-3} М раствора реагента. Вычислен молярный коэффициент поглощения ε = 6250 л·моль$^{-1}$·см$^{-1}$. Установлена подчиняемость закону Бугера–Ламберта–Бера в интервале концентраций 0.51–3.56 мкг/мл.

Изучено влияние температуры и времени на устойчивость исследованного комплекса. Оптическая плотность раствора оставалась неизменной на протяжении двух суток, что показывает высокую стабильность комплексного соединения. Также было изучено влияние третьего компонента-антипирина на комплексообразование. Было установлено, что при введении антипирина происходит увеличение оптической плотности и наблюдается батохромное смещение максимума поглощения по сравнению с двойным комплексом, а также к смещению оптимального pH в кислую область.[2] Для полного образования тройного комплекса необходимо 1 мл этанольного раствора концентрации 0,001 М антипирина.

Для определения состава комплексов были построены градуировочные графики как для двойного, так и для смешанно-лигандного комплексов. Методом изомолярных серий Старика–Барбанель и методом сдвига равновесия были определены соотношения компонентов в комплексах: для двойного Cu:R и для тройного Cu:R:Ант для смешанно-лигандного комплекса и они соответственно составили 1:2 и 1:2:1. Молярный коэффициент поглощения тройного комплекса увеличился до ε = 10000 л·моль$^{-1}$·см$^{-1}$, что показывает на более высокую чувствительность метода при использовании антипирина в качестве третьего компонента. Подчиняемость закона Бугера–Ламберта–Бера наблюдается в диапазоне 0.279–3.05 мкг/мл. Исследовано влияние посторонних ионов на комплексообразование обоих типов комплексов.[3]

PHOTOMETRIC DETERMINATION OF COPPER(II) IONS BASED ON 4-HYDROXY-3-NITROPHENYL-(2,3,4-TRIHYDROXYPHENYL)DIAZENE

Nubar Aliyeva[1]
Sakhil Gamidov[2]
Fargana Aliyeva[1]
Minaya Mamedova[1]
Polad Mamedov[1]
eliyeva.nubar2021@gmail.com
Baku State University[1]
Azerbaijan Technological University[2]

The complexation of copper(II) ions with 4-hydroxy-3-nitrophenyl-(2,3,4-trihydroxyphenyl)diazene (R), synthesized from pyrogallol, was investigated by spectrophotometry. The Cu(II)–R complex exhibits maximum absorbance at 540 nm at pH

5 and obeys the Beer–Lambert law in the range of 0.51–3.56 μg/mL, with a molar absorptivity of ε = 6250 $L \cdot mol^{-1} \cdot cm^{-1}$.

The addition of antipyrine leads to the formation of a ternary complex with enhanced absorbance and a bathochromic shift, as well as increased sensitivity (ε = 10000 $L \cdot mol^{-1} \cdot cm^{-1}$) and a wider linear range (0.279–3.05 μg/mL). The stoichiometry of the complexes was established as 1:2 (Cu:R) and 1:2:1 (Cu:R:antipyrine). The developed method demonstrates good stability and selectivity in the presence of interfering ions.

Keywords: Copper(II), spectrophotometry, azo reagents, complex formation, antipyrine, molar absorptivity, Beer–Lambert law, mixed-ligand complex

ЛИТЕРАТУРА

1. Hatam,Rs; Shaheed,Im And Hussain,Af.Spectrophotometric Determination Of Copper (Ii) Using 2,2[O-Tolidine-4,4-Bis Azo]Bis[4,5-Diphenyl Imidazole](Mbbai). Baghdad Science Journal, 2020, 17 (1) , Pp.287-294.

2. Basoglu,A; Ocak,Ü And Iyidogan,AK.HighlyEfficient Spectrophotometric Determination Of Cu^{2+} Ion In Aqueous Medium Using A Thiosemicarbazone-Derivative Ligand. Journal Of Fluorescence, 2023,33 (3) ,Pp.1003-1015

3. Radhi, Er. Spectrophotometric Determination Of Cu(Ii) Using A Synthesized Azo Quinoline Ligand As Analytical Reagent. Revue Roumaine De Chimie, 2024, 69 (7-8), Pp.405-412.

ÜZÜM TƏNƏYİ ODUNCAĞI ƏSASLI TƏBİİ SORBENTLƏ PB(II) İONLARININ SORBSİYASININ TƏDQİQİ

Fidan Bəhmənova[1]
Fidan Bağışova[1]
Niyazi Abdullayev[1]
Sahil Həmidov[2]
Famil Çıraqov [1]
fidanbagishova2004@gmail.com
Bakı Dövlət Universiteti [1]
Azərbaycan Texnologiya Universiteti[2]

Ağır metal ionlarının yol verilən son qatılıq səviyyəsində müəyyən edilməsi ətraf mühit obyektlərinin ekoloji monitorinqində mühüm analitik problemlərdən biri sayılır. Bu elementlərin bir çox mühitdə çox aşağı qatılıqda olması və matrisa komponentlərinin güclü maneə törətməsi onların hətta ən müasir fiziki və fiziki-kimyəvi üsullarla belə dəqiq təyinini çətinləşdirir. Bu səbəbdən həmin elementlərin əvvəlcədən qatılaşdırılması zəruri olur. Sorbsion ayırma və qatılaşdırma üsulları həm mineral xammalın, həm də texnogen tullantıların emalında, eləcə də analitik praktikada müxtəlif təyinetmə metodlarının lazımi həssaslıq və seçiciliyini təmin etmək məqsədilə geniş tətbiq edilir.

Təqdim edilən işdə üzüm tənəyi oduncağı əsaslı təbii sorbent istifadə olunmuşdur. Bu sorbent vasitəsilə Pb(II) ionlarının sorbsiya və desorbsiya prosesləri tədqiq edilmişdir. Sorbsiya prosesinə müxtəlif amillərin: maye fazanın pH-ı, ion qüvvəsi, tam sorbsiya tarazlığının yaranması üçün lazım olan vaxtın təsiri öyrənilərək qatılaşdırmanın optimal şəraiti müəyyən edilmişdir. Sorbsiya təcrübələri statik şəraitdə aparılmışdır. Alınmış nəticələr cədvəldə təqdim olunub.

Cədvəl. Pb(II) ionlarının üzüm tənəyi oduncağı əsaslı sorbentlə statik sorbsiya

təcrübələrinin əsas xarakteristikaları (d=0,14 mm)

ST, mq/q	Sorb. dərəc. %	$pH_{opt.}$	μ*, mol/l	Zaman, saat
561	51	5	0,8	3.0

*-ion qüvvəsinin sorbsiya dərəcəsinin azalmasına səbəb olan qiyməti

İşdə həmçinin sorbsiya olunmuş qutğuşun ionlarının desorbsiyası da tədqiq edilmişdir. Müxtəlif mineral və üzvi turşuların metal ionların desorbsiyasına təsiri araşdırılmışdır. Təcrübə göstərmişdir ki, qurğuşunun maksimal desorbsiyası perxlorat turşusunda baş verir.

INVESTIGATION OF PB(II) ION SORPTION USING A GRAPEVINE-DERIVED NATURAL SORBENT

Fidan Bahmanova[1]
Fidan Bagishova[1]
Niyazi Abdullayev[1]
Sahil Hamidov[2]
Chiragov Famil[1]
fidanbagishova2004@gmail.com
Baku State University[1]
Azerbaijan University of Technology[2]

The determination of heavy metal ions at low concentration levels is an important analytical problem in environmental monitoring, making a preconcentration step necessary. In this study, the sorption and desorption of Pb(II) ions were investigated using a grapevine-derived lignocellulosic biosorbent. The optimal conditions were determined as pH = 4, ionic strength μ = 0.8 mol/L, and an equilibrium time of 1.5 hours. Under these conditions, the sorption capacity was 215 mg/g and the sorption degree was 44.13%. The maximum desorption was observed in perchloric acid. The results indicate that the biosorbent is effective for the preconcentration of Pb(II) ions.


Key words: heavy metal ions, lead(ii) sorption, desorption, preconcentration, sorption capacity, environmental monitoring.

DİMEDON ƏSASLI AZOBİRLƏŞMƏNİN, KOMPLEKS BİRLƏŞMƏLƏRİNİN SİNTEZİ VƏ XASSƏLƏRİNİN TƏDQİQİ

Kənan Ağayev[1]
Tural Ədilzadə[1]
Ofelya Musazadə[1]
Fəqanə Xəlilova[1]
Rizvan Abdullayev[1]
Sahil Həmidov[2]
kenan.agayev.02@mail.ru
Bakı Dövlət Universiteti[1]
Azərbaycan Texnologiya Universiteti[2]

β-diketonlardan əldə edilən azo birləşmələr, azo (–N=N–) funksional qrupunun xromogen xüsusiyyətlərini və1,3-dikarbonil sistemlərinin reaktivliyi və tautomer xüsusiyyətlərini birləşdirən funksional cəhətdən zəngin üzvi birləşmələrdir. Bu sinfə aid birləşmələr tibb sahəsində yeni dərman namizədlərinin aşkar olunması üçün ümidverici hesab olunur. Dimedon əsasında sintez edilmiş azo birləşmənin ağ qan xərçəngi hüceyrələrinə qarşı selektiv sitotoksik xassəsi müşahidə olunub[1]. Tədqiqatlar göstərir ki, β-diketonların azo birləşmələri geniş farmakoloji potensiala malikdir və antimikrob,

antioksidant, həmçinin iltihabəleyhinə xassələri mövcuddur. Bu sinif birləşmələrin metallar ilə əmələ gətirdiyi xelat birləşmələrin bioloji xassələri sərbəst liqanda nəzərən yüksəkdir[2]. Deyilənləri nəzərə alaraq, β-diketonların azo birləşmələrinin və onların metal komplekslərinin sintezi,xassələrinin araşdırılması aktual məsələdir. Bu məqsədlə dimedon əsasında azobirləşmə, onun əsasında kompleks birləşmələr sintez edilmiş və xassələri araşdırılmışdır.



Şəkil 1. Sintez edilmiş azobirləşmənin quruluşu

Azobirləşmənin sintezi 2 mərhələdə aparılmışdır. İlk mərhələdə p-flüor anilin müvafiq diazonium duzuna çevrilmişdir,sonrakı mərhələdə alınmış diazonium duzu qələvi mühitdə dimedon ilə reaksiyaya daxil olaraq uyğun azobirləşməni əmələ gətirmişdir. Metallar ilə kompleks birləşmələrin sintez etmək üçün müvafiq metal duzları spirt/su (7/3 nisbətində) həll edilərək reaktivin spirtdə məhlulu üzərinə əlavə edilir. Qarışıq 3 saat qızdırılaraq qarışdırılır, 1 həftə saxlanıldıqdan sonra alınmış kompleks birləşmənin çöküntüsü süzülərək ayrılır. Birləşmələrin quruluşu NMR, İQ spektroskopik üsullar ilə tədqiq edilmiş,təmizliyi kağız xromatoqrafiyası ilə yoxlanılmışdır. Potensiometrik titrləmə üsulu ilə liqandın dissosiasiya sabitinin, kompleks birləşmələrin davamlılıq sabitinin qiyməti təyin edilmişdir. Kompleks birləşmərin monokristalları yetişdirilərək,quruluşları Rentgen quruluş analiz metodu vasitəsilə tədqiq edilmişdir.

ƏDƏBİYYAT

1. Güney, Y.; Dilek, Ö.; Sezgin, B.; Tilki, T. Exploring the Potential of Azo Compounds in Leukemia Treatment: Synthesis and Characterization of New Derivatives with Dimedone and Meldrum's Acid End Groups. *ChemistrySelect* **2023**, *8* (35). https://doi.org/10.1002/slct.202302642.
2. Abd-Almutalib, M. G. Biological Activity of Azo Compounds: A Comprehensive Review. *IJHMR* **2025**, *04* (07). https://doi.org/10.58806/ijhmr.2025.v4i7n01.

INVESTIGATION OF THE SYNTHESIS AND PROPERTIES OF DIMEDONE-BASED AZO COMPOUNDS, COMPLEX COMPOUNDS

Agayev Kenan[1]
Adilzade Tural[1]
Musazade Ofelya[1]
Khalilova Fagana[1]
Abdullayev Rizvan[1]
Hamidov Sahil[2]
Baku State University[1]
Azerbaijan Technologycal University[2]


This study focuses on the synthesis and investigation of a dimedone-based azo compound and its metal complexes. The compound was obtained through diazotization and coupling reactions, and its structure was confirmed using spectroscopic and analytical methods. The stability and structural properties of the ligand and its complexes were studied using potentiometric and X-ray analysis techniques.

Key words: β-diketone, dimedone, azo compound, X-ray analysis, potentiometry.

Ag(I)-un YENİ AZOBİRLƏŞMƏLƏR İLƏ MƏHLULDA ƏMƏLƏ GƏTİRDİYİ KOMPLEKS BİRLƏŞMƏLƏRİN SPEKTRAL ANALİZİNİN TƏDQİQİ

Sahil Həmidov[1]
Aylin Əhmədli[2]
İsmayıl Əliyev[2]
Minarə Məmmədova[2]
Famil Çıraqov
ehmedliaylin8@gmail.com
Azərbaycan Texnologiya Universiteti[1]
Bakı Dövlət universiteti[2]

Piroqallol əsasında sintez edilmiş üzvi reaktivlər metalların fotometrik təyinində perspektivli reagentlər hesab olunur. Bu məqsədlə piroqallol əsasında sintez edilmiş azobirləşmədən istifadə etməklə Ag(I)-un fotometrik təyinat metodikası işlənilmişdir. Kompleks birləşmənin analitik göstəricilərini artırmaq məqsədilə binar kompleksə üçüncü komponent kimi ditioksamidin təsiri öyrənilmişdir.[1] İstifadə olunan üzvi reaktiv aşağıdakı formulaya malikdir:



Kompleks əmələgəlmə reaksiyasının optimal şəraitini müəyyən etmək üçün sistemin pH-dan asılılığı öyrənilmiş və müəyyən edilmişdir ki, binar kompleks üçün optimal mühit pHopt = 6,0, maksimum işıq udması isə λmax = 490 nm dalğa uzunluğunda müşahidə olunur. Ditioksamidin binar kompleksə təsiri nəticəsində müxtəlif liqandlı kompleks birləşmə əmələ gəlir. Müxtəlif liqandlı kompleksin optimal əmələgəlmə şəraitini pHopt = 5,0, maksimum işıq udmasının isə λmax = 520 nm olduğu müəyyən edilmişdir. Kompleks birləşmələrinin optimal şəraitlərində reagentlərin qatılığının binar və müxtəlif liqandlı komplekslərə təsiri öyrənilmişdir. Alınmış nəticələrə əsasən müəyyən edilmişdir ki, binar kompleksdə reagentin optimal qatılığı 6×10^{-5} M, müxtəlif liqandlı komplekslərdə isə reagentin qatılığı 6×10^{-5} M, ditioksamidin qatılığı isə 4×10^{-5} M olmalıdır.[2] Xarici faktorların kompleks əmələgəlməyə təsiri araşdırılmış və müəyyən edilmişdir ki, binar kompleks 60°C temperaturadək 10 saat, müxtəlif liqandlı kompleks isə 80°C temperaturadək 2 sutka müddətində stabilliyini saxlayır. Hər iki kompleksin Beer qanununa tabeçilik intervalı öyrənilmişdir. Molyar udma əmsallarının qiymətlərinin müvafiq olaraq ε = 8600 və ε = 10800 olduğu müəyyən edilmişdir.

Kompleks birləşmələrə kənar ionların və pərdələyici maddələrin təsirinin nəticələri göstərmişdir ki, müxtəlif liqandlı kompleks birləşmələrin seçiciliyi binar kompleksə nisbətən daha yüksəkdir.[2]

ƏDƏBİYYAT

1. Алиева Р.А., Мамедова М.Ф., Чырагов Ф.М. 2,2',3,4-тетраокси-3'-сульфо-5'-нитроазобензол как аналитический реагент для фотометрического определения железа (III) // Вестник бакинского университета, 2005, №4. с. 25-28
2. Гюллярли У.А., Нагиев Х.Д., Гамбаров Д.Г., Чырагов Ф.М. Взаи-модействие Zr(IV) с 2,3,4-триоксифенилазо-5-сульфонафтолином в присутствии ДАМ и его гомологов // Журнал аналитической химии, 2006, т.61, №6, с.604-607

INVESTIGATION OF SPECTRAL ANALYSIS OF COMPLEX COMPOUNDS FORMED IN SOLUTION BY AG(I) WITH NEW AZO COMPOUNDS

Sahil Hamidov[1]
Aylin Ahmadli[2]
Ismail Aliyev[2]
Minara Mammadova[2]
Famil Chiragov[2]
ehmedliaylin8@gmail.com
Azerbaijan Technologycal University[1]
Baku State University[2]

A spectrophotometric method for the determination of Ag(I) ions using a pyrogallol-based azo reagent, 2,3,4-trihydroxyphenylazo-4′-nitrophenol, has been developed. The effect of dithiooxamide as a third component on binary complex formation was investigated to improve analytical performance. The optimal conditions for the binary complex were found to be pH 6.0 with maximum absorbance at λmax = 490 nm, while the mixed-ligand complex showed optimal formation at pH 5.0 and λmax = 520 nm. The stability, concentration effects, and Beer's law linearity were studied. The mixed-ligand complex demonstrated higher stability and selectivity compared to the binary complex. The proposed method is suitable for the sensitive and selective spectrophotometric determination of Ag(I) ions.

Keywords: Silver(I); Spectrophotometry; Pyrogallol-based azo reagent; Dithiooxamide; Mixed-ligand complex; Beer's law; Photometric determination

METHODOLOGY FOR THE PRECONCENTRATİON OF CU(II) IONS USİNG BANANA PEEL

Fidan Bahmanova[1]
Sahil Hamidov[2]
Famil Çhiraqov[1]
ciraqov@mail.ru
Baku State University[1]
Azerbaijan Technological University[2]

The analysis of natural, industrial, technological and drinking waters in order to determine the individual components is carried out using various chemical and physico-chemical methods. However, the capabilities of the latter do not always allow one to determine the microquantities of toxic and radioactive elements in objects of complex composition. Taking into account the high ability of metals to accumulate in environmental objects with constant intake, it is important to de-velop new simple, sensitive methods for their determination at a level well below the maximum al-lowable concentration (MAC). The main difficulties here lie either in the limited sensitivity of the method or in the complexity of the matrix composition of the objects. To reduce the limit of detec-tion of microquantities of elements by any method and to reduce the interfering effect of accompa-nying substances, preliminary isolation and concentration of metals from the analyzed objects is re-quired.

One of the main objectives of the study was to develop a methodology for the preconcentration of Cu (II) ions using natural sorbents through an environmentally safe and economically efficient approach. For this purpose, pre-dried and mechanically ground banana peel was used as a sorbent. Key factors affecting the sorption and desorption processes—such as pH, ionic strength, initial metal ion concentration, and sorption/desorption time—were systematically investigated.

Based on the results of the experiments, it was determined that the sorbent effectively adsorbs Cu (II) ions under optimal conditions. The main parameters of the proposed methodology were established as pH = 5, Cu (II) ion concentration of 6×10^{-3} mol/L, and a static sorption capacity of 71.5 mg/g. It was also observed that an increase in ionic strength up to 0.2 mol/L does not significantly affect the efficiency of the sorption process, which enables the method to be applied over a broader range of conditions.

During the optimization of the desorption process, various inorganic acids were tested, and it was found that 1.5 M phosphoric acid provided the highest desorption efficiency. Based on these results, a practical and reliable methodology was proposed for the preconcentration of Cu (II) ions using natural sorbents prior to their analytical determination.

The developed method can be applied to environmental samples, particularly for the analytical determination of heavy metal ions in water sources. This approach offers both ecological and economic advantages and opens up new opportunities in the treatment of industrial wastewater.

A simple and eco-friendly method for the preconcentration of Cu (II) ions using banana peel as a natural sorbent was developed. Optimal conditions were established as pH 5 and an initial Cu (II) concentration of $6 \cdot 10^{-3}$ mol/L, with a maximum sorption capacity of 71.5 mg/g. Sorption efficiency remained stable up to an ionic strength of 0.2 mol/L. The highest desorption efficiency was achieved using 1.5 M phosphoric acid. The method is rapid, cost-effective, and suitable for the determination of trace Cu (II) ions in water samples.

Keywords: Cu(II) ions, preconcentration, natural sorbent, banana peel, sorption

REFERENCES


1. Annadurai, G., Juang, R. S., & Lee, D. J. Use of cellulose-based wastes for adsorption of dyes from aqueous solutions. Journal of Hazardous Materials, 2002, Vol. 92, No 3, pp. 263–274.
2. Babel, S., & Kurniawan, T. A. Low-cost adsorbents for heavy metals uptake from contaminated water: A review. Journal of Hazardous Materials, 2003, Vol. 97 No 1–3, pp. 219–243.
3. Demirbas, A. Heavy metal adsorption onto agro-based waste materials: A review. Journal of Hazardous Materials, 2008, Vol. 157 No 2–3, pp. 220–229.

XROMOTROP TURŞUSU ƏSASINDA AZOBİRLƏŞMƏNİN SİNTEZİ VƏ Fe(III) KOMPLEKSİNİN SPEKTROFOTOMETRİK TƏDQİQİ

Həmid Həmidzadə [1]
Kənan Ağayev [1]
Sahil Həmidov [2]
Rəhminə Məmmədova [3]
Polad Məmmədov [1]
Hamid_hamidzade_00@mail.ru
Bakı Dövlət Universiteti[1]
Azərbaycan Texnologiya Universiteti[2]
Bakı Dövlət Universitetinin Qazax filialı[3]


Bioloji sistemlərdə dəmir, fizioloji prosesləri idarə edən fermentativ və qeyri-fermentativ zülalların tərkibində olan mikroelementdir. Onun ən çox tanınan funksiyası oksigen daşınmasıdır, burada qırmızı qan hüceyrələrindəki hemoglobinin hem qrupunda mərkəzi atom kimi xidmət edir və oksigenin ağciyərlərdən periferik toxumalara sistematik çatdırılmasını təmin edir[1]. Orqanizmdə Dəmirin artıq miqdarda olması və yaxud

çatışmamazlığı müxtəlif xəsstəliklərin yaranmasına səbəb olur[2]. Buna görə də dəmirin kiçik miqdarlarının təyini metodikalarının işlənilib hazırlanması actual məsələdir. Xromotrop turşusu və onun törəmələri Fe^{3+} ionu ilə intensiv rəngli kompleks birləşmələr əmələ gətirmə qabiliyyətinə malik olduqları üçün analitik kimyada geniş tədqiq olunan və tətbiq edilən xromogen reagentlər sırasına daxildir. Bu tədqiqat işində p- Flüoranilin və Xromotrop turşusu əsasında azo birləşmə sintez edilmiş və əldə edilən reagent Fe(III)-ün spektrofotometrik təyini üçün tətbiq edilmişdir.



Şəkil 2. 3-((4-flüorofenil)diazenil)-4,5-dihidroksinaftalin-2,7-disulfo turşu reagentinin quruluşu

Azobirləşmənin sintezi iki mərhələdə həyata keçirilmişdir. Ilk mərhələdə p-Fluoroanilin turş mühitdə nitrit turşusu ilə qarşılıqlı təsiri nəticəsində diazonium duzu alınmışdır, ikinci mərhələdə sintez edilmiş diazonium duzu xromotrop turşusu ilə reaksiyasından müvafiq azobirləşmə alınmışdır. Sintez edilmiş birləşmənin quruluşu İQ, NMR spektroskopik metodları ilə təsdiq edilmiş, təmizliyi kağız xromatoqrafiyası ilə yoxlanılmışdır.



Şəkil 3. Fe(III) təyini üçün dərəcəli qrafik

Fe^{3+} ionunun bu reagentlə əmələ gətirdiyi kompleks birləşmənin optimal şəraitini müəyyən etmək üçün pH-dan asılılığı öyrənilmişdir. Təcrübələr zamanı müvafiq turşuluqlu mühiti yaratmaq üçün amonyak/asetat buffer məhlullarından istifadə olunub. Təcrübələr əsasında kompleks əmələgəlmənin optimal şəraitinin $pH_{opt.}$-3 , λ_{max} -540 olduğu təsdiq edilmişdir. Reaktiv qatılığının kompleks əmələgəlməyə təsiri öyrənilmiş və müəyyən edilmişdir ki , dəmir ionunun kompleks birləşmənin tərkibinə tam keçməsi üçün reaktivin 1ml $1x10^{-3}$ qatılığı tələb olunur. Kompleks birləşmə 80 °C –yə kimi davamlı və 1 sutka saxladıqda belə optiki sıxlığın qiyməti dəyişmir.Optimal şəraitdə dərəcəli qrafik qurulmuş və Ber qanununa tabeçilik intervalının 0.224-2.24 mkq/ml olduğu müəyyən edilmişdir. Molyar udma əmsalının qiymətinin 1,975 x 10^4 -dur.Kompleks əmələgəlməyə təsir edən kənar ionların təsiri araşdırılmışdır.

ƏDƏBİYYAT

1. Perera, D. N.; Palliyaguruge, C. L.; Eapasinghe, D. D.; Maleesha, L. D.; Seneviratne, H.; Demini, D.; Jayasinghe, M.; Rajagopalan, U.; Senathilake, K.; Galhena, B. P.; Tennekoon, K. H.; Piyathilake, P. C.; Samarakoon, S. R. The Role of Iron as a Micronutrient in Key Biological Functions, Health and Diseases in Human. *Nutrition Bulletin* **2025**, *50* (4), 539–553. https://doi.org/10.1111/nbu.70034.

2. Iriarte-Gahete, M.; Tarancon-Diez, L.; Garrido-Rodríguez, V.; Leal, M.; Pacheco, Y. M. Absolute and Functional Iron Deficiency: Biomarkers, Impact on Immune System, and Therapy. Blood Reviews 2024, 68, 101227. https://doi.org/10.1016/j.blre.2024.101227.

SYNTHESIS OF AZO COMPOUND BASED ON CHROMOTROPIC ACID AND SPECTROPHOTOMETRIC STUDY OF Fe(III) COMPLEX

Hamid Hamidzadeh[1]
Kenan Aghayev[1]
Sahil Hamidov[2]
Rahmina Mammadova[3]
Polad Mammadov[1]
Baku State University[1]
Hamid_hamidzade_00@mail.ru
Azerbaijan Technologycal University[2]
Gazakh Branch of Baku State University[3]


The azo reagent based on Chromotropic acid was synthesized, its structure was confirmed by IR, NMR spectroscopic methods. The complex formation between Fe(III) ions and the reagent was studied under different conditions. Optimal complexation occurred at pH 3 with a maximum absorbance at 540 nm. The complex showed good stability up to 80°C and remained stable for 24 hours. The method follows Beer's law in the concentration range of 0.224–2.24 μg/mL, with a molar absorptivity of 1.975×10^4 . The influence of interfering ions was also investigated. The results demonstrate that the synthesized reagent is effective for sensitive spectrophotometric determination of Fe(III).

Keywords: Chromotropic acid, azo compound, Fe(III) determination, p-fluoroaniline, spectrophotometry

SALİSİL ALDEHİDİ ƏSASINDA SİNTEZ EDİLMİŞ ÜZVİ REAKTİVİN BƏZİ METALLARLA KOMPLEKS BİRLƏŞMƏLƏRİNİN TƏDQİQİ

Tural Ədilzadə[1]
Kənan Ağayev[1]
Sahil Həmidov[2]
Fəridə Məmmədova[3]
Famil Çıraqov[1]
turaladilov0119@gmail.com
Bakı Dövlət Universiteti[1]
Azərbaycan Texnologiya Universiteti[2]
Gəncə Dövlət Universiteti[3]

Məlumdur ki, salisil aldehidinin şiff əsaslı törəmələri metallarla xelat birləşmələr əmələ gətirdiyinə görə koordinasion kimyada xüsusi əhəmiyyət kəsb edir. Bu sinif üzvi reaktivlərdən metalların fotometrik ekstraksiyalı-fotometrik təyinində istifadə olunur. Bu reaktivlər əsasında sintez edilmiş kompleks birləşmələr xemoterapiyada da tətbiq sahəsinə malikdirlər. Ona görə də, salisil aldehidi əsasında yeni üzvi reaktiv sintez edilmiş və onun metallarla əmələgətirdiyi kompleks birləşmələr tədqiq edilmişdir. Reaktiv ədəbiyyatda məlum olan metodika əsasında sintez olunmuşdur. Reaktivin tərkib və quruluşu element analizi İQ və NMR spektroskopik metodları ilə öyrənilmişdir.



pH-metrik titrləmə metodu ilə reaktivin dissosiasiya sabitinin qiyməti hesablanmışdır. Bundan ötəri reaktivin 10^{-4} və10^{-3}M qatılıqlı məhlullarından istifadə olunmuşdur. İon qüvvəsini μ=0,1 yaratmaq üçün KCl istifadə olunmuşdur.

Sintez olunan reaktiv bir əsaslı reaktiv olduğuna görə dissosiasiya sabiti:

$$-\lg K_{dis} = pH + \lg\frac{[HA]}{[A^-]}$$

$$pk_a = \lg K_{dis}$$

Hesablamalar nəticəsində məlum olmuşdur ki, dissosiasiya sabitinin mənfi loqarifmik qiyməti Pk=8,14±0,03

Kompleks birləşmələrin davamlılıq sabiti M:R=1:1 nisbətində titrləməsindən alınan nəticələrə əsasən aşağıdakı düsturlara görə hesablanmışdır:

$$K_{dav} = \frac{C_R - [R^-]X}{[R^-]}$$

$$[R^-] = \frac{\{C_R\,(1-a) - [H^+] + [OH^-]\}K_{dis}}{[H^+]}$$

M: R=1:1 olduqda: $C_M = C_R$

C_R – liqandın ümumi qatılığı

$[R^-]$ – liqandın tarazlıq qatılığı

$$X = \frac{[H^+]}{K_{dis}} + 1$$

Hesablamalardan alınan nəticəyə görə davamlılıq sabitlərinin aşağıda göstərilən qiymətə malik olması müəyyən edilmişdir

Fe(III) – 8,04±0,03 ; Cu(II) – 6,21±0,04 ; Ni(II) – 6,14±0,05 ;
Co(II) – 6,10±0,04 ; Zn(II) – 6,05±0,06 Mn(II) – 6,06±0,06

Konduktometrik titrləmə metodu ilə tədqiq olunan kompleks birləşmələrin xüsusi elektrik keçiriciliyi ölçülmüşdür. Alınan nəticələrə əsasən müəyyən edilmişdir ki, xüsusi elektrik keçiriciliyinin qiymətlərindən asılı olaraq kompleks birləşmələrin davamlılığı aşağıdakı sıra üzrə dəyişir.

Fe > Cu > Ni > Co > Zn > Mn

ƏDƏBİYYAT

1.Rana, Md. S.; Rayhan, N. M. A.; Emad, A. H.; Hossain, Md. I.; Shah, M. M.; Kudrat–E-Zahan, Md.; Hossen, Md. F.; Asraf, Md. A. Salicylaldehyde-Based Schiff Bases and Their Transition Metal Complexes: An Overview on Synthesis and Biological Activities. Journal of Coordination Chemistry 2025, 78 (9), 937–1006. https://doi.org/10.1080/00958972.2025.2482231.

2.Varshney, A.; Mishra, A. P. Novel Ni(II) and Zn(II) Schiff Base Metal Chelates as Promising DNA Binder, Antioxidant and Antifungal Agents. Mediterr.J.Chem., 2024, 14 (2), 94 https://doi.org/10.13171/mjc02405211777varshney.

INVESTIGATION OF COMPLEX COMPOUNDS OF SYNTHESIZED ORGANIC REAGENT BASED ON SALICYL ALDEHYDE WITH SOME METALS

Tural Edilzade[1]
Kenan Aghayev [1]
Sahil Hamidov [2]
Farida Mammadova[3]
Famil Chiragov[1]
turaladilov0119@gmail.com
Baku State University[1]
Azerbaijan Technologycal University [2]
Ganja State University[3]

Schiff base derivative of Salicaldehyde was synthesized and properties of its metal complexes were studied. The synthesized reagent was characterized using IR, and NMR spectroscopy. Its acid/base properties were studied via pH-metric titration, revealing a dissociation constant of pKa ≈ 8.14. The stability of metal–ligand complexes (in a 1:1 ratio)

was determined using titration methods. Results showed that the stability constants vary depending on the metal ion, with the highest stability observed for Fe(III). Conductometric studies confirmed the same stability trend. These findings indicate that the reagent can effectively form stable complexes, which may be useful in analytical chemistry and potential biomedical applications.

Keywords: Salicylaldehyde, Schiff base, Metal complexes, pH-metric titration, Stability constant, Dissociation constant (pKa).

MATERİALŞÜNASLIQDA MATERİALLARIN EMALI PROSESLƏRİNDƏ ƏMƏYİN MÜHAFİZƏSİNİN SİSTEMLİ TƏŞKİLİ VƏ RİSKLƏRİN İDARƏ EDİLMƏSİ

Elçin Məhəmməd oğlu Cavadov
elcin.cavadov@gdu.edu.az
Samirə Şöhrəddin qızı Əhmədova
samire.ahmedova@gdu.edu.az

Materialşünaslıq sahəsində materialların emalı prosesləri yalnız istehsalatın məhsuldarlığını artırmaqla kifayətlənmir, eyni zamanda işçilərin sağlamlığı üçün müxtəlif təhlükə və risklər yaradır. Bu risklərin düzgün qiymətləndirilməsi və idarə olunması əməyin mühafizəsinin müasir standartlara uyğun sisteminin formalaşdırılmasında əsas komponentlərdən biridir. Mexaniki, termiki, kimyəvi, fiziki və psixoloji amillər bu sahədə əsas təhlükə mənbələri hesab olunur. Mexaniki risklər, xüsusilə kəsici alətlər, yüksək sürətli emal maşınları, preslər və digər hərəkətli avadanlıqların istifadəsi ilə bağlıdır. Bu tip risklər işçilərin xəsarət alma ehtimalını artırır, əməyin mühafizəsi tədbirlərinin kompleks şəkildə tətbiq olunmasını labüd edir [1].

Termiki risklər qaynaq, metal əridilməsi, tökmə, istilik və digər yüksək temperatur prosesləri zamanı yaranır. Bu əməliyyatlar işçilərdə yanıq, istilik şoku, bədən səthində qıcıqlanma və uzunmüddətli istilik təsirlərinin yaratdığı fizioloji narahatlıqlara səbəb olur. Həmçinin, termiki stressin uzunmüddətli təsiri psixoloji və kognitiv funksiyalara mənfi təsir göstərə bilər, bu da istehsalat keyfiyyətinə birbaşa təsir göstərir.

Kimyəvi risklər polimerlər, qatranlar, turşular, solventlər və buxarlar kimi texnoloji maddələrin istifadəsi ilə bağlıdır. Uzunmüddətli təsir nəticəsində işçilərdə tənəffüs yollarının xroniki xəstəlikləri, dəri reaksiyaları, sinir sistemi pozuntuları və bəzi hallarda sistemli orqan disfunksiyaları inkişaf edə bilər. Bu risklər xüsusilə polimerlərin emalı, kompozit materialların hazırlanması və metallurgiya əməliyyatlarında yüksək aktualdır [2].

Material emalı zamanı yaranan toz və aerozollar da işçilərin sağlamlığı üçün ciddi təhlükə təşkil edir. Metal, keramika və kompozit hissəciklərin havaya yayılması tənəffüs yollarına mənfi təsir göstərir, allergik reaksiyalara, xroniki bronxit və pnevmoniyaya səbəb olur. Həmçinin, uzunmüddətli toz və aerozol təsiri işçinin əməyin məhsuldarlığını azaldır, əməliyyat zamanı diqqətinin yayılmasına və qəzaların artmasına gətirib çıxarır. Fiziki amillər, o cümlədən səs-küy, vibrasiya və elektromaqnit sahələri işçilərin həm psixi, həm də fiziki sağlamlığına mənfi təsir göstərir. Uzunmüddətli vibrasiya əzələ-sümük sistemi pozuntularına, eşitmə itkisinə, sinir sistemi disfunksiyalarına yol açır, yüksək səs-küy isə işçinin diqqətini azaldır və qəzaların yaranma ehtimalını artırır.

Əməyin mühafizəsi yalnız fiziki təhlükəsizliklə məhdudlaşmır, həm də işçilərin psixoloji rifahını və təhlükəsizlik mədəniyyətini əhatə edir. İşçilərin motivasiyası, əmək münasibətləri və təhlükəsizlik mədəniyyəti istehsalatın səmərəliliyinə birbaşa təsir göstərir. Psixoloji stressin yüksək olduğu mühitlərdə işçilər səhv qərarlar verə bilər, bu da qəza və avadanlıq sıradan çıxmalarına gətirib çıxarır. Sistemli yanaşma mexaniki, kimyəvi, termiki

və fiziki riskləri kompleks şəkildə qiymətləndirir, qabaqlayıcı tədbirlər görür və avadanlıqların müasir təhlükəsizlik standartlarına uyğunluğunu təmin edir [4].

Materialşünaslıqda əməyin mühafizəsi üçün texniki, təşkilati və fərdi mühafizə tədbirləri kompleks şəkildə tətbiq olunmalıdır. Texniki tədbirlər avadanlıqların müasir standartlara uyğunluğunu, qoruyucu mexanizmlərin tətbiqini, avtomatlaşdırmanı və sensor sistemlərinin istifadəsini əhatə edir. Təşkilati tədbirlər işçilərin təhlükəsizlik təlimatlarını əhatə edir, təhlükəsizlik qaydalarına nəzarəti və proseslərin düzgün planlaşdırılmasını təmin edir. Fərdi mühafizə vasitələri isə işçilərin kimyəvi maddələrdən, tozdan, istilik və mexaniki təsirlərdən qorunmasını təmin edir.

Müasir sənaye müəssisələrində rəqəmsal monitorinq və sensor texnologiyaları risklərin real vaxt rejimində izlənməsini təmin edir. Avtomatlaşdırma və robotlaşdırma işçiləri yüksək riskli əməliyyatlardan uzaqlaşdırır və qəza hallarının qarşısını alır. Bu yanaşmalar, xüsusilə yüksək temperatur, yüksək sürət və toksik maddələrlə işlənən proseslərdə həyati əhəmiyyət daşıyır [3].

Əməyin mühafizəsi həmçinin risklərin proaktiv idarə olunmasını tələb edir. Risklərin qiymətləndirilməsi, işçilərin peşə xəstəliklərinə qarşı müntəzəm tibbi müayinələri, qəza və fövqəladə hallar üçün təlimlər və simulyasiyalar əməyin təhlükəsizliyini artırır. İşçilərin aktiv iştirakı ilə təhlükəsizlik mədəniyyəti inkişaf etdirilir, qəzaların qarşısı alınır və əməyin məhsuldarlığı yüksəlir. Bu yanaşma istehsalat xərclərinin optimallaşdırılmasına, avadanlıqların daha uzun müddət istifadəsinə və məhsul keyfiyyətinin yüksəlməsinə xidmət edir [4].

Beləliklə, materialşünaslıqda materialların emalı proseslərində əməyin mühafizəsi və risklərin idarə olunması işçi sağlamlığının qorunması, istehsalatın dayanıqlığı, müəssisənin iqtisadi inkişafı və sənaye rəqabətliliyinin artırılması üçün strateji əhəmiyyət daşıyır. Sistemli yanaşma, qabaqlayıcı texnoloji həllərin tətbiqi, işçilərin peşəkarlığının artırılması və müasir təhlükəsizlik texnologiyalarının istifadəsi qəzaların və peşə xəstəliklərinin qarşısını almağa, əməyin təhlükəsizliyini təmin etməyə və sənaye müəssisələrinin davamlı inkişafını dəstəkləməyə imkan verir. Bundan əlavə, əməyin mühafizəsi işçi motivasiyasını artırır, təhlükəsizlik mədəniyyətini gücləndirir və müəssisənin ümumi rəqabət qabiliyyətini yüksəldir.

ƏDƏBİYYAT

1. Карнаух, Н. Новые принципы в управлении охраной труда в организациях. Охрана труда и социальное страхование, №3, 17–21. Москва: 2002.
2. Крайнин, В. Работаем без травматизма. Охрана труда и социальное страхование, №8. Москва: 2011.
3. Ройк, В. Д. Управление условиями и охраной труда. Москва: 2017.
4. Сидоров, А.Л.Безопасность технологических процессов. Санкт-Петербург: 2018

SYSTEMATIC ORGANIZATION OF LABOR PROTECTION AND RISK MANAGEMENT IN MATERIALS PROCESSING PROCESSES IN MATERIALS SCIENCE

Elchin Mahammad oglu Javadov
elcin.cavadov@gdu.edu.az
Samira Shohraddin gizi Ahmadova
samire.ahmedova@gdu.edu.az

The article examines the systematic organization of occupational safety and risk management in materials processing within materials science. Mechanical, thermal, chemical, physical, and psychological hazards affecting worker health and production efficiency are assessed. Emphasis is placed on the implementation of preventive measures, the role of technical and personal protective equipment, and the impact of modern technologies, including sensor systems and automation. A comprehensive approach prevents accidents, enhances

productivity, and strengthens the economic sustainability of enterprises, confirming the strategic importance of occupational safety in the industrial sector.

Keywords: occupational safety, materials science, processing processes, industrial safety, risk management

POLİMER QABLAŞDIRMA MATERİALLARININ HAZIRLANMASI VƏ İSTEHLAKÇI QİYMƏTLƏNDİRİLMƏSİ

Azər İsmayıl oğlu Məmmədov
mammadov_azer1974@mail.ru
Nazlı Əliyeva
nazlialiyevaaa@gmail.com
Azərbaycan Dövlət İqtisad Universiteti

Polimer qablaşdırma materialları müasir qida, ərzaq və tibb sənayesinin ən vacib komponentlərindəndir. Bu işdə ənənəvi sintetik polimerlər (PE, PP, PET) və biopolimerlərin (PLA, PBAT, nişasta əsaslı) hazırlanma prosesləri – single-screw və twin-screw ekstruziya, co-ekstruziya, blown film, cast film və solvent casting üsulları texniki detalları ilə təhlil edilir. Multilayer strukturların barrier xassələri, mexaniki möhkəmlik və emal parametrləri (temperatur, təzyiq, qat qalınlığı) ətraflı izah olunur. Eyni zamanda, istehlakçıların sensor qiymətləndirilməsi üçün hedonic şkalalar və CATA metodları əsasında sorğu nümunəsi hazırlanmış və hipotetik nəticələrin analizi verilmişdir. Nəticədə, Azərbaycan bazarında davamlı və yüksək keyfiyyətli qablaşdırma materiallarının inkişafı üçün praktiki həllər təqdim edilmişdir.

Polimer qablaşdırma materiallarının istehsalı müxtəlif texnoloji mərhələləri əhatə edir:
1. Xammal seçimi: Ən çox istifadə olunan polimerlər – polietilen (PE), polipropilen (PP), polietilen tereftalat (PET), polivinilxlorid (PVC).
2. İstehsal texnologiyaları:
- Ekstrüziya – film və plyonka istehsalı üçün.
- Qəlibləmə (Injection Molding) – butulka, qutu və digər sərt qabların hazırlanması.
- Ko-ekstrüziya – çoxqatlı strukturların yaradılması, məhsulun saxlanma müddətini artırır.
3. Müasir innovasiyalar:
- Biodeqradasiya olunan polimerlər (PLA, PHA).
- Nanokompozitlər – oksigen və nəm baryerini gücləndirir.
- Smart qablaşdırma – məhsulun təzəliyini göstərən sensorlarla təchiz olunur.

Polimer qablaşdırma materiallarının hazırlanması əsasən termoplastik emal üsullarına əsaslanır. Ən geniş yayılmış proseslər aşağıdakılardır:
1. Single-screw ekstruziya (ənənəvi filmlər üçün) - Polimer qranulları hopperdən (feeder) barrelə daxil olur, burada vint (screw) tərəfindən əridilir və homogenləşdirilir. Tipik temperatur rejimi: 160–250 °C (polimer növündən asılı olaraq). Barrelin L/D nisbəti 24:1–32:1 olur. Əridilmiş polimer die-dən keçərək film və ya vərəq şəklində çıxır.
2. Blown film ekstruziya (qida qablaşdırması üçün ən çox istifadə olunan üsul) - Əridilmiş polimer dairəvi die-dən boru şəklində çıxır, hava ilə şişirilir (blow-up ratio 2–4), soyudulur və yuxarı çəkilir. Qalınlıq 20–200 μm olur. Multilayer variantında 3–9 qatlı filmlər alınır.
3. Co-ekstruziya (multilayer filmlər) - Bir neçə ekstruder eyni zamanda fərqli polimerləri (məsələn, LDPE + tie layer + EVOH + tie layer + LDPE) feedblock və ya multilayer die vasitəsilə birləşdirir. Bu üsul yüksək barrier xassələri (oksigen, nəm, aromatik maddələr) təmin edir. Qat qalınlığı nisbəti 5–40% arasında dəyişir.
4. Cast film ekstruziya - Əridilmiş polimer düz die-dən soyuducu silindrlərə (chill roll) tökülür. Film daha hamar və şəffaf olur, lakin barrier xassələri aşağıdır.
5. Biopolimerlər üçün xüsusi proseslər:

- Solvent casting: Biopolimer (PLA, chitosan, nişasta) həll olunur, qəlibə tökülür və həlledici buxarlandırılır.
- Compression molding: Toz halında biopolimer yüksək təzyiq və temperaturda (120–180 °C) sıxılır.
- Electrospinning: Nanofiber filmlər üçün istifadə olunur, yüksək səth sahəsi verir.

Cədvəl 1

Polimer qablaşdırma materiallarının hazırlanma üsullarının texniki xüsusiyyətlərin müqayisəsi

Proses	Tipik qalınlıq (μm)	Qat sayı	Barrier xassəsi	Enerji sərfiyyatı	Əsas tətbiq
Blown film	20–150	1–9	Yüksək	Orta	Qida qablaşdırması
Co-ekstruziya	30–200	3–11	Çox yüksək	Yüksək	Aktiv qablaşdırma
Cast film	10–100	1–5	Orta	Aşağı	Şəffaf filmlər
Solvent casting	20–100	1	Yüksək	Aşağı	Biopolimer filmlər

İstehlakçı qiymətləndirilməsi üçün hazır sorğu nümunəsi hazırlanaraq təqdim edilmişdir. Sorğu strukturu 100 nəfərlik fokus-qrup üçün nəzərdə tutulmuşdur. Hər iştirakçı 3 nümunəni (ənənəvi PE film, PLA biopolimer film və multilayer aktiv film) toxunmaqla, qoxlulamaqla və vizual baxmaqla qiymətləndirir. Qiymətləndirmə aşağıdakı üsullarla aparılmışdır:

1. Hedonic qiymətləndirmə (9-ballı şkala) "1 = çox pis, bəyənmirəm … 9 = çox yaxşı, bəyənirəm" prinsipi ilə həyata keçirilmişdir. Əsasən aşağıdakı suallar qoyulmuşdur:
- Görünüşü necə qiymətləndirirsiniz?
- Toxunma hissi necədir?
- Qoxusu necədir?
- Ümumi bəyənmə səviyyəsi?

2. CATA (Check-All-That-Apply) – hansı ifadələrə uyğundur? (bir neçə variant seçmək olar)

- Şəffaf və cəlbedici, - Çox incə / kövrək, - Ekoloji cəhətdən təmiz, - Güclü və davamlı, - Qoxusu xoşagələn, - Qida üçün təhlükəsiz görünür, - Çox plastik / süni görünür, - Asan açılır, - Ətraf mühitə zərərlidir, - Qiymətinə uyğundur.

3. Əlavə suallar istehlakçıların məhsula olan fikirlərini tam aydınlaşdırmağa imkan verir:
- Bu qablaşdırmanı yenidən almaq istəyərdinizmi? (Bəli/Xeyr)
- Ən vacib amil nədir? (Ekoloji təmizlik / Qiymət / Güc / Şəffaflıq)

Əldə olunmuş nəticələr:

1. Hipotetik nəticələr, 100 nəfər əsasında orta hedonic ballar (9-ballı şkala):
- Ənənəvi PE film: 7.2
- PLA biopolimer film: 6.8
- Multilayer aktiv film: 8.1

2. CATA nəticələri (ən çox seçilən ifadələr, %):
- Multilayer aktiv film: "Ekoloji cəhətdən təmiz" – 82%, "Güclü və davamlı" – 76%
- PLA film: "Qoxusu xoşagələn" – 68%, amma "Çox incə" – 55%
- Ənənəvi PE: "Çox plastik görünür" – 71%

Əldə olunmuş göstəricilərə əsasən Multilayer filmlər həm görünüş, həm də funksionallıq baxımından ən yüksək qiymət almışdır. Biopolimerlər ekoloji imicə görə üstünlük qazansa da, mexaniki möhkəmlikdə geridə qalır. Bu araşdırmadan belə nəticəyə gəlmək olar ki, əgər məhsulun üzərində "ekoloji təmiz" etiketi varsa istehlakçılar 15–20% qiymət artımına belə etiraz etməyəcəklər.

PREPARATION AND CONSUMER EVALUATION OF POLYMER PACKAGING MATERIALS

Azer Ismayil oglu Mammadov
mammadov_azer1974@mail.ru
Nazli K. Aliyeva
nazlialiyevaaa@gmail.com
Azerbaijan State University of Economics


Polymer packaging materials are among the most critical components in today's food, grocery, and medical industries. This study analyzes the preparation processes of conventional synthetic polymers (PE, PP, PET) and biopolymers (PLA, PBAT, starch-based) through single-screw and twin-screw extrusion, co-extrusion, blown film, cast film, and solvent casting methods. Multilayer structures are examined in detail with respect to barrier properties, mechanical strength, and key processing parameters (temperature, pressure, and layer thickness). In addition, a consumer sensory evaluation questionnaire using hedonic scales and CATA methods is provided, together with an analysis of hypothetical results.

Keywords: polymer, packaging, production, consumer, evaluation.

METALLARIN KƏSİLMƏSİ PROSESİNİN FİZİKİ-MEXANİKİ ƏSASLARI VƏ DEFORMASİYA MEXANİZMİ


Saidə Abduləli qızı Tağıyeva
mirzoyevasevinj@mail.ru
Gəncə Dövlət Universiteti

Metalların kəsilməsi prosesi müasir istehsal texnologiyalarının ayrılmaz tərkib hissəsidir və maşınqayırma, alətqayırma, aerokosmik sənaye, avtomobil istehsalı kimi sahələrdə geniş tətbiq olunur. Kəsmə yolu ilə emal üsulları detalların ölçü dəqiqliyinin təmin edilməsində, səthin keyfiyyət göstəricilərinin yüksəldilməsində və material itkisinə nəzarətdə mühüm rol oynayır. Bu səbəbdən kəsmə prosesinin fiziki, mexaniki və həndəsi əsaslarının elmi cəhətdən araşdırılması aktual elmi problemlər sırasındadır.Metalların kəsilməsi zamanı baş verən deformasiya prosesləri mürəkkəb xarakter daşıyır və materialın mexaniki xüsusiyyətləri, alətin həndəsəsi, kəsmə rejimləri və xarici təsirlər arasında qarşılıqlı əlaqə ilə müəyyən olunur. Bu məqalədə metalların kəsilməsi prosesinin nəzəri əsasları sistemli şəkildə təhlil edilir, kəsmə mexanizmi və kəsmə qüvvələrinin formalaşması elmi aspektdən izah olunur. Metalların kəsilməsi — kəsici alətin köməyi ilə emal olunan materialın səthindən artıq hissənin yonqar şəklində ayrılması prosesidir. Bu zaman alət ilə detal arasında intensiv mexaniki qarşılıqlı təsir yaranır və material yüksək gərginliklər altında plastik deformasiyaya məruz qalır [1].



Şəkil 1. Metalların kəsilməsi prosesinin ümumi sxemi

Şəkil 1-də metalların kəsilməsi prosesinin ümumi mexanizmi sxematik şəkildə təsvir edilmişdir. Şəkildə kəsici alətin emal olunan detal səthinə daxil olması nəticəsində materialın artıq hissəsinin yonqar şəklində ayrılması prosesi göstərilir. Kəsici alət detal səthinə müəyyən kəsmə bucağı altında təsir edir və bu zaman material yüksək mexaniki gərginliklərə məruz qalır. Şəkildə kəsici alətin qabaq səthi boyunca yonqarın axın istiqaməti aydın şəkildə qeyd olunmuşdur [3]. Yonqarın formalaşması materialın plastik deformasiyası nəticəsində baş verir və bu proses əsasən alət–detal təmas sahəsində cəmlənir.



Şəkil 2. Əsas deformasiya zonaları

Bu baxımdan, su anbarlarının tikintisində istifadə olunan materialların hidroizolyasiya xüsusiyyətləri xüsusi əhəmiyyət kəsb edir. EMİ–KBPM materialının tərkibində plastik tullantıların istifadəsi beton konstruksiyalarda kapilyar sızmaları azaldır, su itkilərinin qarşısını alır və konstruksiyaların istismar müddətini uzadır. Nəticədə, texniki xidmət və təmir xərcləri optimallaşdırılır.

Eyni zamanda, EMİ–KBPM texnologiyası plastik tullantıların iri həcmdə təkrar istifadəsini təmin etməklə ekoloji üstünlüklər yaradır. Plastik tullantıların poliqonlarda basdırılması və ya yandırılması azalır, atmosferə atılan zərərli emissiyalar minimuma endirilir və sirkulyar iqtisadiyyat prinsipləri dəstəklənir [4].

EMİ–KBPM Texnologiyasının Elmi Əsasları

EMİ–KBPM əsasən PVC və PP tərkibli plastik tullantıların mexaniki modifikasiyası yolu ilə hazırlanmış kompozit beton materialıdır. Texnologiyanın əsas fərqi plastik tullantıların yüksək temperaturda əridilmədən, mexaniki qarışdırma və sıxılma üsulu ilə beton matrisi daxilində strukturlaşdırılmış şəkildə inteqrasiyasıdır. Bu yanaşma:

- enerji sərfiyyatını azaldır;
- zərərli qaz emissiyalarını istisna edir;
- mövcud beton istehsalı sahələrində əlavə avadanlıq olmadan tətbiq oluna bilir.

Plastik qırıntıların mineral xammalı qismən əvəz etməsi istehsal xərclərini azaldır. Eyni zamanda, son məhsulun hidroizolyasiya qabiliyyəti yüksəlir, xüsusi çəkisi azalır, istilik və səs keçirmə əmsalları aşağı düşür ki, bu da hidrotexniki qurğular üçün mühüm üstünlükdür [2].

Tətbiq Sahələri və Funksional Üstünlüklər

EMİ–KBPM materialı vibropressləmə yolu ilə hazırlanan beton məmulatlarında və monolit beton qarışıqlarında tətbiq oluna bilər. Su anbarlarının köməkçi konstruksiyalarında, arakəsmə divarlarında və hidroizolyasiya tələb olunan elementlərdə bu materialdan istifadə xüsusilə məqsədəuyğundur. Aşağı və orta möhkəmlik sinifli betonlarda plastik qatqıların möhkəmliyə təsiri kritik hesab edilmir, əvəzində istismar xüsusiyyətləri əhəmiyyətli dərəcədə yaxşılaşır [3].

Beləliklə, EMİ–KBPM yalnız tikinti materialı deyil, eyni zamanda ekoloji baxımdan davamlı və resurslara qənaət edən innovativ texnologiya kimi qiymətləndirilə bilər.

ƏDƏBİYYAT

1. AZƏRTAC, Bakı, 13 yanvar – Azərbaycanda su ehtiyatlarının idarə olunması üzrə institusional və infrastruktur transformasiyası, 2020–2025.
2. Məcidov, E. I. *Recycling of PVC and Other Plastic Wastes Using Innovative Technologies: Scientific and Methodological Foundations and Industrial Applications.* Proceedings of the 28th Republican Scientific Conference of Doctoral Students and Young Researchers (NASCO XXVIII) dedicated to the *"Year of Constitution and Sovereignty"*, 2025
3. Məcidov, E. I. *Study of the Properties of Composite Concrete–Plastic Materials Obtained through the Application of Innovative Plastic Waste Recycling Technologies.* Ecology and Water Management**,** Scientific, Technical, and Production Journal, No. 5, 2025
4. Məcidov, E. I., & Guliyeva, F. *Development of an Optimal and Innovative Technology for the Prevention of Plastic Waste Causing an Ecological Crisis.* Proceedings of the 1st International Conference on Current Problems in Engineering and Applied Sciences, 2025.

APPLICATION PROSPECTS OF EMI–KBPM MATERIAL IN FUTURE RESERVOIR PROJECTS OF AZERBAIJAN

Emin Ilgar oglu Majidov
eminilgar@mail.ru
Azerbaijan National Aerospace Agency
Institute of Space Research of Natural Resources

The analyses indicate that the application of EMI–KBPM material in Azerbaijan's future water reservoir projects is promising in terms of strengthening water security, reducing water losses, and addressing the problem of plastic waste. Owing to its engineering, environmental, and economic advantages, the technology aligns with the country's sustainable development strategy and offers an efficient solution for large-scale hydraulic structures.

Keywords: EMI–KBPM, composite concrete–plastic material, water reservoirs, plastic waste recycling, waterproofing, circular economy, sustainable construction.

DEVELOPMENT OF A NEW METHOD FOR THE DETERMINATION AND SEPARATION OF SELENIUM IONS

Zulayho Smanova[1]
smanova.chem@mail.ru
Feruzakhon Tojiyeva[2]
tojiboyevaferuza030@gmail.com
Kamola Donieva[2]
kamoladoniyeva@mail.ru
Nargiza Atakulova[2]
nazira.imomova@mail.ru
Ulug`bek Akhmadjonov[3]
axmadjonov97@internet.ru
Norniso Davronova[3]
nuriddinovuktam@gmail.com
Tarana Aliyeva[4]
National University of Uzbekistan[1]
Tashkent Pharmaceutical Instituty[2]
Tashkent Institute of Chemical Technology[3]
Baku State University[4]

Currently, interest in the determination of selenium in environmental objects is due to its toxic properties at relatively low concentrations, and at the same time its importance as a trace element in the life of humans and animals. To date, in the development of instrumental methods for the determination of selenium by physicochemical methods, the limit values of minimally detectable contents with detection limits at the level of nanograms/liter (ng/'l) have been practically reached. A stripping voltammetric method for the determination of selenium

using a mercury-copper carbon-paste electrode has been developed. To modify the electrode when determining selenium (IV), a 0.01 M solution of mercury nitrate and a carbon paste electrode (CPE) were used. By applying a voltage of -2.0 V, mercury films were formed, then a mercury carbon-paste electrode (R-UPE) was lowered with a 0.01 M copper nitrate solution and a voltage of 0.34 V was given. As a result, copper amalga was formed on the surface of the mercury film, which used to determine trace amounts of selenium(IV). The mechanism of electrode processes of selenium on the surface of a mercury-copper carbon paste electrode (MCPE) was studied and the number of electrons in the half-wave potential was determined. The optimal conditions for the determination of selenium were selected, the accumulation time was selected: 10 seconds, the nature of the background electrolyte: 1.0 ml of 0.05 M formic acid, the accumulation potential of depolarizers on the working electrode. The half-wave potential for selenium was 0.25 V; when using a modified electrode, the influence of extraneous interfering cations in determining selenium (IV) ions was reduced. The concentration interval of the calibration graph with the correlation coefficient R=0.9999 was found. The article also presents the results of selenium content determination in the water of Lake Duzlugol by the method of inverse voltammetry. It was found that the selenium concentration in the first sample was 119 mg/l, and in the second - 133 mg/l. These values significantly exceed the maximum permissible concentrations established for natural waters.

Currently, various studies are being carried out on the separation and concentration of ultra-micro amounts of selenium ions using various modified electrodes. The authors in [1] proposed a new analytical method for the simultaneous determination of mercury and selenium in fish samples using atomic fluorescence spectrometry (AFS). The method was applied to simultaneously determine mercury and selenium content in canned sardines. Mercury concentrations ranged from 0.057 to 0.203 mcg g^{-1} and selenium concentrations ranged from 1.76 to 2.21 mcg g^{-1}, providing an average (Se:Hg) molar ratio equivalent to 36. A simple spectrophotometric determination of selenium using Azure B as a chromogenic reagent was developed by researchers [2]. The method is simple, fast and is based on the reaction of selenium with potassium iodide in an acidic medium to release iodine, which bleaches the violet color of Azure B at 644 nm. Flow injection photochemical vapor atomic absorption spectrometry (FI-PVG-AAS) was used to determine selenium ions by the authors of [3], who optimized the variable influences of the photochemical generation process. Selenium derivatives were transferred to an externally heated atomization chamber with a mixture of argon and hydrogen, and selenium was detected at 196.0 nm. Nitrogen was used as a carrier for the flow injection system. It was found that nitric acid interferes with the determination up to 3.0 wt. % HNO_3 can be removed at the stage of reduction of Se(VI) to Se(IV) with hydrochloric acid. The authors of [4] determined the selenium content in sulfuric acid using hydride generation atomic fluorescence spectrometry (HG-AFS). The results showed that the selenium content in the sulfuric acid samples varied from 0.332 mg/kg to 2.576 mg/kg. In [5], a highly sensitive analytical technique was proposed for the determination of selenium using the hydride generation method of a platinum-coated tungsten coil on an atomic absorption spectrometer. The detection limit of Se was 21.1 ng/l. The proposed method was also applied to the determination of selenium in certified reference materials.

Abstract: Based on the research carried out, we can conclude that the CPEs we selected are in no way inferior to other solid electrodes in their operating mode, metrological, operational and other characteristics. Based on the CPE, in the process of conducting experiments, it is possible to obtain a MCPE, which makes it possible to determine both elements for which mercury is an interfering agent, and other metals for which mercury is a positive "substrate" that increases the sensitivity of stripping voltammetric methods for determining various metals. It has been established that the nature, concentration and pH of the background electrolyte have a significant impact on the selectivity and sensitivity of the determination of the studied metals. Experiments have shown that another factor influencing the analytical signal of the metal being determined is the potential for the accumulation of

depolarizers on the working electrode, varying which makes it possible to increase the sensitivity of metal determination and eliminate the interfering influence of accompanying sample components. Metrological characteristics of the results of determining the studied metals in model mixtures simulating real objects allow us to conclude that it is possible to apply the developed stripping voltammetric methods to the analysis of real objects simulating waters of different nature for the content of selenium ions. The article also presents the results of selenium content determination in the water of Lake Duzlugol by the method of inverse voltammetry. It was found that the selenium concentration in the first sample was 119 mg/l, and in the second - 133 mg/l. These values significantly exceed the maximum permissible concentrations established for natural waters. The obtained data indicate possible anthropogenic pollution of the reservoir and the need for constant environmental monitoring.

Keywords: modification, electrodes, electrolytes, electrochemistry, selenium, Duzlugol

REFERENCES

1. Silva D.L.F., Da Costa M.A.P., Dos Santos W.N.L. Simultaneous determination of mercury and selenium in fish by CVG AFS.// J. Food Chemistry.-2019.- Vol. P.24-30.
2. Mathew M., Narayana B.An easy spectrophotometric determination of selenium using azure B as a chromogenic reagent.Indian Journal of Chemical Technology.2006.Vol.13(5).P.455-458.
3. Mathew M.,Narayana B.An easy spectrophotometric determination of selenium using azure B as a chromogenic reagent.Indian Journal of Chemical Technology.2006.vol 169(6). P. 234-245.
4.Xia P., Wang M., Lian L. J. Determination of Selenium in Sulfuric Acid by Atomic Fluorescence Spectrometry. Speciality Petrochemicals. -2021 -Vol.38(2), P. 73-76.
5.Yildiz D. Determination of selenium by platinum-coated tungsten coil trap hydride generation-atomic absorption spectrometry. J. Atomic Spectroscopy. -2021. -Vol. 42(4). P.197-202.

GƏNCƏ–DAŞKƏSƏN İQTİSADİ RAYONUNDA MEŞƏ EKOSİSTEMİNDƏ BAŞ VERƏN DƏYİŞİKLİKLƏRİN TƏHLİLİ

Gülsurə Yusif qızı Mehdiyeva
g.mehdiyeva@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Müasir ekologiyada meşə ekosistemlərinin qiymətləndirilməsi yalnız onların sahəsinin müəyyən edilməsi ilə məhdudlaşmır, eyni zamanda növ tərkibi, yaş strukturu, sıxlıq, karbon udma qabiliyyəti və ekosistem xidmətləri kimi göstəricilərin də nəzərə alınmasını tələb edir [3,4]. Gəncə–Daşkəsən iqtisadi rayonu Kiçik Qafqazın şimal-şərq yamaclarında yerləşərək zəngin biomüxtəliflik və mürəkkəb landşaft quruluşu ilə seçilir və bu xüsusiyyətlər regionu həm ekoloji baxımdan əhəmiyyətli, həm də iqlim dəyişikliklərinə qarşı həssas edir. Regionda şaquli zonallığın mövcudluğu, müxtəlif yüksəklik diapazonları və ekspozisiya fərqləri meşə ekosistemlərinin strukturunu və onların iqlim faktorlarına reaksiyasını müəyyən edən əsas amillərdəndir.

Gəncə–Daşkəsən regionunun meşə ekosistemi mürəkkəb təbii sistem olub, Göygöl–Daşkəsən–Gədəbəy istiqamətində əsas meşə nüvələrinin cəmlənməsi ilə xarakterizə olunur və bu ərazilərdə biomüxtəliflik yüksək səviyyədədir. Göygöl Milli Parkında 80-dən çox ağac və kol növünün mövcudluğu regionun ekoloji potensialını göstərir və eyni zamanda bu sistemlərin iqlim dəyişikliklərinə qarşı həssas olduğunu təsdiqləyir. Meşə, çəmən və subalp zonalarının qarşılıqlı əlaqəsi ekosistemdə baş verən dəyişikliklərin yalnız lokal deyil, daha geniş məkan üzrə kaskad təsirlərlə yayılmasına səbəb olur [2].

Cədvəl 1. Gəncə–Daşkəsən iqtisadi rayonunda meşə ekosisteminin əsas xüsusiyyətləri

Göstərici	Xüsusiyyət	Ekoloji əhəmiyyəti
Coğrafi mövqe	Kiçik Qafqazın şimal-şərq yamacları	Şaquli zonallıq yaradır
Hündürlük diapazonu	Dağətəyi–dağlıq zonalar	Növ müxtəlifliyinə təsir edir
Əsas meşə sahələri	Göygöl–Daşkəsən–Gədəbəy	Ekosistemin nüvəsi
Biomüxtəliflik	80+ növ	Ekoloji sabitlik yaradır
Ekosistem əlaqələri	Meşə–çəmən–subalp	Kaskad təsirlər yaradır

Regionda iqlim dəyişiklikləri meşə ekosistemində baş verən transformasiyaların əsas fon amillərindən biridir və temperatur artımı, quraqlığın intensivləşməsi, yağıntı rejiminin qeyri-sabitliyi kimi proseslər meşə strukturuna və funksiyalarına birbaşa təsir göstərir. Bu təsirlər nəticəsində ağacların fizioloji vəziyyəti zəifləyir, regenerasiya prosesi pozulur və nəticədə meşə sıxlığında azalma, kol və ot örtüyünün genişlənməsi kimi dəyişikliklər baş verir. Bu dəyişikliklər öz növbəsində yanğın, zərərvericilər və eroziya risklərinin artmasına səbəb olur və ekosistemin ümumi dayanıqlığını zəiflədir [3]

Meşə ekosistemində baş verən dəyişikliklər struktur, kompozision və funksional xarakter daşıyır. Struktur dəyişikliklər meşə sıxlığının azalması və açıq sahələrin artması ilə müşahidə olunur, kompozision dəyişikliklər növ tərkibində dəyişikliklər və həssas növlərin azalması ilə ifadə olunur, funksional dəyişikliklər isə karbon udma, su tənzimləmə və torpaq qoruyucu funksiyaların zəifləməsi ilə xarakterizə edilir. Bu proseslər yalnız təbii amillərlə deyil, həm də antropogen təsirlərlə sıx bağlıdır. Dağ-mədən fəaliyyəti, otlaq genişlənməsi, infrastruktur inkişafı və idarəetmə boşluqları meşə ekosisteminin parçalanmasına və onun bərpa potensialının azalmasına səbəb olur [1]

Cədvəl 2. Meşə ekosistemində dəyişiklikləri sürətləndirən amillər

Amil	Təsir mexanizmi	Nəticə
Temperatur artımı	Su balansının pozulması	Bitki zəifləməsi
Quraqlıq	Rütubətin azalması	Regenerasiya zəifləyir
Yanğın	Biomassa itkisi	Meşə sahəsi azalır
Eroziya	Torpaq yuyulması	Ekosistem sabitliyi pozulur
Antropogen təsir	Parçalanma	Biomüxtəliflik azalır

Aparılan təhlil göstərir ki, Gəncə–Daşkəsən iqtisadi rayonunda meşə ekosistemində baş verən dəyişikliklər çoxfaktorlu və kompleks xarakter daşıyır və bu dəyişikliklər yalnız meşə sahəsinin azalması ilə deyil, həm də struktur, funksional və biomüxtəliflik səviyyəsində baş verir. Regionun meşə ekosistemləri yüksək biomüxtəlifliyə malik olsa da, iqlim dəyişiklikləri, quraqlıq, yanğın, eroziya və antropogen təzyiq kimi amillər onların dayanıqlığını zəiflədir. Bu səbəbdən region meşələrinin davamlı idarə olunması üçün biomüxtəliflik əsaslı, iqlimə uyğunlaşan, monitorinq və müasir texnologiyalara əsaslanan idarəetmə modelinin tətbiqi vacib hesab olunur.

ƏDƏBİYYAT

1. Abbasov, R. K. və başqaları. (2024). Azərbaycanın biomüxtəliflik və ekosistem xidmətləri üzrə Milli Ekosistem Qiymətləndirilməsi: siyasətçilər üçün xülasə.
2. Thompson, I., Mackey, B., McNulty, S., & Mosseler, A. (2009). Forest resilience, biodiversity, and climate change.
3. UNFCCC. (2024). Initial National Adaptation Plan: Azerbaijan.
4. UNECE & FAO. (2019). State of Forests of the Caucasus and Central Asia.

ANALYSIS OF CHANGES IN THE FOREST ECOSYSTEM IN THE GANJA–DASHKASAN ECONOMIC REGION

Gulsura Yusif Mehdiyeva
g.mehdiyeva@atu.edu.az
Azerbaijan Technological University

This thesis provides a comprehensive analysis of changes occurring in the forest ecosystem of the Ganja–Dashkasan economic region. The main objective of the study is to identify the natural and ecological characteristics of the region's forest cover, to determine the transformations occurring under the influence of climate change and anthropogenic factors, and to evaluate the impact of these changes on biodiversity and ecosystem functions. The analysis shows that changes in forest ecosystems cannot be explained solely by area indicators; rather, they are characterized by structural, compositional, and functional transformations. In this context, the application of a sustainable management approach for the region is considered essential.

Keywords: forest ecosystem, biodiversity, climate change, drought, fire risk, sustainable management

YAŞIL TEXNOLOGİYALAR ƏSASINDA AQRAR-QİDA İSTEHSALININ SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI

Günel Adil qızı Sadıqova
gunel_shahbazov_adil@mail.ru
Azərbaycan Kooperasiya Universiteti

Müasir mərhələdə aqrar-qida sektoru yalnız iqtisadi fəaliyyət sahəsi deyil, eyni zamanda ərzaq təhlükəsizliyinin təmin olunması, regionların sosial-iqtisadi tarazlığının qorunması və ekoloji dayanıqlığın formalaşdırılması baxımından strateji əhəmiyyət daşıyır. Qlobal iqlim dəyişiklikləri, təbii resursların məhdudluğu və istehlak strukturunda baş verən dəyişikliklər aqrar-qida istehsalında səmərəliliyin artırılmasını yeni yanaşmalar əsasında aktuallaşdırır. Bu tendensiyalar Azərbaycan üçün xüsusilə əhəmiyyətlidir, çünki ölkədə kənd təsərrüfatı həm məşğulluğun, həm də qeyri-neft sektorunun əsas dayaqlarından biridir [1]. Azərbaycan aqrar-qida sektorunun mövcud inkişaf səviyyəsi göstərir ki, istehsal və emal mərhələləri arasında texnoloji uyğunsuzluqlar, məhsul itkilərinin yüksək olması və su–enerji resurslarından istifadədə effektivliyin aşağı qalması səmərəlilik problemlərini daha da dərinləşdirir. Xüsusilə iqlim şəraitinin dəyişməsi və su ehtiyatlarına artan təzyiq aqrar istehsalın davamlılığını risk altına alır.

Son illərdə ölkədə formalaşan yaşıl iqtisadiyyat yanaşması aqrar-qida sektorunda istehsal proseslərinin yenidən nəzərdən keçirilməsini zəruri etmişdir [2]. Yaşıl texnologiyaların tətbiqi təbii ehtiyatların qorunmasına, karbon emissiyalarının azaldılmasına və istehsal zəncirində ekoloji balansın saxlanmasına imkan yaradır. Aqrar-qida istehsalı bu yanaşmanın praktiki reallaşdırılması üçün ən uyğun sahələrdən biri olmaqla, həm iqtisadi səmərəliliyin, həm də uzunmüddətli dayanıqlığın təmin edilməsinə töhfə verə bilər. Bu prosesdə qida mühəndisliyi və müasir texnologiyalar xüsusi əhəmiyyət kəsb edir. Xammalın emalı, saxlanması və qablaşdırılması mərhələlərində enerji qənaətli və ekoloji təhlükəsiz texnoloji həllərin tətbiqi məhsul itkilərinin azaldılmasına və əlavə dəyərin formalaşdırılmasına şərait yaradır. Azərbaycan şəraitində aqrar məhsulların emal səviyyəsinin nisbətən aşağı olması qida mühəndisliyi sahəsində innovativ yanaşmaların aktuallığını artırır. Yaşıl texnologiyalarla inteqrasiya olunmuş qida mühəndisliyi həm istehsalın səmərəliliyini yüksəldir, həm də aqrar-qida sisteminin dayanıqlı inkişafına strateji töhfə verir.

Yaşıl texnoloji yanaşmalar aqrar-qida sektorunda istehsalın səmərəliliyinin artırılması ilə yanaşı, ekoloji tarazlığın qorunmasını və resurslardan uzunmüddətli istifadənin təmin edilməsini hədəfləyən kompleks həllər toplusu kimi çıxış edir. Bu yanaşmaların əsas mahiyyəti

kənd təsərrüfatı və qida emalı proseslərinin təbii resurslara minimal təsir göstərməklə təşkil olunması, eyni zamanda iqtisadi nəticələrin yaxşılaşdırılmasıdır. Beynəlxalq elmi ədəbiyyatda yaşıl texnologiyalar aqrar istehsalın davamlılığını təmin edən əsas innovasiya istiqamətlərindən biri kimi qiymətləndirilir [4].

Digər mühüm istiqamət aşağı karbonlu və enerji səmərəli istehsal texnologiyalarıdır**.** Aqrar-qida sektorunda enerji istehlakının azaldılması, bərpa olunan enerji mənbələrinin (günəş, bioenerji) tətbiqi və karbon emissiyalarının minimuma endirilməsi yaşıl iqtisadiyyatın əsas prinsipləri ilə üst-üstə düşür. Tədqiqatlar göstərir ki, aqrar istehsalda enerji səmərəli texnologiyaların tətbiqi yalnız ekoloji deyil, həm də iqtisadi baxımdan müsbət nəticələr yaradır [5]. Yaşıl texnoloji yanaşmaların aqrar-qida sektorunda mühüm komponentlərindən biri də tullantısız və dövri istehsal modelləridir**.** Aqrar məhsulların emalı zamanı yaranan tullantıların ikinci xammal kimi istifadəsi, bioqaz və üzvi gübrə istehsalı resurs dövriyyəsini genişləndirir və istehsalın ekoloji yükünü azaldır. Bu yanaşma qida mühəndisliyi sahəsində innovativ texnologiyaların tətbiqi ilə daha effektiv nəticələr verir və aqrar-qida zəncirində əlavə dəyərin formalaşmasına imkan yaradır [8]. Eyni zamanda ekoloji təhlükəsiz qida emalı və saxlanma texnologiyaları yaşıl yanaşmaların mühüm istiqaməti kimi çıxış edir. Enerji qənaətli emal avadanlıqları, bioloji parçalana bilən qablaşdırma materialları və müasir saxlanma texnologiyaları qida itkilərinin azalmasına və məhsul keyfiyyətinin qorunmasına şərait yaradır. Azərbaycan kontekstində aqrar məhsulların emal və logistika mərhələsində itkilərin yüksək olması bu texnoloji yanaşmaların tətbiqinin aktuallığını daha da artırır. Aqrar-qida sektoruna uyğun yaşıl texnoloji yanaşmalar istehsalın yalnız ekoloji cəhətdən təhlükəsizliyini deyil, həm də iqtisadi səmərəliliyini təmin edən strateji alət kimi qiymətləndirilə bilər.

Resurs səmərəliliyi aqrar istehsalda torpaq və su ehtiyatlarının məqsədyönlü idarə olunmasını nəzərdə tutur. Azərbaycanda su təminatının məhdudluğu və ənənəvi suvarma üsullarının geniş yayılması istehsal xərclərini artıran əsas amillərdəndir. Suya qənaət edən texnologiyaların tətbiqi məhsuldarlığı qorumaqla yanaşı, istehsal prosesinin iqtisadi və ekoloji səmərəliliyini yüksəldir [3]. Enerji səmərəliliyi aqrar-qida zəncirinin suvarma, saxlanma və ilkin emal mərhələlərində xüsusi rol oynayır. Alternativ enerji mənbələrinin, xüsusilə günəş enerjisinin aqrar təsərrüfatlara inteqrasiyası enerji asılılığını azaldır və yaşıl iqtisadiyyat prinsiplərinə uyğun istehsal mühiti formalaşdırır [6]. Qida itkiləri aqrar-qida sektorunda səmərəliliyi azaldan əsas problemlərdən biridir. Məhsulun yığım sonrası mərhələlərdə – saxlanma, daşınma və bazara çıxarılma prosesində itirilməsi iqtisadi dəyərin azalmasına səbəb olur. Azərbaycan şəraitində saxlama və emal infrastrukturunun inkişafı, eləcə də fermer–bazar əlaqələrinin gücləndirilməsi qida itkilərinin azaldılmasında praktik və effektiv mexanizmlər kimi çıxış edir [7]. Yaşıl texnologiyalar əsasında aqrar-qida istehsalının səmərəliliyinin artırılması Azərbaycan üçün yalnız texnoloji modernləşmə deyil, həm də aqrar sektorun uzunmüddətli dayanıqlığını təmin edən yeni inkişaf mərhələsi kimi qiymətləndirilməlidir. Bu yanaşma istehsal, ekoloji tarazlıq və iqtisadi səmərəlilik arasında balansın qorunmasına xidmət edir.

ƏDƏBİYYAT

1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Bakı. 2021. https://e-qanun.az/framework/46813
2. Azərbaycan Respublikasının 2022–2026-cı illər üzrə sosial-iqtisadi inkişaf strategiyası. Bakı, 2022. https://president.az/articles/55445
3. FAO. (2019). The State of Food and Agriculture 2019: Moving forward on food loss and waste reduction. Rome: Food and Agriculture Organization of the United Nations.
4. FAO. (2021). The State of Food and Agriculture 2021: Making agrifood systems more resilient. Rome: Food and Agriculture Organization of the United Nations.
5. OECD. (2020). Innovation, productivity and sustainability in food and agriculture. Paris: OECD Publishing. https://doi.org/10.1787/6f1f0c0c-en
6. OECD. (2021). Making agriculture more resource efficient. Paris: OECD Publishing.
7. World Bank. (2020). Reducing food loss and waste: An agenda for sustainable development. Washington, DC: World Bank.

8. World Bank. (2022). Greening the agrifood system: Policy options for sustainable agriculture. Washington, DC: World Bank.

IMPROVING THE EFFICIENCY OF AGRI-FOOD PRODUCTION BASED ON GREEN TECHNOLOGIES

Gunel Sadigova
gunel_shahbazov_adil@mail.ru
Azerbaijan Cooperation University PhD Candidate

The article examines issues related to improving the efficiency of agri-food production based on green technologies. The main scientific result identified by the author is that the application of green technologies in agri-food production not only enhances resource and energy efficiency, but also contributes to the optimization of the production chain and strengthens food security. The scientific novelty of the study lies in substantiating green technologies not as separate technical solutions within the agri-food sector, but as a comprehensive development model that integrates economic efficiency, ecological balance, and long-term sustainability.

Keywords: green technologies, agri-food production, production efficiency, sustainable development, food security.

BEYNƏLXALQ TƏŞKİLATLARIN QLOBAL ƏRZAQ TƏHLÜKƏSİZLİYİNƏ TƏSİRİ

Aygun Alim qızı Hacıyeva
aygun-gadjieva@mail.ru
Mehriban Hidayət qızı Həsənova
mehribanks@mail.ru
Nəsimi Əlipolad oğlu Abbaszadə
abbaszade.nesimi@mail.ru
Azərbaycan Dövlət Aqrar Universiteti

Qlobal ərzaq təhlükəsizliyi, dünya əhalisinin hər zaman sağlam və aktiv həyat tərzi üçün fiziki, sosial və iqtisadi cəhətdən kifayət qədər, təhlükəsiz və qida dəyəri zəngin ərzağa əlçatanlığını təmin edən vəziyyətdir. Ərzaq və qida məhsullarının iqtisadi və fiziki baxımdan əlçatanlığı, ölkənin bütün yaşayış məntəqələrində əhalinin bu məhsulları ala bilməsi və ya ərzaq məhsullarının istehlakı üçün müəyyən edilmiş rasional normalardan az olmayan həcmdə və çeşiddə qidalanmanın təşkilinin təmin edilməsi infrastrukturun inkişaf səviyyəsi ilə əlaqədardır [3]

Cəmiyyətin rifahının yüksəldilməsi və əhalinin keyfiyyətli həyat səviyyəsinin qorunması üçün etibarlı ərzaq təminatı mühüm əhəmiyyət daşıyır. Bu istiqamətdə Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi sənədində ərzaq və qida təhlükəsizliyinin davamlılığını qorumaq məqsədilə institusional potensialın gücləndirilməsinə yönəlmiş konkret hədəflər müəyyənləşdirilmişdir.[1]

Beynəlxalq təşkilatlar qlobal ərzaq problemlərinin həllində humanitar yardım, davamlı inkişaf təşəbbüsləri, siyasətlərin hazırlanması, monitorinq və tədqiqat, eləcə də beynəlxalq əməkdaşlıq istiqamətlərində fəaliyyət göstərirlər. Beynəlxalq təşkilatlar (FAO, WFP, IFAD, Dünya Bankı, BMT-nin digər orqanları və regional strukturlar) qlobal ərzaq təhlükəsizliyinin təmin olunmasında həm siyasət formalaşdırıcı, həm də əməliyyatçı rolu oynayır.

Qlobal miqyasda ərzaq təhlükəsizliyinin qiymətləndirilməsi zamanı ən çox istinad edilən mənbələrdən biri Economist Intelligence Unit tərəfindən hazırlanmış tədqiqatlardır. Məhz bu qurumun metodologiyası əsasında ölkələr üzrə ərzaq təhlükəsizliyinin səviyyəsini əks etdirən Qlobal Ərzaq Təhlükəsizliyi İndeksi (Global Food Security Index – GFSI)

formalaşdırılır.[3] Global Food Security Index 113 ölkə üzrə ərzaq məhsullarının əlçatanlığı və mövcudluğu, onların keyfiyyət və təhlükəsizlik səviyyəsi, eləcə də təbii resurslar və davamlılıq göstəricilərini kompleks şəkildə qiymətləndirir. Bu indeks inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlərdə ərzaq təhlükəsizliyinə təsir edən əsas amilləri ölçmək üçün 58 unikal göstərici əsasında formalaşdırılmış dinamik, həm kəmiyyət, həm də keyfiyyət meyarlarını birləşdirən müqayisəli modelə əsaslanır.

2022-ci ildə Qlobal Ərzaq Təhlükəsizliyi İndeksinə əsasən Azərbaycan 113 ölkə arasında 66 balla 59-cu yerdə qərarlaşmışdır. Ölkə üzrə ərzaq əlçatanlığı 78,1 bal, ərzaq mövcudluğu 56,2 bal, keyfiyyət və təhlükəsizlik 54,5 bal, davamlılıq və uyğunlaşma isə 44,6 bal səviyyəsində qiymətləndirilmişdir. Reytinqdə ilk onluğa Finlandiya (83,7 bal), İrlandiya (81,7), Norveç (80,5), Fransa (80,2), Niderland (80,1), Yaponiya (79,5), İsveçrə və Kanada (79,1), İngiltərə (78,8) və Portuqaliya (78,7) daxil olmuşdur. ABŞ 78,0 balla 13-cü, Qazaxıstan 72,1 balla 32-ci, Rusiya 69,1 balla 43-cü, Türkiyə 65,3 balla 49-cu, Belarus isə 64,5 balla 55-ci yerdə qərarlaşmışdır.[4].Ümumilikdə, bu göstəricilər Azərbaycanın qlobal ərzaq təhlükəsizliyi reytinqində orta mövqe tutduğunu, ərzaq məhsullarına əlçatanlıq sahəsində nisbətən müsbət nəticələrə malik olduğunu, lakin xüsusilə mövcudluq, davamlılıq və uyğunlaşma istiqamətlərində əlavə təkmilləşdirmələrə ehtiyac olduğunu göstərir.

Azərbaycan 2022-2025-ci illər ərzində Qlobal Aclıq İndeksində (GHI) davamlı olaraq "aşağı aclıq" kateqoriyasında yer almışdır. 2022-ci ildə ölkə 5,6 bal ilə 123 ölkə arasında 29-cu yerdə qərarlaşmışdır. 2023-cü ildə göstərici bir qədər artaraq 5,8 bala yüksəlmiş və 30-cu sıraya dəyişmişdir. 2024-cü ildə GHI balı 6,2-yə çatmış, bu da 127 ölkə arasında 32-ci yerdə qərarlaşmağa səbəb olmuşdur. 2025-ci ildə isə bal yenidən 5,6-ya enmiş və Azərbaycan əvvəlki kimi 29-cu yerdə "aşağı aclıq" kateqoriyasını qorumuşdur. Bu göstəricilər ölkədə yetərsiz qidalanma, uşaqlarda inkişafdan qalma və 5 yaşadək uşaqlar arasında ölüm səviyyəsi kimi əsas göstəricilərin nisbətən stabil olduğunu göstərir. Ümumilikdə, Azərbaycan həm sosial müdafiə tədbirləri, həm də daxili ərzaq təminatı baxımından müəyyən uğurlar əldə edib, lakin iqlim dəyişikliyi və regional fərqliliklər bəzi risklər yaratmağa davam edir.[4]

Nəticə etibarilə, qlobal ərzaq təhlükəsizliyinin təmin olunması beynəlxalq əməkdaşlıq tələb edən ən mühüm problemlərdən biridir. Yoxsulluq, iqlim dəyişikliyi, münaqişələr və qlobal iqtisadi qeyri-sabitlik bu sahədə riskləri daha da dərinləşdirir. Beynəlxalq təşkilatlar humanitar yardımın göstərilməsi, davamlı kənd təsərrüfatının təşviqi və effektiv siyasət mexanizmlərinin formalaşdırılması vasitəsilə qlobal ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində mühüm rol oynayır.[2]

Aparılan təhlil göstərir ki, Azərbaycan ərzaq təhlükəsizliyi sahəsində müəyyən nailiyyətlər əldə etsə də, xüsusilə davamlılıq və uyğunlaşma istiqamətində beynəlxalq təcrübənin tətbiqinə və institusional islahatların dərinləşdirilməsinə ehtiyac duyur. Bu baxımdan, beynəlxalq təşkilatlarla əməkdaşlığın gücləndirilməsi və milli ərzaq təhlükəsizliyi strategiyalarının qlobal çağırışlara uyğunlaşdırılması ölkənin uzunmüddətli ərzaq təminatının əsas təminatçısı kimi çıxış edə bilər.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"**.** http://www.e-qanun.az/framework/41930

2. Hacıyeva, A. A. (2022). Azərbaycanda kənd təsərrüfatının inkişafında dövlət proqramlarının rolu. *The XXXIII International Scientific Symposium "Dialogue of Sciences and Cultures in the Modern World"*, Bişkek, Qırğızıstan

3. Hajiyeva, A., Saliyeva, V., Huseynova, S., & Abbaszade, N. (2023). Issues of ensuring world food security. *Danish Scientific Journal*, No. 78, ISSN 3375-2389.
4. Food and Agriculture Organization of the United Nations (FAO): http://www.fao.org

THE IMPACT OF INTERNATIONAL ORGANIZATIONS ON GLOBAL FOOD SECURITY

Aygun Alim gizi Hajiyeva
Mehriban Hidayat gizi Hasanova
Nasimi Alipolad oglu Abbaszade
Azerbaijan State Agricultural University

Global food security is challenged by poverty, climate change, and conflicts. International organizations such as the Food and Agriculture Organization (FAO), World Food Programme (WFP), International Fund for Agricultural Development (IFAD), and the World Bank contribute through humanitarian aid, sustainable agriculture initiatives, and policy support. This article briefly examines their impact and reviews Azerbaijan's position in the Global Food Security Index.

Keywords: international organizations, global food security, climate change, food accessibility, sustainable agriculture.


YAĞINTI ANOMALİYALARININ KOSMİK TEXNOLOGİYALAR ƏSASINDA MONİTORİNQİ

Nəsibə Volodiya Nəsirova
nasir.nasirova@rambler.ru
Zeynəb Şahin Talıbzadə
z.talibzade@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Müasir dövrdə iqlim dəyişmələri və onların yaratdığı ekstremal hava hadisələri qlobal miqyasda ciddi problemlərdən biri kimi qiymətləndirilir. Bu hadisələr arasında yağıntı rejiminin dəyişməsi və yağıntı anomaliyalarının artması xüsusilə diqqət çəkir. Yağıntı anomaliyaları kənd təsərrüfatı, su ehtiyatlarının idarə olunması, ekoloji tarazlıq və sosial-iqtisadi sabitlik baxımından mühüm əhəmiyyət kəsb edir. Bu səbəbdən onların vaxtında müəyyən edilməsi və monitorinqi elmi və praktiki baxımdan aktual məsələlərdən biridir.

Yağıntı anomaliyası, ölçülən vahid üzrə faktiki yağıntı miqdarının ümumi orta yağıntı miqdarı dəyərindən kənara çıxmasıdır [1].

Hesabatda yağıntı anomaliyaları, CHIRPS peykindən əldə edilən 25 illik məlumatlara əsasən müəyyən olunmuşdur. Bu məqsədlə 2000-2025-ci illər üzrə aylıq yağıntı məlumatları əldə edilmiş, illik ümumi orta dəyər hesablanmış, daha sonra 2020-2025-ci dövr üzrə hər il üçün orta yağıntı miqdarı ilə müqayisə edilərək yağıntı anolmaliyaları müəyyən olunmuşdur [3].




Şəkil 1. Yağıntı anomaliyaları[4,6]

Təqdim olunan xəritə Azərbaycanda yağıntı anomaliyalarının məkan üzrə paylanmasını göstərir və müxtəlif rəng şkalası vasitəsilə normadan kənarlaşmaları ifadə edir. Xəritədə mavi tonlar müsbət anomaliyaları (normadan artıq yağıntı), sarı və narıncı tonlar isə mənfi anomaliyaları (normadan az yağıntı) əks etdirir. Təhlildən aydın olur ki, ölkə ərazisinin böyük hissəsində sarı və

açıq narıncı rənglər üstünlük təşkil edir ki, bu da yağıntıların əsasən normadan aşağı olduğunu göstərir. Bu hal xüsusilə mərkəzi və qərb bölgələrində daha geniş yayılmışdır və quraqlıq meyllərinin gücləndiyini göstərir.

2020-ci ildə yağıntının miqdarı Ağstafa və Tovuz, 2021-ci ildə ölkənin qərb sərhədləri, Naxçıvan Muxtar Respublikası və Lənkəran-Astara iqtisadi rayonu, 2022-ci ildə Qazax-Tovuz iqtisadi rayonu və Lənkəran rayonu, 2024-cü ildə Lənkəran-Astara iqtisadi rayonu, 2025-ci ildə isə Dağlıq Şirvan, Gəncə-Daşkəsən, Lənkəran-Astara iqtisadi rayonları azalan yağıntı miqdarı trendlərini göstərmişdir.



Şəkil 2. Yağıntı anomaliyaları [5]

Təqdim olunan qrafik 2000–2025-ci illər ərzində orta illik yağıntının dinamikasını əks etdirir və bu dövr ərzində yağıntıların sabit olmadığını, dalğavari şəkildə dəyişdiyini göstərir. Ümumilikdə yağıntı miqdarı təxminən 400–590 mm intervalında dəyişir ki, bu da iqlim dəyişkənliyinin yüksək olduğunu göstərir.

	2020	2021	2022	2023	2024
Ölkə üzrə					
Yağıntıların orta illik miqdarı	445,5	381,1	371,0	481,2	533,1
Orta illik yağıntıların orta çoxillikdən fərqi	-43,4	-98,4	-108,5	1,7	53,6
Bakı şəhəri üzrə					
Yağıntıların orta illik miqdarı	308,1	256,5	229,2	175,1	339.3
Orta illik yağıntıların orta çoxillikdən fərqi	73,4	21,8	-5,5	-59,6	104,6
Ən yüksək (max) orta aylıq yağıntıların miqdarı	126,1	60,4	46,8	35,5	69,9
Ən aşağı (min) orta aylıq yağıntıların miqdarı	0,0	0,0	0,0	1,6	0,0
Gəncə şəhəri üzrə					
Yağıntıların orta illik miqdarı	191,1	251,5	176,0	246,7	311,4
Orta illik yağıntıların orta çoxillikdən fərqi	-95,8	-35,4	-110,9	-40,2	24,5
Ən yüksək (max) orta aylıq yağıntıların miqdarı	59,0	46,8	42,6	84,8	102,6
Ən aşağı (min) orta aylıq yağıntıların miqdarı	0,9	2,4	1,7	0,4	0,6

Cədvəl 1. Yağıntının miqdarı (mm) [5]

Nəticə olaraq, xəritə göstərir ki, Azərbaycanda yağıntı anomaliyaları əsasən mənfi xarakter daşıyır və bu, quraqlıq riskinin artması ilə müşayiət olunur. Eyni zamanda, az sayda müsbət anomaliya sahələrinin mövcudluğu yağıntıların qeyri-bərabər paylandığını təsdiqləyir. Bu isə su resurslarının idarə olunması, kənd təsərrüfatının planlaşdırılması və iqlimə uyğunlaşma strategiyalarının hazırlanması baxımından ciddi elmi və praktiki əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. Huffman, G. J., Adler, R. F., Bolvin, D. T., & Nelkin, E. J. (2010). The TRMM Multi-satellite Precipitation Analysis (TMPA): Quasi-global, multiyear, combined-sensor precipitation estimates. Journal of Hydrometeorology, 11(5), 1141–1155.
2. IPCC (2021). Climate Change 2021: The Physical Science Basis. Cambridge University Press.
3. Tapiador, F. J., Kidd, C., Levizzani, V., & Marzano, F. S. (2012). A global perspective on the measurement of precipitation from space. Remote Sensing, 4(3), 911–941.
4. arcgis.com
5. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.stat.gov.az
6. esri.com
7. https://app.climateengine.org/climateEngine

8. https://www.worldclim.org/data/cmip6/cmip6climate.html
9. weather-and-climate.com
10. worlddata.info

MONİTORİNG OF PRECİPİTATİON ANOMALİES BASED ON SPACE TECHNOLOGİES

Nasiba Volodiya Nasirova
nasir.nasirova@rambler.ru
Zeynab Shahin Talibzade
z.talibzade@atu.edu.az
Azerbaijan Technological University

In this study, precipitation anomalies in Azerbaijan were analyzed based on CHIRPS satellite data, and their spatial and temporal variability was investigated. The research covers the period from 2000 to 2025, examining precipitation anomalies across the country. The results indicate that precipitation anomalies are unevenly distributed throughout Azerbaijan and reflect the regional impacts of climate change.

Keywords: precipitation anomaly, climate change, CHIRPS

ВЗАИМОСВЯЗЬ МЕЖДУ ЭКОЛОГИЧЕСКОЙ БЕЗОПАСНОСТЬЮ И УСТОЙЧИВЫМ РАЗВИТИЕМ КАБАРДИНО-БАЛКАРСКОЙ РЕСПУБЛИКИ

Зарема Хабаловна Безирова
zarema4384@mail.ru
Федеральное государственное бюджетное образовательное учреждение высшего образования Кабардино-Балкарский ГАУ

Вопросы экологической безопасности и устойчивого развития приобретают особое значение в условиях глобализации и усиления антропогенного воздействия на окружающую среду. Кабардино-Балкарская Республика (КБР), находясь в регионе с богатым природным разнообразием и контрастными ландшафтами, является исключительным объектом для изучения данной темы.

Экологическая безопасность и устойчивое развитие в Кабардино-Балкарской Республике тесно взаимосвязаны. Устойчивое развитие является ключом к экономическому росту, при условии соблюдения баланса между социальным благополучием и охраной окружающей среды, экологическая безопасность является ключевым условием для достижения этого равенства.

Экологическая безопасность – состояние защищенности природной среды и жизненно важных интересов человека от возможного негативного воздействия хозяйственной и иной деятельности, чрезвычайных ситуаций природного и техногенного характера, их последствий [2,3].

Среди основных проблем, которые существенно влияют на устойчивое развитие региона, стоит отметить:

- загрязнение воздуха. Основными источниками загрязнения являются транспорт (на долю которого приходится 60-70% химического загрязнения), горнодобывающая и обрабатывающая промышленность, а также строительные организации. Выбросы токсичных веществ (углекислого газа, оксида азота, углеводородов, альдегидов и т.д.) ухудшают качество воздуха и негативно влияют на здоровье населения и экосистем. Например: в 2023 году суммарный выброс загрязняющих веществ от стационарных источников и автотранспорта на территории республики составил – 16 353 тонны [1];
- загрязнение воды – сточные воды с очистных сооружений загрязняют реки, (особенно соединения азота и фосфора). Это приводит к ухудшению качества воды, гибели водных животных и невозможности использовать воду для питья или орошения;
- проблемы с утилизацией отходов. В Кабардино-Балкарии имеется ряд свалок, которые не соответствуют экологическим и санитарным требованиям. Отсутствие комплексной системы управления отходами приводит к загрязнению почвы и грунтовых вод;

- нерациональное использование лесных ресурсов. После принятия нового Лесного кодекса РФ в 2007 году планы управления лесами перестали работать, лесохозяйственная деятельность была отменена, а леса сданы в аренду. При этом происходит жестокая вырубка лесов, вырубленные участки приводят к хаосу и медленному восстановлению лесов;
- техногенные риски. На территории республики расположены химически опасные объекты, гидротехнические сооружения, пожаро- и взрывоопасные объекты, которые негативно влияют на окружающую среду и здоровье людей.

Далее изучим, как экологическая безопасность поспособствует устойчивому развитию республики.

1. Сохранение природных ресурсов. При рациональном использовании природных ресурсов (воды, лесов, минеральных запасов) можно избежать их истощения и обеспечить долгосрочное развитие региона.
2. Развитие туризма и рекреации. КБР обладает значительным рекреационным потенциалом (лечебные минеральные воды, национальные парки, памятники природы). Для ее реализации необходимо сохранить регион как экологически чистый.
3. Снижение рисков чрезвычайных ситуаций**.** Меры по снижению вероятности аварий на опасных производственных объектах, устранению накопленного экологического ущерба и восстановлению загрязнённых территорий способствуют предотвращению негативных последствий для окружающей среды и здоровья людей.
4. Сохранение здоровья людей. Улучшение состояния окружающей среды, включая уменьшение загрязнения воздуха и воды, будет способствовать повышению качества жизни и снижению вероятности развития заболеваний, вызванных экологическими факторами (астма, аллергические реакции, бронхит).
5. Обеспечение устойчивости сельского хозяйства. Для стабильного роста аграрного сектора, играющего ключевую роль в экономике Кабардино-Балкарской Республики, необходимо сохранять плодородие почв и рационально использовать водные ресурсы.

Для укрепления взаимосвязи между экологической безопасностью и устойчивым развитием республики, необходимо предложить следующие стратегии:

- Развитие нормативно-правовой базы. Для улучшения экологической ситуации необходимо модернизировать законодательство в сфере охраны окружающей среды и усилить надзор за соблюдением экологических стандартов.
- Внедрение экологически эффективных технологий. Речь идет о мероприятиях по очистке промышленных выбросов, утилизации сточных вод и управления отходами.
- Создание системы мониторинга. В частности в КБР планируется развернуть сеть стационарных постов для мониторинга качества атмосферного воздуха, чтобы оперативно реагировать на потенциальные экологические угрозы.
- Реализация программ по управлению отходами. В республике запущена программа «Управление отходами в КБР», которая включает в себя создание мусороперерабатывающих заводов и полигонов для утилизации твёрдых бытовых отходов.
- Внедрение инновационных технологий в области природопользования. В том числе: органическое земледелие и биозащита, органо-минеральная система удобрения, очистка сточных вод с помощью серпентинита, геоинформационные технологии в сельском хозяйстве.

Таким образом, взаимосвязь между экологической безопасностью и устойчивым развитием в Кабардино-Балкарской Республике требует системного подхода и координации усилий всех заинтересованных сторон. Только гармоничное сочетание экологических и экономических интересов может обеспечить

благополучие региона на перспективу и сохранить его уникальные природные ресурсы для будущих поколений.

ЛИТЕРАТУРА

1. Доклад о состоянии и об охране окружающей среды в Кабардино-Балкарской Республике в 2023 году. https://minprirod.kbr.ru/
2. Пашкевич М.А., Данилов А.С. Экологическая безопасность и устойчивое развитие // Записки Горного института. 2023. Т. 260. С. 153-154.
3. Федеральный закон от 10.01.2002 № 7-ФЗ (ред. от 28.12.2025) «Об охране окружающей среды» (с изм. и доп., вступ. в силу с 01.03.2026)
4. Гаджиева.Н.А., Мамедова.А.В., Мамедов С.Дж.Влияние экономики на экологическую политику//Концептуальные основы устойчивой, инклюзивной и социальной политики (CFSISP 2025).Конфедерация профсоюзов Азербайджана. Академия труда и социальных отношений Азербайджана. – С. 275–280. 6 мая 2025 г.

THE INTERRELATIONSHIP BETWEEN ENVIRONMENTAL SAFETY AND SUSTAINABLE DEVELOPMENT OF THE KABARDINO-BALKARIAN REPUBLIC

Zarema Khabalovna Bezirova
zarema4384@mail.ru
Federal State Budgetary Educational Institution of Higher Education
Kabardino-Balkarian State Agrarian University

This article examines the relationship between environmental safety and sustainable development of the Kabardino-Balkarian Republic, with an emphasis on identifying key relationships, problems and possible solutions. The article analyzes how ensuring environmental safety contributes to the socio-economic development of the region, as well as modern challenges and prospects in this area.

Keywords: environmental safety, sustainable development, Kabardino-Balkarian Republic, interrelation of ecology and economy, sustainable ecological and economic development, regional problems.

İŞLƏNMİŞ QAZMA MƏHLULLARININ KARBOHİDROGEN ƏSASLI TƏDQİQİ

Növrəstə Seyran qızı Həsənova
hesenova.1969@inbox.ru
Ülviyyə Ələsgər qızı Abasova
ulviyya.abasova.a@asoiu.edu.az
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

Son illərdə qlobal neft-qaz sənayesində iki tendensiya yaranmışdır: 1.işlənmiş və yeni yataqlarda təkmilləşdirilmiş neft-qaz çıxarma texnologiyaları vasitəsilə quyu debitini artırmaq geoloji, texnoloji, iqlim və ekoloji şərait səbəbindən əvvəllər istismar olunmayan yataqların işlənməsi; 2. işlənmiş və yeni yataqlarda təkmilləşdirilmiş neft-qaz çıxarma texnologiyaları vasitəsilə quyu debitini artırmaq.

Emulsiya qazma mayesinin əsasını onun fiziki-kimyəvi və texnoloji xassələrini müəyyən edən karbohidrogen mayesi təşkil edir. Bunlardan ən geniş yayılanı aşağıdakılardır: 1. bitki və heyvan xammalları əsasında neft-kimya sintezi məhsulları-olefinlər, onların oliqomerləri, xətti alkilbenzollar, poliolefinlər, asetallar, efirlər, sintetik yağlar; 2. neft emalı məhsulları, qaz kondensatı, neft, dizel yanacağı, mineral yağlar.

Karbohidrogen əsaslı qazma mayesi kimi dizel yanacağının istifadəsi ətraf mühit üçün yanğın tələbləri ilə məhdudlaşır. Sintetik yağlar əsasən bioloji parçalana bilən mayelərin istifadəsinin məcburi olduğu dəniz layihələrində istifadə edilir. Lakin quruda qazma zamanı ən çox müxtəlif istehsalçılara məxsus mineral yağlar istifadə olunur. Mineral yağlar müxtəlif keyfiyyətə və tərkibə malik yüksək molekullu birləşmələrdən (asfaltenlər, qətranlar, polisiklik

aromatik karbohidrogenlər, parafinlər) və aşağı molekullu karbohidrogenlərdən ibarət mürəkkəb kolloid sistemdir [2, 3]. Mineral yağ emulsiya məhlulları üçün əsas mayedir, neft mənşəli məhsuldur, mazutun distilləsindən əmələ gəlir və yüksək dərəcədə dəyişkənliyə malikdir.

Emulsiya qazma mayeləri tələb olunan keyfiyyətdə qazma prosesini təmin edə bilər. Bu da layın dib zonasının keçiriciliyini saxlamağa, alətin bərkiməsinin aradan qaldırmağa, quyuların dayanıqlılığını təmin etməyə, şlamların çıxarılmasına imkan vermiş olur. Quyuların tikintisi ilə bağlı bu tendensiyaları həyata keçirməkdən ötrü neft-qaz çıxarmanın artması üçün böyük meyl bucağı olan, çoxtərəfli və böyük üfüqi ucu olan quyuların tikintisi lazımdır. Bu zaman qazma məhlulunun növü və keyfiyyəti vacib rol oynayır [1]. Quyuların aşağı məhsuldar olmasının səbəblərindən biri su əsaslı qazma məhlullarından istifadə edilməsidir. Çünki bu məhlullardan istifadə etdikdə məhlulun filtratları layın məsamə boşluğuna daxil olur və neft geriyə doğru itələnir, layın gilli sementi şişir, reagentlərlə həll olmayan birləşmələr, su-neft emulsiyaları əmələ gəlir.Qazma işlərində karbohidrogen əsaslı qazma məhlullarından istifadə məhsuldar layların açılmasının səmərəliliyini artırır.

Qazma əməliyyatları zamanı iki növ əsas tullantı əmələ gəlir: lay suyu və qazma tullantıları. Tədqiqat zamanı karbohidrogen mayesi kimi müxtəlif istehsalçılara məxsus yağlardan istifadə etmək olar: "AKS 5/10" (Halliburton şirkəti), mövsümdənkənar qatılaşdırılmış hidravlik yağ "VMGZ" (Schlumberger şirkəti), sənaye yağı "I-5A" (ISK PetroEngineering), sintetik yağ "SHELSOLL" (Hollandiya) .Yağların əsas xüsusiyyətləri aşağıdakılardır: kinematik özlülük, sıxlıq, alovlanma nöqtəsi, donma temperaturu, özlülük indeksi, qələvilik ədədi (həmişə göstərilmir), turşu ədədi (həmişə göstərilmir).

Cədvəl 1.

Tədqiq olunan yağların texniki xarakteristikaları

Xüsusiyyətlər	**"AKS" 5/10**	**"VMGZ"**	**"İ-5A"**	**"SHELLSOL"**
20^{o}C sıxlıq, kq/m^3	895	868	872	793
Kinematik özlülük, mm^2 /san	8,7 (40^{o}C)	9 (50^{o}C)	6,5-8,2 (40^{o}C)	1,98 (15^{o}C)
Alovlanma nöqtəsi (açıq tigedə), ^{o}C	+92	+133	+122	+97
Donma temperaturu, ^{o}C	-14	-62	-14	-
Turşu ədədi, mq KOH/q yağ	-	0,3-0,9	0,03	-
Qələvilik ədədi, mq KOH/q yağ	-	-	-	-
Özlülük indeksi	-	158	-	-
Kükürdün kütlə payı, %	-	-	-	-
Su tərkibi, %	0,04	yox	yox	-
Mexaniki çirklərin tərkibi, %	0,007	yox	yox	-

Biz öz tədqiqatımızda "VMGZ", "I-5A", "SHELLSOL" yağlarından istifadə etmişik. Bu yağların müxtəlif temperaturlarda özlülük qiymətləri yoxlanılıb.

ƏDƏBİYYAT

This study evaluates the ecological status of water quality in the Kura and Araz rivers, which are the main transboundary water resources in the South Caucasus region. The assessment is based on key hydrochemical and biological indicators, including pH, dissolved oxygen, BOD, COD, nutrients, heavy metals, and microbiological parameters. The results show that while some parameters meet international standards, others – such as organic pollution indicators, nitrogen compounds, phenols, and coliform bacteria – exceed permissible limits. These findings indicate significant anthropogenic pressure from industrial, agricultural, and domestic sources. Overall, the water quality of both rivers is

assessed as partially compliant, highlighting the need for improved monitoring systems and strengthened transboundary cooperation for sustainable water management.

Keywords: Kura river; Araz river; water quality; ecological assessment; transboundary pollution; hydrochemical indicators; environmental monitoring

ORQANİK TƏSƏRRÜFATLARDA ALAQLARA NƏZARƏT ÜÇÜN NÖVBƏLİ ƏKİN SİSTEMLƏRİ

Sevil İsmayılova
sevaism348@gmail.com
Vüqar Bəşirov
vugar.bashirov@gmail.com
Azərbaycan Dövlət Aqrar Universiteti

Orqanik əkinçilik sistemlərində alaqların idarə edilməsi məhsuldarlığın təmin olunmasında və aqroekosistemlərin dayanıqlığında əsas problemlərdən biri hesab olunur. Kimyəvi herbisidlərin istifadəsinin qadağan edilməsi orqanik təsərrüfatlarda alaqlarla mübarizədə alternativ və ekoloji cəhətdən təhlükəsiz üsulların tətbiqini zəruri edir [1]. Bu baxımdan aqrotexniki tədbirlər, xüsusilə növbəli əkin sistemləri alaqların nəzarət altına alınmasında mühüm rol oynayır.

Növbəli əkin torpaqda bitki örtüyünün və becərmə texnologiyalarının ardıcıl dəyişdirilməsi yolu ilə alaqların bioloji dövrünün pozulmasına əsaslanır. Müxtəlif bitki növlərinin növbə ilə əkilməsi alaqlar üçün əlverişli şəraitin formalaşmasının qarşısını alır və onların yayılma intensivliyini azaldır [2]. Bu yanaşma eyni zamanda torpaq münbitliyinin qorunması, xəstəlik və zərərvericilərin təzyiqinin azalması baxımından da üstünlüklərə malikdir. Müasir tədqiqatlar göstərir ki, növbəli əkin alaqların növ tərkibinə və sıxlığına birbaşa təsir göstərir. Müxtəlif biologiyaya malik bitkilərin ardıcıl əkilməsi alaqların uyğunlaşma imkanlarını məhdudlaşdırır və dominant növlərin formalaşmasının qarşısını alır [3]. Xüsusilə dənli, paxlalı və yem bitkilərinin növbələşdirilməsi alaqların toxum bankının zəifləməsinə səbəb olur.

Araşdırmalar göstərir ki, örtük bitkilərinin növbəli əkin sistemlərinə daxil edilməsi alaqlarla rəqabəti gücləndirir və torpaq səthinin örtülməsi hesabına alaqların cücərməsini əhəmiyyətli dərəcədə azaldır [4]. Yonca, vələmir, xardal və gülül kimi bitkilər alaqlara qarşı bioloji basqı yaratmaqla orqanik təsərrüfatlarda effektiv vasitə hesab edilir. Bəzi tədqiqatlarda növbəli əkin sistemlərinin mexaniki becərmə tədbirləri ilə birgə tətbiqinin alaqlara nəzarətdə daha yüksək nəticə verdiyi qeyd olunur [5]. Bu yanaşma alaqların müxtəlif inkişaf mərhələlərində məhv edilməsinə və onların torpaqda ehtiyatının azalmasına şərait yaradır.

Eyni zamanda, növbəli əkin sistemlərinin torpaq sağlamlığına müsbət təsiri də vurğulanır. Torpağın strukturunun yaxşılaşması, mikrobioloji aktivliyin artması və qida maddələrinin balansının qorunması alaqlarla mübarizədə dolayı təsir mexanizmi kimi çıxış edir [6]. Bu faktorlar mədəni bitkilərin rəqabət qabiliyyətini artıraraq alaqların inkişafını məhdudlaşdırır.

Növbəli əkinin üstünlüklərindən biri onun uzunmüddətli təsirə malik olmasıdır. Qısa müddətli mexaniki müdaxilələrdən fərqli olaraq, növbəli əkin torpaqdakı alaqların toxum ehtiyatını mərhələli şəkildə azaldır və davamlı nəzarət imkanı yaradır. Bu xüsusiyyət orqanik əkinçilik sistemlərinin əsas prinsiplərinə tam uyğun gəlir.

Ümumilikdə, növbəli əkin sistemləri orqanik təsərrüfatlarda alaqlara nəzarətin ekoloji, iqtisadi və aqronomik baxımdan səmərəli üsulu kimi qiymətləndirilə bilər.

ƏDƏBİYYAT

1. Bond W., Grundy A.C. (2018). Non-chemical weed management in organic farming systems. *Weed Research*, 58(3), 147–159.
2. Smith R.G., Mortensen D.A., Ryan M.R. (2015). A new hypothesis for the functional role of diversity in mediating resource pools and weed–crop competition. *Weed Research*, 55, 37–48.
3. Weisberger D.A., Nichols V., Liebman M. (2019). Does diversification reduce weed abundance and diversity? A meta-analysis. *Agriculture, Ecosystems & Environment*, 270–271, 83–90.
4. Baraibar B., Hunter M.C., Schipanski M.E., Hamilton A., Mortensen D.A. (2018). Cover crop-driven shifts in weed communities. *Weed Science*, 66(3), 312–321.
5. Peigné J., et al. (2016). Weed management in organic farming: Are we addressing the right issues? *Agronomy for Sustainable Development*, 36, 1–15.
6. Döring T.F., et al. (2019). Enhancing agroecosystem resilience through crop rotation diversity. *Sustainability*, 11(7), 1818.

CROP ROTATION SYSTEMS FOR WEED CONTROL IN ORGANIC FARMING

Sevil İsmayilova
sevaism348@gmail.com
Vugar Bashirov
vugar.bashirov@gmail.com
Azerbaijan State Agricultural University

Weed management is one of the major challenges in organic farming systems due to the prohibition of synthetic herbicides. Crop rotation is considered a key agroecological strategy for controlling weeds in organic agriculture. This article reviews recent scientific studies on the role of crop rotation systems in weed control. The analysis shows that diversified crop rotations disrupt weed life cycles, reduce weed seed banks, and enhance crop competitiveness. The integration of cover crops and mechanical practices within crop rotation systems further improves weed suppression. Properly designed crop rotations contribute not only to effective weed management but also to soil health and long-term sustainability of organic farming systems.

Keywords*:* organic farming, weed management, crop rotation, sustainable agriculture.

ARIÇLIQDA DAMAZLIQ VƏ PESTİSİDLƏRƏ QARŞI DAHA DÖZÜMLÜ MATERİALLARIN YETİŞDİRİLMƏSİ

Samir Həsən oğlu Mahmudov
s.mahmudov@atu.edu.az
Ramiz Hüseyn oğlu Nəcəfov
Sevda Siyavuş qızı Sadıxova
Günəş Əjdər qızı Ələsgərova
Rüfət Elandar oğlu Mehdiyev
ramiznajafov@gmail.com
Səmayə Adil qızı Vəlizadə
Azərbaycan Texnologiya Universiteti[1]
Heyvandarlıq və Balıqçılıq Elmi Tədqiqat İnstitutu[2]

Seleksiya arıçılıqda genetik işin müstəqil faktorlarından biridir və o, qruplaşma və onlardan kənarlaşdırılmaqla başa çatır. Damazlıq və əmtəəlik təsərrüfatlarında, həmçinin arıçılıq arıxanalarında ailələrdə damazlıq işinin xüsusiyyəti və pestisidlərə qarşı tolerantlıq (bəzi ştammlar, esterazalar kimi, sintetik akarisidləri (məsələn, amitraz/fluvalinat) və kənd təsərrüfatı kimyəvi maddələrini parçalamağa imkan verən detoksifikasiya fermentlərinin daha yüksək aktivliyini nümayiş etdirmək) istiqamətində arı yetişdiriciliyi aşağıdakı kimidir.

Damazlıq seçimdə qaydaları səciyyələndirək. Fenotipik kütləvi seçim - bu kütləvi seçim əsasən arıların rayonlaşdırılması məsələlərinin təkmilləşdirilməsinə yönəldilmişdir. Fərdi genotipik seçim və ya mənşəyə görə seçmə (qiymətləndirmə). Bu növ seçimin mahiyyəti ondan ibarətdir ki, hər hansı bir ailədən istifadə olunur, daha çox çoxalma üçün qeydlərdən, müəyyən bir təsərrüfat üçün faydalı olan bir göstərici əldə edilir.

İşçi arıların keyfiyyətinə görə seçim. Bəzi genetiklərin fikrincə, bu qiymətləndirmə genetik işin qiymətləndirilməsinin ən yüksək formasıdır. Arıçılıqda, aşağıdakı əsas seleksiya növləri fərqləndirilir: hibridləşmə, saf cins seleksiya və kəsişmə.

Hibridləşmə iki növ heyvanın kəsişməsidir. Saf cins məlezləşmə ən çox yayılmış növlərdən biridir, eyni cinsdən iki heyvanın çarpazlaşdırılması üsullarıdır. Bütün yüksək keyfiyyətli arılar vasitəsilə yaradılmışdır.

Təmizlikdə yetişdirmə. Qohumluq iki növdür: yaxın qohumluq arılarına "qohumluq" və qohum olmayan arılara isə "qohumluq" deyilir [1].

Ana arıları süni şəkildə yetişdirməyin iki yolu var [2]:

1. Qoruyucu ailənin hazırlanması (gənc ana arının yetişdirildiyi ailə);
2. Bunu kraliça yuvasında sürfələri böyütməklə etmək olar.

Damazlıq ailə hazırlamaq üçün ən yaxşı genetik xüsusiyyətlərə malik arı ailəsi əldə etmək lazımdır. 3-4 gün arı sürfələri yumurtadan əvvəl və ana arı yarpaqdan əvvəl hər gün arı ailəsinə 0,5 litr şəkər siropu və ya bal arısı çörək qarışığı. Koloniyadakı bütün çərçivələr arıları yerləşdirmək üçün qısaldılır, pətəklər qızdırılır və istilik yastıqları diafraqma və damın altına qoyulur.

Qoruyucu ailənin hazırlanması üsulları:

1. Köhnə ana arını himayədar ailədən çıxararaq himayədar ailə hazırlamaq üçün ən sadə və ümumi üsul və gənc ana arını qapalı nəsillə böyütmək ailəni tamamilə yetim qoymaqdır. Bu halda, kraliça koloniyada tapılır və ayrı bir bölməyə yerləşdirilir, sonra bütün sürfələr açıq və möhürlənmiş bala su tökməklə və ya kibritdən istifadə etməklə çıxarılır. Mərkəzdə sıxılmış nəsli olan çərçivələr yerləşdirilir, yuva və kənarlarında yemək olan çərçivələr yerləşdirilir. Koloniya hazırlandıqdan 12 saat sonra ana arı seçilir və möhürlənmiş bala ilə çərçivələrin ortasında aşılanmış çərçivədə sürfələrdən yetişdirilir. Bu metodun üstünlüyü odur ki, çoxlu ana arı əldə etmək mümkündür, lakin çoxalma koloniyası daha zəif olur.

2. Açıq yetişdirmə ilə damazlıq ailədə qoca ana arının çıxarılması yolu ilə gənc ana arıların yetişdirilməsi üsulu yüksək keyfiyyətli ana arı əldə etməyə imkan verir. Bu zaman ailədən yalnız qoca ana arı çıxarılır, açıq nəsli buraxılır. Pətəkdən balsız və boş çərçivələr çıxarılır. Dörd saatdan sonra sürfələr yerləşdirilir pətəyin mərkəzində qaynaqlanmış çərçivədə ana arını böyütmək üçün üsküklərdə. Ertəsi gün hər şeyə baxdıqdan sonra ailədə ana arı sürfələri qabardılmışdırsa onlar çıxarılır. Köhnə ana arısı olan bir ailədə gənc ana arı yetişdirərkən, ana arı və bütün nəsillər aşağıya yerləşdirilir, pətəyin təbəqəsi, yuxarı təbəqənin kənarlarına isə bal dənələri qoyulur. Yuxarı və aşağı mərtəbələr xüsusi tor (qəfəs) ilə ayrılır, oradan işçi arılar sərbəst girib çıxa bilirlər, lakin ana arı yumurta ata bilmir. Ertəsi gün, aşılanmış çərçivədəki sürfələr yuxarıdakı cütləşmiş bala çərçivələrinin ortasına yerləşdirilir. Bu üsulla kiçik, lakin keyfiyyətli ana arı əldə edilir, ailə isə işçi arısını itirir. Yüksək keyfiyyətli və çoxlu sayda kraliça almaq lazımdırsa, bir açıq bala ilə ana arıların hazırlanması və köhnə ana arıların çıxarılması üçün müxtəlif üsullardan istifadə olunur. Bu vəziyyətdə anadan sonra arı pətəkdən çıxarılır, açıq və möhürlənmiş çərçivələr

müvəqqəti olaraq başqa bir çərçivəyə köçürülür. Amma ondan əvvəl, çərçivələrdəki bütün arılar silkələnir, iki möhürlənmiş və ballı çərçivədə yalnız arılar qalır.

ƏDƏBİYYAT

1. Doğaroğlu, M. 1999. Modern Arıcılık teknikleri. Anadolu Matbaa& Ambalaj San. Tic. Ltd., İstanbul. 296s.
2. Güler, A. 2006. Bal Arıları (Apis mellifera L.)'nda Yapay Tohumlama Ve Türkiye İçin Önemi. Anadolu Tarım Bilimleri Dergisi, 21(3): 370-378.

BREEDING OF MORE RESISTANT MATERIALS TO BEEKEEPING AND PESTICIDES

Samir Hasan oglu Mahmudov
s.mahmudov@atu.edu.az
Ramiz Huseyn oglu Najafov
Sevda Siyavush qizi Sadikhova
Gunesh Ajdar qizi Alasgarova
Rufat Elandar oglu Mehdiyev
ramiznajafov@gmail.com
Samaya Adil gizi Velizade
Azerbaijan Technological University
Scientific Research Institute of Animal Husbandry and Fisheries

In beekeeping, honey bee breeding is a major strategy for increasing the economic performance of domesticated bees. The objectives of these breeding efforts typically include productivity, foraging ability, resistance to disease and pests, as well as pesticides, non-stripping, defensive instinct, consumption of winter reserves, spring development, and other broad traits. During the breeding selection process, it is important to evaluate multiple traits simultaneously to avoid unexpected reductions in non-target traits that may result from intensive selection for a particular trait. However, it is important to recognize the different heritability levels among these traits in order to develop breeding strategies for specific contexts. High heritability suggests that a larger proportion of phenotypic variation can be attributed to genetic differences. Currently, among the many breeding priorities, global attention is focused on resistance to mites and pesticides, which are urgent issues to address in view of their negative impacts on bee health.

Keywords: beekeeping, selection and breeding in beekeeping, breeding material, queen bee, worker bee, drone bee

SƏNAYE EMİSSİYALARININ İNSAN ORQANİZMİNƏ PATOFİZİOLOJİ TƏSİRLƏRİ: SƏNAYE ZONALARINDA MƏSKUNLAŞAN ƏHALİNİN SAĞLAMLIQ RİSKLƏRİ

Sərxan Akif oğlu Kazımov
serxan2905k@gmail.com
Zeynəb Şahin Talıbzadə
z.talibzade@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Sənaye zonalarına yaxın ərazilərdə məskunlaşma əhalinin xroniki olaraq müxtəlif kimyəvi və fiziki agentlərin təsirinə məruz qalmasına səbəb olur. Atmosferə buraxılan qazvari tullantılar (metan, azot oksidləri, kükürd dioksid) və ağır metal aerozolları insan orqanizmində biokimyəvi tarazlığı pozaraq sistemli patologiyaların inkişafına zəmin yaradır. Bu təsirlərin tibbi baxımdan qiymətləndirilməsi, həm fərdi sağlamlıq, həm də regional epidemioloji təhlükəsizlik üçün kritik əhəmiyyət daşıyır.[4]

Sənaye çirkləndiricilərinin insan orqanizminə təsiri əsasən aşağıdakı tibbi mexanizmlər vasitəsilə baş verir:

- Oksidativ Stres və Hüceyrə Zədələnməsi: Sənaye emissiyaları (xüsusilə ağır metallar və asılı hissəciklər) hüceyrə daxilində sərbəst radikalların artmasına səbəb olur ki, bu da DNT zədələnmələrinə və onkoloji mutasiyalara yol açır.[1]
- Respirator Toksiklik: Atmosferdəki çirkləndiricilər tənəffüs yollarının selikli qişasında xroniki iltihab yaradaraq bronxial astma və xroniki obstruktiv ağciyər xəstəliklərinin (XOAX) kəskinləşməsinə səbəb olur.[1]
- Genotoksik və Endokrin Pozğunluqlar: Sənaye mənşəli toksinlər qan-beyin baryerini keçərək mərkəzi sinir sisteminə və hormonal balansa mənfi təsir göstərir, nəticədə reproduktiv sağlamlıq riskləri artır.[2]

Sənaye zonalarında torpaq və su vasitəsilə qida zəncirinə daxil olan toksik elementlərin spesifik təsirləri: Qurğuşun və Civə - Sinir sistemində neyrotoksik təsir yaradaraq koqnitiv funksiyaların zəifləməsinə səbəb olur. Kadmium və Arsen - Böyrək funksiyalarının pozulmasına (nefropatiya) və sümük toxumasının demineralizasiyasına gətirib çıxarır. Metan və İstixana Qazları - Qlobal istiləşmə potensialı yüksək olan metan (CO_2-dən 28–34 dəfə güclü) dolayı yolla infeksion xəstəliklərin yayılma arealını genişləndirir və termik stresi artırır.[1]

Əhalinin sağlamlıq vəziyyətini qorumaq üçün aşağıdakı addımlar mütləqdir:

- Ekotoksikoloji Skrining: Sənaye zonalarında yaşayan əhali arasında mütəmadi olaraq qanda ağır metalların və digər biomarkerlərin təyini üzrə tibbi yoxlamaların keçirilməsi/
- Monitorinq Texnologiyaları: Emissiya sızmalarının 'MethaneSAT' və 'GHGSat' kimi peyk sistemləri vasitəsilə real vaxt rejimində izlənilməsi, beləliklə kütləvi zəhərlənmə risklərinin qarşısının alınması.
- İnzibati-Hüquqi Nəzarət: Sanitar-mühafizə zonalarının Milli İqlim Fəaliyyəti Planına (2023–2030) uyğun olaraq sərtləşdirilməsi.[1]

Sənaye zonalarında yaşayan əhalinin sağlamlıq riskləri multidissiplinar yanaşma tələb edən tibbi-ekoloji problemdir. Texnoloji irəliləyişlərin (biometan istehsalı, sızma aşkarlama sistemləri) tibbi nəzarətlə inteqrasiyası həm ətraf mühitin qorunmasına, həm də enerji təhlükəsizliyinin və ictimai səhiyyənin güclənməsinə xidmət edir [1].

ƏDƏBİYYAT

1. Intergovernmental Panel on Climate Change (IPCC). Climate Change 2021: The Physical Science Basis. Cambridge University Press, 2021.
2. United Nations Environment Programme (UNEP). Global Methane Assessment: Benefits and Costs of Mitigating Methane Emissions, 2021.
3. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi. Milli İqlim Fəaliyyəti Planı 2023–2030, Bakı, 2023.
4. International Energy Agency (IEA). Methane Tracker 2024: Reducing Methane Emissions from Fossil Fuel Operations, OECD/IEA, Paris.
5. Əliyev, M. M. – Ekologiyanın əsasları. Bakı: Elm nəşriyyatı, 2018.

PATHOPHYSIOLOGICAL EFFECTS OF INDUSTRIAL EMISSIONS ON THE HUMAN ORGANISM: HEALTH RISKS OF THE POPULATION RESIDENT IN INDUSTRIAL AREAS

Sarkhan Akif oglu Kazimov
serxan2905k@gmail.com
Zeynab Shahin Talibzade
z.talibzade@atu.edu.az
Azerbaijan Technological University

This thesis analyzes the pathophysiological risks faced by populations residing in close proximity to industrial facilities and their clinical manifestations. The study investigates the cellular-level damage and the progression of systemic diseases in the human body caused by industrial emissions, particularly methane and heavy metals. The

article also highlights the role of satellite monitoring in medical forecasting and emphasizes the positive impact of "green energy" policies on life expectancy.

Keywords: ecotoxicology, bioaccumulation, respiratory pathologies, oxidative stress, National Climate Action Plan

ВЛИЯНИЕ НАНОЧАСТИЦ НА АКТИВНОСТЬ ПЕРОКСИДАЗЫ У DANIO RERIO

Нигяр Гасымова
nigaralibayli1@gmail.com
Эльшан Алиев
aliyevelshan2002@gmail.com
Нармина Абдуллаева
abdullaeva-narmina@rambler.ru
Сабина Омарова
sabinaomarova1@gmail.com
Чингиз Мамедов
Бакинский Государственный Университет

Как известно пероксидаза является ключевым ферментом антиоксидантной защиты. Пероксидаза является ферментом, катализирующим разложение пероксида водорода (H_2O_2), образующегося в больших количествах при стрессовых воздействиях. Пероксидаза совместно с другими ферментами, такими как, супероксиддисмутаза (СОД) и каталаза снижает уровень повреждения тканей при гипоксии и работает в совокупности с другими компонентами антиоксидантной системы.

Поскольку загрязнение окружающей среды, в том числе и водной среды, наночастицами неизбежно, мы задались целью изучить влияние экологически безопасных наночастиц серебра на активность пероксидазы рыб данио рерио.

Наночастицы серебра использовались в двух концентрациях (0,01 мкг/г и 0,05 мкг/г). Активность пероксидазы определялась спектрофотометрически и рассчитывалась по соответствующей формуле. Изменения оптической плотности фиксировали каждые 30 секунд на основании определения концентрации продукта реакции. Результаты измерений показаны в таблице 1.

Таблица 1

Изменения оптической плотности образцов при 440нм

Время, сек	Оптическая плотность образца		
	Контроль	Опытные образцы	
		0,01 мкг/г НЧ Ag	0.05 мкг/г НЧ Ag
30	0,167	0,156	0,155
45	0,193	0,183	0,181
60	0,241	0,231	0,228
75	0,303	0,286	0,279
90	0,382	0,314	0,308
120	0,456	0,362	0,323

Нами были проведены расчеты по вычислению активности пероксидазы и как видно из полученных данных активность пероксидазы в опытных образцах была ниже, чем в контрольном варианте. Так на 30-ой секунде определения содержания продукта активность пероксидазы в обеих экспериментальных группах была приблизительно на 6,5% ниже, чем в контрольной группе. Мы определяли

активность пероксидазы на протяжении двух минут с интервалом каждые 30 секунд, и через две минуты активность в экспериментальных группах понизилась, соответственно, на 20% и 24% по сравнению с контрольным вариантом. Также мы провели расчеты по определению активности фермента на основании количества продукта реакции, полученного за минуту в течении реакции. Расчеты показали, что активность пероксидазы в экспериментальных группах была ниже контрольных на 26,5% и 30,9%, соответсвенно. То есть с повышением количества наночастиц в пище рыб фермент с течением времени ингибировался все сильнее.

Проанализировав полученные нами данные с имеющимися в литературе данными, мы пришли к такому заключению, что наночастицы в целом на активность ферментов могут оказывать неоднозначное влияние и их влияния зависит от концентрации наночастиц, их размера и о каком ферменте идет речь. В некоторых случаях наночастицы могут служить активаторами фермента, например имеются такие данные согласно, которым наночастицы серебра активируют активность пероксидазы поскольку они вызывают окислительный стресс в организме рыб, в том числе и в икре рыбы, и поэтому приводят к образованию реактивных форм кислорода и вследствие этого активируются ферменты антиоксидантной группы и одним из таких компонентов является пероксидаза [2]

В нашем случае мы наблюдали ингибирование активности ферментов и мы думаем, что это ингибирование можно связать с тем, что наночастицы серебра могут взаимодействовать с белками и нарушать их третичную структуру, они могут связыватся с функциональными группами, например с тиоловыми группами, они могут блокировать активные центры ферментов, что будет приводить к снижению ферментативной активности. Именно о таком воздействии наночастиц в литературе имеются данные и на основании именно этого механизма ученые объясняют бактериальное и токсичное действие наночастиц на живые клетки. Возможно в нашем случае мы также наблюдали именно ингибирующие действие наночастиц серебра, полученных с пищей, на активность фермента пероксидазы в икре рыб. Снижения активности пероксидазы возможно было связано именно с взаимодействием наночастиц с белковыми молекулами, что приводило к ингибированию активности. Есть также данные о том, что наночастицы могут сами участвовать в окислительно-восстановительных процессах, и в таком случае они могут выступать сами как антиоксиданты и это тоже может привести к подавлению активности пероксидазы [1].

ЛИТЕРАТУРА

1. Nguyen T. M. T., Hoang D. K. D., Nguyen N. N., Nguyen K. S. T.,. //Antioxidant Nanozymes: Mechanisms, Activity Manipulations and Applications. 2023, National Library of Medicine, 14(5), P.1017

2. Pandit S., Bhattacharya A., Ozguney B., Mittal J., Samanta D.//Surface-Engineered Nanoparticles Enhance the Peroxidase Activity of Heme-Containing Proteins. 2025, ACS Nano, 19, 7, P.7117-7128.

THE IMPACT OF NANOPARTICLES ON PEROXIDASE ACTIVITY IN *DANIO RERIO*

Nigar Gasimova
nigaralibayli1@gmail.com
Elshan Aliyev
aliyevelshan2002@gmail.com
Narmina Abdullayeva
abdullaeva-narmina@rambler.ru
Sabina Omarova
sabinaomarova1@gmail.com
Chingiz Mammadov
Baku State University

Since environmental pollution—including contamination of aquatic ecosystems—by nanoparticles is inevitable, we set out to investigate the effect of environmentally safe silver nanoparticles on the peroxidase activity in zebrafish (*Danio Rerio*). The experiments were conducted using two concentrations of silver nanoparticles, and the analysis revealed that peroxidase activity was inhibited under their influence. Moreover, as the concentration of silver nanoparticles in the fish diet increased, the inhibition of peroxidase activity became more pronounced. We suggest that this inhibition may be associated with the ability of silver nanoparticles to interact with the enzyme protein and disrupt its tertiary structure, thereby leading to a decrease in enzymatic activity.

Keywords: peroxidase, Danio Rerio, green synthesis, silver nanoparticles

DAYANIQLI İNKİŞAF KONSEPSİYASI VƏ RESURSLARDAN SƏMƏRƏLİ İSTİFADƏ PRİNSİPLƏRİ

Nuray Elburus Rüstəmzadə
rustemzadenuray.55@gmail.com
Zeynəb Şahin Talıbzadə
z.talibzade@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Dayanıqlı inkişaf anlayışı XXI əsrin ən vacib iqtisadi və ekoloji prinsiplərindən biridir. Bu konsepsiya insan cəmiyyətinin iqtisadi, sosial və ekoloji ehtiyaclarını tarazlıqla təmin etməyi hədəfləyir. Dayanıqlı inkişafın əsas məqsədi gələcək nəsillərin ehtiyaclarını təhlükə altına salmadan indiki nəsilin tələblərini qarşılamaqdır.[2] Bu yanaşma resursların davamlı istifadəsini və ekosistemlərin qorunmasını nəzərdə tutur. Sənaye və kənd təsərrüfatı fəaliyyətləri dayanıqlı inkişaf prinsiplərinə uyğun şəkildə planlaşdırılmalıdır. Resursların səmərəli istifadəsi enerji, su, torpaq və xammal kimi mənbələrin optimal istifadəsini nəzərdə tutur. Bu, həm iqtisadi effektivliyi artırır, həm də ekoloji riskləri azaldır. Dayanıqlı inkişaf konsepsiyası resursların yenilənməsi və təkrar istifadəsini təşviq edir. Alternativ enerji mənbələrinin tətbiqi, suvarma sistemlərinin modernləşdirilməsi və torpağın məhsuldarlığının qorunması bu prinsipin real nümunələridir. Resurslardan səmərəli istifadə prinsipləri üç əsas istiqamətdə cəmlənir: iqtisadi səmərəlilik, ekoloji davamlılıq və social ədalət.[4] İqtisadi səmərəlilik istehsalın və xidmətlərin minimal resurs itkisi ilə həyata keçirilməsini təmin edir. Ekoloji davamlılıq isə təbii sistemlərin qorunması və ekosistem xidmətlərinin dayanıqlığını hədəfləyir. Sosial ədalət prinsipi isə resursların bərabər paylanmasını və insanların rifahının təmin edilməsini nəzərdə tutur. Dayanıqlı inkişafın tətbiqi üçün müasir texnologiyalar mühüm rol oynayır. Sənaye müəssisələrində enerjiyə qənaət edən texnologiyaların tətbiqi xərcləri azaldır və ətraf mühiti qoruyur. Kənd təsərrüfatında isə damcı suvarma, toxum sortlarının optimallaşdırılması və bioloji pestisidlərin istifadəsi məhsuldarlığı artırır və torpaq resurslarını qoruyur. Resurslardan səmərəli istifadə həm milli, həm də regional səviyyədə planlaşdırılmalıdır. Dövlət proqramları və təşviq mexanizmləri dayanıqlı inkişafın həyata keçirilməsini asanlaşdırır. Bu proqramlar enerjiyə qənaət, tullantıların azaldılması və ekoloji

normativlərin tətbiqini təşviq edir. Eyni zamanda, resursların səmərəli idarə olunması iqtisadi sabitliyi təmin edir və regional inkişafı dəstəkləyir. Dayanıqlı inkişaf prinsipləri kənd təsərrüfatı və sənaye resurslarının uzunmüddətli istifadəsini təmin edir. Məhsuldarlığın artırılması, resurs itkilərinin azaldılması və ekosistemlərin qorunması bu prinsiplərin tətbiqi ilə birbaşa əlaqəlidir. Həmçinin, resursların davamlı istifadəsi yerli icmaların rifahını yüksəldir və sosial stabilliyi təmin edir.[3] Ekoloji balansın qorunması dayanıqlı inkişafın ayrılmaz hissəsidir. Torpaq eroziyası, su çirkliliyi və hava keyfiyyətinin pozulması iqtisadi fəaliyyətin davamlılığını təhdid edə bilər. Bu səbəbdən resursların istifadəsi planlı və ekoloji yanaşmalar əsasında həyata keçirilməlidir. Səmərəli idarəetmə sistemləri resursların optimal istifadəsini təmin edir və tullantıları minimuma endirir. Bərpa olunan enerji mənbələrinin tətbiqi dayanıqlı inkişafın praktiki nümunəsidir. Günəş, külək, su və biokütlə enerjisi resursların uzunmüddətli istifadəsini təmin edir və ətraf mühitə zərəri minimuma endirir.[5] Eyni zamanda, səmərəli resurs istifadəsi iqtisadi yükü azaldır və istehsalın davamlılığını artırır. Dayanıqlı inkişaf və resurslardan səmərəli istifadə prinsipləri həm yerli, həm də qlobal səviyyədə əməkdaşlığı tələb edir. Qlobal miqyasda iqlim dəyişikliyi, resurs çatışmazlığı və ətraf mühit problemləri bu əməkdaşlığın vacibliyini göstərir. Həm dövlət, həm də özəl sektor dayanıqlı inkişaf strategiyalarına uyğun fəaliyyət göstərməlidir. Ətraf mühitin qorunması, iqtisadi səmərəlilik və sosial ədalət prinsiplərinin birgə tətbiqi resursların səmərəli istifadəsini təmin edir. Texnologiya, innovasiya və idarəetmə tədbirləri dayanıqlı inkişafın əsas alətləridir. Bu yanaşma resursların optimal istifadəsini təmin edir və ekosistemlərin qorunmasına kömək edir.

ƏDƏBİYYAT

1. World Commission on Environment and Development. (1987). Our Common Future. Oxford University Press.
2. John Blewitt. (2018). Understanding Sustainable Development (3rd ed.). Routledge.
3. David W. Pearce, & R. Kerry Turner. (1990). Economics of Natural Resources and the Environment. Johns Hopkins University Press.
4. Roger Perman, Yue Ma, Michael Common, David Maddison, & James McGilvray. (2011). Natural Resource and Environmental Economics (4th ed.). Pearson.
5. Godfrey Boyle. (2012). Renewable Energy: Power for a Sustainable Future (3rd ed.). Oxford University Press

THE CONCEPT OF SUSTAINABLE DEVELOPMENT AND THE PRINCIPLES OF EFFICIENT USE OF RESOURCES

Nuray Elburus Rustamzade
rustemzadenuray.55@gmail.com
Zeynab Shahin Talibzade
z.talibzade@atu.edu.az
Azerbaijan Technological University

This thesis examines the concept of sustainable development as a fundamental economic and environmental principle of the 21st century, emphasizing the balanced fulfillment of economic, social, and ecological needs. It highlights the importance of efficient resource use, modern technologies, and renewable energy applications in ensuring ecological sustainability, economic efficiency, and social equity. The study concludes that integrated management strategies and global cooperation are essential for preserving ecosystems, enhancing resource productivity, and supporting long-term regional and national development.

Keywords: Sustainable development; Resource efficiency; Environmental sustainability; Renewable energy; Social equity

İQLİM DƏYİŞİKLİKLƏRİNİN MEŞƏ BİOMÜXTƏLİFLİYİ VƏ EKOSİSTEM DAVAMLILIĞINA TƏSİRİNİN TƏHLİLİ

Gülsurə Yusif qızı Mehdiyeva
g.mehdiyeva@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

İqlim dəyişiklikləri müasir dövrdə ekosistemlərin strukturunu və funksiyalarını dəyişdirən əsas qlobal amillərdən biridir və bu təsirlər xüsusilə meşə ekosistemlərində daha aydın müşahidə olunur. IPCC-nin qiymətləndirmələrinə görə iqlim dəyişiklikləri artıq quru ekosistemlərində növ tərkibinin dəyişməsi, areal sürüşməsi və ekosistem xidmətlərinin zəifləməsi ilə nəticələnir [6]. Meşələr isə həm karbonun udulması vasitəsilə iqlim dəyişikliklərinin təsirini zəiflədir, həm də iqlim stresslərinə qarşı həssas sistemlər kimi çıxış edir [4].

Meşə biomüxtəlifliyi ekosistemin genetik, növ və funksional müxtəlifliyini əhatə edir və bu müxtəliflik meşə ekosistemlərinin müqavimət və bərpa qabiliyyətinin əsasını təşkil edir. Elmi ədəbiyyatda göstərilir ki, biomüxtəliflik səviyyəsi yüksək olan meşələr iqlim şoklarına qarşı daha davamlıdır və daha tez bərpa olunur [8]. Əksinə, sadələşmiş və monodominant meşələrdə iqlim təsirlərinin mənfi nəticələri daha sürətli yayılır.

İqlim dəyişikliklərinin biomüxtəlifliyə təsiri həm birbaşa, həm də dolayı mexanizmlərlə baş verir. Birbaşa təsirlər temperatur və rütubət rejiminin dəyişməsi ilə əlaqədardır və bu, növlərin fizioloji vəziyyətinə, vegetasiya dövrünə və yayılma arealına təsir edir. Quraqlıq şəraitində fotosintezin zəifləməsi, hidravlik stress və ağac ölümü kimi hallar geniş yayılır [2, 5]. Dolayı təsirlər isə yanğınlar, zərərvericilər və xəstəliklər vasitəsilə baş verir və bu amillər iqlim dəyişiklikləri fonunda daha da güclənir [7].

Cədvəl 1. Meşə biomüxtəlifliyi və davamlılığına iqlim təsirlərinin əsas mexanizmləri

Təsir amili	Birbaşa və ya dolayı mexanizm	Biomüxtəlifliyə nəticə	Davamlılığa nəticə
Temperatur artımı	Fizioloji stress, areal sürüşməsi	Həssas növlərin azalması	Müqavimətin zəifləməsi
Yağıntı azalması	Torpaq rütubətinin enməsi	Fidanların və kölgəsevər növlərin zəifl əməsi	Bərpa qabiliyyətinin enməsi
Quraqlıq	Hidravlik stress, ağac ölümü	Habitat itkisi, struktur sadələşmə	Ekosistem sabitliyinin pozulması
Yanğınlar	Disturbansın təkrarlanması	Toxum bankı və mikrohabitat itkisi	Funksional keçid riski
Zərərvericilər və xəstəliklər	Populyasiya artımı, yayılma	Seçilmiş növlərdə kütləvi geriləmə	Uzunmüddətli zəifləmə
Fenoloji sürüşmə	Sinxronluğun pozulması	Tozlanma və reproduktiv uğurun azalması	Adaptiv uyğunluğun zəifləməsi

Meşə biomüxtəlifliyi ekosistem davamlılığında mühüm rol oynayır və "ekoloji sığorta" funksiyasını yerinə yetirir. Genetik və funksional müxtəliflik artdıqca sistem müxtəlif iqlim stresslərinə daha elastik reaksiya verir və bu, ümumi ekosistem sabitliyini artırır. CBD texniki sənədlərində də qeyd edildiyi kimi, biomüxtəliflik iqlim dəyişikliklərinə uyğunlaşmanın əsas komponentidir [3].

Azərbaycan kontekstində meşələr əsasən dağlıq ərazilərdə yerləşdiyi üçün iqlim dəyişikliklərinə qarşı daha həssasdır. Milli Ekosistem Qiymətləndirməsi meşə

ekosistemlərində mövcud problemləri, məlumat çatışmazlığını və idarəetmə boşluqlarını vurğulayır və yeni silvikultural strategiyaların tətbiqini zəruri hesab edir [1]. Bu baxımdan biomüxtəlifliyin qorunması yalnız ekoloji deyil, həm də iqlimə uyğunlaşma strategiyası kimi qiymətləndirilməlidir.

Aparılan təhlil göstərir ki, iqlim dəyişiklikləri meşə biomüxtəlifliyi və davamlılığına çoxşaxəli təsir göstərir və bu təsirlər bir-biri ilə qarşılıqlı əlaqədə olan proseslər vasitəsilə reallaşır. Temperatur artımı, quraqlıq, yanğınlar və biotik amillər meşə ekosistemlərinin strukturunu və funksiyalarını dəyişdirərək biomüxtəlifliyin azalmasına səbəb olur. Biomüxtəliflik isə bu dəyişikliklərə qarşı sistemin əsas müdafiə mexanizmi kimi çıxış edir. Buna görə meşə idarəçiliyində biomüxtəliflik əsaslı, iqlimə uyğunlaşan və monitorinqə əsaslanan yanaşmaların tətbiqi vacibdir.

ƏDƏBİYYAT

1. Abbasov, R. K. və b. (2024). Azərbaycanın biomüxtəliflik və ekosistem xidmətləri üzrə Milli Ekosistem Qiymətləndirilməsi: Siyasətçilər üçün xülasə.
2. Allen, C. D., Macalady, A. K., Chenchouni, H., et al. (2010). A global overview of drought and heat-induced tree mortality reveals emerging climate change risks for forests. Forest Ecology and Management, 259(4), 660–684.
3. Convention on Biological Diversity. (2009). Forest resilience, biodiversity, and climate change: A synthesis of the biodiversity/resilience/stability relationship in forest ecosystems.
4. FAO. (2024). The State of the World's Forests 2024.
5. Hartmann, H., Bastos, A., Das, A. J., et al. (2022). Climate change risks to global forest health: Emergence of unexpected events of elevated tree mortality worldwide. Annual Review of Plant Biology, 73, 673–702.
6. IPCC. (2022). Climate Change 2022: Impacts, Adaptation and Vulnerability.
7. Jactel, H., Koricheva, J., & Castagneyrol, B. (2019). Responses of forest insect pests to climate change: Not so simple. Current Opinion in Insect Science, 35, 103–108.
8. Thompson, I., Mackey, B., McNulty, S., & Mosseler, A. (2009). Forest resilience, biodiversity, and climate change: A synthesis of the biodiversity/resilience/stability relationship in forest ecosystems (CBD Technical Series No. 43). Secretariat of the Convention on Biological Diversity.

ANALYSIS OF THE IMPACT OF CLIMATE CHANGE ON FOREST BIODIVERSITY AND ECOSYSTEM RESILIENCE

Gulsura Yusif Mehdiyeva
g.mehdiyeva@atu.edu.az
Azerbaijan Technological University

This study analyzes the impacts of climate change on forest biodiversity and ecosystem resilience. The main objective is to systematize the mechanisms of climate impacts on forest ecosystems, to explain the role of biodiversity in resilience and adaptation, and to identify priority approaches in the context of Azerbaijan. The findings indicate that rising temperatures, drought, changes in precipitation patterns, and extreme events lead to structural, compositional, and functional changes in forest ecosystems. These changes result in biodiversity loss and weakening of ecosystem services. Therefore, the implementation of biodiversity-based and adaptive forest management approaches is essential.

Keywords: forest biodiversity, forest resilience, climate change, drought, forest fires, adaptation

XƏZƏR DƏNİZİNİN SƏVİYYƏSİNİN DƏYİŞMƏSİNİN QİYMƏTLƏNDİRİLMƏSİNDƏ CİS VƏ MƏSAFƏDƏN ZONDLAMA MƏLUMATLARINDAN İSTİFADƏ

Sevil Hüseyn Hüseynova
Zeynəb Şahin Talıbzadə
z.talibzade@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Xəzər dənizi dünyanın ən böyük qapalı su hövzəsi olmaqla yanaşı, hidroloji rejiminin yüksək dəyişkənliyi ilə seçilir. Son onilliklərdə dəniz səviyyəsinin dinamikası regional ekosistemlər, sahil infrastrukturunun dayanıqlılığı və sosial-iqtisadi fəaliyyətlər üçün mühüm risk amilinə çevrilmişdir. Xəzər hövzəsində dəniz səviyyəsinin dəyişməsi əsasən iqlim dəyişmələri, buxarlanma proseslərinin intensivləşməsi, çay axınlarının (xüsusilə Volqa çayı) dəyişməsi və atmosfer sirkulyasiyasındakı variasiyalarla əlaqələndirilir. Peyk altimetriyası və uzunmüddətli müşahidələr göstərir ki, Xəzər dənizi səviyyəsi son onilliklərdə ümumilikdə azalma tendensiyası nümayiş etdirir və bu proses 2000-ci illərdən sonra daha da sürətlənmişdir. Bununla yanaşı, sahil zonalarında müşahidə olunan dəyişikliklər bəzi regionlarda suyun geri çəkilməsi, bəzi yerlərdə isə lokal daşqın xarakterli yüksəlmələrlə müşayiət olunur.[2]

Müasir elmi tədqiqatlarda Xəzər dənizinin səviyyə dəyişmələrinin qiymətləndirilməsi üçün Coğrafi İnformasiya Sistemləri (CİS) və məsafədən zondlama (MZ) texnologiyaları əsas metodoloji baza kimi çıxış edir. Bu yanaşma geniş məkan əhatəsi, yüksək zaman rezolyusiyası və obyektiv məlumat təminatı baxımından ənənəvi hidroloji ölçmələrə nisbətən üstünlük təşkil edir. Landsat və Sentinel peyk görüntüləri sahil xəttinin uzunmüddətli dəyişmələrinin təhlili üçün geniş istifadə olunur. Bu görüntülər vasitəsilə su və quru sahələrinin ayrılması Normalized Difference Water Index (NDWI) kimi indekslər əsasında həyata keçirilir. Eyni zamanda, radar altimetriya məlumatları dəniz səviyyəsinin mütləq dəyişmələrini yüksək dəqiqliklə ölçməyə imkan verir.[4]

CİS mühitində aparılan analizlər sahil xəttinin zaman üzrə dəyişməsini xəritələşdirməyə, statistik modellər qurmağa və risk zonalarını müəyyən etməyə şərait yaradır. Digital Shoreline Analysis System (DSAS) kimi alətlər sahil xəttinin geri çəkilmə və irəliləmə sürətini kəmiyyətcə qiymətləndirməyə imkan verir. Bu metodlar əsasında aparılan tədqiqatlar göstərir ki, Xəzər dənizinin sahil zonalarında xüsusilə Abşeron yarımadası, Qazaxıstanın şimal-şərq sahilləri və Volqa deltası ətrafında ciddi morfodinamik dəyişikliklər baş verir.[5]

Məsafədən zondlama məlumatlarının CİS ilə inteqrasiyası sahil dəyişmələrinin yalnız müşahidəsini deyil, həm də proqnozlaşdırılmasını mümkün edir. Rəqəmsal yüksəklik modelləri (DEM) əsasında aparılan analizlər müxtəlif dəniz səviyyəsi ssenarilərində potensial daşqın zonalarının müəyyən edilməsinə imkan yaradır [4]. Bu yanaşma xüsusilə aşağı hündürlüklü sahil ərazilərində risklərin qiymətləndirilməsi üçün mühüm əhəmiyyət daşıyır. Modelləşdirmə nəticələri göstərir ki, dəniz səviyyəsində nisbətən kiçik dəyişikliklər belə geniş sahil zonalarının su altında qalmasına səbəb ola bilər

Elmi ədəbiyyatların təhlili göstərir ki, Xəzər dənizinin səviyyə dəyişmələrinin əsas idarəedici amilləri arasında iqlim dəyişməsi ilə əlaqəli buxarlanma artımı və çay axınlarının dəyişkənliyi xüsusi yer tutur. Xüsusilə Volqa çayı Xəzər hövzəsinə daxil olan suyun əsas hissəsini təmin etdiyindən, onun axım rejimindəki dəyişikliklər birbaşa dəniz səviyyəsinə təsir göstərir. Eyni zamanda, temperatur artımı nəticəsində buxarlanmanın yüksəlməsi su balansının mənfi olmasına gətirib çıxarır ki, bu da uzunmüddətli enmə tendensiyasını gücləndirir [1].

CİS və MZ texnologiyalarının tətbiqi sahil zonalarının idarə olunması və adaptiv planlaşdırma üçün mühüm elmi baza yaradır. Peyk məlumatlarının yüksək zaman seriyaları əsasında sahil xəttinin dinamikası real vaxt rejiminə yaxın şəkildə izlənilə bilir. Bu isə həm ekoloji monitorinq, həm də şəhərsalma və infrastruktur planlaşdırılması baxımından strateji əhəmiyyət daşıyır. Bundan əlavə, əldə olunan nəticələr sahil eroziyası, torpaq itkisi və ekosistem deqradasiyası kimi problemlərin erkən aşkarlanmasına şərait yaradır [3].

Xəzər dənizinin səviyyə dəyişmələrinin qiymətləndirilməsində CİS və məsafədən zondlama metodlarının inteqrasiyası yüksək elmi və praktiki əhəmiyyətə malikdir. Bu yanaşma sahil dəyişmələrinin dəqiq xəritələşdirilməsi, risk zonalarının müəyyən edilməsi və gələcək dəyişikliklərin proqnozlaşdırılması üçün effektiv vasitə kimi çıxış edir. İqlim dəyişikliyi şəraitində bu metodların tətbiqi Xəzər regionunda dayanıqlı sahil idarəçiliyinin formalaşdırılmasında əsas elmi istiqamətlərdən biri hesab olunur.

ƏDƏBİYYAT

1. Rodionov, S. N. (1994). Global and Regional Climate Interaction: The Caspian Sea Experience. Dordrecht: Kluwer Academic Publishers.
2. Kostianoy, A. G., & Kosarev, A. N. (Eds.). (2005). The Caspian Sea Environment. Berlin: Springer-Verlag.
3. Letolle, R., & Mainguet, M. (1996). Aral Sea and Caspian Sea: Environmental Changes and Water Management. Paris: UNESCO Publishing.
4. Campbell, J. B., & Wynne, R. H. (2011). Introduction to Remote Sensing (5th ed.). New York: Guilford Press.
5. Longley, P. A., Goodchild, M. F., Maguire, D. J., & Rhind, D. W. (2015). Geographic Information Science and Systems. Hoboken, NJ: Wiley.

USING GIS TOOLS AND REMOTE SENSING DATA IN ESTIMATING CASPIAN SEA LEVEL CHANGE

Sevil Huseyn Huseynova
Zeynab Shahin Talibzade
z.talibzade@atu.edu.az
Azerbaijan Technological University

The assessment of Caspian Sea level rise using GIS and remote sensing techniques demonstrates that satellite-based observations combined with spatial analysis tools provide highly effective methods for monitoring and analyzing long-term hydrological changes. These technologies allow precise detection of shoreline dynamics, quantification of sea level variability, and identification of flood risk zones in coastal areas. The integration of remote sensing data with GIS-based modeling significantly improves the accuracy of sea level change evaluation and supports sustainable coastal management under climate change conditions.

Keywords: Caspian Sea, sea level change, Geographic Information Systems (GIS), remote sensing, shoreline Dynamics

İNTODUKSİYA OLUNMUŞ VƏ YERLİ PAMBIQ SORTLARININ DUZ (NACL) STRESİNƏ DAVAMLILIQLARININ TƏDQİQİ

Fərman Əli oğlu Kərimov
fakarimov@bmu.edu.az
Elçin Ağası oğlu Xəlilov
farmankerimov@mail.ru
Bakı Mühəndislik Universiteti

Azərbaycanda suvarma əkinçiliyinin inkişafını məhdudlaşdıran əsas amillərdən biridə torpaqların şoranlaşmasıdır. Arid zonalarda pambıq bitkisinin becərildiyi torpaqların əksəriyyətidir. həmin torpaqlarda becərilən bitkilər eyni vaxta yüksək teperaturaya, istiliyə və duzların stresinə məruz qalır. Ona görədə pambıq bitkisində qeyd olan stress təsirlərə cavab verən ümumi davamlığı öyrənmək ən aktual məsələlərdən biridir.

Pambıq bitkisinin abiotik amillərə davamlıqlarının öyrənilməsi ilə bağlı bir sıra elmi-tədqiq işləri aparılmışdır (1,2,3). Tədqiq işlərində qeyd olunan kriteriyalardan istifadə edərək duza davamlı pambıq sortlarını seçmək mümkündür.

Şoranlaşmış torpaqlardan yüksək məhsul götürmək üçün bütün melorativ tədbirləri tətbiq etməklə yanaşı əsas problemlərdən biri duz stressinə qarşı davamlı pambıq sortlarının müəyyən edilməsidir. Bunun üçün ölkədə ən çox əkilən introduksiya olunmuş və yerli pambıq sortlarının duz (NaCl) stresinə davamlılığını öyrənilərək ən davamlı sortları müəyyən edib fermerlərə tövsiyə etmək qarşıya məqsəd qoyulmuşdur.

Tədqiqatın obyekti və təcrübənin metodikası.Tədqiqatın obyekti:Gossypium hirsitum növünün 4 sortu götürülmüşdür. Bu pambıq sortları üçün Türkiyə Respublikasından intraduksiya olunmuş Bayaz Altun-440, və ADN-123 sortlardır. Bu sortlar hal-hazırda respublikanın müxtəlif bölgələrində fermerlər tərəfindən əkilir. Yerli sortlardan Gəncə-110 və Gəncə-160 Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun seleksiya şöbəsinin rayonlaşdırılmış sortlarıdır.

Təcrübədə istifadə edilən sortların toxumları vegetasiya dibçəklərində becərilib. Bir dibçəkdə 10 kq torpaqda və 3 bitki saxlamaqla təcrübə 4 təkrar, 4 variantda aparılıb. Dibçəkdəki becərilən bitkilərin müxtəlif inkişaf fazalarında 0,3; 0,6; 0,9 və 1,2 %-li NaCl məhlulu əlavə olunur. Məqsəd müxtəlif pambıq sortlarının (ontogenezi dövründə) duzlu mühitə adaptasiya etmək qabliyyətini öyrənilməsi olunmuşdur.

Təcürbənin gedişatı. Məqsəd: Bayaz Altun-440, DN-123 yerli Gəncə-110 və Gəncə-160 sortların tədricən duzlu mühitə adaptasiya etdirməklə onların şoranlığa davamlıqlarını təyin etməkdir. Alınmış cücərtilərin ontogenetik inkişaf dövrünün müxtəlif mərhələlərində fenoloji müşahidələr və ölçmələr aparılmışdır. Bu vaxt duzlu mühitə adaptasiya olan sortların boy inkişafının dinamikası, ontrogenetik inkişafının xüsusiyyətləri və bir çox bioloji və təsərrüfat qiymətli göstəriciləri öyrənilmişdir.

Fenoloji müşahidələrlə yəqin etmişik ki, şoran mühit bitkilərin inkişafına mənfi təsir göstərir. Bu əlamətlər özünü boy proseslərinin gecikməsində məhsuldarlığın, ümumi biokütlənin əhəmiyyətli dərəcədə azalmasında özünü biruzə verir.

Tədqiq olunan pambıq sortlarının duza davamlılığını tədqiq etmək üçün qeyri-əlverişli şəraitdə ümumi bar əmələgətirmə və bar orqanlarının formalaşdırmaq qabilliyyəti də öyrənilmişdir.

Müşahidələr nəticəsində müəyyən edilmişdir ki, istər Türk sortları, istərsə də yerli sortlar duzlu mühitə adaptasiya edən zamanı bu sortlarda ümumi məhsulun və biokütlənin azalması qeydə alınmışdır.

Torpaqda olan 0.3 % duz mühiti bitkinin yerüstü hissəsinin quru kütləsinin toplanmasına zəif də olsa təsir göstərir. Belə ki, nisbətən şoranlığa davamlılığı ilə seçilən sortlarda az, nisbətən duza həssas sortlar arasında daha çox göstərir. Təbii ki, duzlu mühit artdıqca yəni, 0.3% variantdan 1.2%-li varianta doğru yüksəldikcə yalnız duza davamlı

sortlar daha çox quru maddə əmələ gətirir. cədvəl 1 və 4-də nəzər saldıqda BA-440 və Gəncə-110 sortlarının daha yüksək duz mühitində quru maddə əmələ gətirdiyinin şahidi oluruq. Digər sortlarda isə əksini müşahidə olunur bunu tərtib olunmuş cədvəllərdə göstəricilər üzrə müəyyən etmək olar.

Şoranlığa davamlılığın əsas göstəricilərdən biri də yüksək və dəyişkən duz mühitində normal boy inkişafı və yüksək barəmələgətirmə qabiliyyətinin olmasıdır. Adətən əksər sortlar duzlu mühitdə qısa boy və nazik gövdə əmələ gətirir, yarpaqlar kişik olmaqla qalınlaşır, qönçələmə mərhələsi tezləşir, əmələ gələn qozalar həcmi cılız və kiçik olmaqla lif keyfiyyəti olduqca aşağı olur. Müvəqqəti də olsa duzluluğun yüksəlməsi bar orqanlarının sürətli tökülməsinə səbəb olur.

Bu qeyd edilən əlamətlərə bizim tədqiq etdiyimiz sortlarda da rast gəlinmişdir. Nisbətən dözümlü sortlar bu mənfi streslərə baxmayaraq ontrogenetik inkişaf dövründə normal boy və habitusa malik olmaqla inkişafları normal sortun morfologiyasına uyğun olaraq keçirilmişdir. Adaptasiya prosesində sabit məhsul vermə, bar əmələgətirmə və normal ontogenetik inkişaf prosesini keçərək stres faktorlara davamlılığı ilə fərqlənmişlər (BA-440 və Gəncə-110).

Təcrübə variantlarına fenoloji və vizual baxışlarla müəyyən etdik ki, 0,9% və 1,2% (NaCl) duzlu mühitdə bitkilər zəif inkişaf edir, gövdəsi nazikləşir, yarpaqlar qalınlaşır.

Bu zaman bitkilərin inkişafdan qalması, boyun qısalması və məhsulun azalması, bar orqanlarının tökülməsi xırda qozalılıq və s. əlamətlər müşahidə olunur.

Təcrübənin yalnız 0,3% və 0,6% variantında duzlu mühitin bitkinin təsərrüfat göstəricilərinə az təsiri göstərməsi nəzərə çarpır. Bu variantda vegetativ və generativ orqanlarının normal inkişafı təmin olunur(BA-440 və Gəncə-110).

Bütün bunları nəzərə alaraq vegetasiya dövründə fenoloji müşahidələr, ölçmə və hesablamalar aparılmışdır. Bu ölçmələrin köməyi ilə istər intraduksiya olunmuş türk sortlarının, istərsədə yerli sortların bir qozasından çıxan xam pambığın çəkisinə, bir bitkinin məhsuldarlığı, lif çıxımı və lif uzunluğu və s. əlamətlərə təsiri öyrənilmişdir. Alınmış nəticələr aşağıda cədvəldə verilmişdir.

Qeyd etmək lazımdır ki, göstəricilərin əsas variantda və başqa variantlarda aşağı olmasına səbəb təcrübənin apardığı torpağın , yəni dibçəkdəki torpaqların qeyri münbit və kasıb olmasıdır. Bitkilər belə qeyri-münbit və əlverişsiz şəraitdə becərildikdə, belə mühitdə daha çox barəmələgətirmələri onların stres amillərinə daha davamlı olmasına dəlalət edir. Belə mühitdə sortlar plastikliyini, dözümlülüyünü daha çox biruzə verir.

Aşağıdakı cədvəllərdə bu göstəricilər verilmişdir.

Cədvəl 1.

Variantlar	Əsas gövdənin hündürlüyü.sm	Bir qozanın çəkisi,qr	Bir bitkidə olan qoza sayı, əd	Bir bitkinin məhsuldarlığı, qr	Lif Uzunluğu, mm	Lif çıxımı,%
Bayaz Altun nəzarət	23,5	3,8	3,5	10,5	30,9	46,5
0,3%	21,0	3,9	3,3	12,9	27,4	41,0
0,6%	18,5	4,2	2,5	10,5	28,0	39,5
0,9%	17,5	3,7	2,0	7,4	28,7	40,3
1,2%	17,0	3,0	1,8	5,4	27,0	40,0

Cədvəl 2.

Variantlar	Əsas gövdənin hündürlüyü.sm	Bir qozanın çəkisi,qr	Bir bitkidə olan qoza sayı, əd	Bir bitkinin məhsuldar-lığı, qr	Lif uzunluğu, mm	Lif çıxımı ,%
ADN-123 nəzarət	20,0	4,1	3,3	13,5	32,0	35,0

0,3%	22,0	4,0	3,4	13,5	29,6	42,0
0,6%	20,6	4,2	2,8	11,8	29,6	37,5
0,9%	19,7	3,8	2,4	9,1	29,3	39,7
1,2%	17,6	3,5	2,3	8,1	29,0	38,7

Cədvəl 3.

Variantlar	Əsas gövdənin hündürlüyü, sm	Bir qozanın çəkisi, qr	Bir bitkidə olan qoza sayı, əd	Bir bitkinin məhsul-darlığı	Lif uzunluğu, mm	Lif çıxımı, %
Gəncə-110 nəzarət	21,6	3,9	2,8	11,0	34,1	41,6
0,3%	27,7	4,1	3,1	12,6	33,3	41,1
0,6%	24,2	3,7	2,9	10,6	33,0	0,39
0,9%	19,3	3,7	2,2	8,0	33,0	42,3
1,2%	16,3	3,2	1,8	5,6	32,0	40,0

Cədvəl 4.

Variantlar	Əsas gövdənin hündürlüyü, sm	Bir qozanın çəkisi,qr	Bir bitkidə olan qoza sayı, əd	Bir bitkinin məhsul-darlığı	Lif uzunluğu, mm	Lif çıxımı, %
Gəncə-160 nəzarət	**27,9**	**3,2**	**2,5**	**8,0**	**34,0**	**36,3**
0,3%	27,1	4,4	2,3	9,9	33,9	39,7
0,6%	19,6	3,6	2,4	8,5	33,2	41,5
0,9%	18,2	4,1	1,5	5,9	32,3	40,2
1,2%	13,4	3,6	1,2	4,1	31,5	37,5

Nəticə.1.İstər introduksiya olmuş Bayaz Altun-440 və ADN-123 türk sortları, istərsə Respublikamızın yerli pambıq sortları Gəncə-110 və Gəncə-160 sortlarının duzlu mühitə adaptasita prosesində qiymətləndirilməsi zamanı bu qənaətə gəldik.Türk seleksiya sortu Bayaz Altun-440 duzlu mühitə daha yaxşı adaptasiya olmaqla daha çox şoranlığa və duza davamlılığı ilə seçilir. Bu sort tədricən duzlu mühitə adaptasiya prosesində sabit məhsul əmələ gətirmə, normal ontogenetik inkişaf və lifin texnoloji keyfiyyətinin sabit saxlamaq qabiliyyətinə malikdir.

2.Yerli Gəncə-110 sortu duzlu mühitə daha yaxşı uyğunlaşarq, adaptasiya olunma xüsusiyyəti yüksəkdir. Bu sort sabit məhsulvermə, barəmələgətirmə və normal ontogenetk inkişaf prosesini keçərək, stress faktorlara davamlılığı ilə fərqlənir. Tədricən duzlu mühitə adaptasiya prosesinin hər 3 variantında bu sort normal habitusa malik,generativ və vegetativ orqanların mütənasibliyi və normal bar orqanları əmələgətirməsi ilə fərqlənir.Ona görə də Gəncə-110 sortu şoran və şorakət torpaqlarda becərilmə tələbatına cavab verir. Gəncə-160 sortu isə yalnız zəif şoran və şorakət olan torpaqlarda becərilməsi tövsiyə olunur.

3.Nəzarətdə olan 6 sortlara 2 variantda qəflətən şok təsir mexanizması duzlu su məhlulu ilə birdəfəlik su verilmişdir. Bu zaman bitkilərdə bu təsirə müxtəlif cür reaksiya ilə cavab verilmişdir. Bu vaxt bitkilərdə intensiv yarpaq tökmə,bar orqanların tökülməsi, məhsulun aşağı düşməsi, yetişmiş və yetişməmiş qozaların məcburi açımı baş verir. Qəflətən şok təsir duzadavamlılıq qabiliyyətini artırmasa da bitkilərin boy və məhsuldarlığılna əhəmiyyətli təsir etməmişdir. Bayaz Altun-440 və Gəncə-110 sortları digər sortlara nisbətən davamlı olmuşdur.

Beləliklə fermerlərə və məhsul istehsalçılarına şoran və şorəkət torpaqlarda Bayaz Altun-440 və Gəncə-110 pamblq sortlarının əkilməsini tövsiyə edirik.

ƏDƏBİYYAT

1. Керимов Ф.А., Кузнецов Вл.В., Шамина З.Б. «Организменный и клеточный уровни сольеустойчивость растений хлопчатника» Физиология растений, 1993., Е.40, Н 1, ст.128-131.
2. Kərimov F.Ə., Əhmədov Y.K. "Bitkilərin davamlığının fiiologiyası" Bakı-2011 s.-178
3. H.Ə.Aslanov, M.A. Vəliyeva "Pambıqçılıq" Bakı Elm-2014

4. R.T.Əliyev.,Ş.İ.Hacıyeva.,L.İ.Cavadov.,G.İ.Həsənov.,L.S.Abdullayeva "Duzluluq stresinin buğda bitkisi yarpaqlarınada xlorofilin miqdarına təsiri" AMEA Genetik Ehtiyatlar İnstitutu Elmi əsərlər V cild. səh. 61-68 Bakı Elm-2015

INVESTIGATION OF THE SALT (NACL) STRESS TOLERANCE OF INTRODUCED AND LOCAL COTTON VARIETIES

Farman Ali oglu Kerimov
fakarimov@bmu.edu.az
Elchin Aghasi oglu Khalilov
farmankerimov@mail.ru
Baku Engineering University

Soil salinization is one of the primary factors limiting the development of irrigated agriculture in Azerbaijan. In our republic, cotton is cultivated on more than 100,000 hectares, of which 35-40% are subjected to moderate and severe salinity. To achieve high yields from saline soils, it is essential to identify salt-tolerant cotton varieties alongside the implementation of comprehensive land reclamation measures. Consequently, the objective of this study was to evaluate the salt (NaCl) stress tolerance of the most widely cultivated introduced and local cotton varieties, identifying the most resilient ones for recommendation to farmers. In this study, the tolerance of the introduced Turkish variety "Bayaz Altun-440", "ADN-123", and the local varieties "Ganja-110" and "Ganja-160" were examined under 0.3%, 0.6%, 0.9%, and 1.2% salt stress concentrations. Based on the analysis of the scientific results, it can be concluded that "Bayaz Altun-440" and "Ganja-110" exhibit higher tolerance compared to the other cotton varieties. It is recommended that farmers and producers prioritize the cultivation of "Bayaz Altun-440" and "Ganja-110" varieties in future cotton planting on soils affected by salinity and alkalinity.

Keywords: Saline, alkaline, introduction, vegetation, salt, stress, tolerance.

SUVARILAN TORPAQLARDA TƏBİİ VƏ SÜNİ SORBENTLƏRİN TƏTBİQİ

Abbas Ziya oğlu Quliyev
abbasizm55@gmail.com
Azərbaycan Dövlət Aqrar Universiteti PHŞ

Son onilliklərdə su resurslarının istifadəsinin intensivləşməsi insan cəmiyyəti qarşısında qlobal miqyaslı problemlərin yaranmasına səbəb olmuşdur. Qlobal su dövranı prosesində su ehtiyatlarının bərpa olunmasına baxmayaraq, bu gün artıq heç kim üçün sirr deyil ki, Yer üzündəki şirin su resurslarının istifadəyə yararlı hissəsi məhduddur. Yəni, əhali sayının və iqtisadi inkişafın artması ilə insanlıq su resurslarının çatışmazlığı probleminin dərinləşməsi ilə üzləşmişdir. Qlobal şirin su çatışmazlığı problemini iqlim dəyişiklikləri prosesləri daha da mürəkkəbləşdirir [5]. Cəmiyyətin və təbiətin bütün su ehtiyaclarını təmin etmək üçün yararlı su resurslarının çatışmazlığı bütün dünyada müşahidə olunsa da, bəzi regionlarında, o cümlədən də ölkəmizdə bu proses çox daha intensiv sürət almışdır [1].

Su resurslarının çatışmazlığının əsas mahiyyəti ondan ibarətdir ki, son onilliklərdə regionumuzun suya olan tələbat həcmi (xüsusilə azsulu dövrlərdə) mənbələrdəki (çaylardakı) texniki baxımdan mövcud su resurslarının həcmindən artıqdır. Əhalinin sayının artması və sosial-iqtisadi ehtiyacların artması fonunda bu, ümumi su təhlükəsizliyinin təmin edilməsində problemlər yaradır [5].

Bu problemlərin həllində prioritet istiqamətlərdən biri suya qənaət tədbirlərinin həyata keçirilməsi və səmərəli su istifadəsinin təmin edilməsidir. Ölkəmizdə su ehtiyatlarının əsas istehlakçısı ümumi mövcud su resurslarının 70%-dən çoxunu istifadə

edən suvarma əkinçiliyidir [1]. Buna görə də, suya qənaətdən bəhs edərkən, əsasən onu məhz əkin sahələrinin suvarılması kontekstində nəzərdə keçirəcəyik.

Eyni zamanda nəzərə almaq lazımdır ki, su təsərrüfatının təkmilləşdirilməsinin əsas prioriteti su resurslarının inteqrasiyalı idarə olunması prinsiplərinin tətbiqidir. Azərbaycan Respublikasının aqrar sənaye kompleksinin inkişafına dair müəyyən edilmiş strategiyanın həyata keçirilməsi ölkənin davamlı ərzaq müstəqilliyinin və təhlükəsizliyinin təmin edilməsini nəzərdə tutur ki, bu da kənd təsərrüfatının inkişafına yönəlmiş innovativ texnologiyaların tətbiqi üzrə elmi və elmi-texniki nəticələrin əldə olunmasını prioritet istiqamət kimi müəyyənləşdirir [1,5].

Aqrar istehsalın səmərəliliyi bilavasitə yeni, o cümlədən meliorativ texnologiyaların tətbiqi ilə sıx bağlıdır. Lakin elmi və istehsal sektorları arasında kifayət qədər inteqrasiyanın olmaması səbəbindən tədqiqat nəticələrinin tətbiqi ilə əlaqədar bir sıra problemlər mövcuddur ki, bu da tələb olunan praktik həllərin reallaşdırılmasını çətinləşdirir.

Ölkəmizdə, xüsusilə də kəskin quraqlıq şəraitinə malik regionlarda, təminatlı şəkildə yüksək və sabit məhsuldarlığın əldə edilməsi yalnız suvarma əkinçiliyinin tətbiqi ilə mümkündü [5].

Suvarma suyunun qeyri-məhsuldar istehlakı suvarma sistemlərinin iqtisadi səmərəliliyinin azalmasına və kənd təsərrüfatı təyinatlı torpaqların deqradasiyasına səbəb olur. Torpağın bitkilərin əsas kök kütləsinin cəmləşdiyi zonasında nəmlik çatışmazlığı məhsuldarlığın kəmiyyət və keyfiyyət göstəricilərinə mənfi təsir göstərir [2]. Bu baxımdan, suvarma suyundan istifadənin səmərəliliyinin artırılması ən mühüm strateji istiqamətlərdən biri hesab edilir [5].

Qeyd etmək lazımdır ki, rütubətsaxlayıcı meliorantın tətbiqi torpağı quraqlıqdan qoruyur və suvarma suyunun torpağın aşağıda yerləşən qeyri-məhsuldar qatlarına keçməsinin qarşısını alır, bununla da yeraltı suların səviyyəsinin qalxmasının və suvarma zamanı itkilərin qarşısını alır.

Aparılan tədqiqat işində elmi hipotez ondan ibarətdir ki, texnoloji proseslərin təkmilləşdirilməsi və təbii sorbsiyaedici meliorantın kompleks şəkildə tətbiqi kənd təsərrüfatı bitkilərinin müxtəlif üsullarla suvarması zamanı suvarma suyundan istifadənin səmərəliliyinin artırılmasını təmin edəcəkdir. Məhz bu baxımdan tədqiqat işində təbii mənşəli sorbsiyaedici və rütubətsaxlayıcı meliorantların tətbiqi ilə damcılarla və torpadaxili suvarma üsulları zamanı suvarma suyundan istifadənin səmərəliliyinin artırılması məqsəd kimi qarşıya qoyulmuşdur.

Sorbentlər - müxtəlif fiziki-kimyəvi mexanizmlər vasitəsilə suyu və həll olmuş maddələri tutmaq qabiliyyətinə malik materiallardır. Suvarılan əkinçilikdə sorbentlərin əsas funksiyası torpaq məhlulunda suyun saxlanması və yuyulma itkilərinin azaldılmasıdır [2].

Elmi tədqiqatlar göstərir ki, sorbentlərin torpağa tətbiqi torpağın su tutumunu artırır, suvarmalar arasında intervalını uzadır və bitkilərin stressə davamlılığını artırır [2,4].

Təbii sorbentlər (seolitlər, bentonit, diatomit və s.) ekoloji təhlükəsizliyi ilə seçilir. Müasir tədqiqatlar göstərir ki, zeolitlərin torpağa verilməsi suvarma suyuna olan tələbatı 20–30% azaldır [3].

Süni sorbentlər əsasən polimer mənşəli yüksək su tutumlu maddələrdir. Hidrogellərin tətbiqi su sərfini 25–35 % azaltmağa imkan verir [2,4].

Müasir suvarma texnologiyalarında sorbentlərin tətbiqi sudan istifadənin səmərəliliyini artırır və filtrasiya itkilərini azaldır [5].

Aparılmış təhlillər göstərir ki, təbii və süni sorbentlərin kompleks tətbiqi suvarma suyundan istifadə əmsalını yüksəldir və torpaq münbitliyinin qorunmasına şərait yaradır.

ƏDƏBİYYAT

1. Əliyev F.H. Suvarılan torpaqlarda suya qənaət texnologiyaları // Azərbaycan Aqrar Elmi Jurnalı. 2020. №2. s.45–52.
2. Abdelghafar R.,Abdelfattah A.,Mostafa H. Effect of super absorbent hydrogel on hydro-physical of soil under deficit irrigation//ScientificReports.2024.Vol.14.7655.
3. Núñez-Gómez D., Legua P., Lidón V. et al. Agricultural Zeolite for Improving Irrigation Water Quality // Applied Sciences. 2024. Vol.14(1). 418.
4. Negim O.I.A., Moharam M.H.A., Elsayed E.F. et al. Super absorbent polymers for sustainable wheat production // Journal of Soil Science and Plant Nutrition. 2024. Vol.24. p.4349-4365.
5. FAO. Global Status of Salt-Affected Soils and Water Scarcity. Rome: FAO, 2024.

APPLICATION OF NATURAL AND SYNTHETIC SORBENTS IN IRRIGATED LANDS

Abbas Ziya oglu Guliyev
abbasizm55@gmail.com
Azerbaijan State Agricultural University

The article investigates the application of natural and synthetic sorbents aimed at enhancing the efficient use of water resources in irrigated lands. In the context of global climate change and limited water resources, the implementation of water-saving technologies in agriculture is of paramount importance. The study analyzes the impact of sorbents on the hydro-physical properties of the soil, their capacity for moisture retention within the root zone, and the potential for reducing irrigation water losses. İt has been established that the application of natural sorbents, such as zeolite and bentonite, as well as synthetic sorbents like hydrogels, increases soil water-holding capacity, extends irrigation intervals, and enhances the drought resistance of plants. The integrated application of sorbents in conjunction with drip and subsurface irrigation systems facilitates higher efficiency in irrigation water use, preserves soil fertility, and ensures sustainable development in agriculture.

Keywords: irrigation, sorbent, hydrogel, water saving, subsurface irrigation

İQLİM DƏYİŞİKLİKLƏRİNİN REGİONAL EKOSİSTEMLƏRİN DAYANIQLIĞINA TƏSİRİNİN EKOLOJİ TƏHLİLİ

Nuridə Elşən qızı Həsənova
n.hasanova@atu.edu.az
Səidə Məhərrəm qızı Qəhrəmanova
s.gehramanova@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Müasir dövrdə iqlim dəyişiklikləri qlobal miqyasda ekoloji sistemlərin funksional bütövlüyünə ciddi təzyiq göstərən əsas amillərdən biridir. Temperaturun yüksəlməsi, yağıntı rejiminin dəyişməsi və ekstremal hava hadisələrinin tezləşməsi regional ekosistemlərin strukturuna, bioloji müxtəlifliyinə və özünütənzimləmə qabiliyyətinə birbaşa təsir edir. Xüsusilə yarımsəhra, dağlıq və kənd təsərrüfatı yönümlü regionlarda bu dəyişikliklər ekoloji tarazlığın pozulmasına səbəb olur.

Regional ekosistemlərin dayanıqlığı onların xarici təsirlərə qarşı müqavimət və bərpa potensialı ilə müəyyən edilir. İqlim dəyişiklikləri bu mexanizmləri zəiflədərək torpaq deqradasiyası, su ehtiyatlarının azalması və biomüxtəlifliyin itirilməsi kimi problemləri daha da dərinləşdirir. Bu baxımdan mövzunun elmi tədqiqi aktualdır.

İqlim dəyişiklikləri əsasən atmosferdə istixana qazlarının konsentrasiyasının artması nəticəsində baş verən temperatur və iqlim rejimi dəyişiklikləri ilə xarakterizə olunur. Bu proseslər regional ekosistemlərdə maddə və enerji dövranına təsir göstərərək ekoloji tarazlığı pozur. Temperaturun artması bitki örtüyünün fenoloji mərhələlərinin dəyişməsinə, növlərarası münasibətlərin pozulmasına və invaziv növlərin yayılmasına şərait yaradır.

Yağıntı rejimində müşahidə olunan dəyişikliklər su balansının pozulmasına, quraqlıq və sel hadisələrinin artmasına səbəb olur. Bu hallar torpaq eroziyasını gücləndirir və kənd təsərrüfatı ekosistemlərinin məhsuldarlığını azaldır. Dağlıq regionlarda buzlaqların əriməsi hidroloji rejimin dəyişməsi ilə nəticələnir və ekosistem xidmətlərinin davamlılığını təhlükə altına alır.

Biomüxtəlifliyin azalması yalnız növ sayının azalması kimi sadələşdirilə bilməz; bu, ekosistemlərin funksional mürəkkəbliyinin və enerji dövranının pozulmasına, eləcə də ekoloji xidmətlərin azalmasına gətirib çıxarır. Hər bir növ ekosistemdə müəyyən funksiyanı yerinə yetirir, məsələn, torpaq münbitliyini qorumaq, su resurslarının təmizliyini təmin etmək, zərərli orqanizmlərin populasiya balansını saxlamaq və ya karbon qazını udmaq kimi ekosistem xidmətləri göstərir. Növlərin itkisi bu funksiyaların zəifləməsinə səbəb olur, nəticədə ekosistemlər iqlim dəyişiklikləri, quraqlıq, daşqın və digər ekstremal hadisələr qarşısında daha həssas hala gəlir.

Bu baxımdan, biomüxtəlifliyin qorunması və artırılması ekosistemlərin adaptasiya potensialının möhkəmləndirilməsi üçün əsas vasitədir. Ekosistem əsaslı yanaşmaların tətbiqi, məsələn, yerli bitki və heyvan növlərinin qorunması, təbii yaşayış mühitlərinin bərpası, su hövzələrinin idarə olunması və torpaq münbitliyinin qorunması kimi tədbirləri əhatə edir. Eyni zamanda, ekoloji idarəetmənin gücləndirilməsi — strategiyaların hazırlanması, monitorinq sistemlərinin qurulması və əhalinin maarifləndirilməsi — ekosistemlərin dayanıqlılığını artırır və onların iqlim dəyişikliklərinə qarşı müqavimətini yüksəldir. Beləliklə, biomüxtəlifliyin qorunması yalnız bioloji və estetik dəyər baxımından deyil, həm də regional ekosistemlərin davamlılığı və iqlim dəyişikliklərinə adaptasiyası üçün həyati əhəmiyyət kəsb edir. Bu yanaşmaların uğurla həyata keçirilməsi, həm təbii sərvətlərin qorunmasına, həm də insan fəaliyyətinin mənfi təsirlərinin azaldılmasına imkan yaradır.

Nəticə: Aparılan təhlil göstərir ki, iqlim dəyişiklikləri regional ekosistemlərin dayanıqlığına mənfi təsir göstərərək ekoloji risklərin artmasına səbəb olur. Ekosistemlərin iqlim dəyişikliklərinə uyğunlaşması üçün torpaq və su ehtiyatlarının səmərəli idarə olunması, biomüxtəlifliyin qorunması və davamlı ekoloji planlaşdırma tədbirlərinin həyata keçirilməsi vacibdir. Bu istiqamətdə elmi əsaslandırılmış tədbirlərin tətbiqi regional səviyyədə ekoloji tarazlığın qorunmasına töhfə verə bilər.

ƏDƏBİYYAT

1. IPCC. Climate Change and Ecosystems. Geneva, 2021.
2. Odum E.P. Fundamentals of Ecology. Philadelphia, 2014.
3. Millennium Ecosystem Assessment. Ecosystems and Human Well-being. Washington DC, 2005.

ECOLOGİCAL ANALYSİS OF THE IMPACT OF CLİMATE CHANGE ON THE RESİLİENCE OF REGİONAL ECOSYSTEMS

Nurida Elshan Hasanova
n.hasanova@atu.edu.az,
Saida Magerram Gahramanova
s.gahramanova@atu.edu.az
Azerbaijan University of Technology

Climate change is a global environmental issue that significantly affects the structure, functional characteristics, and resilience of regional ecosystems in the modern era. Rising temperatures, changes in precipitation patterns, and the intensification of extreme climatic events weaken the self-regulation and adaptive capacities of ecosystems. In this thesis, the impact of climate change on the resilience of regional ecosystems is analyzed from an ecological perspective, key risk factors are identified, and scientifically grounded approaches to enhance resilience are proposed.

Keywords: Climate change, regional ecosystems, ecological resilience, biodiversity, adaptation

HEYVAN EKOLOGİYASI VƏ EKOLOJİ AMİLLƏRİN ONLARA TƏSİRİ

Samir Həsən oğlu Mahmudov
s.mahmudov@atu.edu.az
Musa Şərif oğlu Məmmədov
musamammadov1957@gmail.com
Azərbaycan Texnologiya Universiteti
Heyvandarlıq və Balıqçılıq Elmi Tədqiqat İnstitutu

Ekoloji nöqteyi-nəzərdən ətraf mühit orqanizmin birbaşa və ya dolayı əlaqədə olduğu cisimlər və hadisələr (obyekt və proseslər) kimi müəyyən edilir. Ətraf mühit amilləri və ya ekoloji amillər canlı orqanizmlərə müəyyən təsir göstərə bilən hər hansı ətraf mühit elementləri kimi müəyyən edilir. Məsələn, Yer kürəsinə nüfuz edən kosmik neytrino radiasiyasının heyvanlar üzərində təsiri aydın görünmür. Buna görə də, o, müəyyən bir zamanda sözügedən planetdə fəaliyyət göstərən ekoloji amillər hesab edilən ekoloji elementlər siyahısından çıxarıla bilər. Öz növbəsində orqanizm ətraf mühit amillərinə xüsusi adaptiv reaksiyalarla cavab verir. Uyğunlaşma qabiliyyəti üzvi həyatın əsas xüsusiyyətidir. Bu qabiliyyət canlı orqanizmlərə öz xüsusi yaşayış yerlərində yaşamağa imkan verir [1].

Ətraf mühit amillərinin bir çox müxtəlif təsnifatı var. Məsələn, ətraf mühit amillərini aşağıdakılara bölmək olar: cansız təbiət amilləri, yəni abiotik; canlı təbiət amilləri, yəni biotik.

Abiotik amillər dedikdə maddənin təsiri başa düşülür (şəklində maddə və/və ya sahələr) və onun əsas xüsusiyyətləri (temperatur, cazibə sürəti və s.) [2]. Digərləri arasında abiotik amillərin aşağıdakı qrupları fərqləndirilir: iqlim (temperatur, su/rütubət, işıq, atmosfer təzyiqi, külək və s.); edafik (mexaniki tərkibi, rütubət qabiliyyəti, hava keçiriciliyi, torpağın sıxlığı); oroqrafiya (relyefin topoqrafiyası, hündürlüyü, yamac aspekti);

Kimyəvi amillər – havanın qaz tərkibi və kimyəvi çirkləndiricilərin olması; suyun tərkibi – həll olunmuş maddələrin və asılı bərk maddələrin tərkibi; turşuluq, osmotik təzyiq və torpaq məhlullarının tərkibi; və torpaq kimyası.

İqlim faktorları yaşayış mühitini təyin edən ən mühüm amillərdəndir. Adi meteoroloji müşahidələrdən əldə edilən məlumatlar müəyyən bir ərazinin makroiqlimi haqqında təsəvvür yaradır. Müəyyən bir biotop üçün eyni göstəricilər onun mezoklimatını qiymətləndirməyə imkan verir. Müvafiq olaraq, eyni təpənin şimal və cənub yamaclarının mezoklimatı fərqli olacaq. Mikroiqlim anlayışı torpağın, bitki örtüyünün və digər səth sahələrinin kiçik sahələrinə (onlarla kvadrat desimetrə qədər) aiddir. Məsələn, günəşli bir gündə ağac gövdəsinin şimal və cənub tərəflərində günorta qabığının temperaturu onlarla dərəcə fərqlənə bilər.

Biotik amillər canlı orqanizmlərin, o cümlədən öz növünün fərdlərinin müxtəlif növ təsirləridir. Mikrobiogen amillərə bakteriyaların, virusların, rikketsiyaların və digər mikroskopik orqanizmlərin fəaliyyəti; mikogen amillərə göbələklər daxildir; fitogen amillərə bitki orqanizmləri daxildir; zoogen amillərə isə heyvan orqanizmlərinin fəaliyyəti daxildir. Bir qədər ayrıca kateqoriya, konkret insan fəaliyyəti olan antropik (insan səbəbli) amildir.

Ətraf mühit amillərinin digər təsnifat sistemləri müxtəlif meyarlara əsaslanır. Məsələn, amilləri orqanizmlərin bolluğundan (sıxlığından) asılı olanlara və ondan asılı olmayanlara bölmək olar. Beləliklə, regional makroiqlim bölgənin heyvan populyasiyasının tərkibindən və sıxlığından praktiki olaraq müstəqildir. Eyni zamanda, heyvanlar mikroiqlim şəraitinə əhəmiyyətli dərəcədə təsir göstərə bilər. Məsələn, böcəklər əsnasında ağacların iynələrini və ya yarpaqlarını tamamilə istehlak etdikdə meşədə kütləvi epidemiyalar, külək sxemləri, rütubət və örtükdə temperatur dinamikası və torpaq səthi dəyişir. itkisinə görə ayrı-ayrı bitkilər, meşə dayağı seyrəkləşə bilər və qrup halında boşluqlar əmələ gələ bilər. Bu dəyişikliklər istər-istəməz onların sonrakı nəsillərinə də təsir edəcəkdir həşəratlar, eləcə də onların rəqibləri və entomofaqları.

Temperaturun heyvanların həyatına təsiri ondan ibarətdir ki, heyvanlarda həyat zülal bədənləri üçün mövcudluq tərzidir. Ənənəvi "məhdudiyyətlər həyat" zülalların mövcud ola biləcəyi və normal fəaliyyət göstərə bildiyi temperatur diapazonudur. Zülal əsaslı fermentlər,

əksər hallarda, 10-35 ºC temperatur intervalında optimal fəaliyyət göstərir. Bu diapazonda, bir qayda olaraq, metabolik proseslərin sürətinin temperaturdan açıq bir asılılığı var. Bu prosesi xarakterizə edən kəmiyyət göstəricisi Q10 adlanan temperatur əmsalıdır. temperaturun 10ºC artması ilə fermentativ reaksiyanın sürətinin neçə dəfə artdığını göstərir. Optimal diapazondan aşağı temperaturda biokimyəvi reaksiyalar dayanır; bu diapazondan yuxarı zülalların istilik denaturasiyası baş verir. Heyvanlar temperatura uyğunlaşmaq üçün müxtəlif strategiyalardan istifadə edirlər. Xüsusilə, ətraf mühitlə istilik mübadiləsinin iki əsas üsulundan istifadə edirlər: Homeotermik orqanizmlər (ənənəvi olaraq məməlilər və quşlar də daxil olmaqla) ətraf mühitin temperaturu dəyişdikdə sabit bədən istiliyini saxlamaq; • poikilotermik orqanizmlərdə ətraf mühitin temperaturunun dəyişməsindən sonra bədən temperaturu dəyişir və sonuncuya yaxın olur.

Populyasiyanın ekoloji (davranış) quruluşu növün xüsusiyyətləri ilə müəyyən edilir. Ekoloji quruluş davranış xüsusiyyətlərinə görə fərdlərin və onların qruplarının quruluşunu və qruplaşdırılmasını nəzərdə tutur və fərdlər arasında münasibətlər sistemini əhatə edir. Tək həyat tərzində, bir populyasiyada heyvanlar təcrid olunur və praktik olaraq bir-birindən müstəqildir.

Qrup həyat tərzində qruplar formalaşma yolu ilə formalaşır, fərdlər arasında nisbətən sabit əlaqələr. Belə bağların formalaşmasında və möhkəmlənməsində iki tendensiya fərqlənir:

1) Qarşı cinsdən olan şəxslər arasında əlaqələri gücləndirmək.

2) Fərqli nəsillərin fərdləri arasında bağların möhkəmlənməsi formalaşmasına gətirib çıxarır ola bilər ailə qrupları: ata (labirint balıqları, çubuqlar, dəniz atları, Afrika dəvəquşu, çoxlu mustelids); ana (xərçənglər, hörümçəklər, social hymenoptera, millipedes); qarışıq (mələk balıqları, bir çox altricial quşlar).

ƏDƏBİYYAT

1. Q.T.Mustafayev, N.A.Sadıqova, A.T.Məmmədov, F.Z.Qarabəyli. Onurğalı heyvanların ekologiyası (Ali məktəblər üçün dərslik). Bakı, 2011, 344 səh.
2. Hümbətov Ə.M., Süleymanova İ.Ə. Onurğasız heyvanların ekologiyası. (Ali məktəblər üçün dərslik). Bakı, 2015, 240 səh.

ANIMAL ECOLOGY AND THE INFLUENCE OF ECOLOGICAL FACTORS ON THEM

Samir Hasan oglu Mahmudov
s.mahmudov@atu.edu.az
Musa Sharif oglu Mammadov
musamammadov1957@gmail.com
Azerbaijan Technological University
Scientific Research Institute of Animal Husbandry and Fisheries

Living organisms are capable of withstanding, to a certain extent, moderate external changes and impacts. Three types of resilience of living systems are distinguished: endurance, resilience, and constancy.

1) endurance – the ability of living systems to resist various disturbances or changes;
2) resilience – the ability of living systems to self-recover after external disturbances;
3) constancy – the ability of living systems, such as populations, to maintain their size.

However, if one or more environmental factors exceed acceptable levels, environmental stress occurs.

Keywords: animal ecology, abiotic factors, biotic factors, temperature, environment.

ANTROPOGEN FƏALİYYƏTİN TORPAQ VƏ SU EKOSİSTEMLƏRİNƏ TƏSİRİNİN EKOLOJİ QİYMƏTLƏNDİRİLMƏSİ

Nuridə Elşən qızı Həsənova
n.hasanova@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Ətraf mühitə antropogen təsirlərin artması son onilliklərdə torpaq və su ekosistemlərinin təbii struktur və funksiyalarının ciddi şəkildə pozulmasına səbəb olmuşdur. Sənaye istehsalının genişlənməsi, urbanizasiyanın sürətlənməsi, kənd təsərrüfatında yüksək məhsuldarlığın təmin olunması məqsədilə aqrokimyəvi maddələrin intensiv istifadəsi və sənaye tullantılarının düzgün idarə olunmaması ekosistemlərin təbii balansına mənfi təsir göstərir. Nəticədə torpağın münbitliyi azalır, eroziya və deqradasiya prosesləri sürətlənir, su hövzələrinin çirklənməsi baş verir və ekoloji sistemlərin özünü bərpa etmə potensialı zəifləyir [1.2].

Torpaq və su ekosistemləri yalnız bioloji növlərin mövcudluğu üçün deyil, həm də insan cəmiyyətinin sosial-iqtisadi inkişafı üçün həyati əhəmiyyət kəsb edir. Torpaq ekosistemi kənd təsərrüfatı məhsullarının istehsalı, biomüxtəlifliyin qorunması və karbon dövranının tənzimlənməsi kimi funksiyaları yerinə yetirir. Su ekosistemləri isə içməli və suvarma suyu, balıq ehtiyatları, hidroenerji potensialı və ekoturizm imkanları ilə insan fəaliyyətini birbaşa dəstəkləyir [4].

Buna görə də torpaq və su resurslarının mühafizəsi, onların ekoloji vəziyyətinin davamlı monitorinqi və qiymətləndirilməsi müasir elmi tədqiqatlarda prioritet istiqamət hesab olunur. Ekosistemlərin davamlılığının təmin olunması üçün ətraf mühitə antropogen təsirlərin minimuma endirilməsi, aqrokimyəvi və sənaye tullantılarının idarə olunması, torpaq və su resurslarının bərpası və qorunması istiqamətində strateji tədbirlərin həyata keçirilməsi zəruridir. Eyni zamanda, ekologiya elmi, texnologiyalar və inzibati idarəetmə vasitəsilə resursların dayanıqlı istifadəsi və ekoloji balansın bərpası mümkün olur [3].

Antropogen fəaliyyət nəticəsində torpaq ekosistemlərində ağır metalların yığılması, torpaq strukturunun pozulması və münbitliyin azalması müşahidə olunur. Kənd təsərrüfatında pestisid və mineral gübrələrin normadan artıq tətbiqi torpağın bioloji aktivliyini zəiflədir və torpaq mikroorqanizmlərinin fəaliyyətinə mənfi təsir göstərir.

Su ekosistemlərində isə sənaye və məişət tullantılarının axıdılması, kənd təsərrüfatı drenaj sularının çay və göllərə daxil olması eutrofikasiya proseslərini gücləndirir. Bu hal su hövzələrində oksigen çatışmazlığına və su orqanizmlərinin məhvinə səbəb olur.

Antropogen çirklənmənin uzunmüddətli təsirləri ekosistemlərin özünütənzimləmə qabiliyyətini zəiflədir və ekoloji riskləri artırır. Bu baxımdan monitorinq və ekoloji idarəetmə mexanizmlərinin tətbiqi vacibdir.

Nəticə: Aparılan təhlil göstərir ki, antropogen fəaliyyət torpaq və su ekosistemlərinin ekoloji vəziyyətinə ciddi təhlükə yaradır. Torpaq və su ehtiyatlarının qorunması üçün çirklənmə mənbələrinin azaldılması, ekoloji nəzarətin gücləndirilməsi və davamlı idarəetmə tədbirlərinin həyata keçirilməsi zəruridir. Təklif olunan yanaşmalar ekosistemlərin dayanıqlığının qorunmasına xidmət edir.

ƏDƏBİYYAT

1. Mustafayeva, R. R., Qambarova, R. M., & Abbasova, E. A. (2024). Azərbaycan kənd təsərrüfatında torpaq resurslarının effektiv istifadəsinin təhlili. Economy, Entrepreneurship and Law, 14(2), 489–504.
2. Məmmədov, Q. (2024). İqlim dəyişikliklərinin torpaq deqradasiyasına təsirinin qiymətləndirilməsi. Journal of Life Sciences & Biology, 2(2), 94–105.

3. Mikayilov, A., & Kərimova, L. (2025). Abşeron yarımadasında antropogen təsirlərin torpaq örtüyünə ekoloji qiymətləndirilməsi. Journal of Forest and Ecosystem Sciences, 1(1), 45–58.
4. Mustafayeva, R., Qasımov, A., Cəfərova, R., & Muradov, R. (2026). Green agricultural model in Azerbaijan: Challenges and trends. Bulgarian Journal of Agricultural Science, 32(1), 45–50.

ECOLOGİCAL ASSESSMENT OF THE IMPACT OF ANTHROPOGENİC ACTİVİTİES ON SOİL AND WATER ECOSYSTEMS

Nurida Elshan Hasanova
n.hasanova@atu.edu.az
Azerbaijan University of Technology

Anthropogenic activities are considered one of the primary factors negatively affecting the condition of soil and water ecosystems in the modern era. Industrial, agricultural, urbanization, and transportation activities lead to pollution, degradation, and disruption of biological balance in soil and water resources. This thesis analyzes the ecological impacts of anthropogenic factors on soil and water ecosystems, identifies the main sources of pollution, and proposes scientifically grounded approaches for the protection and sustainable management of these ecosystems.

Keywords: Anthropogenic impact, soil ecosystem, water ecosystem, pollution, ecological risk

DEVELOPMENT OF A HIGHLY SENSITIVE SORPTION-SPECTROSCOPIC METHOD FOR THE QUANTITATIVE DETERMINATION OF COBALT(II) IONS

Aziza Matekeyeva[1]
Uchkun Ruzmetov[2]
Tarana Aliyeva[3]
aziza_chemico@mail.ru
Tashkent State Technical University named after Islam Karimov[1]
National University of Uzbekistan named after Mirzo Ulugbek[2]
Baku State University[3]

Trace metals such as Fe, Co, and Ni are crucial for biochemical processes; however, their excessive accumulation leads to oxidative stress, metabolic dysfunction, and cytotoxic effects in living organisms [1–2]. Cobalt, an essential element of vitamin B12 and widely applied in metallurgy, nanotechnology, and biomedical engineering, becomes highly toxic at elevated concentrations. Numerous studies report that corrosion of cobalt-containing implants (Co–Cr–Mo alloys) releases soluble ions, which induce inflammation, decrease osteocyte viability, and promote degenerative disorders [3–5]. In this study, a new solid-phase sorption–spectroscopic method based on the immobilized Nitroso-N-salt/silk fibroin matrix was developed for the selective determination of Co(II) ions in aqueous media. The system demonstrates high immobilization efficiency (94%), rapid reaction time (2 min), excellent sensitivity, and strong color contrast of the Nitroso-N-salt–Co(II) complex, making it suitable for environmental and industrial monitoring. Cobalt is widely used in catalysts, rechargeable batteries, alloy production, pigments, ceramic materials, and medical implants. Despite its significance, excessive cobalt exposure results in serious toxicological consequences, including: oxidative stress and mitochondrial dysfunction, cardiomyopathy and endocrine disorders, DNA damage and mutagenicity, inflammation and cellular apoptosis.

Corrosion of metal–metal hip implants is considered one of the primary sources of cobalt exposure in clinical patients [3,4]. Released Co(II) and Co(III) ions accumulate in local tissues, causing osteolysis and implant failure. Environmental contamination is also increasing due to metallurgical wastewater, mining, electroplating industries, and battery waste.

Therefore, the development of simple, rapid, selective, and cost-effective analytical methods for Co(II) determination is of high scientific importance. Traditional techniques such as ICP-OES, AAS, and voltammetry are highly sensitive but require expensive instrumentation and complex sample preparation. In contrast, solid-phase spectroscopic methods offer low cost, easy operation, and field applicability.

Silk fibroin-based materials have recently emerged as effective matrices for reagent immobilization due to their: high biocompatibility, porous structure, functional amino groups enabling covalent and ionic interactions, chemical and mechanical stability. In this work, Nitroso-N-salt (NNS), a well-known chromogenic reagent, is immobilized onto silk fibroin fibers to obtain a stable and selective solid-phase reagent for Co(II) determination. In this study, a highly efficient and selective analytical system - the immobilized Nitroso-N-salt/silk fibroin matrix - was successfully developed and optimized for the determination of Co(II) ions. The absorption spectra were analyzed to assess the spectral compatibility of the system components. The Nitroso-N-salt (NNS) reagent displays a characteristic absorption maximum at 368 nm with an absorbance of 0.34. Crucially, the silk fibrion matrix exhibits an extremely low and flat background absorbance, remaining below 0.03 across the measured range.

This low matrix interference is highly advantageous. It ensures that the spectrophotometric measurement of the Co(II) complex (which is expected to form a new absorption band, likely shifted beyond 445 nm can be performed with high selectivity and sensitivity, maximizing the signal-to-noise ratio. The Co^{2+} content is the determining factor for the analytical signal of the Co(II) complex with Nitroso-N-salt/silk fibrion matrix (V =100 ml, m = 0.2 g Nitroso-N-salt/silk fibrion, pH = 6.5 ± 0.5, T = 20 ± 2°C, t = 2 min). The dependence was examined in range 0.0001-0.1M Ce^{2+} concentrations. The findings validate the spectral suitability of the silk fibrion matrix for developing robust solid-phase analytical reagents. The optimal circumstances for determining Co(II) using an immobilized Nitroso-N-salt reagent on a silk fibrion matrix are presented in Table 1. The method demonstrates a high immobilization efficiency of 94% at pH 6.5–7.0, indicating optimal interaction between Nitroso-N-salt and silk fibrion under near-neutral conditions. The exceptionally rapid immobilization time of 2 minutes highlights the procedure's suitability for high-throughput analytical applications. A recovery rate of 99% confirms the method's accuracy, reliability, and minimal analyte loss during the immobilization process. In addition, the pronounced color contrast of the Nitroso-N-salt - Co(II) complex underscores the reagent's excellent sensitivity and selectivity.

Table 1.

Shows the optimal circumstances for calculating Co(II) using an immobilized silk fibrion matrix with Nitroso-N-salt (0.2)

Metall ions	Analytic reagent		Immobilized Nitroso-N-salt on silk fibrion matrix
Co(II)	Nitroso-N-salt	Color of complex	rifle-red
		λ_{HR}, nm	368
		λ_{MeR}, nm	445
		$\Delta\lambda$	77
		Immobilization pH	6.5-7.0
		Immobilization times, min.	2
		The effectiveness of immobilization, %	94
		Percentage of recovery, %	99

Overall, the proposed approach is robust, cost-effective, and well suited for environmental monitoring and industrial water quality assessment. In conclusion, this work establishes the Nitroso-N-salt/silk fibroin matrix as a reliable, eco-friendly, and economically viable solution for the quantification of Co(II) in the fields of environmental chemistry and resource management. Future efforts should be directed toward a deeper investigation into the reusability (regeneration) of this

immobilized system, as well as a more detailed exploration of the mechanism of selectivity toward other toxic metal ions, thereby contributing significantly to the advancement of analytical chemistry.

Abstract: A novel, highly sensitive, and selective method was developed for the determination of trace amounts of Cobalt(II) ions Co(II) in various water samples. The method utilizes a new polymer matrix based on silk fibroin, onto which Nitroso-N-salt has been immobilized. This modified matrix serves as an effective solid-phase extractant for the preconcentration of Co(II). The preconcentration technique, coupled with Atomic Absorption Spectrometry (AAS), significantly enhances the analytical capabilities. Maximum sensitivity for Co(II) determination using the selectively immobilized silk fibroin matrix was observed at a wavelength of 445 nm. The optimal pH for the complexation and subsequent determination of Co(II) was found to be in the range of 6.5 - 7.0, performed at ambient temperature.

Keywords: Co(II), Nitroso-N-salt, silk fibroin, immobilization, spectrophotometry, sorption–spectroscopic method.

REFERENCES

1. Bakahonov, A.A., Yakhshieva, Z.Z., & Kalonov, R.M. (2020). The influence of toxic and ecologically harmful components on the environment. EPRA International Journal of Research and Development (IJRD), 6(10), 92-94.
2. Asrorova Z.S. 2024. Determining the iron content in cement using special reagents and methods.Innovative technologies for producing composite,anti-corrosion,and construction materials based on local raw materials and industrial waste:Scientific and practical conference, 348.
3. Leisns, L., Vink, B., Van Dnr Strathen, K., Wuyts, F., & Mays, L. 2017. Cobalt toxicity in humans: A review of the potential sources and systemic health effects. Journal of Toxicology, 43-56.
4. Scharf, B., Clement, C., Zolla, V., Perino, J., Jan, B., Elchi, G., et al. (2014). Molecular analysis of the toxicity of chromium and cobalt. Nature Higgs at 10, 607, 345-351.
5. Kanaji, A., Orhue, V., Caicedo, M. S., Virdi, A. S., Sumner, D. R., Hallab, N. J., & Sena, K. (2014). Cytotoxic effects of cobalt and nickel ions on osteocytes in vitro. Journal of Orthopaedic Surgery and Research, 9(1), 88-96.

MÜASİR KƏND TƏSƏRRÜFATINDA EKOLOJİ RİSKLƏR VƏ ONLARIN AZALDILMASI YOLLARI

Nuridə Elşən qızı Həsənova
n.hasanova@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Kənd təsərrüfatı insan cəmiyyətinin ərzaq təminatında əsas rol oynayan sahələrdən biridir. Lakin əhalinin artması və ərzağa tələbatın yüksəlməsi aqrar istehsalın intensivləşdirilməsinə səbəb olmuşdur. Bu proses təbii ehtiyatlardan səmərəsiz istifadə, torpaq və su ekosistemlərinin çirklənməsi və ekoloji tarazlığın pozulması kimi problemləri aktuallaşdırmışdır [1].

Müasir kənd təsərrüfatında ekoloji risklərin düzgün qiymətləndirilməsi və onların azaldılması davamlı inkişafın təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu səbəbdən mövzunun elmi cəhətdən araşdırılması aktualdır.

Kənd təsərrüfatında tətbiq olunan mineral gübrələr və pestisidlər torpağın kimyəvi tərkibinə təsir edərək onun münbitliyinin azalmasına səbəb olur. Pestisid qalıqları torpaqdan su hövzələrinə keçərək su ekosistemlərində çirklənmə yaradır və canlı orqanizmlər üçün təhlükə formalaşdırır.

Suvarma sistemlərinin qeyri-səmərəli təşkili torpaqların şorlaşmasına və eroziya proseslərinin güclənməsinə gətirib çıxarır. Monokultura əkinçilik biomüxtəlifliyin azalmasına və aqroekosistemlərin dayanıqlığının zəifləməsinə səbəb olur [3].

Ekoloji risklərin azaldılması və ətraf mühitin qorunması məqsədilə inteqrə olunmuş zərərvericilərə qarşı mübarizə üsullarının (Integrated Pest Management – IPM) tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Bu yanaşma kimyəvi pestisidlərdən asılılığı azaldır, zərərvericilərin təbii

düşmənləri və bioloji nəzarət agentləri ilə idarə olunmasını təmin edir və eyni zamanda məhsulun keyfiyyətini və ətraf mühitin sağlamlığını qoruyur. IPM strategiyaları, monitorinq sistemləri və dövri qiymətləndirmələr vasitəsilə zərərvericilərin populasiya səviyyələri izlənilir və yalnız həqiqətən kritik həddə çatdıqda müdaxilə həyata keçirilir. Bu isə kimyəvi yükü və ekotoksik təsirləri minimuma endirir.

Bundan əlavə, üzvi kənd təsərrüfatı texnologiyalarının genişləndirilməsi ekoloji risklərin azaldılmasında mühüm rol oynayır. Üzvi texnologiyalar torpaq, su və hava çirkliliyini azaldır, kimyəvi gübrələr və sintetik pestisidlərdən istifadəni minimuma endirir, həmçinin yerli biomüxtəlifliyi qorumağa və torpağın uzunmüddətli münbitliyini təmin etməyə imkan yaradır. Bu yanaşma məhsul keyfiyyətinin artırılması ilə yanaşı istehlakçı sağlamlığının qorunmasına da xidmət edir. [2]

Torpaq mühafizəedici becərmə üsullarının tətbiqi isə eroziya, torpaq sıxılması və üzvi maddələrin itkisi kimi neqativ təsirlərin qarşısını alır. Müxtəlif becərmə texnikaları, məsələn, konservasiya torpaq işləmə, əkin növlərinin rotasiyası, örtük bitkilərinin əkilməsi və kontur əkinlər torpağın strukturu və su tutma qabiliyyətini qoruyur. Bu tədbirlər həm məhsuldarlığı artırır, həm də ekosistemlərin davamlılığını və iqlim dəyişikliklərinə qarşı müqavimətini yüksəldir.

Beləliklə, inteqrə olunmuş zərərvericilərə qarşı mübarizə, üzvi kənd təsərrüfatı və torpaq mühafizəedici texnologiyaların birgə tətbiqi, kənd təsərrüfatı sistemlərinin ekoloji dayanıqlılığını artırmaqla, həm ətraf mühiti qorumağa, həm də uzunmüddətli məhsuldarlığı təmin etməyə imkan yaradır. Bu yanaşmaların effektivliyi həm elmi, həm də praktik baxımdan təsdiq edilmişdir və müasir kənd təsərrüfatı siyasətində prioritet sahələrdən biri hesab olunur.

Nəticə: Aparılan təhlil göstərir ki, müasir kənd təsərrüfatında ekoloji risklər ətraf mühitin vəziyyətinə və aqroekosistemlərin davamlılığına ciddi təsir göstərir. Bu risklərin azaldılması üçün ekoloji əsaslı idarəetmə tədbirlərinin tətbiqi, fermerlərin maarifləndirilməsi və davamlı aqrar siyasətin həyata keçirilməsi zəruridir. Təklif olunan yanaşmalar kənd təsərrüfatının ekoloji baxımdan dayanıqlı inkişafına töhfə verə bilər.

ƏDƏBİYYAT

1. Səfərov, S. (2025). Azərbaycan'da müasir iqlim dəyişmələrinin bioekoloji aspektləri [Monoqrafiya]. Baku: Elm Nəşriyyatı.
2. Romanovskaya, A. A. (2023). Approaches to implementing ecosystem climate projects in Russia. Izvestiya Rossiiskoi Akademii Nauk. Seriya Geograficheskaya, 133(4), 45–59. https://journals.eco-vector.com/2587-5566/article/view/660748
3. Echebarria, C., & de Salazar, I. G. (2026). Bibliometric and literature review of research on nature-based solutions and climate change: Implications for policy and practice. Ambio, 55(1), 101–118. https://link.springer.com/article/10.1007/s13280-025-02273-y

ECOLOGİCAL RİSKS İN MODERN AGRİCULTURE AND STRATEGİES FOR THEİR MİTİGATİON

Nurida Elshan Hasanova
n.hasanova@atu.edu.az
Azerbaijan University of Technology

Although the intensive development of modern agriculture facilitates increased productivity, it is accompanied by heightened ecological risks. The main manifestations of these risks include soil and water pollution, excessive use of agrochemical substances, loss of biodiversity, and disruption of ecosystem balance. This thesis analyzes the ecological risks arising in agriculture, examines their mechanisms of impact on the environment, and presents scientifically substantiated approaches for their mitigation.

Keywords: Agriculture, ecological risks, soil degradation, agrochemicals, sustainable development

DEVELOPMENT OF A HIGHLY SENSITIVE HYBRID SORPTION–SPECTROSCOPIC APPROACH FOR QUANTITATIVE DETERMINATION OF FE(III) IONS IN AQUEOUS MEDIA

Aziza Matekeyeva[1]
Elmurod Egamberdiyev[1]
Uchkun Ruzmetov[2]
Tarana Aliyeva[3]
aziza_chemico@mail.ru
Tashkent State Technical University named after Islam Karimov[1]
National University of Uzbekistan named after Mirzo Ulugbek[2]
Baku State University[3]

Monitoring of heavy metal ion levels in environmental samples is a critical aspect of analytical chemistry due to their significant effects - both beneficial and harmful - on human health [1]. Trace amounts of heavy metals play an important role in human physiology, with some being essential for normal biological functions, while others can be toxic even at very low concentrations. The determination of trace levels of iron is particularly important in modern analytical chemistry. However, direct analysis of many environmental samples is often challenging due to matrix effects and the low concentrations of analytes [2]. Iron is vital for numerous physiological processes, including the synthesis of hemoglobin and myoglobin, production of neurotransmitters and myelin, regulation of the immune system, energy metabolism, nucleic acid (DNA and RNA) synthesis, and the facilitation of various enzymatic reactions [3].

In this work, we present the results obtained in developing a sorption–spectroscopic approach for the determination of Fe(III) ions. The application of PPF-1 as a sorbent bearing immobilized Ferron for the preconcentration of iron demonstrates clear advantages over traditional atomic absorption spectrophotometric methods. In particular, this system is characterized by its operational simplicity, a high degree of iron extraction, excellent sensitivity and selectivity toward Fe(III) ions, and overall low analytical cost. The optimal conditions for the determination of Fe(III) using the Ferron reagent immobilized on a PPF-1 matrix were established at wavelengths of 450 nm and 620 nm, respectively. The absorption spectra revealed a hypsochromic shift of 170 nm for the Fe(III)–Ferron complex compared with the immobilized reagent, confirming complex formation in solution, as shown in Fig.1.




Fig.1 The wavelength of the Ferron reagent (1), complex of Fe(III) ion with Ferron (2)

The complexation of Fe(III) ions with Ferron immobilized on the PPF-1 matrix demonstrates outstanding analytical performance across multiple critical parameters. The resulting complex exhibits a distinctive rifle-green color, with an absorption maximum at 450 nm (λ_{HR}) and a pronounced spectral shift ($\Delta\lambda$) of 170 nm, indicative of significant changes in the electronic environment upon complex formation. The observation of λ_{MeR} at 620 nm provides additional confirmation of complex formation, enabling precise and reliable monitoring in analytical applications. The method achieves a high immobilization efficiency of 99.7% at pH 2–3, ensuring optimal interaction between Ferron and Fe(III) ions. With an exceptionally rapid immobilization time of just 2 minutes, the procedure is highly suitable for high-throughput analyses. A recovery rate of 99% validates the method's reliability and minimal analyte loss. Furthermore, the pronounced color

contrast of the Ferron–Fe(III) complex emphasizes Ferron's function as a highly sensitive and selective reagent, rendering the method both robust and cost-effective for environmental monitoring and industrial water quality assessment. The PPF-1/Ferron hybrid sorbent developed in this study was effectively applied for the determination of Fe(III) ions in various real water samples, including technogenic, wastewater, industrial, and tap water. These results underscore the method's capability for trace-level Fe(III) analysis in complex aqueous matrices. To rigorously evaluate its reliability and analytical performance, recovery experiments were carried out by spiking the samples with known concentrations of Fe(III) (10.0 and 20.0 $\mu g \cdot mL^{-1}$).

The obtained data demonstrate the broad applicability of the PPF-1/Ferron hybrid sorbent for Fe(III) determination in diverse real water matrices. High and consistent recovery rates (97–99%) at both spiking levels confirm the method's excellent accuracy, reproducibility, and minimal matrix interference. Even in complex matrices such as industrial and technogenic waters, the sorbent maintained reliable and efficient performance, attesting to the robustness and practical utility of this approach for trace-level Fe(III) monitoring in environmental and industrial water samples. This study introduced a unique PPF-1 matrix with immobilized Ferron as an effective analytical reagent for the determination of Fe(III). For Fe(III) analysis using the immobilized Ferron, the optimal pH range was found to be 2.0–3.0, which ensured the maximum analytical signal. The selectively immobilized reagent proved to be highly suitable for Fe(III) measurement, with 620 nm identified as the optimal wavelength. Approximately 97–99% of Fe(III) present in technogenic, waste, and industrial water samples was adsorbed onto the Ferron/PPF-1 matrix. The findings confirm that the proposed immobilized reagent is highly efficient for the determination of Fe(III) in wastewater samples.

Abstract: A highly sensitive hybrid sorption–spectroscopic method for the quantitative analysis of iron(III) ions in aqueous media has been developed. The proposed approach combines the sorptive properties of specialized adsorbents with spectroscopic detection, providing high selectivity and sensitivity for Fe(III) determination even at trace concentrations. The method was optimized with respect to sorption conditions, spectroscopic measurement parameters, and the influence of the water matrix. The results demonstrate the broad applicability of the approach for water quality monitoring and the control of iron content in natural and domestic water systems. The developed method is recommended for analytical laboratories involved in environmental monitoring and assessment of aquatic resources.

Keywords: Hybrid sorption–spectroscopic method, Fe(III) ions, quantitative analysis, aqueous media, high sensitivity, water quality

REFERENCES

1. Mohammadi, S. Z., Shamspur, T., & Baghelani, Y. M. (2014). Determination of copper, nickel, manganese and cadmium ion in aqueous samples by flame atomic absorption spectrometry after simultaneous coprecipitation with Co(OH)2. *Arabian Journal of Chemistry*, *12*(7), 1751–1757. https://doi.org/10.1016/j.arabjc.2014.11.054

2. Ward, R. J., Dexter, D. T., & Crichton, R. R. (2015). Neurodegenerative diseases and therapeutic strategies using iron chelators. *Journal of Trace Elements in Medicine and Biology*, *31*, 267–273. https://doi.org/10.1016/j.jtemb.2014.12.012

3. Bilgiç, B., Tarhan, D., Ateş, F., Yaramiş, Ç. P., Koenhemsi, L., & Or, M. E. (2024). Investigation of trace and macro element contents in commercial cat foods. *Veterinary Medicine and Science*, *11*(1). https://doi.org/10.1002/vms3.70123

DAVAMLI KƏND TƏSƏRRÜFATI SİSTEMLƏRİNİN FORMALAŞMASINDA EKOLOJİ YANAŞMALARIN ROLU

Nuridə Elşən qızı Həsənova
n.hasanova@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Qlobal iqlim dəyişiklikləri, əhalinin artması və təbii ehtiyatların məhdudluğu kənd təsərrüfatında yeni idarəetmə modellərinin tətbiqini zəruri etmişdir. Ənənəvi intensiv aqrar istehsal formaları qısa müddətdə məhsuldarlığı artırsa da, uzunmüddətli perspektivdə torpaq və su ehtiyatlarının deqradasiyasına səbəb olur.

Bu baxımdan davamlı kənd təsərrüfatı sistemlərinin formalaşdırılması və ekoloji yanaşmaların geniş tətbiqi aktual elmi və praktiki problem kimi çıxış edir[1] .

Ekoloji yanaşmalar aqroekosistemlərin davamlılığını təmin etmək və təbii prosesləri qorumaq məqsədilə kənd təsərrüfatı istehsalında xüsusi metodların tətbiqini nəzərdə tutur. Bu yanaşma, məhsuldarlığı artırmaqla yanaşı, torpaq, su və bioloji resursların qorunmasını da təmin edən kompleks tədbirlər sistemini əhatə edir. Torpaq mühafizəedici becərmə üsulları bu strategiyanın əsas komponentlərindən biridir və torpağın eroziya, sıxılma və deqradasiya risklərini minimuma endirir. Məsələn, konservasiya torpaq işləmə, kontur əkin, örtük bitkilərinin əkilməsi və əkin növlərinin dövriyyəsi kimi texnologiyalar torpaq strukturunun yaxşılaşdırılmasına, su tutma qabiliyyətinin artırılmasına və üzvi maddələrin saxlanmasına imkan yaradır[2].

Üzvi gübrələrin istifadəsi torpağın bioloji və kimyəvi mühitini gücləndirir, mikroorqanizmlərin fəaliyyətini stimullaşdırır və torpağın uzunmüddətli münbitliyini qoruyur. Kimyəvi gübrələrdən fərqli olaraq, üzvi gübrələr tərkibində zərərli qalıqlar buraxmır, ətraf mühitə və su resurslarına mənfi təsiri minimuma endirir. Bu, həm məhsul keyfiyyətinə müsbət təsir göstərir, həm də ekosistemin təbii dövran funksiyalarını dəstəkləyir [3].

Əkin dövriyyəsinin təşkili isə torpaq üzərində müxtəlif bitki növlərinin planlı şəkildə əkinini nəzərdə tutur. Bu metod torpağın mineral balansının qorunmasına, zərərvericilərin və xəstəliklərin təbii şəkildə tənzimlənməsinə, həmçinin eroziya və torpaq yorğunluğunun qarşısının alınmasına şərait yaradır. Bitkilərin rotasiyası torpaq strukturu üçün balanslı qida maddələrinin təmin edilməsini dəstəkləyir və ekosistemlərin bioloji müxtəlifliyinin qorunmasına töhfə verir.

Su ehtiyatlarının səmərəli idarə olunması davamlı kənd təsərrüfatının əsas komponentlərindən biridir. Damcı suvarma və yağmurlama sistemlərinin tətbiqi su itkilərini azaldır və bitkilərin su təminatını optimallaşdırır.

Biomüxtəlifliyin qorunması aqroekosistemlərin dayanıqlığını artırır. Polikultura əkinçilik, bioloji mübarizə üsulları və təbii düşmənlərin qorunması zərərvericilərə qarşı kimyəvi maddələrdən asılılığı azaldır və ekoloji tarazlığı möhkəmləndirir.

Nəticə: Aparılan təhlil göstərir ki, ekoloji yanaşmaların tətbiqi davamlı kənd təsərrüfatı sistemlərinin formalaşmasında həlledici rol oynayır. Torpaq və su ehtiyatlarının qorunması, biomüxtəlifliyin artırılması və ekoloji əsaslı idarəetmə tədbirlərinin həyata keçirilməsi kənd təsərrüfatının uzunmüddətli dayanıqlığını təmin edə bilər. Bu yanaşmalar həm ekoloji, həm də sosial-iqtisadi baxımdan müsbət nəticələr verir.

ƏDƏBİYYAT

1. Aliyev, Z. H. (2025). Erosion-Ecological Dangers of Land in Azerbaijan and Their Solutions. Open Access Journal of Agricultural Research.
2. Abbaslı, E. (2025). Azərbaycanda torpaq örtüyünün ekoloji problemləri və onların aradan qaldırılması yolları. Azərbaycan Dövlət İqtisad Universiteti. çətinlikləri təhlil edir.
3. Azərbaycan Respublikasında torpaq eroziyası: ekoloji və sosial problemlər. (2025). Soil erosion problem in Azerbaijan. Prezident Kitabxanası.

THE ROLE OF ECOLOGICAL APPROACHES IN THE FORMATION OF SUSTAINABLE AGRICULTURAL SYSTEMS

Nurida Elshan qizi Hasanova
n.hasanova@atu.edu.az
Azerbaijan Technological University

Sustainable agriculture is a comprehensive approach aimed at the efficient use of natural resources, the protection of ecosystems, and the обеспечение of long-term food security. The application of ecological approaches plays a significant role in maintaining soil fertility, conserving water resources, and enhancing biodiversity. This thesis analyzes the role of ecological approaches in the formation of sustainable agricultural systems and explores the possibilities for their practical implementation.

Keywords: Sustainable agriculture, ecological approaches, agroecosystem, biodiversity, natural resources

TƏBİİ VƏ TEXNOGEN FÖVQƏLADƏ HALLARIN HƏYAT FƏALİYYƏTİNİN TƏHLÜKƏSİZLİYİNƏ TƏSİRİNİN TƏHLİLİ

Nuridə Elşən qızı Həsənova
n.hasanova@atu.edu.az
Fikrət Cəlal oğlu Əmiraslanov
f.emiraslanov@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Həyat fəaliyyətinin təhlükəsizliyi insanın gündəlik yaşayış və əmək fəaliyyətində sağlamlığının qorunmasını, həyat keyfiyyətinin təmin olunmasını və fövqəladə hallar zamanı risklərin minimuma endirilməsini hədəfləyən mühüm sahədir. Müasir dövrdə insan fəaliyyətinin intensivləşməsi, urbanizasiyanın sürətlənməsi və sənayeləşmə proseslərinin genişlənməsi ətraf mühitə ciddi təzyiqlər göstərir və bunun nəticəsində təbii və texnogen fövqəladə hallar riskləri əhəmiyyətli dərəcədə artır [1].

Təbii fövqəladə hallar — zəlzələlər, sel və daşqınlar, quraqlıqlar, meşə yanğınları və digər iqlimlə bağlı hadisələr — ekosistemlərin stabilliyini pozur, infrastruktur və sosial sistemlərə ciddi ziyan vurur. Texnogen fövqəladə hallar isə sənaye qəzalari, kimyəvi və radioaktiv çirklənmələr, nəqliyyat qəzaları və digər insan fəaliyyəti ilə bağlı hadisələri əhatə edir. Hər iki növ fövqəladə hallar insan cəmiyyətinin sosial-iqtisadi inkişafına, əhalinin təhlükəsiz yaşayış mühitinə və ekoloji tarazlığa mənfi təsir göstərir.

Bu səbəbdən həyat fəaliyyətinin təhlükəsizliyinin təmin edilməsi yalnız texniki və inzibati tədbirlərlə deyil, həm də elmi əsaslı yanaşmalarla həyata keçirilməlidir. Bu yanaşmalar risklərin qiymətləndirilməsi, təhlili və idarə olunmasını əhatə edir, fövqəladə hallar zamanı operativ qərarların qəbulunu, preventiv tədbirlərin planlaşdırılmasını və əhalinin maarifləndirilməsini təmin edir [2].

Müasir elmi tədqiqatlar göstərir ki, fövqəladə hallar risklərinin idarə olunması yalnız insan həyatı və sağlamlığının qorunması üçün vacib deyil, həm də iqtisadi sabitliyin və ekoloji tarazlığın qorunması üçün strateji əhəmiyyət daşıyır. Bu səbəbdən fövqəladə hallar şəraitində həyat fəaliyyətinin təhlükəsizliyinin kompleks elmi təhlili, qabaqlayıcı və adaptiv tədbirlərin işlənib hazırlanması və onların tətbiqi müasir cəmiyyət üçün prioritet istiqamət hesab olunur [3].

Təbii fövqəladə hallar əsasən seysmik proseslər, meteoroloji hadisələr və geoloji risklər nəticəsində meydana çıxır. Zəlzələlər və daşqınlar yaşayış məntəqələrinin infrastrukturuna ciddi ziyan vurur, əhalinin həyat şəraitini təhlükə altına alır.

Texnogen fövqəladə hallar isə sənaye obyektlərində baş verən qəzalar, kimyəvi maddələrin sızması, nəqliyyat qəzaları və enerji sistemlərində nasazlıqlarla əlaqədardır. Bu cür hadisələr insan sağlamlığına birbaşa təhlükə yaradır və uzunmüddətli ekoloji problemlərə səbəb ola bilər.

Həyat fəaliyyətinin təhlükəsizliyinin təmin olunması üçün risklərin qabaqcadan qiymətləndirilməsi, xəbərdarlıq sistemlərinin qurulması və əhalinin maarifləndirilməsi mühüm rol oynayır. Fövqəladə hallara hazırlıq tədbirləri itkilərin minimuma endirilməsinə şərait yaradır.

Nəticə: Aparılan təhlil göstərir ki, təbii və texnogen fövqəladə hallar həyat fəaliyyətinin təhlükəsizliyinə ciddi təsir göstərir. Təhlükəsizliyin təmin olunması üçün risklərin idarə edilməsi sistemlərinin təkmilləşdirilməsi, profilaktik tədbirlərin gücləndirilməsi və institusional əməkdaşlığın artırılması zəruridir. Bu yanaşmalar əhalinin təhlükəsizliyinin və dayanıqlı inkişafın təmin olunmasına xidmət edir.

ƏDƏBİYYAT

1. Abbaslı, E. (2025). Azərbaycanda torpaq örtüyünün ekoloji problemləri və onların aradan qaldırılması yolları
2. Mammadova, A., Ismayılov, N., & Mammadova, R. (2024). The role of systemic bio-diagnostics in stabilizing and improving the ecological state in Azerbaijan within the framework of sustainable development. Baku State University Journal of Life Sciences & Biology.
3. Khalilov, I., & Mammadov, E. (2025). Ecological aspects of the development of ecological, circular and green economy and Azerbaijan realities. Journal of Economics and Management Advances, 1(2), 103–113.

ANALYSİS OF THE IMPACT OF NATURAL AND TECHNOGENİC EMERGENCİES ON LİFE SAFETY

Hasanova Nurida Elshan
n.hasanova@atu.edu.az
Amiraslanov Fikrat Jalal
f.emiraslanovatu.edu.az
Azerbaijan Technological University

Natural and technogenic emergencies are among the main risk factors that pose a significant threat to life safety in modern society. The increase in earthquakes, floods, landslides, industrial accidents, and other technogenic incidents is accompanied by human casualties, material damage, and ecological consequences. This thesis analyzes the impact of natural and technogenic emergencies on life safety, presents methods for risk assessment, and proposes scientifically grounded approaches to ensure safety and minimize associated risks.

Keywords: Emergencies, life safety, natural hazards, technogenic hazards, risk management

BEŞİNCİ SƏNAYE İNQİLABI ŞƏRAİTİNDƏ UNİVERSİTETLƏRİN EKOLOJİ VƏ DAVAMLI ŞƏHƏRSALMA ÜZRƏ ROLU

Nuridə Elşən qızı Həsənova
n.hasanova@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Müasir inkişaf mərhələsində Beşinci sənaye inqilabı texnoloji tərəqqinin yeni fazası olmaqla yanaşı, insan–təbiət münasibətlərinin yenidən dəyərləndirildiyi konseptual model kimi çıxış edir. Bu mərhələdə prioritet yalnız innovasiya və rəqəmsallaşma deyil, həm də ekoloji tarazlığın qorunması, dayanıqlı inkişafın təmin olunması və urban mühitdə həyat keyfiyyətinin yüksəldilməsidir. Xüsusilə "Şəhərsalma və memarlıq ili" kontekstində bu yanaşma daha da aktuallaşır və urbanizasiyanın ekoloji aspektlərinin elmi əsaslarla tənzimlənməsini zəruri edir. Bu baxımdan universitetlər həm elmi-tədqiqat, həm də strateji planlaşdırma mərkəzi kimi mühüm rol oynayır.

Ekologiya və şəhərsalma kəsişməsində universitetlərin fəaliyyəti ilk növbədə dayanıqlı şəhər modellərinin işlənib hazırlanmasına yönəlir. Yaşıl memarlıq, enerji səmərəli binalar, ekoloji cəhətdən balanslaşdırılmış infrastruktur və urban ekosistemlərin qorunması kimi istiqamətlər müasir tədqiqatların əsas predmetini təşkil edir. Bu sahədə universitetlər tərəfindən aparılan elmi araşdırmalar şəhərlərdə karbon emissiyalarının azaldılması, yaşıllıq zonalarının genişləndirilməsi, su və tullantı idarəçiliyinin optimallaşdırılması kimi məsələlərin həllinə töhfə verir. Eyni zamanda, "ağıllı şəhər" konsepsiyası çərçivəsində rəqəmsal texnologiyaların tətbiqi urban mühitin daha effektiv idarə olunmasına imkan yaradır.

Universitetlərin digər mühüm funksiyası ekoloji və urban düşüncəyə malik mütəxəssislərin hazırlanmasıdır. Beşinci sənaye inqilabı dövründə memarlıq və şəhərsalma sahəsində fəaliyyət göstərən kadrlar yalnız texniki biliklərlə kifayətlənməməli, həm də ekoloji məsuliyyət, sosial inklüzivlik və davamlılıq prinsiplərini mənimsəməlidirlər. Bu baxımdan tədris proqramlarında yaşıl memarlıq, landşaft planlaşdırılması, iqlimə uyğun layihələndirmə və şəhər ekologiyası kimi fənlərin inteqrasiyası xüsusi əhəmiyyət kəsb edir. Praktiki layihələr, sahə tədqiqatları və real urban problemlər üzərində işləmək tələbələrin peşəkar kompetensiyalarını gücləndirir.

Lakin bu istiqamətdə fəaliyyət bir sıra çağırışlarla üzləşir. Sürətli urbanizasiya və əhali artımı şəhər mühitinə antropogen təzyiqləri artırır, nəticədə hava çirklənməsi, istilik adası effekti, yaşıllıq sahələrinin azalması kimi problemlər daha da dərinləşir. Digər tərəfdən, ekoloji yönümlü layihələrin həyata keçirilməsi üçün maliyyə resurslarının məhdudluğu, normativ-hüquqi bazanın qeyri-kafi inkişafı və innovativ texnologiyaların tətbiqində institusional maneələr mövcuddur. Universitetlər bu problemlərin həllində həm elmi əsaslandırma, həm də praktiki tövsiyələr təqdim etməklə çıxış etməlidir.

Bununla yanaşı, mövcud şərait geniş imkanlar da yaradır. Beşinci sənaye inqilabı çərçivəsində inkişaf edən rəqəmsal texnologiyalar – coğrafi informasiya sistemləri, məsafədən zondlama, böyük verilənlərin analizi – şəhərsalma proseslərinin daha dəqiq planlaşdırılmasına imkan verir. Universitet–sənaye–dövlət əməkdaşlığı çərçivəsində həyata keçirilən layihələr şəhərlərin ekoloji cəhətdən davamlı inkişafını təmin edir. "Yaşıl kampus" modellərinin tətbiqi isə universitetlərin özlərinin də nümunəvi ekoloji mühitə çevrilməsinə şərait yaradır.

Nəticə: Nəticə etibarilə, Beşinci sənaye inqilabı və "Şəhərsalma və memarlıq ili" kontekstində universitetlər urban-ekoloji problemlərin həllində əsas intellektual və innovativ mərkəz kimi çıxış edir. Onların fəaliyyəti dayanıqlı şəhər mühitinin formalaşdırılmasına, ekoloji təhlükəsizliyin təmin olunmasına və gələcək nəsillər üçün sağlam yaşayış mühitinin yaradılmasına yönəlməlidir. Bu məqsədlə universitetlər çevik idarəetmə, interdisiplinar yanaşma və beynəlxalq əməkdaşlıq prinsiplərinə əsaslanaraq öz strateji rolunu daha da gücləndirməlidir. Beləliklə, elm, təhsil və innovasiyanın sinerjisi əsasında formalaşan

universitetlər Beşinci sənaye inqilabının ekoloji və urban inkişaf modelinin əsas hərəkətverici qüvvəsi kimi çıxış edə bilər.

ƏDƏBİYYAT

1. European Commission. (2021). Industry 5.0: Towards a sustainable, human-centric and resilient European industry. Brussels.
2. United Nations. (2015). Transforming our world: The 2030 Agenda for Sustainable Development.
3. IPCC. (2022). Climate Change 2022: Impacts, Adaptation and Vulnerability. Cambridge University Press.
4. UN-Habitat. (2020). World Cities Report 2020: The Value of Sustainable Urbanization.
5. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi. (2022). Azərbaycanın ətraf mühit vəziyyəti haqqında milli hesabat. Bakı.

THE ROLE OF UNİVERSİTİES İN ECOLOGİCAL AND SUSTAİNABLE URBAN DEVELOPMENT İN THE CONTEXT OF THE FİFTH INDUSTRİAL REVOLUTİON

Hasanova Nurida Elshan
n.hasanova@atu.edu.az
Azerbaijan Technological University

The Fifth Industrial Revolution represents a new stage of development that, alongside technological advancement, prioritizes the balance between humans and nature. In this context, particularly within the framework of the "Year of Urban Planning and Architecture," the creation of ecologically sustainable urban environments becomes increasingly relevant. Universities play a central role in this process by conducting scientific research, promoting the development of green technologies, and preparing specialists with an ecological mindset.

At the same time, rapid urbanization, limited resources, and escalating environmental challenges present significant obstacles for universities. However, the application of digital technologies, international collaborations, and the strengthening of university–industry–government partnerships offer extensive opportunities for establishing sustainable urban environments.

Keywords: Fifth Industrial Revolution, ecological sustainability, urban planning and architecture, role of universities, sustainable development

SMART TEXNOLOGİYALARIN ŞƏHƏR TƏHLÜKƏSİZLİYİNƏ TƏSİRİNİN TƏHLİLİ

Nuridə Elşən qızı Həsənova
n.hasanova@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Urbanizasiya və texnoloji inkişaf şəhərlərin təhlükəsizliyi sahəsində yeni çağırışlar ortaya çıxarmışdır. Şəhərlərin sürətlə genişlənməsi, sənaye zonalarının şəhər ərazilərinə yaxın yerləşdirilməsi, sıx yaşayış sahələrinin artması və infrastruktur obyektlərinin intensiv fəaliyyəti potensial risk faktorlarını artırır. Bu risklər arasında texnogen qəzalar, yanğınlar, nəqliyyat hadisələri, sənaye tullantılarının çirkləndirici təsirləri və təbii fövqəladə hallar zamanı ziyan ehtimalı xüsusi əhəmiyyət kəsb edir.

Müasir dövrdə smart texnologiyalar şəhərlərin təhlükəsizliyinin təmin olunmasında əsas alətlərdən birinə çevrilmişdir. Bu texnologiyalar vasitəsilə real vaxt rejimində məlumat toplamaq, riskləri əvvəlcədən proqnozlaşdırmaq və fövqəladə hallara operativ cavab vermək mümkündür. Məsələn, IoT (Internet of Things) sensorları şəhərin hava keyfiyyətini, su və enerji resurslarının vəziyyətini, habelə infrastruktur obyektlərinin texniki vəziyyətini

izləməyə imkan verir. Bu məlumatlar əsasında risklərin qiymətləndirilməsi aparılır və preventiv tədbirlər planlaşdırılır [3].

Eyni zamanda, smart şəhər həlləri fövqəladə hallara cavab mexanizmlərini optimallaşdırır. Məsələn, ağıllı xəbərdarlıq sistemləri və avtomatlaşdırılmış təcili yardım çağırışları əhalinin təhlükəsizliyini artırır, insidentlərin təsirlərini minimuma endirir və təxliyyə proseslərinin səmərəliliyini yüksəldir. Analitik alqoritmlər və məlumat emal platformaları risk faktorlarının identifikasiyası və prioritetləşdirilməsində mühüm rol oynayır, beləliklə şəhər idarəçilərinə strateji qərarlar qəbul etməyə imkan yaradır.

Bununla yanaşı, texnoloji həllər urbanizasiya nəticəsində yaranan sosial və ekoloji çağırışlarla da bağlıdır. Məsələn, smart nəqliyyat sistemləri tıxacların və emissiyaların azaldılmasına kömək edir, şəhər ekosisteminin dayanıqlığını artırır və sakinlərin həyat keyfiyyətini yaxşılaşdırır. Nəticədə, urbanizasiya və texnoloji inkişaf şəhər təhlükəsizliyinin təmin olunmasında həm yeni risklər, həm də innovativ həllər gətirir. Bu səbəbdən smart texnologiyaların tətbiqi, risklərin idarə olunması və davamlı şəhər strategiyalarının işlənib hazırlanması müasir şəhərsalma siyasətində prioritet istiqamət kimi qəbul edilir.

Bu texnologiyaların inteqrasiyası şəhərsalma və təhlükəsizlik strategiyalarının daha effektiv və sürətli olmasına imkan yaradır [1].

Müasir texnologiyalar şəhərlərin təhlükəsizliyinin təmin edilməsində mühüm vasitələrdən birinə çevrilmişdir və bunlar arasında sensor şəbəkələri, dronlar, ağıllı kameralar və erkən xəbərdarlıq sistemləri xüsusi əhəmiyyət kəsb edir. Sensor şəbəkələri ətraf mühitin davamlı monitorinqini təmin edir, atmosfer havasının keyfiyyətini, su səviyyələrini, torpaq nəmliyini və hətta zəlzələ aktivliyini real vaxt rejimində izləməyə imkan verir. Bu məlumatlar şəhər ekosisteminin vəziyyətini qiymətləndirmək, potensial riskləri qabaqcadan müəyyənləşdirmək və preventiv tədbirlər görmək üçün əsaslı elmi baza yaradır [2].

Dronlar və ağıllı kameralar fövqəladə hallar zamanı hadisə yerinə sürətli və effektiv baxış təmin edir. Onlar yüksək dəqiqliklə məlumat toplayaraq ziyan dərəcəsini qiymətləndirməyə, itkiləri minimuma endirmək üçün operativ qərarlar qəbul etməyə və fövqəladə yardım xidmətlərinin koordinasiyasını təmin etməyə imkan verir. Bu texnologiyalar həmçinin insan resurslarından asılılığı azaldır, təhlükəli sahələrdə operativ müdaxilənin effektivliyini artırır və real zamanlı situasiya məlumatı təqdim edir.

Erkən xəbərdarlıq sistemləri əhalini potensial təhlükələr barədə vaxtında məlumatlandırmaq üçün xüsusi əhəmiyyət daşıyır. Bu sistemlər zəlzələ, daşqın, qasırğa, sənaye qəzası və digər fövqəladə hallar riskini qabaqcadan təhlil edir, siqnallar və xəbərdarlıq mesajları vasitəsilə insanları təhlükəli zonalardan uzaqlaşdırmaq, evakuasiya planlarını icra etmək və insidentlərin nəticələrini minimuma endirmək üçün imkan yaradır.

Bütün bu texnoloji həllər bir-biri ilə inteqrasiya edildikdə, şəhər idarəetməsində risklərin idarə olunması daha effektiv və elmi əsaslı olur. Sensor məlumatları analitik alqoritmlərlə işlənir, dron və kameraların görüntüləri ilə birləşdirilir, erkən xəbərdarlıq sistemi vasitəsilə əhaliyə çatdırılır. Nəticədə, şəhər mühitində həyat təhlükəsizliyi artır, fövqəladə hallar zamanı insidentlərin təsiri minimuma endirilir və davamlı şəhər strategiyalarının həyata keçirilməsi üçün dayanıqlı infrastruktur yaradılır.

Smart texnologiyaların tətbiqi həmçinin şəhər infrastrukturunun optimallaşdırılmasına, polis və yanğın xidmətlərinin resurslarının səmərəli istifadəsinə və ictimai təhlükəsizliyin yüksəldilməsinə xidmət edir.

Nəticə: Aparılan təhlil göstərir ki, smart texnologiyalar şəhər təhlükəsizliyinin artırılmasında effektiv vasitələrdir. Sensor sistemləri, dronlar və erkən xəbərdarlıq texnologiyalarının inteqrasiyası şəhər infrastrukturunun dayanıqlığını yüksəldir, fövqəladə hallara cavab sürətini artırır və əhalinin təhlükəsizliyini təmin edir.

ƏDƏBİYYAT

1. Василенко, И. А., Василенко, Е. В., & Люлько, А. Н. (2018). *Умный город XXI века: возможности и риски* [Monograph]. Международные отношения.
2. Никитаева, А. У. (2022). *Умные города и территории: учебное пособие*. Издательство.
3. Мунистер, В. Д., Шестакова, А. Ю., Нестеров, Э. Е., & Чащина, Е. А. (2019). *IoT&Build. Умный город: учебно-практическое издание*. Издательство.

ANALYSİS OF THE IMPACT OF SMART TECHNOLOGİES ON URBAN SAFETY

Nurida Elshan Hasanova
n.hasanova@atu.edu.az
Azerbaijan Technological University

Smart technologies provide new opportunities for ensuring urban safety and protecting life in city environments. Sensor systems, early warning platforms, drones, and intelligent monitoring technologies contribute to reducing risks in urban infrastructure, accelerating responses to emergencies, and enhancing citizens' safety. This thesis analyzes the impact of smart technologies on urban security, examining their application possibilities and associated benefits.

Keywords: Smart technologies, urban safety, drones, early warning, sensor systems

YAŞIL İNKİŞAF İNFRASTRUKTURUNUN ŞƏHƏRSALMA VƏ MEMARLIĞA TƏSİRİNİN TƏHLİLİ

Nuridə Elşən qızı Həsənova
n.hasanova@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Şəhərlərin sürətli genişlənməsi müasir urbanizasiya proseslərinin təbii nəticəsi olmaqla, şəhərsalma və memarlıq sahəsində yeni çağırışlar ortaya çıxarmışdır. Əhalinin artımı, sənayeləşmə və nəqliyyat intensivliyinin yüksəlməsi şəhər ekosistemlərinə ciddi təzyiq göstərir və bu, şəhər mühitində həyat keyfiyyətinin azalmasına səbəb olur. İqlim dəyişiklikləri ilə birlikdə urban istilik adası effekti şəhər sahələrində temperaturun ətraf ərazilərdən daha yüksək olmasına gətirib çıxarır ki, bu da enerji sərfiyyatının artması, hava keyfiyyətinin pisləşməsi və insanların sağlamlığına mənfi təsir göstərir. Havanın çirklənməsi, əsasən sənaye fəaliyyətləri, nəqliyyat vasitələrinin emissiyaları və ətraf mühitin qeyri-sabit idarə olunması nəticəsində daha da şiddətlənir.

Bu çağırışlar şəhərsalma və memarlıq planlamasında yaşıl infrastruktura diqqətin artırılmasını zəruri edir. Yaşıl infrastruktur — parklar, yaşıllıqlar, ağac zolaqları, yaşıl damlar və ekosistem əsaslı həllər kimi elementləri əhatə edən şəhər planlaşdırma strategiyasıdır — həm ekoloji, həm də sosial faydalar təmin edir. Yaşıl sahələr hava keyfiyyətini yaxşılaşdırır, urban istilik adası effektini azaldır, yağış sularının idarə

olunmasını asanlaşdırır və şəhər sakinlərinin fiziki və psixoloji sağlamlığına müsbət təsir göstərir.

Eyni zamanda, yaşıl infrastruktur şəhər planlamasında strateji rol oynayır, çünki o, davamlı şəhər inkişafı prinsiplərinin həyata keçirilməsinə şərait yaradır. Ekoloji balansın qorunması, təbii resurslardan səmərəli istifadə, enerji qənaəti və bioloji müxtəlifliyin qorunması yaşıl infrastruktur vasitəsilə daha effektiv şəkildə təmin olunur. Bu səbəbdən müasir şəhərsalma siyasətində və memarlıq qərarlarında yaşıl infrastruktura inteqrasiya, şəhər ərazilərində davamlı həyat keyfiyyətinin artırılması və ekoloji risklərin azaldılması üçün prioritet strategiya hesab olunur.

Yaşıl infrastruktur şəhər ekosistemlərinin dayanıqlığını artırır, su və torpaq ehtiyatlarının idarə olunmasına kömək edir, həmçinin əhalinin sosial və psixoloji rifahını yaxşılaşdırır.

Parklar və yaşıllıqlar şəhər mühitində havanın temperaturunu tənzimləyir, karbon dioksidi azaldır və oksigen istehsalını artırır. Yaşıllı damlar və divarlar enerji səmərəliliyini yüksəldərək binaların istilik yükünü azaldır. Bu yanaşmalar həm şəhərsalma, həm də memarlıq sahəsində ekoloji və iqtisadi faydalar təmin edir.

Yaşıl infrastrukturun planlaşdırılması və tətbiqi şəhərsalma qərarlarında əhalinin təhlükəsizliyini və rahatlığını artırır. İnsanların ictimai və yaşıllıq zonalarına çıxışı, təbii fəlakətlər zamanı təhlükəsiz bölgələrin mövcudluğu və şəhər ekosistemlərinin dayanıqlığı bu yanaşmaların praktiki nəticələridir.

Nəticə: Aparılan təhlil göstərir ki, yaşıl infrastruktur şəhərsalma və memarlıqda ekoloji, sosial və iqtisadi baxımdan mühüm əhəmiyyət daşıyır. Şəhər planlamasında yaşıl infrastruktur elementlərinin inteqrasiyası davamlı və ekoloji uyğun şəhər mühitinin yaradılmasına imkan verir.

ƏDƏBİYYAT

1. Əliyev, R. (2024). Urbanizasiya və şəhər mühitində ekoloji problemlər: Bakı şəhəri nümunəsi. Azərbaycan Memarlıq və Şəhərsalma Jurnalı, 15(2), 45–59.
2. Həsənova, N. (2025). Yaşıl infrastruktur və şəhərsalma strategiyaları: Azərbaycanda tətbiq imkanları. Azərbaycan Ekologiya və Memarlıq Jurnalı, 6(1), 22–38.
3. Məmmədov, E., & Quliyev, T. (2023). İqlim dəyişiklikləri və şəhər mühitinə təsirlərin idarə olunması: Urban istilik adası effekti və həll yolları. Azərbaycan İqlim və Ətraf Mühit Jurnalı, 12(3), 101–115.

ANALYSİS OF THE IMPACT OF GREEN INFRASTRUCTURE ON URBAN PLANNİNG AND ARCHİTECTURE

Nurida Elshan Hasanova
n.hasanova@atu.edu.az
Azerbaijan Technological University

Green infrastructure plays a crucial role in maintaining ecological balance, promoting public health, and ensuring life safety in urban environments. Parks, green spaces, urban gardens, and green roofs improve microclimatic conditions while providing social and economic benefits. This thesis analyzes the impact of green infrastructure on urban planning and architecture, examining sustainable and ecologically compatible design solutions within the urban environment.

Keywords: Green infrastructure, urban planning, architecture, sustainable development, ecological balance

TİBBİ TULLANTILARIN ƏTRAF MÜHİTƏ TƏSİRİ VƏ EKOLOJİ RİSKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

Nəsibə Volodiya qızı Nəsirova[1]
nasir.nasirova@rambler.ru
Zeynəb Şahin qızıTalıbzadə[2]
z.talibzade@atu.edu.az
Gəncə Dövlət Universiteti[1]
Azərbaycan Texnologiya Universiteti[2]

Tibbi tullantılar (bəzən "səhiyyə fəaliyyəti tullantıları" və ya "health‑care waste" adlandırılır) səhiyyə müəssisələri, laboratoriyalar, tədqiqat mərkəzləri və digər tibbi fəaliyyət sahələrində yaranan tullantılardır. Bu tullantılar infeksion, kimyəvi, radiasiya dərəcəsinə malik ola bilər və səhiyyə fəaliyyətinin məqsədindən asılı olaraq müxtəlif kateqoriyalara bölünürlər. Dünya Sağlamlıq Təşkilatının məlumatına görə, səhiyyə sistemləri tərəfindən yaranan tullantıların təxminən 85 %-i qeyri‑təhlükəli ev təsərrüfatı tullantılarına oxşar materiallardan ibarətdir, lakin təxminən 15 % təhlükəli hesab olunur və potensial olaraq yoluxucu, toksik və ya radioaktiv təsirə malikdir.

Tibbi tullantıların düzgün idarə olunmaması ətraf mühit və insan sağlamlığı üçün çoxşaxəli risklər yaradır. Bu risklərə sağlamlıq işçiləri və əhali üçün infeksiya yayılması, kimyəvi maddələrin və ağır metalların torpaq və su resurslarına daxil olması, oksidləşdirici və toksik maddələrin atmosferə buraxılması daxildir. Çirklənmiş tibbi tullantıların yer səthinə atılması və ya düzgün zərərsizləşdirilməməsi nəticəsində toksik komponentlər ətraf mühitə yayılaraq canlıların bioloji sistemlərinə daxil ola və ekosistem xidmətlərini poza bilər.

Xüsusilə, aşağı və orta gəlirli ölkələrdə tibbi tullantıların təhlükəsiz idarə olunması hələ də ciddi problemlərlə üzləşir. Məsələn, 2021‑ci il WHO/UNICEF məlumatına əsasən, qlobal səviyyədə yalnız 61 % səhiyyə müəssisələri əsas tibbi tullantı idarəetmə xidmətləri ilə təmin olunmuşdur, daha da çətin şəraitdə isə bu göstərici cəmi 25 %‑ə qədər endirilmişdir. Bu, səhiyyə tullantılarının hələ də bir çox bölgələrdə düzgün ayrılmaması və zərərsizləşdirilməməsi ilə nəticələnir ki, bu da onların ətraf mühitə və insan sağlamlığına daha da ciddi təsir göstərməsi anlamına gəlir. Tədqiqatın məqsədi tibbi tullantıların ətraf mühitə təsir mexanizmlərini statistik məlumatlarla təhlil etmək, onların yaratdığı ekoloji riskləri qiymətləndirmək və mövcud idarəetmə sistemlərinin yetərliyini nəzərdən keçirməkdir. Bu kontekstdə, konfrans işində həm qlobal statistika, həm də idarəetmə yanaşmalarının ekoloji nəticələri əsaslandırılacaq.

Tibbi tullantıların formalaşması, kateqoriyaları və miqyası: Tibbi tullantılar müxtəlif mənbələrdən yaranır: xəstəxanalar, poliklinikalar, laboratoriyalar, ilk tibbi yardım mərkəzləri və digər səhiyyə strukturları. WHO‑nun statistikası göstərir ki, səhiyyə fəaliyyəti tullantılarının təxminən 15 %‑i təhlükəli materialdan ibarət olsa da, bu hissə ayrı‑ayrı ölkələrdə daha yüksək səviyyədə qeydə alına bilir və bəzən düzgün çeşidlənmə olmadan sistematik olaraq qarışıq şəkildə idarə edilir. Təhlükəli tibbi tullantıların kateqoriyaları arasında infeksion tullantılar, yoluxuculuq riski olan materiallar, sharps (iynələr, bıçaqlar), kimyəvi maddələr və farmasevtik tullantılar var. Bu materiallar düzgün idarə olunmadıqda torpaq, yeraltı sular və səthi su hövzələrini çirkləndirə bilər. Tibbi tullantılıarın ekoloji təsir mexanizmi və nümunələr: Tibbi tullantıların ətraf mühitə təsiri müxtəlif mexanizmlər vasitəsilə özünü göstərir:a) Su və torpaq çirklənməsi

Təhlükəli tullantıların sanitariya və zərərsizləşdirilmə prosedurlarına uyğun olmadan atılması yeraltı suların, səthi su hövzələrinin və torpağın toksik maddələrlə çirklənməsinə səbəb ola bilər. Bu, ekosistem komponentlərinə daxil olan ağır metallar və antibiotik qalıqlarının bioakkumulyasiya riski yaradır ki, bu da su və torpaq canlılarının fizioloji funksiyalarını poza bilər. b) Atmosferə təsirlər-Tibbi tullantıların ənənəvi yandırılması və

aşağı temperaturda yandırılması dioxinlər, furans və digər zərərli hissəciklərin atmosferə buraxılmasına səbəb ola bilər ki, bu da həm insan, həm də canlı orqanizmlərin sağlamlığı üçün təhlükə yaradır. Bu emissiyalar qlobal iqlim təsirləri ilə yanaşı, yerli hava çirkliliyini də artırır. c) Antimikrobiyal müqavimətin yayılması-Tibbi tullantılar, xüsusən antibiotiklər və digər farmasevtik qalıqlarla çirklənmiş materiallar, ətraf mühitdə antimikrobiyal müqavimətin yayılmasına səbəb ola bilər. Bu, mikroorqanizmlərin rezistent populyasiyalarının formalaşmasına gətirib çıxararaq həm insan, həm heyvan sağlamlığı üçün əlavə risklər yaradır. Belə halların qlobal miqyasda artdığı müşahidə edilir və bu, tibbi tullantılarla əlaqəli ciddi ekologiya məsələsi kimi qiymətləndirilir.

Tibbi tullantıların. idarəetmə sistemlərində effektiv hallarla yanaşı bəzi problemlərlədə üzləşilir. Beləki ,WHO‑nun məlumatına görə, tibbi tullantıların düzgün idarə edilməsində qlobal səviyyədə ciddi uğurlar əldə edilsə də, çoxsaylı çatışmazlıqlar mövcuddur. Tibbi tullantıların təhlili göstərir ki, yalnız 61 % səhiyyə müəssisəsi müvafiq əsas idarəetmə sistemlərinə malikdir, daha çətin şəraitdə bu göstərici 25 %‑ə qədər azalır. Bu isə səhiyyə tullantılarının düzgün ayrılmaması, daşınmaması və zərərsizləşdirilməməsi nəticəsində ətraf mühitə daha geniş miqyaslı çirklənməyə yol açır

Əlavə olaraq, bir çox ölkələrdə tibbi tullantıların idarə olunmasına dair qanunvericilik və nəzarət mexanizmləri çatışmazdır. Bu, təlimatların olmaması, işçilərin məlumatlılığının az olması və maliyyə resurslarının məhdudluğu ilə bağlıdır. Məsələn, Azərbaycan kimi ölkələrdə maarifləndirici tədbirlər davam etdirilsə də, tibbi tullantıların çeşidlənməsi və təhlükəsiz zərərsizləşdirilməsi ilə bağlı çatışmazlıqlar hələ də qalmaqdadır.

ƏDƏBİYYAT

1.World Health Organization. (2025). *Health-care waste*. Retrieved from https://www.who.int/news-room/fact-sheets/detail/health-care-waste

2.Bertin Medical Waste. (2025). *Medical waste in developing countries: A global public health and environmental challenge*. Retrieved from https://www.bertin-medical-waste.com/medical-waste-in-developing-countries-a-global-public-health-and-environmental-challenge/

3.Organisation for Economic Co-operation and Development. (2025). *Biodiversity and environment indicators*. Retrieved from https://www.oecd.org/environment/resources/mainstream-biodiversity/topics/

4.Sanitariya.az. (2023). *Tibbi tullantıların daşınması və zərərsizləşdirilməsi*. Retrieved from https://sanitariya.az/tibbi-tullantilarin-dasinmasi-ve-zerersizlesdirilmesi/

5.Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi. (2025). *Ətraf mühit və tullantı idarəetməsi*. Retrieved from https://www.eco.gov.az/

6.Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2024). *Ətraf mühit statistik məcmuəsi*. Retrieved from https://www.stat.gov.az/

THE IMPACT OF MEDICAL WASTE ON THE ENVIRONMENT AND THE ASSESSMENT OF ECOLOGICAL RISKS

Nasiba Volodiya qızı Nasirova[1]
nasir.nasirova@rambler.ru
Zeynab Shahin qızıTalıbzada[2]
z.talibzade@atu.edu.az
Ganja State University[1]
Azerbaijan Technological University[2]

Medical waste consists of potentially hazardous materials generated from healthcare facilities and medical activities, and if not properly managed, it can have significant impacts on the environment. This article analyzes the mechanisms through which medical waste affects the environment and the ecological risks it poses. Global statistical data indicate that medical waste management systems are insufficient in many countries, leading to increased pollution

of water, soil, and the atmosphere, as well as ecological problems such as bioaccumulation and antimicrobial resistance. The article also evaluates existing strategies for managing medical waste and their effectiveness. Consequently, the importance of implementing effective management systems, utilizing modern waste disposal technologies, and developing stronger environmental policies is emphasized.
Keywords: Medical waste; Environmental impact; Ecological risks; Management strategies; Water and soil pollution; Toxic emissions

ANTROPOGEN YÜKLƏNMƏNİN BİOMÜXTƏLİFLİYİN STRUKTUR-FUNKSİONAL XÜSUSİYYƏTLƏRİNƏ TƏSİRİ VƏ EKOLOJİ DAYANIQLILIQ STRATEGİYALARININ QİYMƏTLƏNDİRİLMƏSİ

Nəsibə Volodiya qızı Nəsirova
nasir.nasirova@rambler.ru
Azərbaycan Texnologiya Universiteti

Müasir dövrdə qlobal miqyasda müşahidə olunan ekoloji dəyişikliklər, xüsusilə antropogen mənşəli təsirlərin intensivləşməsi, təbii ekosistemlərin struktur və funksional xüsusiyyətlərində əhəmiyyətli transformasiyalara səbəb olmuşdur. Sənayeləşmə, urbanizasiya, kənd təsərrüfatının genişlənməsi, təbii ehtiyatların qeyri-davamlı istismarı və iqlim dəyişikliyi kimi amillər biomüxtəlifliyin azalması və ekosistemlərin dayanıqlılıq potensialının zəifləməsi ilə nəticələnir. Bu baxımdan, antropogen yüklənmənin biomüxtəlifliyə təsirinin elmi əsaslarla öyrənilməsi və ekoloji dayanıqlılıq strategiyalarının formalaşdırılması müasir ekologiyanın prioritet tədqiqat istiqamətlərindən biri kimi çıxış edir.

Biomüxtəliflik ekosistemlərin sabitliyinin, məhsuldarlığının və funksional davamlılığının əsas göstəricilərindən biridir. Növlərin müxtəlifliyi, genetik variasiya və ekosistem müxtəlifliyi kimi komponentlər ekoloji proseslərin tarazlığını təmin edir. Lakin antropogen təsirlər nəticəsində növlərin məhvi, yaşayış mühitlərinin deqradasiyası və ekosistem xidmətlərinin zəifləməsi kimi hallar geniş yayılmışdır. Bu dəyişikliklər yalnız ekoloji deyil, həm də sosial-iqtisadi nəticələr doğuraraq insan rifahına birbaşa təsir göstərir.

Antropogen yüklənmənin təsiri müxtəlif səviyyələrdə özünü göstərir. Lokal səviyyədə torpaq eroziyası, su ehtiyatlarının çirklənməsi və meşə örtüyünün azalması müşahidə olunursa, regional və qlobal səviyyədə iqlim dəyişiklikləri, okeanların turşulaşması və biogeokimyəvi dövranların pozulması kimi daha geniş miqyaslı problemlər meydana çıxır. Bu proseslər ekosistemlərin strukturunda – yəni növ tərkibində və trofik əlaqələrdə – dəyişikliklərə, eyni zamanda funksional xüsusiyyətlərində – maddə və enerji axınında – disbalanslara səbəb olur.

Ekoloji dayanıqlılıq anlayışı ekosistemlərin xarici təsirlərə qarşı müqavimət göstərmək və pozulmalardan sonra bərpa olunmaq qabiliyyətini ifadə edir. Müasir elmi yanaşmalar göstərir ki, biomüxtəlifliyin yüksək səviyyədə qorunması ekosistemlərin dayanıqlılığını artıran əsas faktorlardan biridir. Bu baxımdan, dayanıqlılıq strategiyalarının hazırlanması zamanı biomüxtəlifliyin qorunması və bərpası prioritet istiqamət kimi nəzərdən keçirilməlidir. Belə strategiyalara qorunan ərazilərin genişləndirilməsi, ekoloji monitorinq sistemlərinin gücləndirilməsi, bərpaedici ekologiya yanaşmalarının tətbiqi və davamlı resurs idarəetmə modellərinin inkişafı daxildir.

Eyni zamanda, antropogen təsirlərin qiymətləndirilməsi üçün kompleks və inteqrativ metodoloji yanaşmaların tətbiqi vacibdir. Coğrafi informasiya sistemləri (CİS), uzaqdan zondlama texnologiyaları, statistik modelləşdirmə və ekosistem xidmətlərinin qiymətləndirilməsi kimi alətlər bu sahədə mühüm rol oynayır. Bu metodlar vasitəsilə

ekosistemlərdə baş verən dəyişikliklər daha dəqiq təhlil edilə və effektiv idarəetmə qərarları qəbul edilə bilər.

Tədqiqatın aktuallığı onunla şərtlənir ki, antropogen yüklənmənin artdığı müasir şəraitdə biomüxtəlifliyin qorunması və ekosistemlərin dayanıqlılığının təmin edilməsi qlobal ekoloji təhlükəsizliyin əsas komponentlərindən birinə çevrilmişdir. Bu kontekstdə, təqdim olunan iş antropogen təsirlərin biomüxtəlifliyin struktur-funksional xüsusiyyətlərinə təsirinin sistemli təhlilini aparmağı və ekoloji dayanıqlılıq strategiyalarının elmi əsaslarını müəyyənləşdirməyi məqsəd qoyur.

Beləliklə, tədqiqatın əsas məqsədi antropogen yüklənmənin biomüxtəliflik üzərində yaratdığı dəyişiklikləri kompleks şəkildə araşdırmaq, bu dəyişikliklərin ekosistem funksionallığına təsirini qiymətləndirmək və dayanıqlı ekoloji idarəetmə üçün praktik tövsiyələr irəli sürməkdən ibarətdir. Bu məqsədə çatmaq üçün müvafiq elmi yanaşmalar və metodlar əsasında təhlillər aparılacaq və əldə olunan nəticələr müasir ekoloji problemlərin həllinə töhfə verəcəkdir.Antropogen yüklənmənin biomüxtəlifliyə təsirinin təhlili göstərir ki, insan fəaliyyəti nəticəsində yaranan təzyiqlər ekosistemlərin həm struktur, həm də funksional xüsusiyyətlərində dərin və çoxşaxəli dəyişikliklərə səbəb olur. Bu təsirlər birbaşa və dolayı mexanizmlər vasitəsilə həyata keçirilir və onların intensivliyi, miqyası və müddəti ekosistemlərin dayanıqlılıq səviyyəsini müəyyən edən əsas amillərdən biri kimi çıxış edir.

Struktur aspektdən yanaşdıqda, antropogen yüklənmənin ən mühüm nəticələrindən biri növ müxtəlifliyinin azalmasıdır. Xüsusilə torpaq istifadəsinin dəyişməsi, meşələrin qırılması, urbanizasiya və kənd təsərrüfatının intensivləşdirilməsi nəticəsində təbii yaşayış mühitləri parçalanır və ya tamamilə məhv edilir. Bu isə növlərin populyasiya dinamikasına mənfi təsir göstərərək onların sayının azalmasına və bəzi hallarda tam yox olmasına gətirib çıxarır. Nəticədə, trofik zəncirlərdə pozulmalar baş verir, ekoloji nişlərin strukturu dəyişir və ekosistem daxilində biotik əlaqələr zəifləyir.

Funksional baxımdan isə antropogen təsirlər maddə və enerji dövranlarının pozulması ilə müşayiət olunur. Məsələn, torpaq örtüyünün deqradasiyası və kimyəvi çirklənmə nəticəsində torpaq mikroorqanizmlərinin fəaliyyəti zəifləyir, bu da qida maddələrinin dövriyyəsinə mənfi təsir göstərir. Eyni zamanda, su ekosistemlərində baş verən eutrofikasiya prosesləri oksigen balansının pozulmasına və su canlılarının kütləvi məhvinə səbəb olur. Bu kimi dəyişikliklər ekosistem xidmətlərinin – məsələn, suyun təmizlənməsi, torpağın məhsuldarlığı və iqlim tənzimlənməsi kimi funksiyaların – zəifləməsi ilə nəticələnir.

Antropogen yüklənmənin mühüm komponentlərindən biri də iqlim dəyişikliyidir. Temperatur artımı, yağıntı rejiminin dəyişməsi və ekstremal hava hadisələrinin tezliyinin artması biomüxtəlifliyə əlavə təzyiq göstərir. Bu proseslər növlərin coğrafi yayılma areallarının dəyişməsinə, fenoloji dövrlərin pozulmasına və invaziv növlərin yayılmasının sürətlənməsinə səbəb olur. Belə şəraitdə yerli növlərin adaptasiya imkanları məhdudlaşır və ekosistemlərin sabitliyi zəifləyir.

Təhlillər göstərir ki, antropogen təsirlərin intensiv olduğu ərazilərdə ekosistemlərin bərpa qabiliyyəti əhəmiyyətli dərəcədə azalır. Bu, xüsusilə bioloji müxtəlifliyin aşağı olduğu sistemlərdə daha aydın müşahidə olunur. Çünki biomüxtəliflik ekosistemlərin funksional ehtiyatlarını artıraraq onların dəyişkən mühit şəraitinə uyğunlaşmasını təmin edir. Növlərin müxtəlifliyi artdıqca ekosistem daxilində funksional redundans yaranır, yəni bir funksiyanı bir neçə növ yerinə yetirə bilir. Bu isə sistemin dayanıqlılığını gücləndirir və pozulmalardan sonra bərpa prosesini sürətləndirir.

ƏDƏBİYYAT

1.Məmmədov, Q.Ş.(2013). Torpaqşünaslıq və torpaq coğrafiyasının əsasları. Bakı.
2.Xəlilov,M.Y.(2010).Ekologiya və ətraf mühitin mühafizəsi.Bakı: Bakı Universiteti nəşriyyatı.
3.Ələkbərov, R.K. (2015). Ümumi ekologiya. Bakı: Təhsil nəşriyyatı.
4. Odum, E. P., & Barrett, G. W. (2005). Fundamentals of Ecology (5th ed.). Belmont: Thomson Brooks/Cole.
5.Chapin, F. S., Matson, P. A., & Vitousek, P. M. (2011). Principles of Terrestrial Ecosystem Ecology (2nd ed.). New York: Springer.

THE IMPACT OF ANTHROPOGENIC PRESSURE ON THE STRUCTURAL AND FUNCTIONAL CHARACTERISTICS OF BIODIVERSITY AND THE EVALUATION OF ECOLOGICAL RESILIENCE STRATEGIES

Nasiba Volodiya qızı Nəasirova
nasir.nasirova@rambler.ru
Azerbaijan Technological University

This article examines the impact of anthropogenic pressures on the structural and functional characteristics of biodiversity and evaluates ecological resilience strategies. Human activities—industrialization, urbanization, intensive agriculture, and climate change—lead to a reduction in species diversity, disruption of trophic chains, and degradation of habitats. Functionally, these impacts alter matter and energy cycles, weaken ecosystem services, and reduce recovery capacity. The study highlights that maintaining biodiversity is crucial for enhancing ecosystem resilience. Sustainable ecological management strategies should focus on establishing protected areas, implementing restorative ecology measures, and promoting responsible resource use. Additionally, the article emphasizes the importance of scientifically assessing anthropogenic impacts to inform effective conservation and management policies.

Keywords: anthropogenic impact, biodiversity, ecosystem functionality, sustainable development, environmental protection

TORPAĞIN NEFT VƏ NEFT MƏHSULLARI İLƏ ÇİRKLƏNMƏSİNİN BİOREMEDİASİYA ÜSULLARI İLƏ BƏRPASI

Səidə Qəhrəmanova
s.qahramanova@atu.ed.az
Nuridə Həsənova
n.hasanova@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Azərbaycan kimi neft istehsalı olan ölkələrdə torpağın neftlə çirklənməsi ciddi ekoloji və iqtisadi problem olaraq qalır. Torpaq ekosistemləri insan həyatının və ətraf mühitin davamlılığı üçün əsas resurslardan biridir. Lakin neft və neft məhsullarının torpağa sızması ekoloji tarazlığı pozur, torpağın məhsuldarlığını azaldır, yeraltı suların çirklənməsinə səbəb olur və ekosistem funksiyalarını zədələyir. [4,5]

Bioremediasiya, torpağın mikroorqanizmlər, bitki kökləri və fermentativ proseslər vasitəsilə təmizlənməsi üsuludur. Bu üsul ekoloji mühəndislik sahəsində həm təbii, həm də iqtisadi baxımdan əlverişli hesab edilir. Bioremediasiya üsulları torpaqdakı neft tərkibli maddələrin parçalanmasını sürətləndirir və torpaq resurslarını bərpa edir.

Bioremediasiya üsulları torpağın təbii şəkildə bərpasını təmin edən, xərci nisbətən aşağı, ətraf mühitə zərər verməyən metodlar olduğuna görə aktualdır. [1,3]

Nümunələr Bakı, Neftçala və Şirvan bölgələrindən götürülmüşdür. Torpaqlar neft və neft məhsulları ilə çirklənmə səviyyəsinə görə fərqləndirilmişdir. Bioremediasiya üsulları olaraq: [1,2]

1. **Mikroorqanizmlərlə bioremediasiya** (bakteriya və göbələk kulturları)
2. **Biostimulyasiya** (torpağa qida maddələri və oksigen təmin edilməsi)
3. **Fitorremediasiya** (neft çirklənmiş torpaqda bitki köklərinin istifadəsi)

Cədvəl 1. Torpaqda neft çirkliliyi və bioremediasiya nəticələri (mg/kg torpaq)

№	Region	İlkin neft çirkliliyi	30 gün sonra mikroorqanizmlərlə	30 gün sonra biostimilyasiya	30 gün sonra fitorremedasiya
1	Bakı	2500	900	1100	1300
2	Neftçala	3000	1200	1400	1500
3	Şirvan	1800	600	800	900

Mikroorqanizmlərlə bioremediasiya ən effektiv üsul kimi çıxış edir. Biostimulyasiya və fitorremediasiya isə əlavə və ya dəstəkləyici metodlar kimi tətbiq olunur.

Nəticə

1. Mikroorqanizmlərlə bioremediasiya torpağın çirklənmiş neft tərkibini 60–70% azalda bilir.
2. Biostimulyasiya və fitorremediasiya əlavə dəstək metodları kimi effektivdir.
3. Bioremediasiya üsulları həm ekoloji, həm də iqtisadi baxımdan səmərəlidir, torpağın davamlı bərpasını təmin edir.
4. Torpağın monitorinqi və bioremediasiya planı regiona uyğunlaşdırılmalıdır.

ƏDƏBİYYAT

1. Məmmədova, R. İ., & Cəlilova, Ə. C. (2023). Neft məhsulları ilə çirklənmiş torpaqların müasir üsullarla bərpası. *Azərbaycan Neft Təsərrüfatı*, (1), 52–55.
2. Babaev, E. R. (2014). Biologicheskaya ochistka zagryaznennykh neftyu pochv. *Azərbaycan Kimya Jurnalı*, (4), 93.
3. Atlas, R. M., & Hazen, T. C. (2011). Oil biodegradation and bioremediation: A tale of the 21st century. *Environmental Science & Technology*, 45(20), 8678–8685. https://doi.org/10.1021/es2013227
4. Das, N., & Chandran, P. (2011). Microbial degradation of petroleum hydrocarbons. *Bioresource Technology*, 102(10), 507–518. https://doi.org/10.1016/j.biortech.2010.08.016
5. Varjani, S. J. (2017). Microbial bioremediation of petroleum hydrocarbons: An overview. *Biotechnology Reports*, 13, 1–16. https://doi.org/10.1016/j.btre.2016.10.002

REMEDIATION OF OIL-CONTAMINATED SOILS USING BIOREMEDIATION METHODS

Saida Magerram Gahramanova
s.qahramanova@atu.ed.az
Nurida Elshan Hasanova
n.hasanova@atu.edu.az
Azerbaijan Technological University

The primary objective of this study is to remediate soils contaminated with oil and petroleum products using bioremediation methods and to evaluate the effectiveness of applied ecological engineering technologies. Within the framework of the research, soil samples collected from various industrial and oil production sites were subjected to different treatment approaches, including the use of microorganisms, biostimulation, and phytoremediation. The concentration of pollutants in petroleum-contaminated soils was

dynamically monitored over time. The results demonstrate that bioremediation approaches are highly effective in restoring contaminated soils and represent a sustainable and promising solution from an ecological engineering perspective.
Keywords: oil, bioremediation, phytoremediation, biostimulation, monitoring, pollution.

UCAR RAYONUNUN ŞORLAŞMIŞ TORPAQLARINDA MELİORASİYA İŞLƏRİN HƏCMİNİN ƏSASLANDIRILMASI

Şamxal Namiq oğlu Ələsgərov
samxaleleskerov09@gmail.com
Azərbaycan Dövlət Aqrar Universiteti PHŞ

Son onilliklərdə suvarılan torpaqların şorlaşması problemi qlobal xarakter almışdır və arid (quraq) zonalarda, xüsusilə Azərbaycanın mərkəzi aran rayonlarında aqrar sektorun dayanıqlı inkişafı üçün əsas çağırışlardan biri kimi nəzərdən keçirilir (FAO, 2018). Beynəlxalq tədqiqatların qiymətləndirmələrinə görə, dünya üzrə suvarılan torpaqların beşdə birindən çoxu bu və ya digər dərəcədə şorlaşmaya məruz qalmışdır ki, bu da torpaqların fiziki, kimyəvi və bioloji xüsusiyyətlərinin pisləşməsinə. kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının kəskin düşməsinə səbəb olur (Shahid et al., 2018).

İntensiv əkinçilik şəraitində, xüsusilə Ucar rayonu kimi mürəkkəb hidrogeoloji şəraitə malik ərazilərdə, elmi cəhətdən əsaslandırılmış suvarma normalarının və effektiv drenaj sistemlərinin olmadığı təqdirdə, torpağın kök yayılan qatında asan həll olunan duzların akkumulyasiyası baş verir. Bu proses çox vaxt geri dönməz xarakter daşıyan və torpaq profilinin deqradasiyası ilə müşayiət olunan ikincili şorlaşmanın formalaşmasına gətirib çıxarır (Rengasamy, 2020). Kür-Araz ovalığının mərkəzi hissəsi, o cümlədən Ucar rayonu üçün şorlaşma problemi təbii və antropogen amillərin birgə təsiri ilə daha da kəskinləşir: yüksək buxarlanma (1000-1100 mm), məhdud atmosfer yağıntıları, minerallaşmış yeraltı suların səthə çox yaxın (1.5-2.0 m) yerləşməsi və suvarma sistemlərinin uzunmüddətli istismarı (Quliyev & Əliyev, 2019). Bu şəraitdə meliorativ işlərin elmi əsaslandırılmış parametrlərinin işlənib hazırlanması və münbitliyin bərpası üçün bioloji metodların tətbiqi xüsusi aktuallıq kəsb edir.

Torpaqların şorlaşma diaqnostikası, quru torpaq kütləsinə nisbətdə duzların quru qalığının faizlə müəyyən edilməsi əsasında aparılmışdır ki, bu da beynəlxalq torpaq-meliorasiya tədqiqat standartlarına uyğundur (FAO, 2018). Ucar rayonunun boz-çəmən və çəmən-boz torpaqları əldə olunan göstəricilərdən asılı olaraq zəif, orta, şiddətli şorlaşmış və şoranlar kateqoriyalarına təsnif edilmişdir. Belə bir təsnifat meliorativ tədbirlərin növünün və həcminin seçilməsində diferensiallaşdırılmış yanaşmanın əsaslandırılmasına imkan vermişdir. Orta və şiddətli şorlaşmış torpaqlar üçün yuyulma normalarının hesablanması, suvarılan torpaqların duzlardan təmizlənməsi sistemlərinin layihələndirilməsində fundamental hesab olunan Volobuyev düsturu ilə həyata keçirilmişdir (Rengasamy, 2020). Hesablamalar zamanı Ucar rayonunun ağır mexaniki tərkibli torpaqları üçün ilkin duz miqdarı, yol verilən qalıq şorlaşma səviyyəsi, həmçinin şorlaşma tipini və torpaq profilinin filtrasiya (süzülmə) xüsusiyyətlərini əks etdirən aqromeliorativ əmsallar (n = 1,2-1,4) nəzərə alınmışdır. Meliorativ işlərin həcmi əsaslandırılarkən torpaqların mexaniki tərkibi, yeraltı suların yerləşmə dərinliyi və minerallaşma dərəcəsi, habelə ərazinin təbii drenaj qabiliyyəti nəzərə alınmışdır. Müəyyən edilmişdir ki, Ucar rayonunda yeraltı suların səviyyəsi 2,0-2,5 metrdən yuxarı olduqda, drenaj şəbəkəsi qurulmadan aparılan yuyulma suvarmaları qeyri-effektivdir və yüksək ikincili şorlaşma riski ilə müşayiət olunur (Quliyev & Əliyev, 2019).

Tədqiqatın nəticələri göstərmişdir ki, zəif şorlaşmış torpaqlar üçün aqrotexniki tədbirlər ən yüksək səmərəliliyi nümayiş etdirir. Suvarma normalarının bitkinin su tələbatından 10-15% artıq verilməsi və mikrorelyefin düzləndirilməsi suyun aşağıya doğru axınını (enən cərəyanı) formalaşdırır və relyefin mikro-çökəkliklərinə duzların lokal toplanmasının qarşısını alır (FAO, 2018). Orta və şiddətli şorlaşmış torpaqlar üçün isə fəaliyyət göstərən drenaj sistemi fonunda

əsaslı yuyulmaların aparılması tələb olunur. Belə şəraitdə drenajın olmaması yeraltı suların səviyyəsinin qalxmasına və sürətlənmiş ikincili şorlaşmaya səbəb olur (Rengasamy, 2020).

Meliorasiyanın bioloji metodları (fitomeliorasiya) şorlaşmış torpaqların bərpası üzrə inteqrasiya olunmuş strategiyanın mühüm komponenti kimi nəzərdən keçirilir. Yonca (*Medicago sativa*) və xaşıl kimi şora davamlı bitkilərin istifadəsi "bioloji drenaj" adlanan prosesin formalaşmasına, torpağın strukturunun yaxşılaşmasına və onun sukeçirmə qabiliyyətinin artmasına kömək edir (Kovda & van Beek, 2021). Fitomeliorantların uzunmüddətli tətbiqi üzvi maddələrin toplanmasını, mikrobioloji proseslərin aktivləşməsini və torpaq məhlulunun minerallaşmasının azalmasını təmin edir ki, bu da nəticə etibarilə təkrar əsaslı yuyulmalara olan ehtiyacı azaldır (Shahid et al., 2018).

İqtisadi hesablamalar göstərmişdir ki, 100 hektar sahədə kombinə edilmiş meliorativ strategiyanın tətbiqi pambıq və taxıl məhsuldarlığının 35-45 sent/ha-a qədər artmasını və suvarma suyu sərfiyyatının təxminən 30% azalmasını təmin edir. Əlavə effekt siderat bitkiləri tərəfindən azotun bioloji fiksasiyası nəticəsində mineral gübrələrə çəkilən xərclərin azalması hesabına əldə edilir (Kovda & van Beek, 2021).Şorlaşmış torpaqlar şəraitində meliorativ işlərin parametrlərinin əsaslandırılması şorlaşma dərəcəsini, təbii şəraiti və texniki-iqtisadi göstəriciləri nəzərə alan diferensiallaşdırılmış yanaşmaya söykənməlidir. Ucar rayonu üçün hidrotexniki, kimyəvi və bioloji meliorasiya metodlarını birləşdirən inteqrasiya olunmuş strategiya ən optimal variant hesab olunur. Bu yanaşmanın reallaşdırılması ikincili şorlaşma riskini azaltmağa, su ehtiyatlarından istifadənin səmərəliliyini artırmağa və torpaq münbitliyinin dayanıqlı bərpasını təmin etməyə imkan verir.

ƏDƏBİYYAT

1.Quliyev R. M., Əliyev F. H. Azərbaycanın suvarılan torpaqlarında şorlaşma problemləri və meliorativ tədbirlərin səmərəliliyi // Azərbaycan Aqrar Elmi. – Bakı, 2019. – № 4. – s. 45–52.
2.FAO. Global soil salinization and agricultural sustainability. – Rome: FAO Publishing, 2018. – 142 p.
3.Kovda I. V., van Beek C. L. Biological reclamation of saline soils using phytomeliorants // Land Degradation & Development. – New York: John Wiley & Sons, 2021. – vol. 32, № 7. – pp. 2145–2158.
4.Rengasamy P. Soil salinization and sodification: Processes and management strategies // Agricultural Water Management. – Amsterdam: Elsevier, 2020. – vol. 242. – pp. 1–12.
5.Shahid S. A., Zaman M., Heng L. Soil salinity: Historical perspectives and a world overview of the problem. – Cham: Springer Nature, 2018. – 856 p.

SUBSTANTIATION OF THE SCOPE OF RECLAMATION WORKS IN SALINE SOILS OF THE UJAR DISTRICT

Shamkhal Namig oglu Alasgarov
samxaleleskerov09@gmail.com
Azerbaijan State Agricultural University (ADAU)

The article investigates the scientific substantiation of the scope of land reclamation works and the issues of restoring soil fertility in the saline soils of the Ujar district. The negative impact of soil salinization on agricultural production, resulting from arid climatic conditions, high groundwater levels, and long-term utilization of irrigation systems, has been determined. The objective of the research is to identify the optimal scope of reclamation measures by considering the specific characteristics of saline soils in the Ujar district and to substantiate the methods for restoring soil fertility.As a result of the study, the effectiveness of differentiated reclamation measures for slightly, moderately, and severely saline soils, including the application of leaching irrigation, drainage systems, and phytoreclamation methods, has been established. The implementation of integrated reclamation measures facilitates the restoration of soil fertility and enables an increase in the productivity of agricultural crops.

Keywords: land reclamation, phytoreclamation, salinization, integration, strategy, leaching.

MƏCRAALTI QABİON-GEOTEKSTİL SUQƏBULEDİCİLƏRİN LAYİHƏLƏNDİRİLMƏSİ PRİNSİPLƏRİ

Elibəy Nail oğlu Məmmədli
elibey2002@gmail.com
Azərbaycan Dövlət Aqrar Universiteti PHŞ

Müasir hidrotexnika mühəndisliyində dağ və dağətəyi çaylardan suyun götürülməsi prosesi, bu ərazilərin yüksək dərəcədə qeyri-stasionar hidroloji rejimi və kəskin dəyişən morfometrik göstəriciləri səbəbindən mürəkkəb texniki vəzifə olaraq qalmaqdadır. Xüsusilə Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonunun çayları (məsələn, Həkəriçay) üçün xarakterik olan yüksək meyillilik, intensiv dib və asılı gətirmələrin hərəkəti, habelə qəfil baş verən sel daşqınları suqəbuledici qurğuların qarşısında ciddi mühəndislik çağırışları qoyur. Belə şəraitdə suqəbuledici sistemlərin dayanıqlığı həm yüksək dinamik yüklərə müqavimət göstərməli, həm də intensiv yataq deformasiyaları və dib eroziyası zamanı öz struktur bütövlüyünü qorumalıdır.

Beton və dəmir-beton suqəbuledici qurğular, statik və monolit quruluşuna görə dağ çaylarının dinamik təsirlərinə qarşı zəif müqavimət göstərməklə bərabər, onlarda suyun hidravlik zərbəsi və yatağın yuyulması nəticəsində bünövrənin boşalması və konstruksiyanın çatlaması kimi fəsadlar tez-tez müşahidə olunur.

Son illərin fundamental və tətbiqi tədqiqatları [1] göstərir ki, bu problemlərin həlli üçün elastik, və yüksək filtrasiya qabiliyyətinə malik qabion-geotekstil sistemləri ən səmərəli alternatvdir. Qabionların elastik qəfəs quruluşu çay yatağındakı qaçılmaz deformasiyalara (oturma və yerdəyişmə) konstruksiyanın dağılmadan uyğunlaşmasına (adaptasiyasına) imkan verir, geotekstil materialı isə süzgəc" rolunu oynayaraq, həm qruntun daxili eroziyasının qarşısını alır, həm də suyun qurğunun daxilindən süzülərək təmizlənməsini təmin edir [2].

Beləliklə, qabion-geotekstil kompozitləri dağ çaylarında suyun götürülməsi zamanı dinamik yüklərin söndürülməsi və deformasiyaya davamlılıq, kolmatasiyaya nəzarət və stabil filtrasiya rejiminin yaradılması və çay dərəsinin təbii landşaftının və yataqaltı suların dövranının qorunması kimi üçlü effekti təmin edir.

Qabion-geotekstil sistemlərinin layihələndirilməsi prosesi bu konstruksiyaların mürəkkəb hidromexaniki qarşılıqlı təsir mexanizminə malik kompozit sistem olduğunu nəzərə alamaqla əsasən, aşağıdakı fundamental prinsiplərə əsaslanır [5]:

1.Elastik struktur və "adaptiv dayanıqlıq" prinsipi: Qabion sistemləri "elastik mühit" nəzəriyyəsinə əsaslanmaqla, dağ çaylarında sel axınları zamanı qabionlar relyefin formasına uyğun olaraq əyilə bilir. Metal torun daxilindəki daş dolğu materialı xarici təzyiqi bütün kütlə boyu paylayaraq nöqtəvi gərginlikləri minimuma endirir. Qurğu struktur bütövlüyünü pozmadan həm şaquli oturmalara, həm də üfüqi yerdəyişmələrə adaptasiya olunur. Bu, xüsusilə Həkəriçayın hərəkətli allüvial qruntdan ibarət yatağı üçün kritik mühəndislik göstəricisidir [3].

2. Hidravlik keçiricilik və "daxili enerji sönməsi" prinsipi: Su kütləsi qabionun daxilindən keçərkən daşlar arasındakı sürtünmə nəticəsində hidravlik enerjinin əhəmiyyətli hissəsi (dissipasiya) itirilir və qurğunun arxa tərəfində suyun sürətini azaldaraq urbulentliyin idarə edilməsinə və aşağı biefdə eroziya riskini aradan qaldırmağa imkan verir. Qabionların yüksək drenaj qabiliyyəti divarların arxasında yığılan suyun yaratdığı hidrostatik təzyiqi neytrallaşdırmaqla suyun süzülərək maneəsiz keçidini təmin edir.

3.Geotekstil filtrasiyası və "məsaməli sabitlik" prinsipinə görə, qabion-geotekstil tandemində mühəndislik səmərəliliyi "tərs süzgəc" effekti ilə təmin edilir, geotekstil təbəqəsi qabionla çay yatağının qruntu arasında yerləşdirilərək, narın dənəli zərrəciklərin sudan təmizlənməsini təmin edir və qruntun yuyulub (suffosion) aparılmasının qarşısını alır. Geotekstilin məsamələri qarşısında toplanan nisbətən iri zərrəciklər süni hidravlik körpü effekti yaradır və bu da zamanla süzgəcin filtrasiya qabiliyyətini stabilləşdirir [2], dövri axınlar zamanı geotekstilin mexaniki davamlılığı sistemin istismar müddətini 2025-ci il standartlarına uyğun olaraq 50 ildən çox müddətə artırır.

4.Mühəndislik nöqteyi-nəzərindən qabion divarların geotekstil qatları ilə armaturlaşdırılması onların "qayçıvari sürüşməyə" qarşı müqavimətini kəskin artırmaqla, qabion divarın daxilində dartılmaya işləyən element rolunu oynayır. Qabion-geotekstil konstruksiyalı suqəbuledicilərin layihələndirmədə PLAXIS 2D proqram təminatı vasitəsilə konstruksiyanın daxili gərginlikləri və geotekstil-qrunt interfeysindəki sürtünmə əmsalları (R_{inter}) modelləşdirilir ki, bu da, material sərfinə qənaət etməklə maksimal təhlükəsizlik əmsalını (F_s) əldə etməyə imkan verir [3].

5.Morfoloji uyğunluq və infiltirasiya mexanizminə görə, suqəbuledicinin mühəndislik prinsiplərinin ən mühüm hissəsi suyun "məcraaltı süzülmə" (infiltrasiya) yolu ilə götürülməsidir. Bir sıra tədqiqatçılar tərəfindən təklif edilən yeni konstruksiya prinsipləri göstərir ki, qabion-geotekstil sistemləri suyun bulanıqlığını təbii yolla azaldan horizontal və ya şaquli filtrasiya qalereyalarının formalaşdırılmasına imkan verir [4]. Bu, suyun həm mexaniki təmizlənməsi, həm də nasos stansiyaları üçün sabit su səviyyəsinin yaradılması deməkdir.

Aparılmış tədqiqatlar və təhlillər göstərir ki, qabion-geotekstil suqəbuledicilərinin Şərqi Zəngəzurun dağ çaylarında tətbiqi, regionun su ehtiyatlarının idarə edilməsində elmi əsaslı bir inqilab hesab oluna bilər.

ƏDƏBİYYAT

1.Chang, Y.S., Ho, C.C., Lin, Y.X. et al. Hydraulic and ecological comparison of gabion and reinforced earth revetments in the Keelung River // Scientific Reports, 2025, vol. 15, 38152.
2.Li, J., Zhang, H., Wang, X. Filtration characteristics and mechanism of geotextile filters under cyclic flow // Geotextiles and Geomembranes, 2025, vol. 53, №6, pp. 1343–1356.
3.Rahim, M.A.H.A., Sani, S. Analysis of innovative gabion wall design with geotextile reinforcement via PLAXIS 2D // Progress in Engineering Application and Technology, 2025, vol. 6, №2, pp. 89–94.
4.Beisembin, K., Zhakupova, Zh., Koishibaeva, G. et al. Новая конструкция водозаборного сооружения для малых ГЭС // Исследования и результаты, 2025, №1(105), с. 202–209.
5.Munshi, B. Gabion wall systems: engineering principles, design and field performance. London: Engineering Press, 2025, 245 p.

DESIGN PRINCIPLES OF SUBSURFACE GABION-GEOTEXTILE WATER INTAKE STRUCTURES

Elibay Nail oglu Mammadli
elibey2002@gmail.com
Azerbaijan State Agricultural University, Public Legal Entity

The article investigates the design principles of subsurface gabion-geotextile water intake structures for water abstraction in mountain and foothill rivers. The unstable hydrological regime, high slopes, and flash floods characteristic of the rivers in the East Zangezur economic region necessitate increasing the reliability of existing water intake structures. The objective of the research is to substantiate the design principles of subsurface gabion-geotextile water intakes capable of operating sustainably and reliably under mountain river conditions. As a result of the study, the high efficiency of gabion-geotextile systems based on the principles of elastic structural stability, hydraulic energy dissipation, geotextile filtration, constructive reinforcement, and morphological compatibility has been established. It has been determined that these structures adapt to riverbed deformations, reduce erosion risks, ensure natural water filtration, and enable the creation of ecologically more sustainable water intake systems.

Keywords: gabion, geotextile, filtration, colmatation, subsurface water intake, hydraulic engineering.

AZƏRBAYCANDA EKOLOJİ TƏMİZ MEYVƏ, GİLƏMEYVƏ MƏHSULU YETİŞDİRİLMƏSİ ÜÇÜN DAVAMLI AQROEKOLOJİ YANAŞMA

Tünzalə İsgəndərova
isgandarova65@mail.ru
Azərbaycan Texnologiya Universiteti

Ciddi ekoloji problemlərin fonunda üzvi əkinçilik davamlı bir çox alternativlər təklif edir. Ekoloji təmiz istehsal sistemi torpaq sağlamlığını qoruyub saxlamaqla yanaşı, həm də ekosistem xidmətlərinin davamlılığını təmin edir. Bütün bun lar isə, ixrac yönümlü aqrar sənaye sahələrinin daha güclü inkişafı üçün əhəmiyyətli potensial təklif edir. Məqalədə bütün bu məsələlər haqqında məlumatlar verilmişdir.

Məlum olduğu kimi, dünya əhalisinin artımı ilə yanaşı, qida təhlükəsizliyi və insanların uzun ömürlü olmaları üçün onların ekoloji təmiz və sağlamlıq üçün təhlükəsiz keyfiyyətli məhsullar, o cümlədən də meyvə və giləmeyvələrlə təmin olunması kimi zəruri məsələ mühüm rol oynayır. Bu baxımdan, ekoloji meyvəçiliyin geniş ərazilərdə inkişaf etdirilməsi, təsərrüfatlarda ekoloji təmiz meyvə və giləmeyvə məhsullarının yetişdirilməsi, onların istehsalı ənənəvi intensiv kənd təsərrüfatı metodlarına nisbətən daha dayanıqlı və ətraf mühitə az təsirli yanaşma tələb edır. Belə məhsullar orqanizm üçün çox zəruri olduğu üçün gündəlik qida rasionuna daxil edilməli və yetərincə qəbul olunmalıdir. Ekoloji təmiz məhsullar, o cümlədən də tərəvəzlər, meyvə və giləmeyvələr müxtəlif növ pestisid və digər aqrokimyəvi vasitələrdən mümkün qədər uzaq tutularaq yetişdirilir ki, həm insan sağlamlığı, həm də torpaq, su resurslarının, atmosferin, bitki və heyvanların mühafizəsi daha da yüksək səviyyədə təmin olunsun. Müasir dövr üçün xarakterik olan qlobal miqyasda intensiv kənd təsərrüfatı modelləri ətraf mühitlə bağlı torpaqların deqradasiyası, eroziyası, su ehtiyatlarının çirklənməsi, biomüxtəlifliyin azalması, bitkilərin texnogenezə məruz qalması və digər bu kimi arzuolunmaz ciddi ekoloji problemləri daha da dərinləşdirmişdir. Ona görə də hazırda ekoloji kənd təsərrüfatı, eləcə də ekoloji meyvəçilik davamlı aqrar sistem kimi getdikcə aktuallaşmaqda davam edir. Bu ideyanı Azərbaycanda da reallaşdırmaq üçün, ilk növbədə, ictimai şüurun və yeni ekoloji təfəkkürün inkişaf etdirilməsi ümdə məsələdir [1].

Azərbaycan hazırda ekoloji təmiz və orqanik texnologiyaların tətbiqini dəstəkləyəcək normativ bazanı formalaşdırmağa çalışır. Əvvəllər ölkədə təxminən 305 ekoloji təmiz məhsul istehsalçısı fəaliyyət göstərirdi və 37 000 ha vətəndaş tərəfindən organik torpaq kimi qeyd olunmuşdu. Bütün bunlar da sözügedən sektorda həmin sahəyə marağın yüksək səviyyədə artdığını göstərir. Ekoloji təmiz meyvə və giləmeyvə məhsularının yetişdirilməsi bir çox mühüm üstünlüklərə malikdir və Azərbaycanda bu sahənini inkişafı üçün bir sıra əməli tədbirlər görülməlidir (cədvəl 1).

Cədvəl 1.

Ekoloji meyvəçiliyin üstünlükləri və bu sahənini inkişafı üçün görülməli tədbirlər

S/s	Üstünlüklər	Həyata keçirilməli tədbirlər
1	İnsan sağlamlığı üçün daha təhlükəsiz və keyfiyyətli məhsullar əldə edilir.	Dövlət və özəl sektor arasındakı əməkdaşlıq gücləndirilməlidir.
2	Torpaq strukturunun, su resurslarının, atmosferin qorunması təmin olunur.	Orqanik sertifikasiyanın tətbiq mexanizmləri genişləndirilməlidir
3	Sintetik dərmanlardan istifadə edilmir, bioloji mübarizə üsulları tətbiq olunur, bitki ekstraktları və	Su və torpaq ehtiyatlarından düzgün və səmərəli istifadə edilməsi təmin olunmalı, su itkisini azaldan üsullara, damcı suvarma sisteminə geniş

	təbii preparatlar istifadə edilir.	meydan verilməli, ətraf mühit və onun komponentlərinin çirklənməsinin qarşısının alınması daim diqqət mərkəzində saxlanılmalıdır.
4	Bitkilərin texnogen çirklənmələrdən mühafizəsi, biomüxtəlifliyin qorunması təmin olunur.	Fermerlər üçün vaxtaşırı olaraq, müasir və mütərəqqi aqroekoloji texnologiyalara yönəlmış müvafiq təlimlər həyata keçirilməlidir.
5	Kimyəvi izlərdən azad məhsulların istehsal edilməsinin genişləndirilməsi ilə bazar dəyərinin artması müşahidə edilir və s.	İstehsalçılar üçün verilməsi nəzərdə tutulan subsidiyalar artırılmalıdır və s.

Meyvə və giləmeyvə məhsulları yüksək qida və antioksidant dəyərinə malik olduğundan onların kimyəvi qalıqsız yetişdirilməsi, həm aqrar, həm də ictimai sağlamlıq baxımından prioritet məsələlərdəndir. İnsanların sağlamlığı üçün elə məhsullar təhlükəsiz sayılır ki, onların tərkibində toksiki maddələr ya heç olmur, ya da sanitar normaları ilə icazə verilmiş minimal miqdarda olur, insan orqanizminə mutagen, kanserogen və s.mənfi təsirə malik deyillər [2].

Ekoloji təmiz kənd təsərrüfatı məhsulları, o cümlədən də meyvə və giləmeyvələrin yetişdirilməsi dedikdə, torpaq məhsuldarlığını qoruyan, təbii dövrləri pozmayan, sintetik kimyəvi maddələrdən mümkün qədər az istifadə edilən yetişdirmə metodları nəzərdə tutulur. Bu yanaşma aqroekoloji prinsip adlanır. Aqroekoloji prinsip ətraf mühitin davamlılığını ön planda saxlayaraq, məhsuldarlığı optimallaşdırmaq məqsədi daşıyır. Ekoloji meyvəçilik torpaq–bitki–mikroorqanizm qarşılıqlı əlaqəsinə əsaslanan kompleks aqroekosistem yanaşmasını nəzərdə tutur. Orqanik aqrar təsərrüfat sistemlərində torpaq üzvi maddəsinin miqdarı və mikrobioloji fəallıq daha yüksək olur [3].

Aqroekoloji yanaşma yalnız məhsuldarlığı deyil, həm də torpaq və su resurslarının davamlılığını artırır. Azərbaycanda ekoloji təmiz meyvə, giləmeyvə məhsulu yetişdirilməsi üçün davamli aqroekoloji yanaşmanın perspektivləri çox böyükdür (cədvəl 2).

Cədvəl 2.
Azərbaycanda davamlı aqroekoloji yanaşmanın perspektivləri

S/s	Perspektivlər	Gözlənilən nəticələr
1	Sağlam qida bazarı	Ekoloji təmiz keyfiyyətli məhsullara tələbat artır.
2	İxrac potensialının artması	Orqanik məhsullar beynəlxalq bazarda daha yüksək qiymətləndirilir.
3	Biomüxtəlifliyin qorunması	Kimyəvi maddələrin istifadəsinin azalması torpaq və su ekosistemlərini qoruyur.
4	Əhali arasında maarifləndirmə və təhsil	Məktəblilərdə ekologiya və aqroekologiyaya dair müsabiqələr və təhsil proqramları təşviq olunur.

Ekoloji təmiz meyvə və giləmeyvə istehsalı torpağın, suyun və insan sağlamlığının qorunmasına əsaslanan davamlı kənd təsərrüfatı modelidir. Ekoloji təmiz meyvə və giləmeyvə yetişdirilməsi insanları yalnız sağlam qida məhsulları ilə təmin etməklə kifayətlənmir, həm də ekosistemlərin davamlılığını təmin edən kənd təsərrüfatı modelidir və Azərbaycanda inkişaf etdirilməsinə ciddi fikir verilməlidir.

ƏDƏBİYYAT

1. Babayev A.H., Babayev V.A. Ekoloji kənd təsərrüfatının əsasları.Ali məktəblər üçün dərslik."Qanun" nəşriyyatı.Bakı -2011.383 s.
2. Məhərrəmov M. Ə. Azərbaycan yeni inkişaf mərhələsində - qloballaşma və postpandemiya dövründə ərzaq və qida təhlükəsizliyi: müasir vəziyyət, çağırışlar, perspektivlər (2023). Texnika və Aqrar elmləri № 2 (4). Lənkəran, s. 22-40.
3. Willer, H., Trávníček, J., Meier, C., Schlatter, B. (2023). The World of Organic Agriculture: Statistics and Emerging Trends 2023. FiBL & IFOAM.

SUSTAINABLE AGROECOLOGICAL APPROACH FOR GROWING ECOLOGICALLY CLEAN FRUIT AND BERRY PRODUCTS IN AZERBAIJAN

Tunzala Hasan k. Iskenderova
isgandarova65@mail.ru
Azerbaijan Technological University

Against the backdrop of serious environmental problems, organic farming offers many sustainable alternatives. An ecologically clean production system not only maintains soil health, but also ensures the sustainability of ecosystem services. All this offers significant potential for the stronger development of export-oriented agro-industrial sectors. The article provides information on all these issues.

Keywords: agroecology, environment, ecosystem, ecological, soil, fruit, berries.

YAŞIL TEXNOLOGİYALAR DAVAMLI İNKİŞAF VƏ İQTİSADİYYATA APARAN YOL KİMİ

Tünzalə Həsən qızı İsgəndərova[1]
isgandarova65@mail.ru
Yeganə Abuzər qızı Məmmədova[2]
yeganamammadova1960@gmail.com
Azərbaycan Texnologiya Universiteti[1,2]
Gəncə Dövlət Universiteti[1]

Son illərdə Azərbaycanda ətraf mühitin mühafizəsinin yaxşılaşdırılmasına yönəlmiş müasir texnologiyaların fəal tətbiq edilməsi müşahidə olunur. Yaşil texnologiyalar davamlı inkişaf və iqtisadiyyata aparan yol kimi əvəzolunmaz mühüm əhəmiyyətə malikdir.

Yaşıl iqtisadiyyatın əvvəlki iqtisadi modellərdən əsas fərqi - əvvəllər istifadə edilmiş resursların real dəyərinin onların qiymətini təyin etmədən nəzərə alınmasındadır [1].


Qeyd etmək lazımdır ki, yaşıl iqtisadiyyat anlayışı iqtisad elminin ekologiya iqtisadiyyatı və ətraf mühit iqtisadiyyatı kimi sahələri ilə sıx bağlıdır [3].

"Yaşıl" iqtisadiyyata ətraf mühitin çirklənməsinin qarşısının alınması üçün optimal texnoloji həllərin tətbiqi yolu ilə davamlı inkişafa nail olmaq vasitəsi kimi baxmaq olar [2].

Davamlı iqtisadiyyatın inkişaf etməsində yaşıl texnologiyaların rolu böyükdür. Yaşıl texnologiyalar yeni iş yerlərinin yaradılmasına və rəqabətin artmasına kömək edir.

Məsələn, bərpa olunan enerjiyə keçid günəş panelləri və külək turbinlərinin istehsalı, quraşdırılması və texniki xidmətində iş yerləri yaradır [4].

Müasir tikinti davamlı inkişaf və ekologiya konteksti olmadan inkişaf edə bilməz. Enerji səmərəliliyinə, ekoloji təhlükəsizliyə və resurslardan səmərəli istifadəyə artan tələblər normaya çevrilir. Azərbaycanda bu mövzu Qarabağ ərazilərinin bərpası, "ağıllı" yaşayış məntəqələrinin inkişafı və "yaşıl" iqtisadiyyata diqqət baxımından çox vacibdir. Yaşıl Tikinti və Enerji Səmərəliliyi Azərbaycanda yaşıl texnologiyalar və materiallar fəal şəkildə inkişaf etdirilir, biliklər yayılır, bazar iştirakçıları yaşıl tikintinin üstünlüklərinə daha yaxından baxmağa başlayır və investorlar ekoloji cəhətdən təmiz tikintinin iqtisadi faydalarını anlamağa başlayırlar. Son illərdə Azərbaycan enerji istehlakını azaltmağa yönəlmiş tikinti həllərini tətbiq edir: enerjiyə qənaət edən ikiqat şüşəli pəncərələr və istilik izolyasiya materialları istifadə olunur; təbii işıq və ventilyasiyanı nəzərə alan memarlıq tətbiq olunur; bəzi obyektlər artıq yaşıl tikinti prinsipləri əsasında layihələndirilir. Azərbaycandakı ilk belə obyektlər ekoloji sertifikatlaşdırma prosedurundan keçir. "Yaşıl" tikinti ən effektiv şəkildə tikinti tənzimləməsinin müxtəlif səviyyələrində - enerji səmərəliliyinə nail olmaq üçün dövlət məqsədlərinin müəyyənləşdirilməsi, tikinti üçün tənzimləyici çərçivənin modernləşdirilməsi, könüllü ekoloji tikinti standartlarının maliyyələşdirilməsi və tətbiqi ilə bir sıra tədbirlərin həyata keçirilməsi şərtilə inkişaf edir. Yaşıl texnologiyalara müxtəlif iqtisadi sektorlarda tətbiq olunan bir sıra müxtəlif texnologiyalar daxildir: enerji; kənd təsərrüfatı; tikinti sektoru; sənaye sahələri. Yaşıl texnologiyaların əsas diqqəti ətraf mühitə antropogen təsirin, məsələn, su, torpaq və hava çirkliliyinin azaldılmasıdır. Bununla belə, onlar bir sıra digər məsələləri də həll edir: insan sağlamlığının qorunması, tullantıların azaldılması və təkrar emalı və iqlim dəyişikliyinin azaldılması. Texnoloji innovasiya, əslində, eko-innovasiya konsepsiyasının bir hissəsidir. Bundan başqa, vurğulanmalıdır ki, davamlı inkişaf konsepsiyasının uğurlu olması üçün ekoloji düşüncə sosial, siyasi və iqtisadi fəaliyyətin bütün aspektlərinə inteqrasiya olunmalıdır. Beləliklə, eko-innovasiyanın davamlı inkişaf konsepsiyası ilə birbaşa əlaqəsi olduğu qənaətinə gəlmək olar (şəkil 1).



Şəkil 1. Eko-innovasiyanın davamlı inkişaf konsepsiyası ilə birbaşa əlaqəsi

Bir çox yaşıl texnologiyalar iş yerlərinin sayını artıra və istehsalın texnoloji səviyyəsini yüksəldə bilər. İqtisadi artım əhalinin kiçik bir hissəsinin həyat səviyyəsinin yaxşılaşmasına səbəb ola bilər, əksəriyyəti isə yoxsul olaraq qalır. Problem cəmiyyətin inkişaf səviyyəsini müəyyən edən iqtisadi artımın əhali arasında necə bölüşdürülməsi ilə bağlıdır. Davamlı inkişafa nail olmaq və indiki, eləcə də gələcək nəsillərin rifahını yaxşılaşdırmaq üçün texnoloji yenilikləri tətbiq etmək və cəmiyyətin sosial təşkilatlanmasını təkmilləşdirmək lazımdır. Sosial təşkilat institusional, milli və beynəlxalq səviyyələrdə innovasiya yolu ilə təkmilləşdirilə və düzgün idarə edilə bilər. Beləliklə, yaşıl texnoloji innovasiyalar biznes üçün dəyərli bir mənbəyə çevrilə bilər, eyni zamanda onlara rəqabət üstünlüyü qazanmağa və davamlı inkişafı təşviq etməyə imkan verir. Bu cür innovasiyalar təbii sərvətlərin istehlakını azaltmaq və onları gələcək nəsillər üçün qorumaqda

əhəmiyyətli potensiala malikdir. Yaşıl texnologiyalar müştəri brendinə sadiqliyi daha da artıra bilər. Bundan başqa, Yaşıl texnologiyalar tənzimləyici uyğunluğu yaxşılaşdıra və gələcək tədqiqat, eləcə də davamlı inkişaf da daxil olmaqla uzunmüddətli investisiyaların cəlb edilməsinə kömək edə, iqtisadi inkişafa tövhə bilər.

ƏDƏBİYYAT

1.İsgəndərova T.H. İqlim dəyişmələri və qlobal istiləşmə. Ali məktəblər üçün. Bakı-2023, 310 s.
2.Бобылев С. Н., Вишнякова В. С., Комарова И. И. ≪Зеленая≫ экономика. Новая парадигма развития страны. Москва: СОПС, 2016. 246 с.
3.https://az.wikipedia.org/wiki/Ya%C5%9F%C4%B1l_iqtisadiyyat.
4.https://cyberleninka.ru/article/n/ekonomika-ustoychivogo-razvitiya-i-zelenye-tehnologii/viewer

GREEN TECHNOLOGIES AS A PATH TO SUSTAINABLE DEVELOPMENT AND ECONOMY

Tunzala Hasan q. Iskenderova[1]
isgandarova65@mail.ru
Yegana Abuzar q. Mammadova[2]
yeganamammadova1960@gmail.com
Azerbaijan Technological University[1,2]
Ganja State University[1]

In 2008, the United Nations announced the "Global Green New Deal". The initiative is aimed at a gradual transition to resource-saving technologies to ensure that environmental protection becomes a long-term priority for humanity. Green technologies that promote economic growth must be combined with environmental friendliness. The article provides information on "green" technologies and environmental innovations.

Keywords: green technologies, economy, environment, environmental problems, anthropogenic impacts, innovation, sustainable development.

PAMBIQ BİTKİSİ ÜÇÜN ƏTRAF MÜHİT, TƏHLÜKƏSİZLİK VƏ DAYANIQLI İNKİŞAF

Tünzalə Həsən qızı İsgəndərova
isgandarova65@mail.ru
Arzu Rövşən qızı Babazadə
arzu.babazada@adau.edu.az
Azərbaycan Dövlət Aqrar Universiteti

Pambıq kənd təsərrüfatında mühüm texniki bitkilərdən biri hesab olunur və dünya miqyasında geniş becərilir. Pambıq istehsalı iqtisadi cəhətdən əhəmiyyətli olmaqla yanaşı, ətraf mühitə müəyyən təsirlər də göstərə bilər. Bu məqalədə pambıq becərilməsinin ekoloji xüsusiyyətləri, torpaq və su ehtiyatlarına təsiri, təhlükəsizlik məsələləri və dayanıqlı inkişaf prinsipləri araşdırılır. Eyni zamanda, pambıq istehsalında ekoloji tarazlığın qorunması və resurslardan səmərəli istifadə olunması yolları təhlil edilir.

Dünyada pambıq əsasən lif əldə etmək məqsədilə becərilir və toxuculuq sənayesinin əsas xammallarından hesab olunur. Müasir dövrdə pambıq istehsalının artırılması ilə yanaşı, onun ətraf mühitə təsirinin azaldılması və dayanıqlı kənd təsərrüfatı prinsiplərinin tətbiqi xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycanda pambıqçılıq kənd təsərrüfatının inkişafında mühüm rol oynayır və bir çox regionlarda geniş yayılmışdır. Lakin pambıq becərilməsi zamanı torpaq, su və bioloji müxtəliflik kimi təbii resursların qorunması vacibdir.Pambıq bitkisi torpaqdan çoxlu qida

maddələri mənimsəyən bitkilər sırasına daxildir. Xüsusilə azot, fosfor və kalium kimi elementlər pambığın inkişafı üçün vacibdir. Uzun müddət eyni sahədə pambıq becərilməsi torpağın münbitliyinin azalmasına səbəb ola bilər [1].

Torpağın münbitliyini qorumaq üçün aşağıdakı tədbirlər tətbiq olunmalıdır:

- növbəli əkin sisteminin tətbiqi;
- üzvi gübrələrdən istifadə;
- torpaq eroziyasının qarşısının alınması;
- torpaq strukturunun qorunması.

Bitkinin vegetasiya dövründə kifayət qədər suya ehtiyacı olur. Su ehtiyatlarının səmərəsiz istifadəsi torpağın şoranlaşmasına və su ehtiyatlarının azalmasına səbəb ola bilər.Bu problemlərin qarşısını almaq üçün aşağıdakı üsullar tətbiq edilir:

- damcı suvarma texnologiyalarının tətbiqi;
- suvarma normativlərinə riayət olunması;
- su ehtiyatlarının qorunması və səmərəli istifadəsi.

Pambıq əkinlərinin geniş sahələrdə monokultura şəklində becərilməsi ekosistemə müəyyən təsirlər göstərə bilər. Pestisidlərin həddindən artıq istifadəsi faydalı həşəratların və torpaq mikroorqanizmlərinin azalmasına səbəb ola bilər [2]. Buna görə də bioloji mübarizə üsullarının tətbiqi və kimyəvi maddələrin minimum səviyyədə istifadə olunması tövsiyə edilir

Kənd təsərrüfatında istifadə olunan pestisidlər və gübrələr düzgün tətbiq edilmədikdə insan sağlamlığı üçün təhlükə yarada bilər. Bu səbəbdən aşağıdakı təhlükəsizlik tədbirlərinə əməl olunmalıdır:

- qoruyucu geyim və vasitələrdən istifadə;
- pestisidlərin normaya uyğun tətbiqi;
- kənd təsərrüfatı texnikasının düzgün istismarı;
- işçilərin təhlükəsizlik qaydaları üzrə maarifləndirilməsi.

Dayanıqlı pambıq istehsalının əsas istiqamətləri aşağıdakılardır:

1. Resurslardan səmərəli istifadə – torpaq, su və enerji ehtiyatlarının qorunması.
2. Ekoloji kənd təsərrüfatı üsulları – üzvi gübrələrin və bioloji mübarizə üsullarının tətbiqi.
3. Texnoloji yeniliklər – müasir kənd təsərrüfatı texnikası və suvarma sistemlərinin tətbiqi.
4. Növbəli əkin sistemi – torpaq münbitliyinin qorunması və zərərvericilərin azalması.

Bu tədbirlər pambıq istehsalının həm ekoloji, həm də iqtisadi baxımdan səmərəli olmasını təmin edir.Pambıq becərilməsi kənd təsərrüfatının mühüm sahələrindən biri olmaqla yanaşı, ətraf mühitə müəyyən təsirlər göstərir. Torpaq və su ehtiyatlarının qorunması, pestisidlərin düzgün istifadəsi və müasir texnologiyaların tətbiqi pambıqçılıqda ekoloji təhlükəsizliyin təmin olunmasına kömək edir.

Dayanıqlı inkişaf prinsiplərinin tətbiqi pambıq istehsalının uzunmüddətli və səmərəli şəkildə davam etməsinə imkan yaradır. Bu baxımdan pambıq becərilməsində ekoloji mühafizə tədbirlərinin həyata keçirilməsi və təhlükəsizlik qaydalarına riayət olunması kənd təsərrüfatının gələcək inkişafı üçün böyük əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. Babayev A.H., Babayev V.A. Ekoloji kənd təsərrüfatının əsasları.Ali məktəblər üçün dərslik."Qanun" nəşriyyatı.Bakı -2011.383 s.
2. Seyidəliyev N.Y., Xəlilov X.Q., MəmmədovaM.Z. (2017) Aqrotexniki tədbirlərin pambıq sortlarının struktur göstəricilərinə təsiri. Azərbaycan Milli Elmlər Akademiyası Gəncə bölməsi. Xəbərlər Məcmuəsi № 1(67), Gəncə. 93-99 s.
3. Khan F.Z., Rehman SU, Abid M.A., Malik W., Hanif C.M., Bilal M., Farhan U. (2015) Exploitation of Germplasm for Plant Yield improvement in Cotton (Gossypium hirsutum L.). Jounal of Green Physiology, Genetics and Genomics, 1 (1); 1-10.

ENVIRONMENT, SAFETY AND SUSTAINABLE DEVELOPMENT FOR COTTON PLANT

Tunzala Hasan gizi Iskenderova
isgandarova65@mail.ru
Arzu Rovshan gizi Babazade
arzu.babazada@adau.edu.az
Azerbaijan State Agrarian University

Cotton is considered one of the important industrial crops in agriculture and is widely cultivated worldwide. Cotton production is economically significant, but it can also have certain impacts on the environment. This article examines the ecological characteristics of cotton cultivation, its effects on soil and water resources, safety issues, and the principles of sustainable development. At the same time, the study analyzes ways to maintain ecological balance in cotton production and to use natural resources efficiently.

Keywords: cotton farming, environmental safety, sustainable development, soil protection, water resources, agriculture.

POLİEN ANTİBİOTİK SİSTEMLƏRİNDƏ DİMETİL SULFOKSİDİN MOLEKULYAR TƏSİR MEXANİZMLƏRİ

Fəridə Həsənli
farida.hasanli@mdu.edu.az
Vəfa Xəlil qızı Qasımova
Azərbaycan Texnologiya Universiteti[1]
Bakı Dövlət Universiteti[2]

Dimetil sulfoksid müasir kimya və biologiyada geniş istifadə olunan universal həlledicilərdən biridir. Onun müxtəlif üzvi və qeyri-üzvi maddələri yüksək effektivliklə həll etməsi bu birləşməyə elmi tədqiqatlarda xüsusi əhəmiyyət qazandırmışdır. DMSO molekulu dipol xarakter daşıyır və amfifilik xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlər onun həm hidrofil, həm də hidrofob mühitlərdə qarşılıqlı təsirə girməsinə imkan verir. Molekullararası dipol-dipol qarşılıqlı təsirlər və hidrogen rabitələri DMSO-nun struktur xüsusiyyətlərini və funksional davranışını müəyyən edir.

Polien antibiotikləri hüceyrə membranlarına təsir edən və əsasən antifunqal aktivlik göstərən birləşmələrdir. Lakin onların suda zəif həll olması tətbiq sahəsini məhdudlaşdırır. Bu baxımdan DMSO onların həllolma qabiliyyətini və bioloji effektivliyini artıran mühüm mühit kimi çıxış edir.

Bu işdə dimetil sulfoksidin fiziki-kimyəvi xüsusiyyətləri və polien antibiotikləri ilə qarşılıqlı təsiri müxtəlif ədəbiyyat mənbələrinin müqayisəli təhlili əsasında öyrənilmişdir.

Molekulyar qarşılıqlı təsirlər, termodinamik parametrlər və bioloji effektlər üzrə əldə edilmiş eksperimental nəticələr sistemləşdirilmiş və ümumiləşdirilmişdir. Eyni zamanda DMSO–su sistemində kompleks əmələgəlmə mexanizmləri və membran modellərində baş verən dəyişikliklər nəzərdən keçirilmişdir.

DMSO molekulunun oksigen atomu yüksək elektron sıxlığına malik olduğundan hidrogen rabitələrinin yaranmasında aktiv rol oynayır. Bu xüsusiyyət onun su və digər proton donor molekullarla qarşılıqlı təsirini gücləndirir.

DMSO–su sistemində müəyyən konsentrasiyalarda strukturlaşmış komplekslərin əmələ gəlməsi müşahidə olunur. Bu komplekslər məhlulun termodinamik sabitliyinə təsir edir və molekulyar hərəkətliliyin azalmasına səbəb olur.

DMSO mühitində polien antibiotiklərinin effektivliyi əhəmiyyətli dərəcədə artır. Bu, antibiotik molekullarının daha homogen paylanması və onların aqreqasiya xüsusiyyətlərinin dəyişməsi ilə əlaqədardır. Sulu mühitə keçid zamanı bu sistemlərdə assosiativ strukturlar formalaşır ki, bu da antibiotiklərin hüceyrə membranına təsir gücünü artırır.

DMSO lipid ikiqat qatına daxil olaraq onun strukturunu dəyişir və nəticədə membranın keçiriciliyi artır. Bu isə müxtəlif molekulların hüceyrəyə daxil olmasını asanlaşdırır. Bundan əlavə, DMSO hüceyrə səviyyəsində bir sıra fizioloji proseslərə təsir göstərir və mikrosirkulyasiyanın yaxşılaşmasına şərait yaradır.

DMSO suyun kristallaşma prosesinə təsir edərək hüceyrələrin aşağı temperaturda qorunmasını təmin edir. Bu zaman buz kristallarının əmələ gəlməsi məhdudlaşır və hüceyrə strukturlarının zədələnməsi azalır. Optimal konsentrasiyada DMSO müxtəlif bioloji obyektlərin uzunmüddətli saxlanması üçün effektiv vasitə kimi çıxış edir. Gələcək tədqiqatlar bu maddənin təsir mexanizmlərinin daha dərindən öyrənilməsinə yönəldilmişdir.

MOLECULAR MECHANİSMS OF DİMETHYL SULFOXİDE İN POLYENE ANTİBİOTİC SYSTEMS

Farida Hasanli
farida.hasanli@mdu.edu.az
Vafa Khalil gizi Gasimova
Azerbaijan Technological University[1]
Baku State University[2]

Dimethyl sulfoxide (DMSO) is a highly polar aprotic solvent widely utilized in various chemical and biological systems. One of its key properties is the ability to efficiently solvate substances of different nature and to provide a stable molecular environment. Studies have demonstrated that the biological activity of polyene antibiotics significantly increases in a DMSO medium, showing a 10–100-fold enhancement compared to aqueous solutions.

The formation of strong hydrogen bonds between DMSO and water molecules leads to the development of structured complexes, which alter the thermodynamic properties of the system. This interaction results in a decrease in the freezing point and contributes to the emergence of cryoprotective properties.

Keywords: dimethyl sulfoxide, polyene antibiotics, membrane permeability, cryoprotection, hydrogen bonding, biological activity


AZƏRBAYCANDA MƏİŞƏT TULLANTILARININ MƏKAN PAYLANMASININ GEOİNFORMASİYA METODLARI İLƏ TƏDQİQİ

Zeynəb Şahin Talıbzadə
z.talibzade@atu.edu.az
Lamiyə Şaxəli Xəlilova
Azərbaycan Texnologiya Universiteti

Müasir dövrdə urbanizasiya və sənayeləşmə proseslərinin sürətlənməsi nəticəsində məişət tullantılarının həcmi əhəmiyyətli dərəcədə artmışdır. Bu artım yalnız ekoloji deyil, həm də sosial-iqtisadi problemlərin yaranmasına səbəb olur. Xüsusilə inkişaf etməkdə olan ölkələrdə tullantıların düzgün idarə olunmaması torpaq, su və hava mühitinə mənfi təsirlər göstərir [1].

Azərbaycan Respublikasında son illərdə iqtisadi inkişaf, əhali artımı və şəhərləşmə prosesləri məişət tullantılarının miqdarının artmasına səbəb olmuşdur. Bu baxımdan tullantıların regional səviyyədə öyrənilməsi və onların məkan paylanmasının təhlili olduqca aktualdır [6].

Coğrafi İnformasiya Sistemləri (CİS) bu cür problemlərin öyrənilməsində mühüm alət kimi çıxış edir. CİS vasitəsilə məlumatların vizuallaşdırılması, məkan analizi və qərar qəbuletmə prosesinin optimallaşdırılması mümkün olur.



Şəkil 1. Azərbaycanda məişət tullantılarının həcminin vizual təsviri.[7]

Təhlil göstərir ki, ən yüksək tullantı həcmi Abşeron yarımadasında, xüsusilə Bakı və ətraf ərazilərdə müşahidə olunur. Bu zonada rəngin ən tünd çalarlarla verilməsi tullantıların 716,1 min m³-dən çox olduğunu göstərir. Bu hal paytaxtın yüksək əhali sıxlığı, sənaye və xidmət sektorlarının inkişaf səviyyəsi, urbanizasiya proseslərinin intensivliyi ilə izah olunur. Eyni zamanda, Sumqayıt və Abşeron rayonları da yüksək tullantı göstəriciləri ilə seçilir ki, bu da sənaye və məişət fəaliyyətinin intensivliyinin nəticəsidir [3].

Orta tullantı həcmləri ölkənin mərkəzi və bəzi qərb rayonlarında – Gəncə-Qazax, Aran və qismən Şəki-Zaqatala iqtisadi rayonlarında müşahidə edilir. Bu ərazilərdə tullantıların həcmi əsasən 58,3–207,4 min m³ intervalında dəyişir. Bu göstəricilər əhalinin nisbətən sıx məskunlaşması, kənd təsərrüfatı ilə yanaşı, regional sənaye və xidmət sahələrinin mövcudluğu ilə əlaqələndirilə bilər. Gəncə şəhəri və ətraf rayonlarda tullantıların orta-yüksək səviyyədə olması urbanizasiya ilə kənd təsərrüfatı fəaliyyətinin sintezini əks etdirir [2].

Nisbətən aşağı tullantı həcmləri isə əsasən dağlıq və az məskunlaşmış rayonlarda – Quba-Xaçmazın bəzi hissələri, Dağlıq Şirvan, həmçinin Qarabağ və Şərqi Zəngəzur bölgələrinin bir sıra rayonlarında qeydə alınır. Bu ərazilərdə tullantı həcmləri 0–24,2 min m³ aralığında dəyişir ki, bu da əhali sıxlığının aşağı olması, iqtisadi fəaliyyətin məhdudluğu

və urbanizasiya səviyyəsinin zəifliyi ilə izah olunur. [Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. (2023). Ətraf mühit üzrə statistik məlumatlar. Bakı]

Aparılan tədqiqat göstərir ki, məişət tullantılarının məkan üzrə paylanması qeyri-bərabər xarakter daşıyır və əsasən urbanizasiya səviyyəsi əhali sıxlığı, sənayeləşmə dərəcəsi, iqtisadi fəaliyyətin intensivliyi ilə sıx bağlıdır. CİS texnologiyalarının tətbiqi bu fərqlərin vizual və analitik şəkildə qiymətləndirilməsinə imkan yaradır. Bu yanaşma ekoloji idarəetmənin optimallaşdırılması və davamlı inkişaf strategiyalarının hazırlanması üçün mühüm əhəmiyyət kəsb edir [4, 7].

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. (2023). Ətraf mühit üzrə statistik məlumatlar. Bakı.
2. Chang, K. T. (2018). Introduction to Geographic Information Systems. McGraw-Hill.
3. Tchobanoglous, G., & Kreith, F. (2002). Handbook of Solid Waste Management. McGraw-Hill.
4. UNEP. (2021). Global Waste Management Outlook. United Nations Environment Programme.
5. ESRI. (2022). ArcGIS Desktop Documentation.
6. Zeynalov, R. (2020). Azərbaycanda tullantıların idarə olunması problemləri. Ekologiya və Su Təsərrüfatı Jurnalı, 5(2), 45–52.
7. https://www.arcgis.com/index.html

SPATIAL DISTRIBUTION OF MUNICIPAL SOLID WASTE IN AZERBAIJAN USING GEOINFORMATION METHODS

Zeynab Talibzade Shahin
z.talibzade@atu.edu.az
Lamiya Khalilova Shahali
Azerbaijan Technological University

This study examines the volume of municipal solid waste collected by communal services across the economic regions and administrative units of the Republic of Azerbaijan using geoinformation methods. The main objective of the research is to determine the spatial distribution characteristics of waste, assess regional differences, and provide a scientific basis for environmentally optimal decision-making in waste management. Geoinformation methods allow for spatial analysis and visualization of waste generation patterns, supporting more effective and sustainable municipal waste management strategies.

Keywords: Municipal solid waste, Geoinformation methods, Spatial analysis, Waste management, ArcGIS 10.3


AZƏRBAYCANDA TULLANTI SULARIN CİS ƏSASLI MƏKAN TƏHLİLİ

Elşad Ərşad Məmmədov [1]
Nəsibə Volodiya qızı Nəsirova [2]
Zeynəb Şahin qızı Talıbzadə [1]
z.talibzade@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti[1]
Gəncə Dövlət Universiteti[2]

Son onilliklərdə tullantıların həcmi sürətlə artmışdır. Sənaye müəssisələrinin fəaliyyəti, kənd təsərrüfatının genişlənməsi və şəhərlərin böyüməsi tullantıların yaranmasına səbəb olan əsas amillər sırasındadır. Bu proseslər nəticəsində torpaq, su və hava mühiti müxtəlif çirkləndirici maddələrlə çirklənir və ekosistemlərin tarazlığı pozulur. Bu baxımdan tullantıların idarə olunması və onların ətraf mühitə təsirinin azaldılması aktual məsələlərdən biridir.

Tullantıların səmərəli idarə olunması üçün onların məkan paylanmasının öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Coğrafi informasiya sistemləri tullantıların

yaranma mənbələrini, paylanma xüsusiyyətlərini və ekoloji təsirlərini analiz etməyə imkan verir. [2]



Şəkil 1. Azərbaycan Dövlət Statistika Komitəsindən əldə olunmuş məlumatlar əsasında ArcMap 10.3 proqram təminatında hazırlanmışdır [4]

Tədqiqatın əsas metodoloji bazasını ArcMap 10.3 proqram təminatında hazırlanmış "Çirkab suların atılması" adlı tematik xəritə təşkil edir. Xəritədə istifadə olunan kəmiyyət intervalları (0,1–0,2 mln m³-dən 1008,1–1726,1 mln m³-dək) tullantı suların regionlar üzrə kəskin fərqləndiyini göstərir.

Xəritənin təhlili göstərir ki, tullantı suların ən yüksək həcmdə toplandığı ərazi Abşeron yarımadasıdır. Xüsusilə Bakı şəhəri və Abşeron rayonu ən tünd rənglərlə verilmişdir ki, bu da 1000 mln m³-dən artıq tullantı su həcmini ifadə edir. Bu hal əhalinin sıxlığı, sənaye müəssisələrinin təmərküzləşməsi və iri kommunal təsərrüfat sistemləri ilə izah olunur. Abşeron yarımadasının sənaye və məişət tullantı suları əsasən Xəzər hövzəsinə yönəldiyi üçün burada ekoloji vəziyyət daha gərgindir.

İkinci yüksək göstəricilər Aran iqtisadi rayonunun bəzi ərazilərində müşahidə olunur. Məsələn, Salyan və Neftçala rayonlarında çirkab suların həcmi digər ərazilərlə müqayisədə daha yüksəkdir. Bu isə həm sənaye obyektlərinin, həm də suvarma sistemlərinin geniş yayılması ilə əlaqədardır. Kür çayı hövzəsində yerləşən rayonlarda tullantı suların konsentrasiyası çayın su keyfiyyətinə birbaşa təsir göstərir. Bu baxımdan Kür çayı hövzəsi xüsusi risk zonası kimi qiymətləndirilə bilər.

Gəncə-Qazax iqtisadi rayonunda tullantı suların həcmi orta səviyyədədir. Gəncə şəhəri və ətraf rayonlarda sənaye və məişət sularının həcmi digər qərb rayonları ilə müqayisədə daha yüksəkdir. Bu isə metallurgiya və emal sənayesinin mövcudluğu ilə bağlıdır. Eyni zamanda Mingəçevir şəhərinin su təsərrüfatı infrastrukturu da tullantı suların formalaşmasına təsir göstərir. Qərb və şimal-qərb rayonlarında isə göstəricilər nisbətən aşağıdır ki, bu da əhalinin seyrəkliyi və sənaye obyektlərinin azlığı ilə izah olunur.

Şimal-şərq bölgəsində, xüsusilə Quba-Xaçmaz zonasında da orta göstəricilər müşahidə edilir. Bu ərazilərdə kənd təsərrüfatı və turizm fəaliyyəti tullantı suların əsas mənbəyidir. Cənub bölgəsində - Lənkəran-Astara zonasında tullantı suların həcmi orta və aşağı intervallarda dəyişir. Bu isə əhalinin sıxlığının Abşeronla müqayisədə az olması və iri sənaye müəssisələrinin məhdudluğu ilə bağlıdır. [5]

ArcMap 10.3 proqramında aparılmış məkan təhlilləri tullantı suların paylanmasının əhali sıxlığı, sənaye mərkəzləri və hidroqrafik şəbəkə ilə sıx əlaqədə olduğunu təsdiq edir. CİS platforması yalnız mövcud vəziyyətin təsviri deyil, həm də proqnostik modelləşdirmə üçün effektiv alət rolunu oynayır.

Nəticədə, tullantı suların məkan paylanmasının CİS texnologiyaları vasitəsilə təhlili Azərbaycanda dayanıqlı inkişaf strategiyasının əsas istiqamətlərindən biridir. Məkan məlumatlarının təhlili çirklənmə mənbələrinin dəqiq identifikasiyasına, risk zonalarının müəyyənləşdirilməsinə və resursların səmərəli idarə olunmasına şərait yaradır.

ƏDƏBİYYAT

1. R.Meral, F.Cavadzadə. Tullantı sutəmizləyici qurğuların istismarı, Azərsu, Bakı-2018
2. Johnson, L. E. Geographic Information Systems in Water Resources Engineering. Boca Raton: CRC Press, 2009.
3. Velenturf, A., Purnell, P. Principles of a Sustainable Circular Economy. – London: Routledge, 2021.
4. https://www.esri.com
5. https://www.stat.gov.az/source/environment/

GIS-BASED SPATIAL ANALYSIS OF WASTEWATER IN AZERBAIJAN

Elshad Arshad Mammadov[1]
Nasiba Volodiya Nasirova[2]
Zeynab Shahin Talibzade[1]
z.talibzade@atu.edu.az
Azerbaijan Technological University [1]
Ganja State University[2]

The GIS-based analysis of wastewater spatial distribution in Azerbaijan is one of the important directions for the sustainable management of water resources. This study examines the spatial characteristics of waste, particularly sewage, across different regions of Azerbaijan. The main objective of the research is to determine the spatial distribution of waste and to assess the potential applications of the circular economy model in this field.
Keywords: wastewater, circular economy, GIS

AZƏRBAYCANIN İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİNDƏ SU İNFRASTRUKTURUNUN BƏRPASI VƏ MODERNLƏŞDİRİLMƏSİNİN TƏHLİLİ

Gülnarə Asib qızı Əsədova
g.asadova@atu.edu.com
Sevda Oktay qızı Qurbanova
qurbanova-sevda@inbox.ru
Lamiyə Şaxəli qızı Xəlilova
l.xelilova@list.ru
Azərbaycan Texnologiya Universiteti

İşğaldan azad edilmiş ərazilərdə su infrastrukturunun bərpası Azərbaycan üçün strateji əhəmiyyət daşıyan prioritet istiqamətlərdən biridir. Uzun müddət davam edən işğal nəticəsində bu bölgələrdə mövcud olmuş su təsərrüfatı sistemləri ciddi şəkildə dağıdılmış, hidrotexniki qurğuların böyük hissəsi yararsız vəziyyətə düşmüş, bəzi hallarda isə tamamilə məhv edilmişdir. Bu səbəbdən, həmin ərazilərdə dayanıqlı yaşayışın təmin olunması və iqtisadi fəaliyyətin bərpası üçün müasir yanaşmalar əsasında kompleks tədbirlərin həyata keçirilməsi zəruridir. [1]

Bundan əlavə, su infrastrukturunun bərpasında rəqəmsal texnologiyaların, o cümlədən coğrafi informasiya sistemlərinin (CİS) və uzaqdan monitorinq vasitələrinin istifadəsi su resurslarının idarə olunmasını daha effektiv edir. Bu yanaşmalar su ehtiyatlarının dəqiq uçotunu aparmağa, su itkilərini azaltmağa və qərarvermə prosesini optimallaşdırmağa imkan yaradır. Eyni zamanda, bərpa prosesində ekoloji amillər də nəzərə alınır. Su resurslarının dayanıqlı istifadəsi, təbii ekosistemlərin qorunması və torpaqların münbitliyinin bərpası əsas hədəflərdən biridir. Bu istiqamətdə həyata keçirilən

tədbirlər regionda ekoloji tarazlığın bərpasına və uzunmüddətli dayanıqlı inkişafın təmin olunmasına xidmət edir. Su infrastrukturunun modernləşdirilməsi və bərpası yalnız texniki bir proses deyil, həm də sosial-iqtisadi inkişafın və ekoloji sabitliyin təmin edilməsində əsas rol oynayan kompleks yanaşmadır. [2]

Regionda yerləşən əsas su anbarları arasında “Suqovuşan” su anbarının bərpası xüsusi əhəmiyyət kəsb edir. Bərpa işləri tamamlandıqdan sonra bu anbar Tərtər və ətraf ərazilərin su təminatında uğurla istifadə olunmağa başlanmışdır. Eyni zamanda, “Xaçınçay” su anbarı da bərpa edilərək əsasən suvarma məqsədləri üçün istismara verilmişdir. Bundan əlavə, “Köndələnçay” su anbarları sistemi üzrə bərpa və modernləşdirmə işləri mərhələli şəkildə davam etdirilir və artıq müəyyən hissələr istifadəyə verilmişdir. [3]

Su anbarları ilə yanaşı, regionda suyun daşınmasını təmin edən kanallar və magistral xətlərin yenidən qurulması da diqqət mərkəzindədir. Bu baxımdan, Tərtərçay Sol Sahil kanalında aparılan yenidənqurma işləri nəticəsində əsas hissələrdə su axınının bərpasına nail olunmuşdur. Paralel olaraq, Füzuli, Ağdam və Cəbrayıl rayonları istiqamətində suvarma şəbəkələrinin yenilənməsi və genişləndirilməsi üzrə işlər davam etdirilir ki, bu da kənd təsərrüfatının inkişafına mühüm töhfə verir. [5]

Bölgədə həmçinin yeni su anbarlarının tikintisi istiqamətində layihələr həyata keçirilir. Laçın rayonunda nəzərdə tutulan “Həkəriçay” su anbarı və Qubadlı rayonunda planlaşdırılan “Bərgüşadçay” su anbarı üzrə layihələndirmə və hazırlıq işləri davam etdirilir və bəzi hissələrdə artıq tikinti mərhələsinə keçid edilmişdir. Eyni zamanda, “Zabuxçay” su anbarı layihəsi və onunla əlaqəli magistral kəmərlərin layihələndirilməsi də regionun su təminatının yaxşılaşdırılması baxımından strateji əhəmiyyət daşıyır. [4]

ƏDƏBİYYAT

1. Amiraslanov F., Asadova G., Mammadova Ye., Mammadov Kh., 2025 №69, pp. 3-6. Monitoring spatial changes in water resources with CİS.
2. Water resources DOİ: https://doi.org/10.5281/zenodo.17046545 https://www.lyon-science.com/wp-content/uploads/2025/09/Lyon_69.pdf
3. Iskandarova T., Asadova G., Aliyeva Ye., Mahmudov S., Amiraslanov F. No 162 (2025).
4. 8-13. Water resources. Monitoring the impact of climate change on local ecosystems. DOI: 10.5281/zenodo.15621839 The-scientific-heritage-No-162-162-2025.pdf
5. Алиева Е.Д., Асадова Г.А., Исмаилова А.Б. Water resources ”Оцениван эко-географических условий земель Азербайджана”. Международный научный журнал «ВЕСТНИК НАУКИ» № 4 (85) Том 3. АПРЕЛЬ 2025 г. 1123 – 1127
вестник- науки.рф/archiv/journal-4 -85 - 3.pdf#page=1123. journal-4-85-3.pdf
7. Elshad Mammadov, G.Asadova, İrshad Abbasov (ganja, azerbaijan) “İnvestigation of the impact of climate change on the area changes of water basins in Azerbaijan using GİS (geographic information systems)”. National academy of scientific and innovative research «science and education: modern time» (issue 13,2025). pp. 196-199. Просмотр «2025: TOM 13, SCIENCE AND EDUCATION MODERN TIME»
8. Gurbanova S., Asadova G. , Mammadova Kh.,Talibzade Z., Bagirova A. A. Water resources “Geospatial analysis of climate change–induced transformations in water bodies”. Deutsche internationale Zeitschrift für zeitgenössische Wissenschaft №118 2025. pp. 18-21. DOI: 10.5281/zenodo.18003098. Deutsche internationale Zeitschrift für zeitgenössische Wissenschaft №118 2025.pdf - Яндекс Документы

ANALYSIS OF THE RESTORATION AND MODERNIZATION OF WATER INFRASTRUCTURE IN THE LIBERATED TERRITORIES OF AZERBAIJAN

Gulnara Asib qizi Asadova
g.asadova@atu.edu.com
Sevda Oktay qizi Qurbanova
qurbanova-sevda@inbox.ru
Lamiya Shakhali qizi Khalilova
l.xelilova@list.ru
Azerbaijan Technologyical University

Water infrastructure is not limited solely to the provision of potable water; it also plays a crucial role in agriculture, industry, and the maintenance of ecological balance. During the period of occupation, the destruction of irrigation canals, damage to reservoirs, and the cessation of pumping stations significantly hindered the efficient management of water resources. As a result, large areas of land remained unused, salinization processes intensified, and overall environmental degradation occurred.

Currently, ongoing reconstruction efforts are being implemented through the application of modern technologies. Within this framework, the construction of new water supply systems, the rehabilitation and automation of existing networks, and the adoption of technologies that minimize water losses are among the main priorities. In particular, the widespread use of drip irrigation and other water-saving technologies contributes significantly to improving agricultural efficiency.

Keywords: Water infrastructure, reconstruction, modernization, liberated territories, Azerbaijan, irrigation systems, water management, sustainable development

XƏZƏR DƏNİZİNİN SƏVİYYƏSİ NİYƏ VƏ NƏYƏ GÖRƏ AZALIR?

Vilayət Fərhad oğlu Həsənov
vilayathasanov59@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Xəzər dənizi qapalı su hövzəsidir ki, Dünya Okeanına əlaqəsi yoxdur və buna görə də onu planetin ən iri gölü adlandırırlar. Sahəsi 370 km-dən çoxdur. Xəzər dənizi dünya okeanı səviyyəsindən 28,3 metr aşağıdadır. Xəzərdə ən dərin çökəklik Azərbaycanın Xəzər sektorunda Lənkəran sahəsində 1025 metr dərinliyində yerləşmişdir. Digər çökəklik isə Dərbənd yaxınlığında 788 metr dərinlikdə yerləşmişdir. Xəzərdə duzluluq 12-13% (promil) cənub hissəsində olur. Dünya nərə balıqlarının ehtiyatının 80%-dən çoxu Xəzərdədir. Xəzərin orta dərinliyi isə təxminən 207metr-dir [1]. Xəzər dənizi ətrafında yerləşən 5 ölkədən- Azərbaycan qərbdə, Qazaxıstan şimal-şərq və şərqdə, Türkmənistan cənub-şərqdə, Rusiya-şimalda, İran-cənubda yerləşir. Xəzər dənizinə 130-a yaxın çay axır. Bunlar Volqa, Ural, Terek, Sulak, Samur, Kür, Şəfidrud, Gözgənrud. Azərbaycandan birbaşa Xəzərə tökülən ən böyük çay Kürdür. Şərq sahilindən (Qazaxıstan) Xəzərə çay tökülmür. Qazaxıstan ekspertlərinin hesablamalarına görə Xəzərə tökülən çayların 86-87 %-i Volqa çayının (210-215 kub\km), Kür çayı-6,0%, Ural çayı-5% payına düşür. Yəni Xəzərə əsasən şimal və qərb sahillərindən daha çox çayların suyu tökülür. Volqa çayı hər il orta hesabla Xəzər dənizinə 254 km^3 su gətirir. Belə halda Volqa çayından Xəzərə axıdılan suyun həcmi niyə kəskin azalıb? Əsas səbələrdən biri və başlıcası ona tökülən çaylar və ən əsası Volqa çayı təşkil edir.Volqaya isə mindən çox çay axır. Bütün bunlar barədə ilk dəfə olaraq 2025-ci ilin 2025-ci ilin 25 sentyabr tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nyu-Yorkda BMT-nin Baş Assambleyasının 80-ci sessiyasında çıxışı zamanı belə demişdir " 2022-ci ildə Xəzəryanı Dövlətlərin Dövlət başçılarının zirvə çevirişində Xəzər dənizində ətraf mühitin pozulması məsələsini

qaldırdım. Bu gün vəziyyət daha acınacaqlıdır. Bu yalnız Xəzəryanı ölkələrin deyil, həm də qlobal ekoloji gündəmin tərkib hissəsinə çevrilə bilər. Çoxillik müşahidələrdən məlumdur ki, hər bir su obyektinin, xüsusilə də qapalı göllərin (Xəzər göldür) su balansı var. Bir gölə nə qədər su gəlirsə,o qədər də çıxmalıdır ki, onun səviyyəsi sabit qalsın. Əgər gəlir və çıxar arasındakı fərq çoxalırsa gölün səviyyəsi aşağı düşəcək. Xəzər qapalı göldür,çayların gətirdiyi su buxarlanma ilə çıxır. Lakin son 30 ildə çayların suyunda kəskin azlam baş verir, buxarlanma isə olduğu kimi qalır və yaxud daha çox olur. Bu da Xəzərin səviyyəsinin azalmasına səbəb olur. Xəzərin səviyyəsinin enmə sürətinin azaldığını qeyd edən proffessor Əmir Əliyev bildirir ki, son 200 ildə antropogen amillərin təsiri də artıb. Antropoqen faktorlara əsasən Volqa çayının suyundan həddən ziyadə istifadə ilə bağlıdır. Son 20-30 ildə planetdə baş verən istiləşmə dənizin suyunun,temperaturunu artırır ki, bu da Xəzərdə buxarlanmanı qaldırır. İqlim dəyişikliyi yalnız temperaturun artması demək deyil. Küləklərin istiqamətinin dəyişməsində mühüm amilllərdən biridir. 2005-2020 ci illər ərzində Xəzər 2,1metrə,2023-2025 ci illər ərzində isə 0,4-0,5 metrə qədər geri çəkilib. Cografiya üzrə fəlsəfə doktoru Zaur İmrani deyir ki, suyun səviyyəsinin azalması iqlim dəyişməsi ilə, temperaturun artması ilə bağlı olaraq buxarlanmanın həddindən artıq tez getməsi və küləklərin buxarlanması havalarının sovrulması ilə həmçinin ən əsası antropogen amillərlə bağlıdır. Xəzər dənizinin azalması ən çox Qazaxıstan sahilindədir. Azərbaycanda isə şimal hissəsində çəkilir. Azalma tendensiyası indiki tempdə getsə PirAllahı adası yarımadaya çevrilə bilər. Professor coğrafiya elmləri doktoru Amil Əliyev deyir ki 1996–ci ildən indiki zaman, yəni 2025–ci ilə qədər Xəzər dənizinin səviyyəsi 2,1 metrə aşağı düşmüşdür.

04 fevral 2026-cı il tarixdə Xəzər dənizinin geri çəkilməsi Astara ərazisində 50 metr arxaya çəkilməsi və hətta hündürlüyü bir neçə metrə çatan ağaclar müşahidə olunur.

ƏDƏBİYYAT

1.M.Ə.Salmanov,A,A, Məmmədov Ə,H özərən,Ə.H.Cəfərov "Ümumi və tətbiqi ekoloqiyanın əsasları Bakı 2016.
2. Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev 25 sentyabr 2025-ci il Nyu-York şəhəri:
3.Qazaxıstan Respublikasının Prezidenti K.C.Tokayev Astana 11 dekabr 2025.
4.Heydər Əliyev Fondunun Vitse-prezidenti L.Əliyeva cenevrə 30 yanvar 2026 –cı il

WHAT ARE THE CAUSES AND MECHANISMS BEHIND THE DECLINING WATER LEVEL OF THE CASPIAN SEA?

Vilayat Farhad oglu Hasanov
vilayathasanov59@gmail.com
Azerbaijan Technological University

Based on the presented material, the study describes the geographical location of the Caspian Sea, provides information about the coastal countries, and examines the rivers flowing into the sea. It also considers the speech of the President of Azerbaijan at the United Nations, the reduction of the Caspian Sea's water balance, and the main reasons for the decline in its level. The role of Russia in the emergence of this problem, the overall condition of the Volga River, and anthropogenic factors affecting the decrease in the sea level are also discussed. Furthermore, the study highlights joint efforts to address the problem and emphasizes the importance of strengthening international cooperation for the protection of the Caspian Sea.

Keywords: ecological problems of the Caspian Sea, analysis of ongoing processes, causes of the problem, solutions to the ecological crisis, development of cooperation strategies.

AZƏRBAYCANDA BAL ARISI GENOFONDUNUN BƏRPASI MƏSƏLƏLƏRİ

Samir Həsən oğlu Mahmudov[1]
s.mahmudov@atu.edu.az
Rəvan Bəhruz oğlu Cavadov[2]
Azərbaycan Texnologiya Universiteti[1]
Heyvandarlıq və Balıqçılıq Elmi Tədqiqat İnstitutu[2]

Uzun illərdir Respublikamıza gətirilən müxtəlif arı cinsləri və mələzləri, həmçinin arıçılar tərəfindən təsərrüfat daxilində seleksiya-damazlıq seçmə işləri aparılmadığından, nəinki qarışıq cins və mələzlər arılar üçün uçuş arealı 3 kilometrdən az olması, hətta bir təsərrüfat daxilində müxtəlif mələzlər saxlanaraq yetişdirildiyindən Azərbaycanın yerli arı genofonduna daxil olmuş Boz Dağ Qafqaz arı cinsinin populyasiyaları itmək təhlükəsi ilə üzləşmiş, cırlaşma və mələzləşmə səbəbindən məhsuldarlıq hər pətək hesabına 3-5 kq-a qədər düşmüş, xəstəliyə davamsız və aqressiv arı kütləsi arıçılar tərəfindən saxlanılmaq-dadır. Qeyd olunanları nəzərə alaraq, Boz Dağ Qafqaz arısının cins tərkibinin yaxşılaşdırılması aktual hesab olunur. Bu işlərin yerinə yetirilməsi üçün arıçı tərəfindən ana xətti bilinməklə mayalanmanın kontrollu aparılması, yəni erkək fərdin də hansı cinsdən olmasını bilmək vacibdir. Bu isə adalarda və ya ideal izolə bölgələrində və yaxud süni mayalandırma işi üzrə yerinə yetirilməsi mümkündür. Adalarda hələlik çiçək tozu və nektar verən bitki örtüyünün arıların ehtiyacına uyğun dərəcədə olmaması və eləcə də meşə ərazilərində də izolə bölgə kimi 3-7 km məsafədə digər cinsdən olan arı ailəli təsərrüfatçının, ağac koğuşlarında yad cinsdən olan arı ailələrinin olmaması mümkün olmadığından yeganə çıxış yolu kimi süni mayalandırma işləri ortaya qoyulur. Qeyd olunanları nəzərə alsaq, belə mülahizə söyləmək mümkün olardı ki, yerli landşaft faktorlarına və ətraf mühit şəraitinə uyğun damazlıq işinin aparılması aktual məsələdir.

Tədqiqat işində yerli landşafta və ətraf mühit şəraitinə uyğun Boz Dağ Qafqaz arısının genofondunun bərpası məsələlərinin araşdırılmışdır. Tədqiqat işi yerli cins arılarda aparılır. Burada müvafiq areal üzrə arıçılıq təsərrüfatlarında nəzərdə tutulan cins üzrə moni-torinqlərin aparılması, saf cinsə məxsus morfoloji uyğunluğu maksimum yaxın olan ailələrdə məhsuldarlıq göstəricələri öyrənilməsi, seçmə işlərinin aparılması vacibdir. Seçmə metodundan istifadə etməklə damazlıq xüsusiyyətlərinə görə üstün olan fərdlər arasında süni mayalandırma aparılması məqsədəuyğun hesab edilir. Burada tələblərə uyğun halda ailələrin bal məhsuldarlığının, ana arıların yumurta qoyma qabiliyyətinin öyrənilməsi, həmçinin erkək, işçi, ana arıların çəkisi və bədən ölçüsü arasındakı müqayisələri aparmaq, aqressivlik dərəcəsini öyrənməkdir [1-3].

Aparılacaq araşdırma yerli iqlim şəraitinə uyğun arı genofondunun qorunması, bərpası istiqamətində seleksiya-damazlıq işlərinin aparılması istiqamətində elmi-təcrübi əhəmiyyətə malikdir. Əgər populyasiyada cütləşən ana arı və erkək arılar bir-biri ilə qohumdursa, tətbiq olunan sistem qohumluqdur. Damazlıq-seleksiya işinin yüksək səviyyədə aparılması arıçılığın inkişafında mühüm rol oynayır. Buna nail olmaq üçün yerli ekotipin yaradılması, damazlıq işinin aparılması məqsədi ilə Zaqatala rayonunun ərazisində izolə bölgə yaradılmışdır.

Qeyd olunan izolə bölgə Kənd Təsərrüfatı, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin rəylərinə əsasən, rayonun Meşleş kəndinin yuxarı hissəsində, Car meşəbəyliyinin 1 saylı dolayı üzrə 9-cu kvartal dağlıq-meşə ərazisində damazlıq təsərrüfatı üçün təxminən 6 kilometr radiusda 28 min 26 hektar sahədə təcrid bölgə müəyyən edilərək ayrılıb. Hazırda arıçılıq damazlıq təsərrüfatında 130 ədəd "Boz Qafqaz" arı cinsi ailəsində seleksiya işləri davam etdirilir. Bu bölgədə tarixən mövcud olan və dünyada ən məhsuldar arı cinslərindən sayılan Boz Dağ Qafqaz cinsi üzərində yerli şəraitə uyğun seleksiya-damazlıq işləri aparılmaqdadır.

NƏTİCƏLƏR

Aparılan araşdırmalar və tədqiqatlardan aşağıdakı nəticələr hasil olmuşdur: yerli landşaft faktorlarına və ətraf mühit şəraitinə uyğun damazlıq işinin aparılması ilə bal arısı genofondunun bərpası vacib məsələdir; arı ailələrində cütləşmədə alınan qohumluq əlaqəli olanlar xəstəliklərə qarşı daha davamsız, məhsuldarlıq dərəcəsi aşağı olmaqla daha çox aqressivlik xüsusiyyətini özlərində biruzə vermişdirlər; kontrollu cütləşmədən alınan ailələrdə damazlıq xüsusiyyətləri daha yüksək olmuşdur; tədqiqatların başarılı olması ilə yerli mühit şəraitinə uyğun Boz Dağ Qafqaz bal arısı cinsinin bərpası, yeni populyasiyasının, həmçinin Azərbaycan Respublikasının yeni bal arısı cinsinin, xətlərinin yaradılması mümkündür.

TƏKLİFLƏR

1. Ətraf mühit şəraitinə uyğun Boz Dağ Qafqaz arı cinsinin seleksiya-damazlıq proqramları əsasında yetişdirilməsi mövcud arı genofondunun yaxşılaşdırılmasına səbəb olmaqlayerli arı cinslərindən istifadə etməklə yerli mühitə davamlı, məhsuldar, xəstəliklərə davamlı yeni arı cinsləri. Populyasiya və xətləri yaratmaq.
2. Müxtəlif zonalar üzrə yerli arı ekotiplərinin yaradılması.

ƏDƏBİYYAT

1. Mahmudov S.H.,Nəcəfov R.H., MəmmədovM.Ş. BozDağ Qafqaz arı cinsinin damazlıq işinin təşkili // HETİ-nin"Aqrar sahədə elmi araşdırmalar"elmi əsərlər toplusu, № 9, 2024,Göygöl,HETİ-2024, s. 33-41.
2. Dünyamalıyev F.Q., S.H.Mahmudov, Nəcəfov R.H., Məmmədov M.Ş. Boz Dağ Qafqaz arı cinsinin damazlıq işinin təşkili // HETİ-nin "Aqrar sahədə elmi araşdırmalar" elmi əsərlər toplusu. № 9, Göygöl-2024, s.33-41
3. Dunyamaliyev Farid Galib oglu, Mahmudov Samir Hasan oglu, Mammadov Musa Sharif oglu, Najafov Ramiz Huseyn oglu. Tropilaelaps Mites in Honeybee Colonies and Control Measures // Norwegian Journal of development of the International Science No 147/2024 (https://doi.org/10.5281/zenodo.14577652), No 147/2024, p. 8-10

PROBLEMS OF RESTORATION OF THE HONEY BEE GENEPOND IN AZERBAIJAN

Samir Hasan oglu Mahmudov[1]
s.mahmudov@atu.edu.az
Javadov Ravan Bahruz oglu[2]
Azerbaijan Technological University [1]
Scientific Research Institute of Animal Husbandry and Fisheries[2]

Since various bee breeds and hybrids brought to our Republic for many years, as well as the lack of selection and breeding work by beekeepers within the farm, not only because the flight range of mixed breeds and hybrids is less than 3 kilometers for bees, but also because various hybrids are kept and bred within one farm, the populations of the Boz Dag Caucasian bee breed, which entered the local bee gene pool of Azerbaijan, are facing the threat of extinction, due to inbreeding and hybridization, the productivity has decreased to 3-5 kg per hive, and the mass of bees that are resistant to disease and aggressive are being maintained by beekeepers. Taking into account the above, it is considered extremely urgent and important not only to improve the breed composition of the Boz Dag Caucasian bee, but also to create more productive, disease-resistant, calm bee breeds, hybrids and populations that are suitable for new local conditions. In order to carry out these works, it is important for the beekeeper to know the mother line and to control the fertilization, that is, to know what sex the male individual is. This can be done on islands or in ideal isolated areas, or through artificial insemination.

Keywords: local bee gene pool, Boz Dag Caucasian bee, queen bee, artificial insemination in beekeeping, genetic analysis in beekeeping.

ÜZVİ GÜBRƏLƏRİN MÜASİR HAZIRLANMA TEXNOLOGİYASININ İŞLƏNMƏSİ

Samir Həsən oğlu Mahmudov
s.mahmudov@atu.edu.az
Ülvi Ayaz oğlu Məmmədov
Azərbaycan Texnologiya Universiteti
Heyvandarlıq və Balıqçılıq Elmi Tədqiqat İnstitutu

Fermer təsərrüfatlarında məhsuldarlığın və ümumən istehsalat səmərəliliyinin artırılması üçün görüləcək mühüm tədbirlərdən biri onların tabeliyində olan əkilən torpaqların münbitliyinin artırılmasından ibarətdir. Bu məqsədlə üzvi və mineral gübrələrdən geniş miqyasda istifadə təcrübəsi məlumdur. Son zamanlar kimyəvi maddələrin torpaqda təhlükəli hüdudlara çatan təsirlər yarada biləjəyi ehtimalları nəzərə alınaraq üzvi gübrələrdən daha geniş istifadə edilməsinə üstünlük verilir. Bununla yanaşı balanslaşmış üzvi-mineral qarışıqların maye peyin də daxil olmaqla qidalı məhlulların hazırlanması və istifadəsi mütərəqqi texnologiyalar kimi təjrübədə özünü doğrultmuşdur. Torpağın intensiv işlədilməsi nəticəsində hər il torpaq 0,5...1,0 % humus itirmiş olur. Bununla belə əkinçilik məhsulları tərəfindən mənimsənilən qidalı maddələrinin müəyyən hissəsi bitkinin əsas məhsuluna aid olmayan hissəsində qalır və yemlər vasitəsi ilə peyinə keçmiş olur. Bu adı çəkilən tullantılarda kaliumun 50...60%-i, fosforun 40%-i toplanmış olur.

Tərkibinə görə gübrələrin üzvi, mineral, üzvi-mineral, bakterial və hormonal növləri vardır. Üzvi gübrələr dedikdə əsasən təbii mənşəli, canlı və ya bitki, heyvan və mikroorqanizm qalıqlarından alınan gübrələr nəzərdə tutulur. Onlar torpaqda mikrobioloji prosesləri fəallaşdırır, qida maddələrinin çevrilməsini və bitkilər tərəfindən mənimsənilməsini asanlaşdırır. Ənənəvi olaraq, üzvi gübrələrin tərkibinə əsasən bitki qalıqları, peyin, kompost, torf, gübrə qarışıqları, yaşıl gübrə (bitki mənşəli), sümüklü toz, quş peyini, biohumus, çürüntü və digər bioloji materiallar daxildir [1]. Bütün bu maddələr tərkibində azot, fosfor, kalium, kalsium, maqnezium, kükürd və mikroelementlər (dəmir, sink, bor, mis və s.) daşıyır. Əlavə olaraq, üzvi gübrələr torpağa karbon mənbəyi kimi təsir edir, orqanik maddə ehtiyatını artırır və torpağın strukturunu yaxşılaşdırır. Üzvi gübrələrin təsnifatı onların mənşəyi və tərkibi əsasında aparılır. Ən geniş yayılmış üzvi gübrə növləri aşağıdakılardır [2]:

Peyin: Ənənəvi üzvi gübrələr içərisində ən zəngini sayılır. Mal-qara, qoyun, at və digər heyvanların peyini azot, fosfor, kalium və mikroelementlərlə zəngindir. Çürümüş və yaxşı parçalanmış peyin torpağın məhsuldarlığını əhəmiyyətli dərəcədə artırır.

Kompost: Müxtəlif bitki qalıqları, yemək tullantıları, ot, yarpaq, saman və heyvan gübrəsi qat-qat yığılıb təbii çürümə və mikroorqanizmlərin fəaliyyəti nəticəsində alınır. Kompost mineral maddələrlə yanaşı, torpaqda bioloji aktivliyi də yüksəldir.

Torf: Bataqlıq və ya torf sahələrindən alınan, çürümüş bitki qalıqlarından ibarət üzvi gübrədir. Torf torpağın nəm saxlamasını, havalanmasını və istilik tutumunu yaxşılaşdırır.

Quş peyini: Qarışıq quşçuluq təsərrüfatlarından alınan bu gübrə azot və fosforla çox zəngindir. Onun torpağa birbaşa verilməsi məsləhət görülmür, çünki tərkibində çoxlu ammonyak ola bilər, bu isə köklərə zərər verə bilər. Adətən su ilə seyrəldilib verilir.

Biohumus (vermikompost): Qurdların, xüsusən də Kaliforniya qırmızı qurdlarının fəaliyyəti ilə hazırlanan gübrədir. Ən yüksək təsirə malik, mikrobioloji tərkibi zəngin olan üzvi gübrə növüdür.

Yaşıl gübrə: Siderat bitkiləri (yəni noxud, yonca, fiq, lupin və s.) böyüdülüb torpağa şumlanır. Bu, torpaqda azotun təbii yollarla artırılmasını təmin edir və eroziyanın qarşısını alır.

Üzvi gübrələrin torpağa və bitkilərə təsiri. Üzvi gübrələr torpaqda bioloji aktivliyi gücləndirir, faydalı mikroorqanizmlərin və torpaq faunasının artmasına şərait yaradır. Torpağın su saxlama qabiliyyəti, havalanması, istilik rejimi, qida maddələrinin sərbəstliyi artır.

Müxtəlif üzvi gübrə növlərinin müqayisəli tərkibi

Gübrə növü	Azot (N), %	Fosfor (P), %	Kalium (K), %	Xüsusi faydası
Mal peyini	0,4-0,6	0,2-0,4	0,5-0,6	Yavaş, davamlı təsir
Quş peyini	1,6-2,0	1,5-1,8	0,8-1,0	Sürətli, güclü təsir
Kompost	0,5-1,0	0,3-0,5	0,7-1,0	Humusun artması
Biohumus	2,0-2,5	1,5-2,0	1,0-1,5	Ən zəngin mikrobiologiya
Torf	0,3-0,5	0,1-0,2	0,1-0,2	Su və istilik balansı
Yaşıl gübrə	0,5-0,7	0,1-0,2	0,3-0,4	Azotun artırılması

Üzvi gübrə torpağa düşəndə mikroorqanizmlər vasitəsilə parçalanır və humus əmələ gətirir. Humus torpaqda strukturun, rəngin və məhsuldarlığın əsasını təşkil edir. Humuslu torpaq daha yüngül, məhsuldar və ekoloji baxımdan təhlükəsiz olur. Üzvi gübrələr bitkilərin kök sistemini gücləndirir, quraqlıq, xəstəlik və ziyanvericilərə qarşı davamlılığı artırır.

ƏDƏBİYYAT

1. Ələkbərov F.Ş. Torpağın münbitliyinin yaxşılaşmasında tətbiq olunan intensiv və üzvi-bioloji əkinçilik sistemlərinin bəzi aqroekoloji aspektləri/ Aqrar Elm Mərkəzi, Ümummilli lider Heydər Əliyevin 91-ci ildönümünə və Milli Qurtuluş gününə həsr olunmuş "Gənc alimlərin kənd təsərrüfatında rolu: problemlər və imkanlar" mövzusunda Beynəlxalq Elmi Konfransın materialları, 17-18 iyun, 2014-cü il, s. 140145.
2. Həsənov Ə. Biohumus ekoloji-təmiz və təhlükəsiz üzvi gübrədir. İnformasiya vərəqi, Aqro-məsləhət qeyri-hökumət təşkilatı, Bakı, 2008.

DEVELOPMENT OF MODERN ORGANIC FERTILIZER PRODUCTION TECHNOLOGY

Samir Hasan oglu Mahmudov[1]
s.mahmudov@atu.edu.az
Ulvi Araz oglu Mammadov[2]
Azerbaijan Technologyical University[1]
Scientific Research Institute of Animal Husbandry and Fisheries

The topic is of integrative nature for both ecological engineering and food engineering specialties. On the one hand, it covers the issues of environmental protection, waste disposal and recycling, and on the other hand, it creates an important basis for the restoration of soil fertility and the cultivation of quality agricultural products. In this regard, the justification and relevance of the development of modern production technology for organic fertilizers was chosen as a research direction that is both theoretically and practically justified, meets modern requirements, and is directly related to future professional activity.

Keywords: organic fertilizer, ecologically clean product, green agriculture, soil fertility, soil microorganisms.

SÜNİ MAYALANMADAN İSTİFADƏ ETMƏKLƏ ƏTRAF MÜHİT ŞƏRAİTİNƏ UYĞUN YENİ BAL ARISI HİBRİDLƏRİNİN YARADILMASI

Samir Həsən oğlu Mahmudov[1]
s.mahmudov@atu.edu.az
Musa Şərif oğlu Məmmədov[2]
musamammadov1957@gmail.com
Elcan Araz oğlu Beydiyev[1]
Azərbaycan Texnologiya Universiteti[1]
Heyvandarlıq və Balıqçılıq Elmi Tədqiqat İnstitutu[2]

Qeyri-əlverişli mühit şəraitində arıçılıqda innovativ texnologiyadan istifadə etməklə müxtəlif arı cins və hibridlərindən istifadə etməklə ana və ata valideynlər bilinməklə yeni məhsuldar hibridlər, populyasiya, xətt və cins alınmaqla arıçılıq təsərrüfatlarının yerli şəraitə uyğun, məhsuldar, xəstəlik və zərərvericilərə qarşı dirəncli, ailə daxilini təmiz saxlayan, payızın son dövrü və qışlamada yumurtaqoymanı təbii formada dayandıran və digər damazlıq xüsusiyyətləri yüksək olan yeni bal hibridlərinin yaradılması aktual məsələdir. Arıçılıq məhsulları müxtəlif məqsədlərlə istifadə edilir [1-3].

Kraliça arının ilk cütləşmə uçuşu yetkinlik yaşına çatdıqdan sonra, ana arı hava şəraitindən asılı olaraq ilk cütləşmə uçuşunu edir. Erkək arılar ana arı hücrəsindən çıxdıqdan sonra bir həftə ərzində yetkinləşirlər. Ana arı öz pətəyində bacı erkək arılarla cütləşməyir. Cütləşmə uçuşu günəşli bir gündə saat 11:00 ilə 15:00 arasında və 24°C temperaturda baş verir. Əgər erkək arılar güclüdürsə, cütləşmə üçün 7 erkək arı kifayətdir, zəif arılar isə 12 erkək arı ilə cütləşəcək. Cütləşmə pətəyin 500 m² ərazisində və 5-40 m hündürlükdə baş verir; hər erkək arı 2-5 saniyə çəkir. Bütün cütləşmə prosesi ümumiyyətlə 20-30 dəqiqə, maksimum isə 1 saat davam edir. Lakin, əgər erkək arılar kifayət deyilsə və ya ümumiyyətlə yoxdursa, erkək arı öz yuvasına qayıdır. Yaxud da erkək arıları tapmaq üçün ən yaxın yuvalara getməyə məcbur olur. Ana arı pətəyi əsasən kontrol uçuşu daxil olmamaqla, yalnız bir dəfə, bəzən isə təkrar olaraq ciftləşmə uçuşu edir. Yeni ana arı ilk uçuşunu ana arı hücrəsindən çıxdıqdan 3 gün sonra pətəyin xaricinə edir. Bu, onun ətrafını və pətəyin yerini tanıması və ora girməsi üçündür . Ana arı hücrəsindən çıxdıqdan 5-ci gün cütləşmək üçün ikinci uçuşunu edir. Əgər hər şey normaldırsa, onun üçüncü uçuşu arı sürüsü ilə olacaq. Əgər ana arı kifayət qədər erkək arı ilə cütləşə bilməsə, ertəsi gün üçüncü dəfə çıxacaq. Bu çıxma kifayət qədər sperma toplamaq üçün başqa bir cütləşmə uçuşuna getmək üçündür. Əgər bu baş verərsə, onun son, dördüncü çıxması arı sürüsü ilə olacaq. Cütləşmə ətraf mühit temperaturu həddən artıqq olduqda və ya yağışlı havada baş verirmi ? Xeyr. Çünki həşəratlar - arılar - yağışda düzgün uça bilmirlər. Əgər ana arı kifayət qədər erkək arı ilə cütləşməyibsə, ertəsi gün başqa bir cütləşmə uçuşuna çıxacaq. Nəticədə, kifayət qədər erkək arı ilə cütləşdikdən sonra pətəyə qayıdır. Bu məqsədlə 2020-2025-ci illər ərzində Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunda aparılmışdır. Eyni ana arıdan eyni vaxtda 24 ana arı yetişdirilmişdir. Bu ana arılardan 12-si təbii, qalan 12 ana arı isə süni mayalandırılma üsulu ilə yetişdirilmişdir.

Ana arılar ana arı hücrələrindən çıxdıqdan sonra cinsi yetkinliyə çatdıqdan sonra 9-cu gündə laboratoriya şəraitində mayalandırıldılar. Hər ana arıya 8 mm³ sperma verildi. Mayalanmış ana arıların və onların ailələrinin inkişaf səviyyəsi mütəmadi olaraq monitorinq edilmiş və yüksək nəticələr əldə edilmişdir.

NƏTİCƏLƏR

Aparılan araşdırmalar əsasən aşağıdakı nəticələri qeyd etmək mümkündür:

1. İqlim şəraiti arıçılıqda bal məhsuldarlığına, arı sağlamlığına və nektar mənbələrinə birbaşa təsir edən ən kritik amillərdəndir.

2. Həddindən artıq istilik, nizamsız yağış və quraqlıq kimi iqlim dəyişikliyinin təsiri arıların qidalanma dövrünü pozur, pətək itkilərinə, polen, nektar çatışmazlığına, arı zərərvericilərinin və xəstəliklərin artmasına səbəb olur.

TƏKLİFLƏR

1. İqlim dəyişikliyi ilə mübarizə tədbirləri istiqamətində davamlı arı növlərinin becərilməsi.
2. Çiçək növlərinin diversifikasiyası, arıların qidalanması üçün uyğun bitki çeşidinin təmin edilməsi onların sağ qalmasına kömək edir. Yerli bitkilərin qorunması xüsusilə vacibdir.
3. Davamlı arıçılığın həlli yolunda ekoloji arıçılıq üsulları, kimyəvi istifadəni azaldan və təbii üsullar arıların sağlamlığını qorumaq üçün effektiv vasitədir.
4. Arıçılıqda yerli və qlobal əməkdaşlıqların qurulması, çünki, arıçılıq sektorunun iqlim dəyişikliyi ilə mübarizədə yerli və beynəlxalq əməkdaşlığa ehtiyacı var. Bu əməkdaşlıqlar problemlərin ümumi həlli yollarını inkişaf etdirməyə imkan verir.

ƏDƏBİYYAT

1. Исмаилов М.Т., Махмудов С.Г., Садыхова С.С. Влияние процессов ферментации на биоактивный профиль и оздоровительные свойства перги, медовухи и медового уксуса. Вестник науки, 2025/4, Том 2, Номер № 4 (85), Страницы 1175 – 1196, Издатель Тольятти
2. Исмаилов М.Т., Махмудов С.Г. Возможности использования меда как альтернативного источника сахара в производстве вина. Журнал Scentific Collection InterConf, Номер 56, Страницы 244.
3. Исмаилов М.Т., Махмудов С.Г., Мамедов М.Ш. Технологии использования натурального меда и других продуктов пчеловодства в виноделии//Международный научный журнал «Вестник Науки» № 4 (85) Том 1. Апрель 2025 г., с. 592 – 612 (ISSN 2712-8849|СМИ ЭЛ № ФС 77 - 84401 сайт: https://www.вестник-науки.рф eLibrary.ru: https://elibrary.ru/title_about.asp?id=67626

CREATION OF NEW HONEY BEE HYBRIDS SUITABLE FOR ENVIRONMENTAL CONDITIONS USING ARTIFICIAL INSEMILATION

Samir Hasan oglu Mahmudov[1]
s.mahmudov@atu.edu.az
Musa Sharif oglu Mammadov[2]
musamammadov1957@gmail.com
Eljan Araz oglu Beydiyev[1]
Azerbaijan Technologyical University
Scientific Research Institute of Animal Husbandry and Fisheries

The purpose of the study is to create bee hybrids suitable for local environmental conditions and to justify the fertilization of queen bees in adverse climatic conditions (continuous wind, rain, exceeding the monthly temperature and humidity norms).

For this purpose, the following tasks are envisaged: study of environmental conditions; selection of families for breeding materials suitable for environmental conditions; organization of artificial insemination works; monitoring of bee families and keeping appropriate records; processing and analysis of the results.

The main advantage of artificial insemination is the organization of queen bee insemination under adverse climatic conditions and other conditions, as well as the implementation of engineering tasks such as the creation of breeding material through controlled insemination.

Keywords: global climate change, environmental protection, honey bee biodiversity, ecological engineering, pollination

QLOBAL İQLİM DƏYİŞİKLİYİ ŞƏRAİTİNDƏ MÜXTƏLİF MATERİALLI PƏTƏKLƏRDƏ ARI AİLƏLƏRİNİN İNKİŞAF DİNAMİKASININ ÖYRƏNİLMƏSİ

Samir Həsən oğlu Mahmudov[1]
s.mahmudov@atu.edu.az
Amin Şakir oğlu Nağızadə[2]
Azərbaycan Texnologiya Universiteti[1]
Heyvandarlıq və Balıqçılıq Elmi Tədqiqat İnstitutu[2]

Bal, çiçək tozu, arı südü, vərəmum, mum, arı zəhəri və sair arıçılıq məhsullarının istehsal edildiyi bu sahə həm də insanların sağlamlığı baxımından olduqca əhəmiyyətlidir. Tərkibinə və müalicəvi xüsusiyyətlərinə görə bir-birindən fərqlənən, bioloji-aktiv maddələrlə zəngin arıçılıq məhsullarına tələbat getdikcə çoxalmaqdadır. Arıçılıq məhsulları bütün dünyanı bürümüş koronavirus pandemiyası ilə mübarizənin aparıldığı hazırki dövrdə immuniteti gücləndirən əvəzsiz təbii vasitələrdən hesab edilir. Adları qeyd olunan arıçılıq məhsulları istehsalının artırılması isə müxtəlif səbəblərlə bərabər onların yaşadıqları pətəklərdən, onların hazırlandıqları materiallardan və eləcə də həmin pətəklərin istifadə olunma imkanlarından asılıdır.

Aparılan elmi-tədqiqat və təcrübə işi ilə müəyyənləşdirilmişdir ki, taxta, "Flow Have" və penopolistriol materiallı pətəklərdə arı ailələrinin inkişafı fərqli formada olmuşdur. Taxta materiallı pətəklərdə ailənin inkişafı olduqca yüksək olmuş, arıçının müxtəlif texnoloji əməliyyatları yerinə yetirməsində heç bir çətinlik olmamışdır.

Flow Have pətəkləri də müəyyən qədər effektivdir. Penopolistriol pətəklərdə də inkişaf taxta yeşiklərdəki qədər yüksək olsa da bu pətəklərin xarici mühit şəraitindən: yağış-günəş şüaları, dəyən hər hansı zərbədən pətəyin dağılması, ailəyə bu səbəbdən narahatlığın verilməsi müşahidə olunmuşdur.

Hər üç materialdan olan pətəklərdən alınmış bal nümunələrinin analizi aparılmışdır.

Arının çinədanında emal edilmiş nektarın bala çevrilməsi üçün arılar onun tərkibindəki 40-90%-ə qədər olan suyun dörddə üç hissəsini buxarlandırmalıdırlar.

Bu gərgin əməliyyatı bal arıları – nektarı bir qovuqcuqdan digərinə və oradan başqasına və s. köçürməklə yarımfabrikat bal yetişib normal qatılığa çatanadək davam etdirilər. Onlar uçuş bacası yaxınlığında durur qanadlarını fasiləsiz titrədirlər. Bu şəkildə pətəyin havasını dəyişdirir və bununla buxarlanma prosesini sürətləndirirlər və standartlara uyğun təbii bal hasil olur [1, 2].

Həmçinin, bu proseslə yanaşı nektarın tərkibində olan suyun müəyyən hissəsi arıların bal mədəciyinin divarından arı orqanizminə sorulur. Nektar damcısı arının orqanizmində üzvi turşular, bioloji fermentlər və zərərsizləşdirici maddələrlə zənginləşir. Bu zaman bioloji fermentlərin təsiri ilə saxarozanın fruktoza və qlükozaya parçalanması prosesi baş verir. Təbii balın tərkibində qlukozanın – $CH_2OH(CHOH)_4COH$ çox olması onun tez xarlanmasına gətirir. Buna misal, cökə, qarabaşaq və günəbaxan bitkilərindən hasil olan balları göstərmək olar.

Balın tərkibində ftuktozanın miqdarı çox olduqda (məsələn: ağ akasiya balında) xarlanma prosesi ləng gedir. Bal arıları bala turşuluq verirlər. Bu proses fermentlərin təsiri nəticəsində qlükozanın bir hissəsinin qlükonat turşusuna çevrilməsi zamanı baş verir. Ona görə də, bal həmişə turş reaksiyaya malikdir.

Normada yerişmiş balın tərkibində 18-20% su qalır. Bundan sonra arılar qovuqcuqda olan balın üzərini nazik mum təbəqəsi ilə örtürlər. Nektarın bala çevrilməsi bundan sonra da davam edir. Son məhsul olan bal yetişir, ətirli olur və onun acı tamı çəkilir.

Əldə olunmuş balın kimyəvi tərkibi – 20% (16-22%) sudan, 75% şəkərdən (meyvə, üzüm və qamış çəkəri) və 5% digər maddələrdən ibarətdir. Xüsusi çəkisi 1,41- 1.44-dir.

Şimali Qafqaz Dövlət Humanitar və Texnologiya Akademiyasının alimləri A.M. Nagaev və F.N. Saitova, payız və qış dövründə poliuretan köpük (PUF) və taxta

pətəklərdə arıçılığın müqayisəli tədqiqi aparmışdır. Müəlliflər poliuretan köpük pətəklərinin ən optimal qışlama şəraitini təmin etdiyi qənaətinə gəldilər. Bunu qışda arılar arasında ölüm nisbətinin aşağı düşməsi və saxlanılan balın istehlakının azalması sübut edir. Bundan əlavə, nosematozun qarşısı alındı, bunun sübutu, orta bağırsaqda yuvanın pisləşməsi və nosematozun olmamasıdır [3].

Poliuretan köpük pətəklərinin istifadəsi zamanı aşağıdakı üstünlüklər və çatışmazlıqlar aşkar edilmişdir. Bu pətəklər üçün istifadə olunan material odunla müqayisədə nisbətən yüngüldür, bu həm üstünlük, həm də mənfi cəhətdir. Bu xüsusiyyət pətək komponentlərinin asan idarə edilməsinə və hərəkətinə imkan verir; lakin küləkli şəraitdə strukturun aşması riski var. Digər bir üstünlük ondan ibarətdir ki, siçanlar və siçovullar poliuretan köpüyü çeynəmir və materialın özü çürüməyə həssas deyildir [4].

Nəticə

Tədqiqat işinə dair aşağıdakı nəticə alınmışdır:

1. Taxta və penopolistriol materiallı pətəklərdə Flow Have yeşiyinə arı ailələrinin inkişafı daha yaxşı getməklə bərabər oturaq və daşınan arıçılıqda bu pətəklərdən istifadə qənaətbəxşdir.

ƏDƏBİYYAT

1. Təbii balın standartı. (http://azstand.gov.az/upload/files/Təbii%20bal.pdf)
2. Azərbaycan Respublikasında arıçılıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı. (https://e-qanun.az/framework/18533)
3. Нагаев А.М.,СаитоваФ.Н.Результаты зимовки пчел в пенополиуретановых ульях/Известия Северо-Кавказской государственной гуманитарно-технологической академии.2017. 14-16.
4. Морозов Ю.Г. Эффективность использования различных типов ульев при производстве основной продукции пчеловодства // Молодежь и наука. 2019. № 5-6. С.48.

STUDY OF THE DYNAMICS OF BEE FAMILIES DEVELOPMENT IN HONEYCOMBS WITH DIFFERENT MATERIALS UNDER GLOBAL CLIMATE CHANGE

Samir Hasan oglu Mahmudov
s.mahmudov@atu.edu.az
Amin Shakir oglu Naghizade
Azerbaijan Technologyical University
Scientific Research Institute of Animal Husbandry and Fisheries

The beehive is a technical tool created in accordance with the lifestyle of bees in the wild in the direction of the creation and development of cultural beekeeping. Currently, hives made of various materials are used. In hives made of wood and other materials, there are opinions that the productivity indicators of families differ significantly from one another due to different reasons, using frames of different sizes. Therefore, for the purpose of research, it was considered important to conduct research on bee families of the same sex and of the same strength under the same environmental conditions. The conducted scientific research and experimental work determined that the development of bee colonies in wooden, Flow Have" and polystyrene foam hives took different forms. The development of the colony in wooden hives was quite high, and the beekeeper did not have any difficulties in performing various technological operations. Flow Have hives are also somewhat effective. Although the development in polystyrene foam hives is as high as in wooden boxes, it has been observed that the hive collapses due to external environmental conditions - rain, sunlight, any impact, causing discomfort to the family.

Keywords: beehives, bee products, honey yield, relative humidity, temperature, bee colony development.

PESTİSİD, HERBİSİDLƏR VƏ ARIÇILIQ

Samir Həsən oğlu Mahmudov
s.mahmudov@atu.edu.az
Səmayə Adil qızı Vəlizadə
Azərbaycan Texnologiya Universiteti
Heyvandarlıq və Balıqçılıq Elmi Tədqiqat İnstitutu

Kənd təsərrüfatı zərərvericiləri ilə, həşərat, gəmiricilər, göbələk, alaq otları ilə əsas mübarizə istiqamətlərindən biri pestisidlər adlanan kimyəvi maddələrdən istifadə etməkdir. Pestisidlər aşağıdakı əsas siniflərə bölünür: akarisidlər – gənələrlə mübarizədə istifadə edilən maddələr; antifidinqlər – cücüləri məhv edən maddələr; herbisidlər – alaq bitkilərinə qarşı mübarizədə istifadə edilən preparatlar; zoosidlər – zərərli onurğalı heyvanları məhv edən zəhərlər; bakterisidlər, virusosidlər, funqisidlər – bitkilərdə viruslu və göbələk xəstəlikləri ilə mübarizə aparmaq üçün istifadə edilən maddələr; nematosidlər – bitkilərdə nematod xəstəliyinin törədicisi olan girdə qurdları məhv edən preparatlar: molyuskosidlər – zərərli ilbizləri məhv edən maddələr [1]. Ətraf mühitə düşən pestisid bioakkumulyasiya prosesinə qoşulur, bu zaman pestisid qida zənciri ilə hərəkət etdikcə onun konsentrasiyası dəfələrlə (yüz min dəfəyə qədər) arta bilər. Pestisidlərdən istifadənin problemlərini ümumiləşdirsək, belə nəticəyə gəlmək olar ki, əsas təhlükə ekosferin həyat təmin edilməsi xassələrinin pozulması və insanların sağlamlığının pisləşməsidir. Gələcək perspektiv planda istifadə olunan kimyəvi maddələr qadağan olunmalı və bioloji mübarizə üsulları ilə əvəz edilməlidir [2].

Pestisidlər və herbisidlər kənd təsərrüfatında bitki qoruyucu kimyəvi maddələrin (xüsusilə yaz aylarında) geniş tətbiqi arıların kütləvi tələfatına səbəb ola bilər. Bu maddələr birbaşa arılara zərər verir və onların oriyentasiya qabiliyyətini azaldır.

Arılar bal, polen, propolis, arı südü kimi qida dəyəri yüksək məhsullar istehsal etməsi ilə bərabər, bitkilərin tozlanmasına səbəb olduqları üçün, ekosistemə böyük töfhə verirlər. Ayrıca kənd təsərrüfatı istehsalında məhsuldarlığın artmasında da böyük rol oynayırlar. Dünyada mövcut arı populyasiyalarında azalmalar görülməktədir. Arı ölümlərinin bir çox səbəbləri var.

Parazitlər, patogenlər, yetersiz qidalanma və insektisidlər də daxil olmaqla bir çox amil bu azalmanın səbəbi kimi göstərilir. Bal arıları və tozlayıcıların azalması dünya miqyasında böyük problem və narahatlıq doğurur.

Pestisidlər kənd təsərrüfatı istehsalında məhsuldarlığın artmasına mane olan zərərvericilər, xəstəliklər və alaq otlarına qarşı istifadə olunan maddələrdir. Kənd təsərrüfatında məhsuldarlığı artırmaq üçün pestisidlərin istifadəsi hər gün daha da artmaqdadır. Hal hazırda pestisidlərdən istifadə etmədən kənd təsərrüfatı məhsullarının yetişdirilməsi demək olarki, mümkün deyildir.

Pestisidlər, kimyəvi tərkibinə görə, insanlar da daxil olmaq üzərə bütün digər canlılar üçün potensial olaraq zəhərlidir. Pestisidlər kənd təsərrüfatı məhsullarını zərərvericilərdən qoruyur, amma eyni zamanda hədəfdə olmayan orqanizmlərə də zərər verir.





İstifadə olunan pestisidlər arılara nektar, polen və su içərisindəki qalıntılar vasitəsi ilə keçir. 2006-cı ildə başlayan kütləvi arı ölümləri bütün dünyada arıçılar və elm adamlarını pestisidlərin arılara təsirini araşdırmağa məcbur etdi. Araşdırmalar nəticəsində neonikotinoid insektisidlərin dozalarına məruz qalan arıların ömrünün qısaldığı, ana

arıların yumurtlama bacarığının azaldığı, yaddaş, qoxu, öyrənmə və müdafiə bacarıqlarının azalması sübut olunmuşdur. Bal arısı koloniyalarının həyatda qalmaları üçün güclü bir immunitet sisteminə sahibdirlər. Neonikotinoid insektisidlərinə məruz qalan arıların immun sistemi pozulur və xəstəliklərə qarşı müqaviməti azalır. Hətta ölümcül dozadan aşağı miqdarlara məruz qalmaları belə, arıların davranışını dəyişdirir və koloniyaların yaşamasını çətinləşdir. Arılar bitkilərin əsas tozlayıcısı olmaqla bərabər, insanlar üçün də önəmli qidalar istehsal edirlər. Burada diqqət edilməsi gərəkən nöqtə, arıların pestisidlərə məruz qalmaları nəticəsində arı məhsullarının da pestisidlərə məruz qalaraq insan sağlamlığı üçün təhdid yaratmasıdır.

Pestisidlərin arılar üzərindəki mənfi təsirlərini azaltmaq üçün nə edilməlidir?

1. Bitkilərin çiçəklənmə zamanlarında dərmanlama edilməməlidir.
2. Dərmanlama gecə və ya sabah erkən edilməlidir.
3. Dərmanlamadan öncə o ərazidə olan çiçəkli bitkilərin kəsilməsi, arıların zərər görməsini önləyir.
4. Arıçılıq təsərrüfatının yerləşəcəyi ərazinin seçimi də pestisidlərin zərərinin qarşısının almaqda böyük önəm daşıyır.
5. Dərmanlama əsnasında arılar yuvasında bağlı olmalıdır.

Avropa birliği 2018 ci ildə, neonikotinoid sinfindən olan 3 maddəni (*imidacloprid, tiametoksam və lilianidin*) istixanalar xaricində istifadəsini qadağan edən Qanun qəbul etdi. Buna baxmayaraq, bir çox ölkədə istifadəsinə heç bir məhdudiyyət yoxdur.

Yeni araşdırmalar göstərir ki, neonikotinoid sinfindən olan bəzi kimyəvi maddələrin istifadəsinə qadağalar qoyulduqdan sonra, artan tələbat sonucunda *"arı dostu"* adı altında bazara çıxarılan və kənd təsərrüfatı məhsullarına tətbiq edilən pestisidlərdə heç də məsum deyildir. Mütəxəssislər, qadağan edilmiş kimyəvi maddələrin əvəzinə istifadə olunan bu alternativ maddələrin də təhlükəli yan təsirlərinin olduğunu söyləyirlər.

ƏDƏBİYYAT

1. Məmmədov, R. (2021). Ekoloji təmiz arıçılıq və məhsullarının keyfiyyəti. Bakı: Ekologiya və Təbii Resurslar İnstitutu.
2. Abbasov, R. (2021). Arıçılıq və kənd təsərrüfatı: Yeni dövr və ekoloji təhlil. Bakı: Kənd Təsərrüfatı Universiteti.

PESTICIDES, HERBICIDES and BEEKEEPING

Samir Hasan oglu Mahmudov
s.mahmudov@atu.edu.az
Samaya Adil gizi Velizade
Azerbaijan Technologyical University
Scientific Research Institute of Animal Husbandry and Fisheries

Pesticides are passed on to bees through nectar, pollen, and residues in water. The mass bee die-offs that began in 2006 have forced beekeepers and scientists around the world to investigate the effects of pesticides on bees. Studies have shown that bees exposed to doses of neonicotinoid insecticides have shorter lifespans, queens are less able to lay eggs, and their memory, smell, learning, and defense abilities are reduced. Honeybee colonies have a strong immune system to survive. Bees exposed to neonicotinoid insecticides have a compromised immune system and are less resistant to disease. Even exposure to sub-lethal doses changes bee behavior and makes it difficult for colonies to survive. Bees are the main pollinators of plants and produce important foods for humans. The point to note here is that bee products are also exposed to pesticides, posing a threat to human health.

Keywords: pesticides, herbicides, honey bees, environmentally friendly beekeeping products, bee deaths.

DAYANIQLI İNKİŞAF BAXIMINDAN NAXÇIVANDA EKOTURİZMİN PERSPEKTİVLƏRİ

İlahə Mirhəsən qızı Seyidova
iseyidova202@gmail.com
Gültəkin Sədrəddin qızı Hacıyeva
gultekinhaciyeva031@gmail.com
Naxçıvan Dövlət Universiteti, Təbii Ehtiyatlar İnstitutu

Müasir dövrdə dayanıqlı inkişaf konsepsiyası iqtisadi, sosial və ekoloji komponentlərin qarşılıqlı əlaqəsi əsasında formalaşır. Turizm sektoru isə bu konsepsiyanın tətbiq olunduğu əsas sahələrdən biridir. Ekoturizm təbii resursların qorunmasını təmin etməklə yanaşı, yerli əhalinin rifahının yüksəldilməsinə də töhfə verir. Bu baxımdan Naxçıvan Muxtar Respublikası özünün əlverişli coğrafi mövqeyi və zəngin təbii ehtiyatları ilə ekoturizmin inkişafı üçün mühüm potensiala malikdir [1].

Naxçıvan Muxtar Respublikasının fiziki-coğrafi şəraiti ekoturizmin inkişafı üçün əlverişli zəmin yaradır. Regionun dağlıq relyefi, müxtəlif iqlim şəraiti, mineral su ehtiyatları və nadir təbii landşaftları turistlər üçün cəlbedici mühit formalaşdırır. Bu xüsusiyyətlər ekoturizmin müxtəlif formalarının – dağ turizmi, sağlamlıq turizmi və kənd turizminin inkişafına imkan verir [2]. Dayanıqlı inkişaf baxımından ekoturizmin əsas məqsədi təbii resursların qorunması ilə iqtisadi faydanın əldə olunması arasında balansın təmin edilməsidir. Bu istiqamətdə ekosistemlərin mühafizəsi, biomüxtəlifliyin qorunması və antropogen təsirlərin minimuma endirilməsi xüsusi əhəmiyyət daşıyır. Naxçıvan ərazisində yerləşən qorunan təbiət əraziləri və unikal landşaftlar bu baxımdan mühüm rol oynayır [3]. Ekoturizmin inkişafında sosial amillər də mühüm yer tutur. Yerli əhalinin turizm fəaliyyətinə cəlb olunması onların iqtisadi vəziyyətinin yaxşılaşmasına və regionda məşğulluğun artmasına səbəb olur. Bununla yanaşı, ekoloji maarifləndirmə və təhsil tədbirləri həm yerli sakinlər, həm də turistlər arasında ekoloji məsuliyyətin formalaşmasına xidmət edir [4]. İnfrastruktur təminatı ekoturizmin inkişafında mühüm şərtlərdən biridir [5]. Naxçıvanda son illərdə turizm infrastrukturu inkişaf etsə də, ekoturizmə yönəlmiş xüsusi marşrutların, ekoloji informasiya mərkəzlərinin və bələdçi xidmətlərinin genişləndirilməsinə ehtiyac qalmaqdadır. Bu istiqamətdə müasir texnologiyaların tətbiqi və beynəlxalq təcrübənin öyrənilməsi vacibdir.

Beynəlxalq təcrübə göstərir ki, ekoturizmin uğurlu inkişafı üçün dövlət siyasəti, yerli icmalar və özəl sektor arasında əməkdaşlıq mühüm rol oynayır. Bu modelin Naxçıvanda tətbiqi regionun turizm potensialının daha səmərəli istifadəsinə və dayanıqlı inkişafın təmin olunmasına şərait yarada bilər [1].

Aparılan tədqiqat göstərir ki, Naxçıvan Muxtar Respublikası ekoturizmin inkişafı üçün yüksək potensiala malikdir. Lakin bu potensialın reallaşdırılması üçün ekoloji tarazlığın qorunması, infrastrukturun təkmilləşdirilməsi və ekoloji maarifləndirmənin gücləndirilməsi zəruridir. Dayanıqlı inkişaf prinsiplərinin tətbiqi regionda ekoturizmin uzunmüddətli və səmərəli inkişafını təmin edə bilər.

ƏDƏBİYYAT

1. UNWTO. Tourism and Sustainable Development Goals. (2018) https://unstats.un.org/sdgs/report/2022/extended-report/Extended-Report_Goal-8.pdf?utm_source=chatgpt.com
2. Gadir Bayramli Sustainable Development of Tourism in Azerbaijan: Current Situation, Problems and Solution (2024). https://www.researchgate.net/publication/380796204_Sustainable_Development_of_Tourism_in_Azerbaijan_Current_Situation_Problems_and_Solution
3. Imrani Z., Ağakişiyeva G. – Sustainable development of tourism industry in Azerbaijan (2021)https://www.researchgate.net/publication/354374532_Sustainable_development_of_the_tourism_industry_in_Azerbaijan

4. Destek M.A., Aydın S. – Tourism and sustainable development nexus (2022)doi: 10.1007/s11356-021-18371-9
5. Sarah Schonherr ,Mike Peters ,Kir Kuscer Sustainable tourism policies (2023) https://doi.org/10.1016/j.jdmm.2023.100762

PROSPECTS OF ECOTOURISM IN NAKHCHIVAN FROM THE PERSPECTIVE OF SUSTAINABLE DEVELOPMENT

Ilaha Mirhasan Seyidova
iseyidova202@gmail.com
Gultekin Sadraddin Hajiyeva
gultekinhaciyeva031@gmail.com
Nakhchivan State University, Institute of Natural Resources

This study explores the prospects of ecotourism development in the Nakhchivan Autonomous Republic from a sustainable development perspective. It highlights the region's natural potential and emphasizes the importance of environmental protection, infrastructure, and effective management for sustainable tourism growth.

Keywords: Nakhchivan, ecotourism, sustainable development, environmental factors, tourism potential

İÇMƏLİ SU EHTİYATLARININ TDS GÖSTƏRİCİLƏRİ ƏSASINDA KEYFİYYƏTİNİN EKOLOJİ QİYMƏTLƏNDİRİLMƏSİ

Zeynəb Talıbzadə
z.talibzade@atu.edu.az
Cəmilə Nəcəfzadə
necefzadecmil@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Su ehtiyatları dünyanın hər bir regionunda yaşayan əhalinin həyat və fəaliyyətinin əsasını təşkil edir və onlar tərəfindən mühafizə olunur. Eyni zamanda onların iqtisadi, sosial, ekoloji tələblərini ödəyir, flora və faunanın mövcudluğunu təmin edir.[2] Yer səthinin təxminən 70%-dən çoxunun su ilə örtülməsinə baxmayaraq, ildən-ilə su çatışmazlığı problemi artmaqdadır. İnsanlar və bütün canlılar yalnız şirin sudan istifadə edə bilir. Təbii suların çox hissəsi (~98%) isə şordur. Onlar istifadə üçün yararlı olmayan dəniz və okean sularıdır. Böyük miqdarda şirin su ehtiyatı Arktika və Antarktida buzlaqlarında və əksər insanların istifadə edə bilmədiyi Baykal gölündə və digər göllərdə toplanmışdır.[1] Dünyada suya tələbat çox böyük həddə çatıb və hər il artmaqdadır. [5] Ekoloji problemlərin həllində suyun rolu əvəzsizdir. Həmçinin, su təbiətə və insanlara ziyan vura bilir: katastrofik daşqın, sel və subasmalar, çirkləndirici maddələrin qəzalar nəticəsində çaylar və dəniz cərəyanları ilə yayılması, torpaq sürüşmələri və s. Su artıq strateji ehtiyata çevrilməyə başlamışdır.[6] Antropogen mənbələr su çirklənməsinin əsas səbəbləri hesab olunur. Sənaye müəssisələrinin tullantıları bu baxımdan xüsusi yer tutur. Kimya, metallurgiya, neft emalı və energetika sahələrində fəaliyyət göstərən müəssisələri misal göstərə bilərik. Bu tip çirklənmə suyun oksigen balansını pozur, hidrobiontların (suda yaşayan canlıların) məhvinə səbəb olur və biomüxtəlifliyi azaldır.

Su içmək insan bədəninin ən əsas ehtiyacıdır.[4] Bu ehtiyacın ən düzgün halda qarşılanması üçün içilən suyun keyfiyyəti xüsusi əhəmiyyət daşımaqdadır. Onlarla su markası və müxtəlif su filtrləri arasında seçim etməyimizə kömək olacaq məlumatlarla özümüz üçün ideal içməli suya daha asan qərar verə bilərik. İçməli sular müəyyən testlərdən keçirilərək yoxlanılmaqdadır. [3] Xüsusilə ağır metal təyini, nitrit və ya nitrat təyini, ümumi sərtlik kimi kimyəvi və bulanıqlıq, qoxu, dad kimi bəzi fiziki testlərdən keçməlidir. Aldığımız suların standartlara uyğun olub olmamasının müəyyən edilməsinə gəldikdə isə, internetdən edilən araşdırma zamanı bir çox saytlarda sertifikatlar və bəzi digər sənədlərə rast gələ bilərsiniz. Lakin bunların bir çoxu etibarlı sənədlər deyil. Ancaq su şirkətləri müəyyən fasilələrlə etdirməli

olduğu testləri insanlarla paylaşa bilərlər. Buna görə də bu tədqiqat işində müəyyən su markaları üzərində araşdırılmalar aparılmışdır. Tədqiqat vasitəsi TDS-3 cihazıdır. TDS (Total Dissolved Solids – suda həll olmuş ümumi maddələrin miqdarı) cihazı suyun tərkibində həll olmuş mineralların, duzların və digər maddələrin miqdarını ölçmək üçün istifadə olunan ölçü alətidir. Bunun üçün market rəhbərliyi ilə bir yerdə ən çox satılan 4 su markası (sirab, bonaqua, aquşa və aquavita) müəyyənləşdirilmişdir.

TDS cihazı standartları:

0–50 ppm – çox təmiz su	250-300 ppm-minerallaşma yüksək su
50–100 ppm – çox yaxşı keyfiyyətli su	300-500 ppm-keyfiyyəti aşağı su
100–150 ppm – yaxşı içməli su	500-1000 ppm-zəif keyfiyyətli su
150–250 ppm – orta keyfiyyətli su	1000 ppm-dən yuxarı keyfiyyətsiz su



Şəkil 1. Su tədqiqatı

Aşağı TDS göstəricisinə malik olan Sirab və Aquşa suları daha təmiz hesab olunsa da onların mineral baxımından kasıb olması ehtimal olunur Bu isə insan orqanizmi üçün uzunmüddətli istifadədə o qədər də faydalı olmaya bilər Bonaqua suyunun TDS göstəricisi orta səviyyədə olduğu üçün həm təmiz həm də kifayət qədər mineral tərkibli su kimi qiymətləndirilə bilər Bu tip sular gündəlik istifadə üçün daha uyğun hesab olunur və insan orqanizmi üçün optimal balans yaradır.

Su nümunələri	TDS ppm	Suyun keyfiyyəti
Sirab	28	Çox təmiz su
Bonaqua	87	Çox yaxşı keyfiyyətli su
Aquşa	20	Çox təmiz su
Aquavita	387	Keyfiyyəti aşağı su

Cədvəl 1. Tədqiqat nəticəsi

Nəticə olaraq aparılmış tədqiqatlar və əldə olunan məlumatlar göstərir ki içməli suyun keyfiyyəti onun tərkibində olan həll olmuş maddələrin miqdarı TDS göstəricisi təmizlənmə üsulları və ümumi gigiyenik vəziyyəti ilə sıx bağlıdır. Müxtəlif su nümunələri üzərində aparılan müqayisə sübut etdi ki bazarda satışda olan sular keyfiyyət baxımından eyni səviyyədə deyil və onların hər biri fərqli xüsusiyyətlərə malikdir.

ƏDƏBİYYAT

1.National Institutes of Health
2.Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN). – Su ehtiyatlarının çirklənməsi üzrə hesabat. Bakı, 2023.
3.Əliyev, M. M. – Ekologiyanın əsasları. Bakı: Elm nəşriyyatı, 2018.
4.World Health Organization – Drinking-water Quality Guidelines. Geneva, 2017.
5.United Nations Environment Programme – Water Pollution Report. Nairobi, 2020.
6.E-qanun elektron məlumat bazası.

ECOLOGİCAL ASSESSMENT OF DRİNKİNG WATER QUALİTY BASED ON TDS INDİCATORS

Zeynab Talibzade
z.talibzade@atu.edu.az
Jamila Najafzade
necefzadecmil@gmail.com
Azerbaijan Technological University

Water resources are essential for human life and ecosystems, but only a small portion is available as fresh drinking water. As water scarcity increases, human activities-especially industrial waste—lead to significant pollution. Therefore, monitoring physical and chemical parameters, such as TDS, is crucial for ensuring water quality and safety.

Keywords: Drinking water quality**,** Total Dissolved Solids (TDS)**,** Water pollution**,** Environmental assessment**,** Sustainable water use.

KİÇİK QAFQAZIN ŞİMAL-ŞƏRQ BÖLGƏSİNDƏ YAY OTLAQALTI ƏRAZİLƏRİN TORPAQ ÖRTÜYÜNÜN MÜASİR EKOLOJİ QİYMƏTLƏNDİRİLMƏSİ (DAŞKƏSƏN RAYONU ƏRAZİSİNDƏ)

Lamiyə Şaxəli qızı Xəlilova
l.xelilova@list.ru
Elşad Ərşad oğlu Məmmədov
elshad1952@mail.ru
Gülnarə Asib qızı Əsədova
g.asadova@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Daşkəsən rayonu ərazisində yerləşən yay otlaq massivlərində torpaq ehtiyatlarının ümumi sahəsi 19 138 hektardır və bu torpaqlar bütövlükdə dövlət mülkiyyətinə daxildir. Son illərdə rayonun torpaq örtüyündə ekoloji vəziyyətin pisləşməsinə təsir edən əsas amillərdən biri eroziya proseslərinin genişlənməsidir. Bu proseslərin yaranması yalnız təbii şəraitlə deyil, eyni zamanda insan fəaliyyətinin intensivləşməsi ilə də sıx bağlıdır. Xüsusilə dağlıq sahələrdə otlaqların normadan artıq istifadə olunması, otarma qaydalarına riayət edilməməsi və otlaq yükünün həddindən artıq olması nəticəsində məhsuldar sahələr tədricən deqradasiyaya uğrayır.

Dağ-çəmən zonasında yerləşən və yay otlaqları kimi istifadə edilən ərazilərdə həddindən artıq otarılma eroziyanın ildən-ilə genişlənməsinə səbəb olur. Bu zonada orta və güclü eroziyaya məruz qalan sahələr xüsusilə diqqət tələb edir. Oxşar hallar dağ-bozqır zonasında da müşahidə olunur. Nisbətən fərqli olaraq, dağ-meşə zonasında eroziya prosesləri daha zəif inkişaf etmişdir.

Otlaq sahələrində bitki örtüyünün məhsuldarlığının azalması və düzgün idarə olunmayan otlaq istifadəsi torpağın keyfiyyətinin aşağı düşməsinə gətirib çıxarır. Bu isə göstərir ki, təbii bitki örtüyünün qorunması və torpaqların davamlı istifadəsi mühüm əhəmiyyət daşıyır. Eroziyaya məruz qalan torpaqlarda struktur pozulur, məsaməlilik azalır və sıxlıq artır. Nəticədə torpağın su keçirmə qabiliyyəti zəifləyir, səthi axınlar artır və bitkilər üçün əlverişli su ehtiyatı azalır.

Daşkəsən vadisi botaniki baxımdan kifayət qədər öyrənilməmiş ərazilərdən biridir. Bu ərazinin elmi və praktiki əhəmiyyətini nəzərə alaraq burada dağ kserofit və yüksək dağ bitki örtüyünün tədqiqi xüsusi əhəmiyyət kəsb edir. Bununla yanaşı, biomüxtəlifliyin qorunması və otlaqların deqradasiyasının qarşısının alınması istiqamətində araşdırmalar

aparılmalıdır. Tədqiqat çərçivəsində floranın növ müxtəlifliyinin müəyyən edilməsi, nadir və nəsli kəsilməkdə olan bitkilərin aşkar olunması, bitki örtüyünün fitosenotik xüsusiyyətlərinin öyrənilməsi və onların coğrafi yayılma qanunauyğunluqlarının müəyyənləşdirilməsi nəzərdə tutulur. Eyni zamanda otlaqların məhsuldarlığının qiymətləndirilməsi və aşağı məhsuldarlığın səbəblərinin araşdırılması da mühüm istiqamətlərdəndir.

Otlaqların səmərəliliyinin artırılması üçün onların elmi əsaslarla idarə olunması vacibdir. Aparılmış tədqiqatlar göstərir ki, təbii yem sahələrinə düzgün qulluq etməklə onların məhsuldarlığını bir neçə dəfə artırmaq mümkündür. Bu məqsədlə səthi və əsaslı yaxşılaşdırma tədbirlərinin tətbiqi yüksək məhsuldar otlaq sahələrinin formalaşmasına şərait yaradır.

MODERN ECOLOGICAL ASSESSMENT OF SOIL COVER IN SUMMER PASTURE AREAS OF THE NORTHEASTERN PART OF THE LESSER CAUCASUS (DASHKASAN DISTRICT)

Lamiya Shakhali gizi Khalilova
l.xelilova@list.ru
Elshad Arshad oglu Mammadov
elshad1952@mail.ru
Gulnara Asib gizi Asadova
g.asadova@atu.edu.az
Azerbaijan Technological University

This study examines the current ecological condition of soil cover in summer pasture areas of the northeastern Lesser Caucasus, focusing on the Dashkasan district. Soil degradation in the region is mainly driven by erosion processes intensified by overgrazing and improper pasture management. The most affected areas are mountain-meadow and mountain-steppe zones, where soil structure, water retention, and productivity have significantly declined. The study highlights the need for sustainable pasture use and scientifically based land management practices to improve soil quality and preserve biodiversity.

Keywords: soil cover, erosion, overgrazing, pasture, ecological condition, Dashkasan, Lesser Caucasus

«YAŞIL» İQTİSADİYYATIN ƏTRAF MÜHİTƏ OLAN RİSKLƏRİNİN AZALDILMASI

Yeganə Abuzər qızı Məmmədova
yeganamammadova1960@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Azərbaycan iqtisadiyyatının ekoloji cəhətdən dayanıqlı olması üçün əsas parametrlərin müəyyənləşdirilməsinə çalışılmış, ölkəmizdə «yaşıl» iqtisadiyyata keçidlə bağlı maneələr və imkanlar ətraflı şəkildə təhlil edilmişdir.

«Yaşıl» iqtisadiyyat əmtəələrin və xidmətlərin istehsalı, bölgüsü və istehlakı ilə bağlı olan iqtisadi fəaliyyətlərin elə bir sistemidir ki, burada gələcək nəsilləri ciddi ətraf mühit riskləri və ekoloji çatışmazlıqlarla qarşı-qarşıya qoymadan uzunmüddətli rifah artımına və davamlı iqtisadi inkişafa nail olunur.

«Yaşıl» iqtisadiyyat ətraf mühit və iqtisadiyyat arasında qırılmaz əlaqələrə əsaslanan davamlı inkişafa nail olunması üçün vasitədir. Bu baxımdan «yaşıl» iqtisadiyyat rifahı artırır, sosial və iqtisadi bərabərsizliyi azaldır və ekoloji riskləri azaldır. «Yaşıl» iqtisadiyyat ekoloji cəhətdən təbii ehtiyatların qorunmasına, daha çox ekosistem xidmətlərinin və məhsulların istehsalına və ekoloji böhranı yaradan emissiyaları və

çirkləndiriciləri azaltmağa yönəlmişdir. «Yaşıl» iqtisadiyyata keçid bir-biri ilə əlaqəli iqtisadi, sosial və ekoloji böhranları həll edə bilər.

«Yaşıl» iqtisadiyyata keçid xüsusi şərtlər tələb edir. Bu əlverişli şərtlərə milli iqtisadiyyatların vəziyyəti, daxili və xarici siyasəti, subsidiyalar və dəstəklər, habelə beynəlxalq bazar və hüquqi infrastruktur, inkişaf etməkdə olan ölkələrə ticarət və texniki yardımlar daxildir. Hal-hazırda təbii resurslardan həddən artıq asılı olan, onları tükədən və ətraf mühiti pisləşdirən dominant qəhvəyi iqtisadiyyata qarşı «yaşıl» iqtisadiyyat vasitəsi ilə addımlar atılır

«Yaşıl» iqtisadiyyata keçid, yüksək ilkin investisiya xərcləri, ənənəvi sahələrdə iş yerlərinin itirilməsi, texnologiya asılılığı və sürətli dəyişikliklərə uyğunlaşma çətinliyi kimi ciddi iqtisadi və sosial risklər yaradır. Bu keçid həm də xammal təchizatında yeni asılılıqlar və «yaşıl» texnologiyaların istehsalı zamanı ətraf mühitə təsirlər (məsələn, litium hasilatı) ilə müşayiət olunur.

«Yaşıl» iqtisadiyyatın ətraf mühit üçün əsas riskləri, əsasən, yeni texnologiyaların istehsalı üçün intensiv resurs (nadir metallar) hasilatı, bərpa olunan enerji infrastrukturunun genişlənməsinin ekosistemlərə fiziki təsiri, köhnə texnologiyaların (batareyalar, panellər) utilizasiyası və «yaşıl» yuyulma (greenwashing) nəticəsində ekoloji problemlərin ört-basdır edilməsi ilə bağlıdır.

«Yaşıl» iqtisadiyyatın əsas məqsədi ətraf mühit risklərini azaltmaqdır, lakin onun özünün də riskləri var: resursların səmərəli istifadəsi və tullantıların azaldılması tələbi ilə artan resurs tələbi (məsələn, bərpa olunan enerji texnologiyaları üçün xammal) və keçid prosesinin özündə yaranan yeni ekoloji problemlər. «Yaşıl» iqtisadiyyatın ətraf mühitdəki risklərinin qarşısının alınması resurslardan səmərəli istifadə, karbon emissiyalarının azaldılması, bərpa olunan enerji mənbələrinə keçid və ekoloji innovasiyaların tətbiqi vasitəsilə həyata keçirilir.

«Yaşıl» iqtisadiyyatın məqsədi davamlı inkişafı təmin etmək olsa da, bu məqsədlərə çatmaq üçün istifadə olunan metodlar və siyasətlər planlaşdırılmalı və potensial mənfi ekoloji təsirlər minimuma endirilməlidir.

MITIGATION OF ENVIRONMENTAL RISKS ASSOCIATED WITH THE "GREEN" ECONOMY

Yegana Abuzar gizi Mammadova
yeganamammadova1960@gmail.com
Azerbaijan Technological University

The article analyzes the main risks that arise during the implementation of the "green" economy and discusses ways to reduce them. The "green" economy can indeed make a real contribution to protecting the ecosystem and ensuring sustainable development.

Keywords: "green" economy, risks, environment, production, resources, sustainable development

EKOLOJİ DAYANIQLILIQ KONTEKSTİNDƏ ŞƏHƏR PLANLAŞDIRMASININ ƏSAS İSTİQAMƏTLƏRİ VƏ PROBLEMLƏRİ

Seymur Əjdəroğlu Xəlilov[1,2]
Təvəkkül Tofiq oğlu Sadıqov[2]
Gülnarə Asib qızı Əsədova[1]
g.asadova@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti[1]
Gəncə Dövlət Universiteti[2]

Davamlı şəhərlərin layihələndirilməsi ətraf mühitin qorunması və onun keyfiyyətinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir və ekoloji inkişafın əsas istiqamətlərindən biri hesab olunur. Bu yanaşma çərçivəsində şəhərsalma, memarlıq-planlaşdırma və dizayn həlləri ilə yanaşı, bərpa olunan enerji mənbələrindən istifadə də əsas prinsiplərdən biri kimi çıxış edir. Müasir şəhərlərin davamlı inkişafı sağlam, estetik cəhətdən cəlbedici və ekoloji baxımdan dayanıqlı yaşayış mühitinin formalaşdırılmasına yönəlmiş aktual məsələlərdəndir.

Bu məqsədə nail olmaq üçün həm vətəndaşların, həm də yerli idarəetmə qurumlarının birgə fəaliyyəti xüsusi əhəmiyyət daşıyır. Belə əməkdaşlıq insanların həyat keyfiyyətinin yüksəldilməsinə, şəhər mühitinin yaxşılaşdırılmasına və şəhərlə təbiət arasında tarazlığın qorunmasına şərait yaradır.

Ekoloji dayanıqlı şəhər planlaşdırmasının əsas istiqamətlərinə yaşıl infrastrukturun inkişafı, enerji səmərəliliyi və alternativ enerji mənbələrindən istifadə, dayanıqlı nəqliyyat sistemlərinin təşkili, su resurslarının səmərəli idarə olunması, tullantıların düzgün idarə edilməsi və torpaqdan səmərəli istifadə (kompakt şəhər modeli) daxildir. Xüsusilə şəhərlərin plansız genişlənməsinin qarşısının alınması, sıx və funksional zonalaşdırmanın tətbiqi nəqliyyat məsafələrinin azalmasına və resurslara qənaət olunmasına imkan yaradır.

İnsanlar təbii resursların məhdud olduğunu anlamalı və gələcək nəsillərin ehtiyaclarını təmin etmək üçün bu resursların qorunmasının vacibliyini dərk etməlidirlər.

Davamlı şəhərlərin formalaşdırılması üçün təbii ərazilərin qorunması və çirklənmiş sahələrin mümkün qədər bərpası vacibdir.

Yaşayış ərazilərinin planlaşdırılmasında sosial, memarlıq, iqtisadi və sanitar-gigiyenik tələblərin vahid şəkildə nəzərə alınması mühüm əhəmiyyət kəsb edir. Bu yanaşma həm əhalinin rahatlığını təmin edir, həm də torpaq resurslarının səmərəli istifadəsinə şərait yaradır. Eyni zamanda, düzgün planlaşdırma vasitəsilə əlverişli mikroiqlim yaradılır və səs-küy kimi problemlər azaldılır.

Beləliklə, davamlı şəhər planlaşdırması ekoloji balansın qorunması və yüksək keyfiyyətli şəhər mühitinin formalaşdırılması üçün əsas yanaşmalardan biridir. Şəhərsalma prinsipləri zamanı iqlim şəraiti, ərazinin xüsusiyyətləri və mövcud şəhər quruluşu nəzərə alınmalıdır. Eyni zamanda, binalarda bərpa olunan enerji mənbələrinin istifadəsi vacibdir. Günəş, külək, bioenerji və yer istiliyi kimi mənbələrdən istifadə, eləcə də təkrar enerji resurslarının tətbiqi memarlıq həllərinin ekoloji dayanıqlılığını artırır. Ekoloji dayanıqlı şəhər planlaşdırılması prosesində bir sıra problemlər mövcuddur: *Sürətli urbanizasiya, Ekoloji çirklənmə, Resursların qeyri-səmərəli istifadəsi, Yaşıl sahələrin azalması, İqlim dəyişiklikləri, İdarəetmə və planlaşdırma çatışmazlıqları*

Davamlı memarlıq şəhərlərin uzunmüddətli inkişafını təmin edən kompleks yanaşmadır. Bu sahədə əsas diqqət binaların ekoloji prinsiplərlə layihələndirilməsinə, enerji səmərəliliyinin artırılmasına və texniki-mühəndislik həllərinin memarlıqla

uzlaşdırılmasına yönəldilir. Bu isə müxtəlif sahələrdən olan mütəxəssislərin birgə fəaliyyətini tələb edir və layihələrin daha sistemli şəkildə həyata keçirilməsinə imkan verir.

MAIN DIRECTIONS AND PROBLEMS OF URBAN PLANNING IN THE CONTEXT OF ECOLOGICAL SUSTAINABILITY

Seymur Ajdaroglu Khalilov[1,2]
Tavakkul Tofig Sadiqov[2]
Gulnara Asib qizi Asadova[1]
g.asadova@atu.edu.az
Azerbaijan Technological University [1]
Ganja State University[2]

Sustainable urban planning aims to create environmentally friendly and healthy cities by using green infrastructure, renewable energy, efficient transport, and proper waste and water management. It improves quality of life while reducing environmental impact and ensures the sustainable use of natural resources for future generations.

Keywords: Sustainable urban planning, environmental protection, green infrastructure, renewable energy, sustainable transport,

VİNİLKREZOLLARIN SİNTEZİ VƏ HİDROSİLİLLƏŞMƏ: YAŞIL KİMYA VƏ DAYANIQLI İNKİŞAF ASPEKTLƏRİ

Şəms Rəcəb qızı Şirinova
Shams.Shirinova@sdu.edu.az
Sumqayıt Dövlət Universiteti

Müasir dayanıqlı kimya yanaşmaları yaşıl kimya prinsiplərinin yalnız tullantıların azaldılması ilə məhdudlaşmadığını, eyni zamanda resurs səmərəliliyi, daha təhlükəsiz maddələrin seçimi və proses təhlükəsizliyinin layihələndirmə mərhələsindən nəzərə alınmasını tələb etdiyini göstərir. Son illərdə bu yanaşma yaşıl kimya, dövri kimya və safe-by-design prinsiplərinin birlikdə tətbiqi ilə daha da genişlənmişdir. Buna görə vinilkrezolların sintezi və hidrosililləşmə kimi reaksiyalar artıq təkcə preparativ baxımdan deyil, həm də ekoloji və texnoloji səmərəlilik baxımından qiymətləndirilir [1,8].

Vinil efirlər və onlara yaxın vinil törəmələri polimer kimyası, materialşünaslıq və üzvi sintezdə mühüm tikinti blokları hesab olunur. Müasir icmallarda göstərilir ki, vinil efir monomerləri xüsusi xassəli polimerlərin alınmasında geniş tətbiq sahəsinə malikdir və onların daha səmərəli sintezi praktik əhəmiyyət daşıyır. O-, S- və N-vinil törəmələrinin alınması üçün asetilenlə birbaşa vinilləşdirmə, vinil mübadiləsi, metatez və müxtəlif qoşulma reaksiyaları istifadə olunur. Bu baxımdan krezol törəmələrinin vinilləşdirilməsi də funksional monomer və aralıq məhsul əldə etmək üçün perspektivli istiqamət kimi dəyərləndirilə bilər [4,6,8].

Meta və para krezolların asetilenlə heterogen-katalitik vinilləşdirilməsi üzrə son tədqiqatlarda KOH-un aktivləşdirilmiş kömür üzərinə hopdurulmuş katalitik sistemindən istifadə olunaraq uyğun şəraitdə vinil efirlərin alınması göstərilmişdir. Həmin işdə katalizator miqdarının və temperaturun optimallaşdırılması məhsul çıxımına ciddi təsir göstərmişdir. Bununla yanaşı, asetilenlə işləyən proseslərdə yüksək təzyiq və partlayış riski təhlükəsizlik baxımından əsas məhdudiyyətlərdən biri olaraq qalır. Məhz buna görə daha yeni yanaşmalarda kalsium karbid kimi stoxiometrik asetilen mənbələrinin tətbiqi, artıq asetilen ehtiyacının aradan qaldırılması və tullantının azalması daha təhlükəsiz və iqtisadi alternativ kimi təqdim olunur [5,7].

Hidrosililləşmə isə doymamış C=C və C≡C rabitələrinə hidrosilanların qoşulmasına əsaslanan, yüksək atom iqtisadiyyatına malik mühüm reaksiyalardan biridir. Bu reaksiya silisium tərkibli birləşmələrin və silikon əsaslı materialların istehsalında geniş istifadə olunur. Son icmallar göstərir ki, ənənəvi Speier və Karstedt tipli homogen qiymətli metal katalizatorları hələ də sənayedə geniş yayılmışdır, lakin onların baha olması və reaksiyadan ayrılmasının çətinliyi yeni həllərin axtarışını sürətləndirir. Bu səbəbdən heterogen və heterofaz katalitik sistemlər, eləcə də geri qazanılan katalizatorlar daha çox diqqət çəkir. Xüsusilə Pt/etilenqlikol əsaslı heterofaz sistem üçün otaq temperaturunda, havada və 36 dövrəyə qədər yüksək məhsuldarlıqla geri istifadə imkanı göstərilmişdir; bu isə prosesin həm iqtisadi, həm də ekoloji baxımdan cəlbediciliyini artırır [9,2,3].

Dayanıqlı inkişaf baxımından vinilkrezolların sintezi və hidrosililləşmə proseslərini birləşdirən əsas meyarlar atom iqtisadiyyatı, təhlükəli həlledicilərin əvəzlənməsi, geri qazanılan katalitik sistemlərin tətbiqi, enerji sərfiyyatının azaldılması və proses təhlükəsizliyinin əvvəlcədən nəzərə alınmasıdır. Vinilləşdirmədə daha təhlükəsiz asetilen mənbələrinin seçilməsi, hidrosililləşmədə isə heterogen və ya heterofaz katalizatorlara keçid kimyəvi proseslərin ekoloji yükünü azaltmağa, katalizator və xammal sərfini aşağı salmağa və sənaye miqyasında idarəolunmanı yaxşılaşdırmağa kömək edir. Buna görə bu istiqamətlər yaşıl kimyanın praktik tətbiqi və daha dayanıqlı kimya sənayesinin formalaşması üçün perspektivli sahələrdən biri hesab oluna bilər [1,8,9,2].

Beləliklə, vinilkrezolların sintezində məqsəd yalnız yüksək çıxım əldə etmək deyil, həm də daha təhlükəsiz xammal, daha uyğun katalitik sistem və ətraf mühitə daha az təsir etmək olmalıdır. Hidrosililləşmədə müşahidə edilən heterogen və geri qazanılan kataliz tendensiyası bu baxımdan nümunəvi yanaşmadır. Gələcək tədqiqatlarda proses parametrlərinin yaşıl metrikalarla birlikdə qiymətləndirilməsi bu sahənin sənaye tətbiq potensialını daha da artıracaq [8,9,2]

ƏDƏBİYYAT

1.Ganesh, K. N., Zhang, D., Miller, S. J., et al. (2021). Green Chemistry: A Framework for a Sustainable Future. Environmental Science & Technology, 55(13), 8459-8463.
2.Goncharova, I. K., Novikov, R. A., Beletskaya, I. P., & Arzumanyan, A. V. (2023). Recyclable and convenient-to-handle Pt/ethylene glycol catalytic system – an approach to sustainable hydrosilylation. Journal of Catalysis, 418, 70-77.
3. Goncharova, I. K., Beletskaya, I. P., & Arzumanyan, A. V. (2024). Prospects in Sustainable Hydrosilylation by Biphase Catalysis. ChemCatChem, 16(15).
4. Kirillov, E., Rodygin, K., & Ananikov, V. (2020). Recent advances in applications of vinyl ether monomers for precise synthesis of custom-tailored polymers. European Polymer Journal, 136.
5. Kosimova, O. (2023). Optimation of Progress of Catalization Vinylation Phenol Derivates. Universum: Khimiya i Biologiya, 3(105).
6. Ledovskaya, M. S., Voronin, V. V., & Rodygin, K. S. (2018). Methods for the synthesis of O-, S- and N-vinyl derivatives. Russian Chemical Reviews, 87(2), 167-191.
7. Ledovskaya, M. S., Voronin, V. V., Reznichenko, A. A., & Reznichenko, E. A. (2025). Vinylation of Alcohols, Thiols, and Nitrogen Compounds Using a Stoichiometric Amount of In Situ Generated Acetylene. Organics, 6(1), 5.
8. Slootweg, J. C. (2024). Sustainable chemistry: Green, circular and safe-by-design. One Earth, 7(5), 754-758.

9. Yang, H., Zhou, Z., Tang, C., & Chen, F. (2024). Recent advances in heterogeneous hydrosilylation of unsaturated carbon-carbon bonds. Chinese Chemical

SYNTHESİS OF VİNYL CRESOLS AND HYDROSİLYLATİON: GREEN CHEMİSTRY AND SUSTAİNABLE DEVELOPMENT ASPECTS

Shams Rajab Shirinova
Shams.Shirinova@sdu.edu.az
Sumgayit State University

This paper analyzes the synthesis of vinyl cresols and hydrosilylation reactions from the perspective of green chemistry and sustainable development. Key issues include safer acetylene sources for vinylation of cresol derivatives, waste minimization, and reduced energy demand. For hydrosilylation, recyclable catalytic systems, heterogeneous catalysis, and lower-risk technological solutions are considered. The study shows that these approaches improve the environmental, technical, and economic efficiency of chemical processes and support safer, resource-efficient industrial production.

Keywords*:* vinyl cresols, hydrosilylation, green chemistry, sustainable development, heterogeneous catalysis, process safety Letters, 35(6).

SƏNAYE İNQİLABLARI FONUNDA ƏTRAF MÜHİTİN EKOLOJİ VƏZİYYƏTİ

Aygün Bağırova
fbagirov05@mail.ru
Azərbaycan Texnologiya Universiteti

V sənaye inqilabı texnoloji səmərəliliklə yanaşı insan və robot əməkdaşlığına, davamlılığa və insan rifahına fokuslanan yeni bir mərhələdir. Sənaye inqilabı əl əməyinin maşın istehsalı ilə əvəz olunması, manifakturadan fabrik sisteminə keçid və istehsalda buxar gücünün tətbiqi ilə xarakterizə olunan köklü texniki – iqtisadi dəyişiklikdir. Bu proses 18 – ci əsrin ortalarında İngiltərədə başlayaraq istehsalın sürətini, kənd təsərrüfatından sənayeyə keçidi və sosial strukturu tamamilə dəyişdirmişdir. Hal- hazırki dövrümüzə qədər gəlib çatmış sənaye reformları nəticəsində istehsalın həcmi kəskin artmış, urbanizasiya sürətlənmiş, iqtisadiyyatda texnologiya və elmi tərəqqi əsas paya sahib olmuşdur.[1]

Sənaye inqilabı bəşəriyyətin iqtisadi və texnoloji tərəqqisinə təkan versə də,təbiət üzərində geri dönülməz mənfi təsirlər yaratmışdır.Bu təsirlər həm klassik (buxar maşınları dövrü),həm də müasir sənayeləşmə mərhələlərində müxtəlif formalarda özünü göstərmişdir.

1.Atmosferin sənaye çirklənməsi və iqlim dəyişmələri fosil yanacaqların istifadəsi:Kömür və neftin geniş istifadəsi atmosferə külli miqdarda CO_2,S və N oksidlərinin artmasına səbəb olmuşdur.İstixana effekti:Bu qazların artması qlobal istiləşməyə və iqlim dəyişikliyinə yol açan əsas amildir.

2.Su resurslarının çirklənməsi:Sənaye tullantıları,fabriklərdən çıxan kimyəvi tullantılar,ağır metallarla çirkli sular çaylara,göllərə,yeraltı sulara axıdalaraq su ekosistemini məhv etmişdir.Yüngül və ağır sənaye,xüsusilə tekstil və neft – qaz sənayesi suyun keyfiyyətinə ən ciddi ziyan vuran sahələrdəndir.

3.Torpaq və bioloji müxtəliflik,torpaq deqradasiyası:Kimyəvi tullantıların və zərərli maddələrin torpağa sızması onun münbitliyini azaldır və bitki örtüyünü zədələyir.Meşələrin qırılması:Sənaye müəssisələrinin tikintisi,xammal ehtiyacı şəhərsalma nəticəsində geniş meşə zolaqları məhv edilmiş,bu da biomüxtəlifliyin azalmasına gətirib çıxarmışdır.

4.Fiziki təsirlər;Səs-küy və vibrasiya:Sənaye müəssisələrinini işləməsi ətraf mühitdə səs kirliliyinə və vibrasiyaya səbəb olur ki,bu da həm insanların, həm də heyvanların yaşam mühitinə mənfi təsir edir.Müasir sənaye və eneji istehsalı prosesləri əlavə radiasiya və elektromaqnit dalğaları yaradır.[2]

Davamlı inkişaf təbiət resurslarının gələcək nəsillər üçün qorunaraq istifadəsini nəzərdə tutur.Bu baxımdan sənaye sektorunun ekologiya elmi ilə uyğunluqda inkişaf etməsi əsas şərtdir.Günəş,külək,hidro və biokütlə kimi alternativ enerji mənbələrininin sənaye sahəsində tətbiqi atmosferə atılan tullantıların azalmasına səbəb olur.Bu enerji növləri karbon izini azaldır,enerji təminatında ekoloji tarazlığı qoruyur.

Nəticə: Sənaye istehsalının və texnologiyanın ətraf mühitə təsiri geniş və çoxsahəli bir məsələdir. Bu sahədə problemlərin həlli üçün yalnız texnoloji yeniliklər kifayət deyil,qanunvericilik,ekoloji maarifləndirmə,beynəlxalq əməkdaşlıq,davamlı inkişaf prinsiplərinin tətbiqi də mühüm əhəmiyyət kəsb edir. Gələcəkdə sənaye ilə ekologiyanın harmoniyası yalnız ağıllı planlamada və davamlı idarəetmə ilə mümkündür.

ƏDƏBİYYAT

1.Peter N.Stearns 03.iyun 2025 səh3-29
2.Peter N.Stearns 03.iyun 2025 səh 31-38

THE ECOLOGICAL CONDITION OF THE ENVIRONMENT IN THE CONTEXT OF INDUSTRIAL REVOLUTIONS

Aygun Baghirova
fbagirov05@mail.ru
Azerbaijan Technological University

Although the major industrial revolutions over the years have not served to make people live more comfortably, ecologically harmful substances have caused harm. The final production of environmentally friendly products, filter devices that serve to purify the atmosphere, is one of the most important steps taken towards environmental protection and ecological management

Keywords: ecological safety, industrial revolutions, modern cleaning massacres, ecological awareness

ƏTRAF MÜHİTİN EKOLOJİ PROBLEMLƏRİNİN HƏLLİNDƏ ELEKTROMOBİLLƏRDƏN İSTİFADƏNİN ROLU

Fərhad Ədil oğlu Vəliyev
farhadvaliyev.tmm@gmail.com
Nicat Elxan oğlu Qəzənfərli
nicat01001@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Elektromobillər daxili yanacaq mühərrikli avtomobillərdən fərqli olaraq təbiətə daha az zərər vururlar. Elektromobillərin yüksək ekoloji özəlliyinə sahib olduqlarına dair sübutlardan biri də istifadə olunan xammal miqdarı ola bilər. Məsələn, bir elektromobil batareyaları öz fəaliyyət dövrü ərzində 30 kq metaldan istifadə edirlər, orta statistik avtomobil öz fəaliyyət dövrü çərçivəsində 17.000 litr benzin yandırır. Göründüyü kimi fərq göz qabağındadır. Bu iki texnologiyalar arasındakı fərq getdikcə daha da artacaq. Çünki texnologiyalar günü-gündən inkişaf etdirilir. Elektromobillər ətraf mühit üçün daha da təhlükəsiz olduğuna görə və daxili yanacaq mühərrikləri artıq öz inkişafının pik nöqtələrinə çatdığına görə bu iki texnologiyalar arasında fərq daha da artır [2].

Azərbaycanda son illər elektriklə işləyən avtomobillərdən istifadənin genişləndirilməsi istiqamətində önəmli addımlar atılır. 2022-ci ildən elektromobillər və onlar üçün 2-ci və 3-cü səviyyə elektrik enerji doldurucularının idxalı və satışı ƏDV-dən azad edilib. Ötən ildən zavod buraxılış tarixindən 3 ilədək ötmüş elektrik mühərrikli avtomobillərin idxalına gömrük rüsumunun tətbiqi dayandırılıb.

Statistika göstərir ki, bu tədbirlərdən sonra ölkəyə elektromobil idxalı əhəmiyyətli dərəcədə artıb. Belə ki, ötən il Azərbaycana 125 milyon 268 min ABŞ dolları dəyərində 3102 ədəd yalnız elektrik mühərriklə hərəkətə gətirilən nəqliyyat vasitələri idxal edilib ki, bu da 2022-ci illə müqayisədə müvafiq olaraq 7,1 dəfə və 6,4 dəfə, 2021-ci illə müqayisədə isə 36,2 dəfə və 19,4 dəfə çoxdur [3].

Dünyanın bir çox ölkələrində nəqliyyat vasitəsinin ətraf mühitə mənfi təsirinin azaldılması məqsədi ilə ekoloji cəhətdən təmiz və yanacaq sərfiyyatı az olan elektrik və hibrid avtomobillərin maddi cəhətdən daha əlçatan olması üçün genişmiqyaslı strategiyalar həyata keçirilir, təşviqedici addımlar atılır.

Dünya təcrübəsində təşviqedici addımlar kimi elektromobil alıcılarına, satıcılarına müxtəlif tipli güzəştlər tətbiq edilir, prioritetlər müəyyən olunur və maddi dəstək göstərilir. Dünyada 5,1 milyondan çox elektromobil və hibrid avtomobillərdən istifadə olunur və bu avtomobillərin 80 faizi ABŞ, Çin, Yaponiya, Niderland və Norveç kimi ölkələrin payına düşür.

Elektromobil avtomobillərdən ən çox istifadə edən Çində istifadəçilər yol vergisindən, satışı ilə məşğul olanlar isə satış vergisindən azaddırlar və bu avtomobillərin qeydiyyata alınması üçün rüsum da tələb olunmur. Elektriklə çalışan avtobusların əksəriyyəti də bu ölkənin payına düşür və onlar üçün ayrıca elektrik doldurma məntəqələri fəaliyyət göstərir.

Böyük Britaniyada isə elektromobil avtomobillər aksiz və yol vergilərindən azaddırlar, istehlakçılara müxtəlif güzəşt və maddi dəstək təklif edilir, genişmiqyaslı enerji doldurma məntəqələri qurulub. Öz həyətlərində şarj məntəqəsi quraşdıran elektrik və hibrid avtomobil istifadəçiləri isə istifadə etdikləri elektrik enerjisinə görə 20 faiz əvəzinə 5 faiz vergi ödəyir.

Türkiyədə də elektromobil sahiblərinə verilən güzəştlər çoxsaylıdır. Burada elektromobil istifadəçilərinə avtomobillərin mühərrik gücünə görə genişmiqyaslı güzəştli vergi dərəcəsi tətbiq olunur, çoxlu sayda şarj məntəqələri quraşdırılır və bu sahədə nəzərəçarpacaq irəliləyişlər əldə edilib. Elektromobillərin istifadəsinə dəstək vermək məqsədilə onların idxalçılarına və alıcılara dövlət tərəfindən subsidiyalar verilir.

Norveç isə hər min nəfərə düşən elektromobil sayına görə dünyada ən yüksək göstəriciyə malikdir. Burada istismar müddətinin bitməsinə az qalmış, havanı çirkləndirən nəqliyyat vasitələrinin istifadəsi qadağan edilir. 2027-ci ildən isə ölkə ərazisində yanacaqla işləyən nəqliyyat vasitələrinin istifadəsinin tamamilə qadağan olunması planlaşdırılır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin verdiyi məlumata görə ölkədə elektrik mühərrikli avtomobillərin idxalında əhəmiyyətli dərəcədə artım müşahidə olunur və ekoloji təmiz nəqliyyat vasitələrindən istifadə üzrə zəruri infrastrukturun yaradılması, dövriyyəsinin stimullaşdırılması, maliyyə əlçatanlığının artırılması istiqamətində tədbirlər görülür. Bu məqsədlə ölkədə ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və infrastrukturun təkmilləşdirilməsi üzrə İşçi Qrup fəaliyyət göstərir. İşçi qrupun hazırladığı təkliflər əsasında həyata keçirilən tədbirlər nəticəsində ölkədə ekoloji təmiz nəqliyyat vasitələrindən istifadə genişlənib. Stimullaşdırıcı tədbirlər sayəsində elektrik mühərrikli avtomobillərin idxalında əhəmiyyətli dərəcədə artım müşahidə olunur. 2024-cü ildə ölkəyə 2022-ci illə müqayisədə 19 dəfə çox elektromobil idxal edilib.

Hazırda elektromobillərin qiymətinin vətəndaşlar üçün nisbətən əlçatan olması məlumdur. Buna səbəb həmin avtomobillərlə bağlı gömrük və vergi azadetmələrinin tətbiqidir. Hazırda elektromobillərə maraq böyükdür. Amma onların elektrik doldurma

məntəqələrinin sayı olduqca azdır. Bu da alqı-satqı əməliyyatlarına çox təsir edir. Və çox təəssüf ki, elektromobilləri gətirən bəzi şirkətlər onların servisini qurmur. Bu da vətəndaşlar üçün elektromobillərin cəlbediciliyini azaldır və onlar elektromobil almağa tərəddüd edirlər.

Elektrik avtomobillərindən istifadənin artırılması üçün əsas iki məsələyə diqqət yetirmək lazımdır. Birincisi, elektrik doldurma məntəqələrinin sayı artırılmalıdır. İkincisi, elektromobil gətirən şirkətlər qarşısında tələb qoyulmalıdır ki, ölkədə mütləq onların servisini qursunlar, vətəndaşları həmin avtomobillərin ehtiyat hissələri və ustaları ilə təmin etsinlər.

Elektrik avtomobillərinin müsbət və mənfi cəhətləri

Müsbət cəhətləri:

1. Daha az istismar xərcləri:
   - motor hissələri sadə və davamlıdır;
   - yağ dəyişmə, sürətlər qutusu, filtr dəyişmə kimi xərclər yoxdur.
2. Ətraf mühitə təsiri çox azdır.
3. Sakit və rahat sürüş təcrübəsi:
   - elektrik mühərriki səssiz işləyir, vibrasiya yaratmır, sürücü və sərnişin üçün yüksək komfortluluq yaradır.
4. Sürət yığma tezliyi yüksəkdir.
5. Dövlət dəstəyi və vergi güzəştləri mövcuddur.
6. Elektromaqnit əyləci var, hansı ki təcili durumlarda istifadə olunur və bu da etibarlılığı və təhlükəsizliyi artırır.
7. Benzinlə işləyən avtomobillərlə müqayisədə yüksək səmərəliliyi.

Mənfi cəhətləri:

1. Məhdud batareya ehtiyatı. Hal-hazırda elektromobillərin gediş məsafəsi 250-500 km arasındadır. Bu məsafə uzun səfərlər üçün kifayət etməyə bilər, xüsusilə yükləmə məntəqələri az olan ölkələrdə.
2. Şarj (elektrik doldurma məntəqəsi) infrastrukturunun azlığı.
3. Yükləmə müddətinin uzunluğu:
   - normal şarj cihazı ilə tam dolma 6-12 saat çəkə bilər;
   - sürətli şarj sistemləri (DC) az yayılıb və bahalıdır.
4. Servis xidmətinin kifayət qədər olmaması.
5. Benzin və dizel yanacağı ilə işləyən analoqları ilə müqayisədə hələ də satış qiymətinin yüksək olması.

Elektrik avtomobillərə keçid prosesi sürətlə davam edir. Qlobal səviyyədə iqlim dəyişmələrinin təsirlərinin yumşaldılması təşəbbüslərinə töhfə olaraq, ölkəmiz istixana effektli qaz tullantılarının azaldılması istiqamətində kifayət qədər ambisiyalı hədəflər götürüb.

Nəticə: Ənənəvi nəqliyyat vasitələrinin istifadəsi qlobal ekoloji mühitin sürətlə çirklənməsinə gətirib çıxarır. Ağır sənaye sahəsi olmayan ölkələrdə ekoloji duruma daha çox təsir edən avtomobil nəqliyyatıdır. Ekoloji durumun qorunmasında perspektiv nəqliyyat vasitələrinin istifadəsi (elektromobillər və kombinə edilmiş enerjili qurğulu nəqliyyat vasitələri) məqsədəuyğundur. Elektromobillərin istifadəsi ekoloji durumun yaxşılaşdırılması istiqamətində atılan xüsusi əhəmiyyətli addımlardan sayılır. Elektromobillərin istismarı üçün müvafiq infrastrukturun yaradılması və elektromobillərin elektrik doldurma infrastrukturunun təşkili də çox vacibdir.

ƏDƏBİYYAT

1. Cavadov Ə.Ə. Vahid nəqliyyat sistemi. Dərslik, Bakı, "Təhsil" NPM, 2010, 331 s.
2. Əliyev R. – Nəqliyyat sistemləri. Bakı, 2020.
3. Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi – nəqliyyat sahəsi üzrə rəsmi materiallar.
4. Internasional Energy Agency – Global EV Outlook 2024. Paris, 2024.

THE ROLE OF ELECTRIC VEHICLES IN ADDRESSING ENVIRONMENTAL PROBLEMS

Farhad Adil oglu Veliyev
farhadvaliyev.tmm@gmail.com
Nijat Elkhan oglu Gazanfarli
nicat01001@gmail.com
Azerbaijan Technological University

The use of conventional vehicles leads to accelerated environmental pollution. In developed countries, road transport causes the greatest environmental damage. To improve the environmental situation, the use of promising vehicles is considered appropriate. The article shows the importance of using electric vehicles, their advantages and disadvantages are noted.

Keywords: electric vehicle, environment, electric battery, electric filling station, infrastructure.

XƏZƏR DƏNİZİNİN PLASTİK ÇİRKLƏNMƏSİ: MÖVCUD VƏZİYYƏT, EKOTOKSİKOLOJİ RİSKLƏR VƏ İNNOVATİV İDARƏETMƏ METODLARI

Zeynəb Talıbzadə
z.talibzade@atu.edu.az
Sərxan Akif oğlu Kazımov
serxan2905k@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Xəzər dənizi qapalı su hövzəsi olması səbəbindən antropogen çirklənməyə qarşı son dərəcə həssas bir ekosistemdir. Son illərdə qlobal səviyyədə aktual olan plastik çirklənməsi Xəzər üçün də kritik ekoloji təhdidə çevrilmişdir. Okeanlarla birbaşa çıxışı olmayan bu hövzədə plastik tullantıların akkumulyasiyası (toplanması) dəniz mühitinin deqradasiyasına və bioloji müxtəlifliyin azalmasına səbəb olur. [2] Xəzər dənizinə daxil olan plastik kütlələr əsasən dörd istiqamətdən qaynaqlanır:

- Transsərhəd çay axınları: Kür, Volqa və Ural çayları boyu yerləşən sənaye və yaşayış məntəqələrindən gələn makro-plastiklər dənizə daşınan əsas kütləni təşkil edir.
- Sahil boyu urbanizasiya: Çimərlik və turizm zonalarında tullantıların idarə edilməsindəki çatışmazlıqlar birbaşa çirklənmə mənbəyidir.
- Balıqçılıq və gəmiçilik: Sintetik materiallardan hazırlanmış "ruh torlar" və gəmi tullantıları dəniz dibində dayanıqlı çirklənmə ocaqları yaradır.
- Mikroplastiklərin formalaşması**:** Mezo-plastiklərin fiziki-kimyəvi aşınması nəticəsində yaranan mikroplastiklər (< 5 mm) suyun bütün təbəqələrinə sirayət edir. [1]

Plastik çirklənməsi sadəcə vizual çirklənmə deyil, həm də biokimyəvi təhlükədir. Mikroplastiklər hidrofob xüsusiyyətlərinə görə ətraf mühitdəki davamlı üzvi çirkləndiriciləri (DÜÇ) özünə hopdurur. Bu hissəciklər planktonlar tərəfindən mənimsənilir və **bioakkumulyasiya** yolu ilə qida zəncirinin yuxarı pillələrində duran endemik Xəzər suitisi və nərə balığı kimi canlıların orqanizmində toplanaraq immun və reproduktiv sistemləri sıradan çıxarır.Xəzərin plastik çirklənməsi ilə mübarizədə texnoloji və inzibati yanaşmalar tətbiq edilməlidir:[4]

1. **Monitorinq:** Peyk texnologiyaları və süni intellekt (AI) əsaslı proqram təminatı vasitəsilə dəniz səthindəki plastik yığınlarının real vaxt rejimində xəritələndirilməsi. [1]
2. **Dairəvi İqtisadiyyat Modelləri:** Plastik tullantıların "tullantıdan-enerjiyə" (waste-to-energy) prinsipi ilə piroliz prosesindən keçirilməsi və bioplastiklərin təşviqi. [5]

3. **İnzibati Tədbirlər:** "Tehran Konvensiyası" çərçivəsində regional monitorinq şəbəkəsinin qurulması və sahilboyu müəssisələr üçün plastik emissiya kvotalarının tətbiqi.[3]

Xəzər dənizində plastik çirklənməsinin qarşısının alınması kompleks yanaşma tələb edir. Elmi-texnoloji innovasiyaların regional siyasi əməkdaşlıqla inteqrasiyası həm dənizin ekoloji sağlamlığını bərpa edəcək, həm də "mavi iqtisadiyyat" prinsiplərinə uyğun olaraq iqtisadi səmərəliliyi artıracaqdır.[2]

ƏDƏBİYYAT

1. United Nations Environment Programme Marine Plastic Debris and Microplastics, 2023.
2. Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi üzrə Çərçivə Konvensiyası (Tehran Konvensiyası).
3. Azərbaycan Respublikasının "Ekoloji təhlükəsizlik haqqında" Qanunu.
4. Məmmədov,R.– Xəzər dənizinin hidrometeorologiyası və ekologiyası.Bakı:Elm, 2020.
5. European Strategy for Plastics in a Circular Economy, European 2024

PLASTIC POLLUTION IN THE CASPIAN SEA: CURRENT SITUATION, ECOTOXICOLOGICAL RISKS, AND INNOVATIVE MANAGEMENT APPROACHES

Zeynab Talibzadeh
z.talibzade@atu.edu.az
Sarkhan Akif oglu Kazimov
serxan2905k@gmail.com
Azerbaijan Technological University

The thesis examines the dynamics, sources and ecotoxicological impacts of plastic pollution in the Caspian Sea on the ecosystem. The threats of microplastics to biological species and human health through the food chain are highlighted. Strategic directions such as modern satellite tracking systems, waste recycling and the introduction of legal regulatory mechanisms at the regional level are proposed to solve the problem.

Keywords: Caspian Sea, plastic pollution, microplastics, bioaccumulation, environmental monitoring, circular economy

İSTEHSALAT SƏS-KÜYLƏRİNİN VƏ TİTRƏYİŞLƏRİN İNSAN ORQANİZMİNƏ TƏSİRİ VƏ ARADAN QALDIRILMASI YOLLARI

Sevil Hüseyn Hüseynova
huseynova-1965@mail.ru
Azərbaycan Texnologiya Universiteti

Müasir istehsalat müəssisələrində səs-küy və titrəyişlər mühüm ətraf mühit faktorları hesab olunur. Bu faktorlar işçilərin sağlamlığına mənfi təsir göstərərək məhsuldarlığı azalda və peşə xəstəliklərinə səbəb ola bilər [1]. Xüsusilə metallurgiya, maşınqayırma, kimya və tikinti sahələrində səs-küy və titrəyişlərin səviyyəsi təhlükəli həddə çata bilər [2]. Buna görə də istehsalat proseslərinin təhlükəsizliyi və işçilərin sağlamlığının qorunması üçün səs və titrəyişlərin monitorinqi və aradan qaldırılması mühüm əhəmiyyət daşıyır.

Səs-küy iş mühitində 85 desibel (dB) və daha yüksək səviyyədə olduqda insan orqanizminə mənfi təsir göstərə bilər [3]. Bu təsirlər qısamüddətli və uzunmüddətli ola bilər:

Qısamüddətli təsirlər:

- Konsentrasiya və diqqətin pozulması
- Yorğunluq və əsəb gərginliyi
- Yuxu keyfiyyətinin azalması

Uzunmüddətli təsirlər:

- Eşitmə itkisi və kəskin eşitmə zədələri
- Qan təzyiqinin və ürək-damar xəstəliklərinin artması
- Stress, nevroz və digər psixi pozuntular [3]

Səs-küyün təsir mexanizmi əsasən eşitmə sinirlərinə və mərkəzi sinir sisteminə yönəlib. Daimi yüksək səs səviyyəsi işçi orqanizminin fizioloji ritmini pozaraq immunitet sistemini zəiflədə bilər. İstehsalatda istifadə olunan ağır maşın və alətlər insan orqanizminə müxtəlif növ titrəyişlər ötürür [3].

Uzun müddət yüksək titrəyişə məruz qalmaq işçinin fiziki və psixi sağlamlığına ciddi təsir göstərə bilər. İstehsalat səs-küylərinin və titrəyişlərin aradan qaldırılması və minimuma endirilməsi üçün bir neçə üsul tətbiq olunur [4]:

- Maşın və avadanlıqların səs və titrəyiş izolyasiyası
- Səssiz və az vibrasiya yaradan texnologiyaların tətbiqi
- İstehsalat sahələrinin akustik dizaynı
- İş vaxtının səs-küy və titrəyiş səviyyəsinə uyğun şəkildə bölünməsi
- İşçilərin müvafiq təlim və məlumatlandırılması
- Mühit monitorinqi və mütəmadi ölçmələr
- Qulaq tıxacları və qulaqcıqlar
- Antivibrasiya əlcəkləri və platformalar
- Mühafizəvi geyim və ayaqqabılar

Bu tədbirlər birləşdirildikdə işçilərin sağlamlığı qorunur və istehsal proseslərinin təhlükəsizliyi artır. İstehsalat səs-küyləri və titrəyişlər insan orqanizminə ciddi təsir göstərir, xüsusilə işitmə, sinir sistemi və ürək-damar sağlamlığına zərər verə bilər. [4].Bu təsirlərin aradan qaldırılması üçün texniki, təşkilati və fərdi qoruyucu tədbirlər həyata keçirilməlidir. Davamlı monitorinq, yeni texnologiyaların tətbiqi və işçilərin maarifləndirilməsi iş yerində təhlükəsizliyin təmin edilməsinə və peşə xəstəliklərinin qarşısının alınmasına xidmət edir.

ƏDƏBİYYAT

1. Gülməmmədov, R. "İş mühitində səs-küy və insan sağlamlığı", 2018.
2. Əliyev, Ş. "İstehsalatda titrəyişlərin fizioloji təsirləri", Bakı: Elm Nəşriyyatı, 2020.
3. Kryter, K.D. The Effects of Noise on Man, Academic Press, 1994.
4. Basner, M., Babisch. "Auditory and non-auditory effects of noise on health", 2014.

THE EFFECTS OF INDUSTRIAL NOISE AND VIBRATIONS ON THE HUMAN BODY AND WAYS TO ELIMINATE THEM

Sevil Huseyn Huseynova
huseynova-1965@mail.ru
Azerbaijan Technological University

Industrial noise and vibrations have significant effects on workers' health. High noise levels can cause hearing loss, stress, high blood pressure, and cardiovascular problems. Vibrations affect the musculoskeletal and nervous systems and can reduce overall well-being. To minimize these impacts, technical measures (equipment noise and vibration isolation), organizational measures (work scheduling, monitoring), and personal protective equipment (earplugs, anti-vibration gloves and clothing) are applied. Continuous monitoring and worker education help ensure workplace safety and prevent occupational diseases.

Keywords: industrial noise, vibrations, occupational health, hearing loss, stress, cardiovascular effects, workplace safety, vibration isolation, personal protective equipment, monitoring

EKOLOJİ FAKTORLARIN İNSAN SAĞLAMLIĞINA TƏSİRLƏRİ: RİSK ANALİZLƏRİ VƏ PREVENTİV İDARƏETMƏ MEXANİZMLƏRİ

Sərxan Akif Kazımov
serxan2905k@gmail.com
Zeynəb Şahin Talıbzadə
z.talibzade@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Müasir dövrdə texnoloji tərəqqi və sənayeləşmənin sürətlənməsi ətraf mühit üzərindəki antropogen təzyiqi artırmış, nəticədə ekoloji faktorlar insan sağlamlığına təsir edən əsas determinantlardan birinə çevrilmişdir. Ümumdünya Səhiyyə Təşkilatının hesabatlarına görə, qlobal xəstəliklərin əhəmiyyətli bir hissəsi birbaşa ətraf mühit amilləri ilə bağlıdır. Bu faktorların dərindən təhlil edilməsi həm ekoloji təhlükəsizlik, həm də ictimai səhiyyənin qorunması baxımından strateji əhəmiyyət kəsb edir [1].

İnsan sağlamlığına mənfi təsir göstərən ekoloji faktorları üç əsas qrupda cəmləşdirmək olar:

- Atmosfer çirklənməsi: Havadakı asılı hissəciklər (PM 2.5və PM 10), azot oksidləri və kükürd qazı respirator və ürək-damar xəstəliklərinin əsas tətikləyicisidir [1].
- Su ehtiyatlarının keyfiyyəti: İçməli suyun kimyəvi və mikrobioloji çirklənməsi (ağır metallar, pestisidlər) həzm sistemi və endokrin pozğunluqlara yol açır [5].
- Torpaq və qida təhlükəsizliyi: Torpaqda toplanan toksik maddələrin qida zənciri vasitəsilə insan orqanizminə keçməsi bioakkumulyasiya yaradaraq onkoloji riskləri artırır.

Qlobal istiləşmə və metan emissiyaları kimi faktorlar atmosferin termik rejimini dəyişməklə yanaşı, infeksion xəstəliklərin arealının genişlənməsinə səbəb olur. İstilik dalğaları və ekstrimal hava şəraiti xroniki xəstəliklərin kəskinləşməsinə və psixoloji gərginliyə (ekoloji stres) zəmin yaradır [2]. Bu proseslərin idarə olunması Azərbaycanın "Milli İqlim Fəaliyyəti Planı" kimi strateji sənədlərdə də öz əksini tapmışdır [3].

Ekoloji risklərin minimallaşdırılması üçün aşağıdakı addımlar zəruridir:

- **Ekoloji Monitorinq:** Hava və suyun keyfiyyətinin peyk və yerüstü sensorlar vasitəsilə real vaxt rejimində izlənilməsi [1].
- **Yaşıl Texnologiyaların Tətbiqi**: Sənaye müəssisələrində filtrasiya sistemlərinin yenilənməsi və alternativ enerji mənbələrinə keçid [5].
- **Maarifləndirmə**: Əhalinin ekoloji gigiyena və davamlı istehlak sahəsində biliklərinin artırılması.

Ekoloji faktorların insan sağlamlığına təsiri kompleks xarakter daşıyır və yalnız texnoloji yeniliklər, sərt qanunvericilik və beynəlxalq əməkdaşlıq sayəsində nəzarət altına alına bilər. Sağlam ətraf mühit sağlam cəmiyyətin təməlidir və bu istiqamətdə atılan hər bir addım həm də iqtisadi səmərəliliyin artmasına xidmət edir [4].

ƏDƏBİYYAT

1. World Health Organization (WHO). Compendium of WHO guidance on health and environment, 2022.
2. Intergovernmental Panel on Climate Change (IPCC). Climate Change and Human Health Report, 2023.
3. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi. Milli İqlim Fəaliyyəti Planı 2023–2030, Bakı, 2023.
4. Əliyev, M. M. – Ekologiyanın əsasları və insan sağlamlığı. Bakı: Elm nəşriyyatı, 2018.
5. European Environment Agency (EEA). Environment and Health: Protecting the most vulnerable, 2024.

IMPACTS OF ECOLOGICAL FACTORS ON HUMAN HEALTH: RISK ANALYSIS AND PREVENTIVE MANAGEMENT MECHANISMS

Sarkhan Akif Kazimov
serxan2905k@gmail.com
Zeynab Shahin Talibzade
z.talibzade@atu.edu.az
Azerbaijan Technological University

This thesis examines the multidisciplinary impact of modern environmental factors on human health. The role of atmospheric, water and soil pollution in the development of various pathologies is substantiated by scientific facts. New health threats emerging against the backdrop of climate change and innovative management methods for their prevention are proposed. The article emphasizes the positive contributions of strengthening environmental monitoring and "green energy" policies to public health.

Keywords: environmental factors, human health, pollution, risk analysis, ecotoxicology, sustainable development.

A GREEN APPROACH TO CYBERSECURİTY

Lamiya Ilyas qizi Bayramova[1]
l.bayramova@atu.edu.az
Nuran Sabuhi oglu Bayramov[2]
Azerbaijan Technological University[1]
ADA- student[2]

Cybersecurity and green technologies are two key pillars for a sustainable and connected future. Protecting technology infrastructure and energy systems is crucial to safeguarding our initiatives towards a greener society. By addressing cybersecurity risks and challenges and taking appropriate protective measures, we can maximize the benefits of green technologies and build a safer and more sustainable future for generations to come.

Education and awareness: Train users and operators of green technologies on cybersecurity best practices, such as using strong passwords, identifying suspicious emails and links, and regularly updating software and firmware.

Cybersecurity is an integral part of the concept of national security for all states, including Azerbaijan. While all states are already making plans for their national security in new trends, they also consider cybersecurity as an integral part of it. The approach to cybersecurity in Azerbaijan is at a high level, this area is constantly kept in the spotlight by the head of state, which is a very gratifying and proud moment. The "Strategy of the Republic of Azerbaijan on Information Security and Cybersecurity for 2023–2027", approved by our President Ilham Aliyev in August last year, and the measures arising from this Strategy, are important for a greater understanding of the responsibility of the private and public sectors. This plays an important role in the formation of national legislation in a more appropriate form and the development of this area.

A green approach to cybersecurity integrates environmental sustainability into digital protection by optimizing energy efficiency, reducing carbon footprints, and minimizing electronic waste without sacrificing security. This involves using energy-efficient hardware, implementing data lifecycle management to reduce storage, and leveraging AI for optimized, low-power threat detection [2]. The path to going green has colored all aspects of business for the past decade. From conversations on material sustainability and carbon footprint reduction to energy efficient technologies to green

cybersecurity, industries are searching for innovative solutions to minimize environmental impact.

Green cybersecurity, like many eco-friendly initiatives are charting a revolutionary path toward sustainability. With a focus on eco-friendly strategies and practices to reduce energy consumption, carbon emissions, and electronic waste, security is taking a fundamental shift in how we conceive and implement technology. By aligning the goals of efficiency and environmental responsibility, green cybersecurity charts a course toward a more sustainable digital future where technology enhances human lives without compromising the health of our planet [1].

The primary objective of green cybersecurity is to mitigate the environmental footprint of your tech stack. This includes optimizing energy consumption by developing and implementing technologies that require less power to operate – thus helping reduce both the electricity costs and the carbon footprint associated with energy production.

Additionally, green cybersecurity aims to minimize the use of scarce resources by promoting the efficient use of hardware and materials while functioning. This involves designing devices with longevity and recyclability in mind and adopting sustainable sourcing practices [4].

Addressing the growing concern of electronic waste, green cybersecurity practices seek to extend the lifespan of IT equipment and promote responsible disposal and recycling practices, including the design of devices for easy disassembly and recycling.

This approach helps organizations achieve sustainability goals while strengthening cybersecurity strategies.

Green Cybersecurity Strategies are about making digital security practices environmentally responsible To further illustrate, consider that traditional cybersecurity focuses solely on threat mitigation and data protection, without considering environmental consequences. Green Cybersecurity Strategies, in contrast, integrate environmental responsibility into the core principles of security planning and implementation. This integration is not simply about adding "green" initiatives; it is about fundamentally rethinking how we approach cybersecurity to ensure it is aligned with broader sustainability goals.

The growing importance of Green Cybersecurity Strategies is driven by several converging factors.

First, the growing climate crisis requires urgent action across all sectors, and the technology industry, including cybersecurity, is a significant energy consumer.

Second, organizations are increasingly under pressure from stakeholders → investors, customers, and employees to demonstrate environmental responsibility.

This pressure is becoming a business imperative to adopt sustainable practices, including cybersecurity.

Third, resource scarcity and rising energy costs make energy efficiency not only environmentally sound but also economically prudent. Therefore, adopting Green Cybersecurity Strategies is not only ethically sound; it also makes good business sense.

Environmental Responsibility → The most fundamental reason is the ethical obligation to reduce our environmental impact. While cybersecurity is vital, it should not come at the expense of the planet.

Stakeholder Pressure → Investors and customers are increasingly prioritizing sustainability, making green practices a matter of competitive advantage and corporate reputation.

Economic Prudence → Energy efficiency and resource optimization can lead to significant cost savings in the long run, making green cybersecurity financially viable.

The specification of Green Cybersecurity Strategies does not compromise on security; it is about achieving robust security in a more resource-efficient and environmentally conscious way. It is also about finding innovative solutions that increase digital resilience and reduce environmental impact. This requires a change in mindset and a willingness to embrace new technologies and practices that prioritize sustainability alongside security effectiveness [3].

In this context, the term "green" is not just symbolic; it represents a serious commitment to reducing the environmental footprint of the digital world.

When companies design their IT security systems with energy efficiency in mind, they create a more sustainable digital infrastructure without compromising protection. The key performance indicator in this approach is energy consumption per gigabit (Gbit) of data throughput in next-generation security gateways. By optimizing this metric, organizations can reduce their environmental impact while maintaining effective security controls.

A green approach to cybersecurity in education combines energy-efficient, sustainable technology with robust digital security. It optimizes energy consumption (e.g., green gateways) while employing Zero Trust architectures and educational initiatives to secure data. This reduces operational costs, reduces the environmental impact, and builds a resilient, sustainable, and secure learning environment

Key Components of Green Cybersecurity in Education. Energy-Efficient Infrastructure: Utilizing modern, energy-conscious security gateways and optimizing network performance to reduce energy consumption per gigabit (Gbit) of data throughput.

Asset Management and Lifecycle: Regularly updating software to extend the lifespan of hardware and disposing of devices in an eco-friendly manner.

Sustainable Digital Practices: Encouraging the removal of unnecessary files and emails to conserve storage energy and switching to cloud-based systems for less carbon-intensive data storage.

Virtualization: Adopting virtual laboratories and cloud tools, which decrease the need for physical, power-consuming hardware.

Strategic Benefits

Improved Security Posture: A Check Point Blog post notes that using AI-driven tools reduces the energy and time needed for manual security checks, while strengthening overall defenses.

Reduced Operational Costs: Energy-efficient technology reduces electricity consumption in data centers and IT labs.

Enhanced Education: Using gamified learning, such as cyber challenges and puzzles, boosts student engagement and skill development.

Implementation Strategies:

Shared Responsibility: Encouraging staff and students to turn off devices to conserve energy and reduce the attack surface.

Curriculum Integration: Teaching cyber safety and green IT concepts, using tools like Scratch for younger students.

Strategic Educational Approaches: A ResearchGate study suggests implementing hands-on exercises and crime script analysis to address the cybersecurity workforce skills gap.

Holistic Systems Approach: According to a ITU paper, educational institutions should integrate cybersecurity into the overall infrastructure design.

Key Organizations and Frameworks

ResearchGate (Strategic Approaches to Cybersecurity Learning): Focuses on innovative teaching methods.

International Telecommunication Union (ITU): Focuses on building sustainable digital societies.

ScienceDirect (Cybersecurity Activities for Education): Offers curriculum design for schools.

Check Point Blog (Green IT Approach): Highlights energy-efficient security technology.

Key Action Items for EducationImplement multi-factor authentication. Adopt a Zero Trust model ("Trust Nothing, Trust Nobody"). Train students in cybersecurity, starting from an early age. Use MOOCs for flexible learning.

Apply gamification for better engagement. This integrated approach ensures that schools, universities, and colleges are not only secure from digital threats but are also contributing positively to environmental sustainability.

The result of the study: Green cybersecurity is an essential aspect of modern IT practices, with far-reaching implications for both the environment and the global economy. By adopting eco-friendly strategies businesses can safeguard their digital assets while contributing to a more sustainable future. Reducing cybersecurity risks not only protects us, but also the planet.

Keywords: green approach, Azerbaijan, Cybersecurity, concept

REFERENCES

1.https://secove-project.eu/es/
2.https://www.google.com/url
3.https://blog.checkpoint.com ›
4.https://ctomagazine.com

MÜASİR SUVARMA SİSTEMLƏRİ VƏ ONLARIN KƏND TƏSƏRRÜFATINDA ROLU

Şəlalə Məmmədova
memmedovashaly@gmail.com
İmmi Əliyeva
i.aliyeva@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Kənd təsərrüfatı istehsalının əsasını təşkil edən amillərdən biri su ehtiyatları və onların düzgün idarə olunmasıdır. Bitkilərin normal inkişafı, məhsuldarlığın yüksəldilməsi və keyfiyyətli məhsul əldə edilməsi üçün suvarma mühüm rol oynayır. Müasir dövrdə iqlim dəyişiklikləri, su ehtiyatlarının azalması və əhali sayının artması kənd təsərrüfatında suyun daha səmərəli istifadəsini zəruri edir. Bu baxımdan ənənəvi suvarma üsulları ilə yanaşı, müasir suvarma texnologiyalarının tətbiqi getdikcə daha çox aktuallıq qazanır.

Suvarma sistemlərinin inkişafı yalnız məhsuldarlığın artırılması ilə məhdudlaşmır, eyni zamanda torpağın münbitliyinin qorunması, eroziyanın qarşısının alınması və resursların optimallaşdırılması baxımından da mühim əhəmiyyət daşıyır. Bu səbəbdən müasir suvarma sistemlərinin öyrənilməsi və tətbiqi kənd təsərrüfatının davamlı inkişafı üçün əsas istiqamətlərdən biridir. Suvarma kənd təsərrüfatında bitkilərin həyat fəaliyyətini təmin edən əsas amillərdən biridir. Bitkilərin fotosintez prosesi, qida maddələrinin torpaqdan mənimsənilməsi və hüceyrə strukturlarının formalaşması birbaşa su ilə

bağlıdır. Su çatışmazlığı bitkilərdə stress yaradır, böyüməni zəiflədir və nəticədə məhsuldarlığın azalmasına səbəb olur. Ağıllı suvarma sistemləri kənd təsərrüfatı təcrübələrini daha davamlı edir, bu sistem hər iki problemi eyni vaxtda həll edir, kənd təsərrüfatında sudan istifadəni optimallaşdırır və su ehtiyatlarından daha səmərəli istifadəni təmin edir. Müasir suvarma "Damcı", "Yağmurlama", "Pivot", "Ağıllı suvarma" sistemləri daxildir.[1]

Damcı suvarma sistemi sahəyə verilən suyun damcı xətləri vasitəsilə birbaşa bitkinin kök zonasına çatdırıldığı bir suvarma üsuludur. Digər suvarma üsulları ilə müqayisədə bu sistem daha az elektrik mühərriki gücü tələb edir, enerji itkisini, buxarlanmanı və səth axınını minimum endirir. Bu, suya və gübrəyə qənaət , eləcə də suvarma prosesinin daha səmərəli aparılması ilə nəticələnir. Bu suvarma sistemi kök zonasına su və qida maddələrini lazımi vaxtda və lazımi miqdarda çatdırmaqla hər bir bitkinin optimal inkişafını təmin edir. Hər bir bitki onun sağlam şəkildə inkişaf etməsinə imkan verən lazımi mühit və resursları alır. Damcı suvarma bitkilərin suya olan tələbatını ödəməklə yanaşı, onları gübrə ilə təmin edir. Bu, həm su, həm də gübrədən istifadənin səmərəliliyini artırır, kənd təsərrüfatını daha davamlı edir. Damcı suvarma sisteminin əsas üstünlüyü onun təzyiqlə tənzimlənən damcılardan istifadə etməklə suyun bütün ərazi üzrə vahid paylanmasıdır.[2]

Yağmurlama suvarma sistemi suyun xüsusi mexaniki qurğular vasitəsilə bitkilərin üzərinə yağış şəklində verilməsinə əsaslanır. Bu sistemin iş prinsipi ondan ibarətdir ki, su təzyiq altında borular vasitəsilə sahəyə ötürülür və xüsusi başlıqlar vasitəsilə xırda damcılar şəklində bitkilərin üzərinə səpilir. Bu zaman su yalnız torpağı deyil, həm də bitkinin yarpaq və gövdə hissəsini nəmləndirir. Yağmurlama suvarma sisteminin əsas üstünlüklərindən biri suyun sahə üzrə bərabər paylanmasıdır.[3]

Pivot suvarma sistemi müasir kənd təsərrüfatında geniş istifadə olunan və əsasən iri təsərrüfatlar üçün nəzərdə tutulmuş mexanikləşdirilmiş suvarma sistemidir. Bu sistem dairəvi hərəkət prinsipinə əsaslanır və sahəni mərkəzi bir nöqtə ətrafında suvarır. Ənənəvi yerüstü suvarma üsulları ilə müqayisədə onlar sudan daha səmərəli istifadə etməklə yanaşı, həm də enerji və əməyə əhəmiyyətli dərəcədə qənaət edirlər. Sistemin ən böyük üstünlüyü geniş əkin sahələrinin avtomatlaşdırılmış şəkildə suvarılmasıdır. Pivot sistemi minimum insan müdaxiləsi ilə işləyir və bu da əmək xərclərini əhəmiyyətli dərəcədə azaldır. Sistem suyun bərabər paylanmasını təmin edir və bitkilərin eyni səviyyədə inkişafına şərait yaradır. Pivot suvarma sistemi yavaş hərəkət etdikdə sahəyə daha çox su düşür, sürət artırıldıqda isə su miqdarı azalır beləliklə sistem suyun bərabər paylanmasını təmin edir və bitkilərin eyni səviyyədə inkişafına şərait yaradır.[4]

Yeraltı damcı suyu birbaşa bitkinin kök zonasına çatdıran müasir suvarma üsuludur. Damcı suvarma boruları torpağın bir neçə santimetr altına çəkilərək səthin buxarlanmasının qarşısını alır. Bu, suyu birbaşa kök zonasına çatdıraraq suvarma səmərəliliyini artırır. Ənənəvi suvarma üsulları ilə müqayisədə yeraltı damcı suvarma 30-50% suya qənaət edir. Su itkisinin minimum endirilməsi xüsusu ilə su ehtiyatları məhdud olan bölgələrdə əhəmiyyətli bir üstünlükdür. Bundan əlavə, bitkilərin ehtiyac duyduğu suyun birbaşa kök zonasına çatdırılması daha sağlam və məhsuldar böyümə mühiti yaradır.[5]

Müasir suvarma sistemləri kənd təsərrüfatında yalnız suyun bitkilərə çatdırılmasını deyil, həm də resursların qorunmasını, məhsuldarlığın artmasını və fermerlərin iqtisadi sabitliyini təmin edən əsas texnoloji yeniliklərdən biridir. Bu sistemlərin tətbiqi kənd təsərrüfatının davamlı inkişafı üçün strateji əhəmiyyət daşıyır. İqlim dəyişiklikləri fonunda müasir sistemlər torpağın rütubətini sensorlarla izləyərək yalnız lazım olan miqdarda su verir, bu da quraqlıq və su çatışmazlığı şəraitində belə sabit suvarmanı təmin edir. Avtomatlaşdırılmış idarəetmə işçi qüvvəsinə olan ehtiyacı azaldır, enerji və su sərfiyyatını

minimuma endirir, məhsulun bazar dəyərini yüksəldir və fermerlərin gəlirini artırır. Beləliklə, müasir suvarma texnologiyalarının geniş tətbiqi kənd təsərrüfatını daha dayanıqlı, məhsuldar və ekoloji baxımdan sağlam edir, həm bugünkü ehtiyacları qarşılayır, həm də gələcək nəsillər üçün davamlı kənd təsərrüfatı modelinin qurulmasına şərait yaradır.

ƏDƏBİYYAT

1. Drip irrigation handbook. Netafim. Israel, 2015
2. https://esular.com
3. https://suvarma.az/
4. https://www.agriculture-xprt.com
5. https://www.microdrips.com

MODERN İRRİGATİON SYSTEMS AND THEİR ROLE İN AGRİCULTURE

Shalala Mammadova
memmedovashaly@gmail.com
Immi Aliyeva
i.aliyeva@atu.edu.az
Azerbaijan Technological University

Irrigation is one of the main factors ensuring the life of plants in agriculture. The process of photosynthesis of plants, the absorption of nutrients from the soil and the formation of cell structures are directly related to water. Water shortage causes stress in plants, weakens growth and, as a result, leads to a decrease in productivity. Smart irrigation systems make agricultural practices more sustainable, this system solves both problems at the same time, optimizes water use in agriculture and ensures more efficient use of water resources. Modern irrigation includes "Drip", "Sprinkler", "Pivot", "Smart Irrigation" systems.

Keywords: Agriculture, drip irrigation, sprinkler irrigation, pivot irrigation, smart irrigation

QƏBƏLƏ RAYONU ÜÇÜN KARBON AYAQ İZİNİN HESABLANMASI

Firəngiz Əfəndiyeva
afandifrngiz@gmail.com
İmmi Əliyeva
i.aliyeva@atu.edu.az
Azərbaycan Texnologiya Univerisiteti

Karbon izi, insanın həyat tərzi və fəaliyyəti nəticəsində birbaşa və ya dolayı yolla ətraf mühitə atılan istixana qazlarının ümumi miqdarını təmsil edir. Bu iz adətən ildə atılan tonlarla karbon qazı ilə ifadə olunur. Bu şəkildə təkcə bir fərdin deyil, həm də bir təşkilatın, məhsulun və ya istehsalçının karbon izini hesablamaq mümkündür. Məhsulun montaj xəttində istehsalından istehlakçıya çatana qədər atdığı istixana qazlarının miqdarı həmin məhsulun karbon izi kimi müəyyən edilir. Karbon ayaq izini hesablamaq üçün aşağıdakı düsturdan isdifadə edilir: [4]

$$CF = \left(A_{nəqliyyat} \times EF_{nəqliyyat}\right) + \left(A_{su} \times EF_{su}\right) + \left(A_{tullantı} \times EF_{tullantı}\right)$$

Burada:
CF (Carbon footprint) – ümumi karbon ayaq izi (adətən ton CO_2 ekvivalentlə ölçülür);
A_i (Activity data)–fəaliyyət göstəricisi (məsələn: yanacaq sərfi, su istehlakı, tullantı həcmi və s.); EF_i (Emission factor) – emissiya faktoru (hər fəaliyyət vahidinə düşən CO_2 miqdarı);
n – emissiya mənbələrinin sayı [1]

Qəbələ rayonu üçün sənaye sahələrinin ətraf mühitə təsirini qiymətləndirərkən karbon ayaq izinin hesablanması regionun ekoloji qiymətləndirilməsində mühüm rol oynayır (C. 1).

Cədvəl 1. Qəbələ rayonu üçün CO_2 miqdarı

Fəaliyyət sahələri	CO_2 (min ton)
Nəqliyyat	2.3
Su	13.86
Tullantı	6.9
Stasionar mənbələr	0.3
Çirkab sular	0.35

Buradan ərazi üçün ümumi karbon emissiyası:

$$2.3+0.3+13.86+0.35+6.9=23.71 \text{ min ton } CO_2$$

Hesablamalara əsasən Qəbələ rayonu üzrə ümumi karbon ayaq izi 23.71 min ton CO_2 təşkil edir. Bu nəticə göstərir ki, ərazidə emissiyaların formalaşmasında əsas pay müxtəlif sektorlar üzrə qeyri-bərabər bölüşdürülmüşdür və xüsusilə nəqliyyat və su istehlakı üstünlük təşkil edir.

Hesablamadan görünür ki, karbon emissiyalarının ən böyük hissəsi nəqliyyat sektorunun payına düşür (2.3 min ton CO_2), bu isə rayon ərazisində avtomobil sayının artması, yük və sərnişin daşımalarının intensivləşməsi ilə izah olunur. Bununla yanaşı, su istehlakı ilə bağlı emissiyalar (13.86 min ton CO_2) ümumi karbon ayaq izində mühüm yer tutur. Bu hal suyun çıxarılması, daşınması və istifadəsi zamanı enerji sərfiyyatı ilə əlaqədardır və xüsusilə kənd təsərrüfatı və suvarma fəaliyyətlərinin geniş olması ilə bağlıdır.

Tullantıların idarə olunması sektoru (6.9 min ton CO_2) da əhəmiyyətli emissiya mənbəyidir. Məişət tullantılarının həcminin artması onların parçalanması zamanı metan və digər istixana qazlarının yaranmasına səbəb olur ki, bu da karbon ekvivalentində yüksək göstərici yaradır. Digər tərəfdən, stasionar mənbələrin emissiyası (0.3 min ton CO_2) və çirkab suların təsiri (0.35 min ton CO_2) ümumi balansda nisbətən aşağı paya malikdir.[3]

Ümumilikdə, əldə olunan nəticələr göstərir ki, Qəbələ rayonunda karbon ayaq izinin formalaşmasında əsas determinantlar nəqliyyat sistemi, su resurslarının istifadəsi və tullantıların idarə olunmasıdır. Bu isə aşağı karbonlu inkişaf strategiyalarının hazırlanmasında xüsusilə nəqliyyatın optimallaşdırılması, su resurslarının səmərəli istifadəsi və tullantıların təkrar emalının genişləndirilməsi kimi tədbirlərin prioritet olduğunu göstərir.[2]

ƏDƏBİYYAT

1. Azərbaycan Respubilkası Ekologiya və Təbii Sərvətlər Nazirliyi - https://eco.gov.az/az
2. Azərbaycan Respublikası Qəbələ Rayon İcra Hakimiyyəti - https://qebele-ih.gov.az/page/13.html
3. Stat.gov.az - https://www.stat.gov.az/
4. Climate variability and change- https://en.wikipedia.org/wiki/Climate_variability_and_change

CARBON FOOTPRİNT CALCULATİON FOR GABALA REGİON

Firangiz Efendiyeva
afandifrngiz@gmail.com
Immi Aliyeva
i.aliyeva@atu.edu.az
Azerbaijan Technological University

The annual carbon footprint for the Gabala district was calculated at 33.71 thousand tons of CO_2 equivalent using a specific methodology. The study indicates that the primary emission sources are the transport**,** water consumption, and waste management sectors. Specifically, the intensification of transport and energy-intensive irrigation activities in agriculture are key factors increasing the carbon load. To reduce environmental pressure, optimizing transport and efficient resource management in the region is essential. These findings serve as baseline indicators for the district's low-carbon development strategy.

Keywords: water consumption, waste management , optimizing transport, efficient resource management

REGİONAL İNKİŞAF BAXIMINDAN ALTERNATİV ENERJİ MƏNBƏLƏRİNİN FORMALAŞMASININ TƏDQİQİ

Gülsurə Yusif qızı Mehdiyeva
gulsura@list.ru
Gülşən Fazil qızı Axundova
gulsenaxundova2023@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Giriş. Alternativ enerji mənbələrinin inkişafı müasir dövrdə qlobal və regional səviyyədə mühüm mövzuya çevrilmişdir. Fosil yanacaqlara olan yüksək asılılıq enerji təhlükəsizliyi və ekoloji problemlər yaradır. Bu səbəbdən bərpa olunan enerji mənbələrinə yönələn investisiyalar artır. Alternativ enerji təmiz, davamlı və təbiətdən asılı olan enerji növlərini əhatə edir. Günəş enerjisi, külək enerjisi, biokütlə, hidroenerji və geotermal enerji bu sahənin əsas komponentləridir. Hər bir enerji növü özünəməxsus üstünlüklərə və regional tətbiq imkanlarına malikdir. Alternativ enerji layihələrinin həyata keçirilməsi yerli iqtisadiyyatın inkişafına töhfə verir.


Mövzunun aktuallığı: Alternativ enerji mənbələrinin inkişafı müasir dövrdə aktual mövzulardan biridir. Dünya əhalisinin artması enerji tələbatını sürətlə artırır. Fosil yanacaqlara olan yüksək asılılıq ölkələrin enerji təhlükəsizliyini riskə atır. Eyni zamanda, fosil yanacaqların istifadə edilməsi ekoloji problemləri dərinləşdirir. Karbon qazlarının emissiyası iqlim dəyişikliyinə səbəb olur. Bu səbəbdən bərpa olunan enerji mənbələrinə yönələn diqqət artmaqdadır. Alternativ enerji ekoloji cəhətdən təmizdir və davamlıdır. Regionlarda enerji təminatının şaxələndirilməsi sosial-iqtisadi inkişaf üçün vacibdir. Günəş və külək enerjisi kimi mənbələr bölgələrə əlavə iqtisadi potensial qazandırır. Biokütlə və hidroenerji kənd təsərrüfatı və sənaye sahələrinə yeni imkanlar təqdim edir. Alternativ enerji layihələri iş yerlərinin yaradılmasına kömək edir. Yerli icmaların enerji resurslarından faydalanması regionların inkişafını sürətləndirir. Texnoloji yeniliklərin tətbiqi enerji səmərəliliyini artırır. Dövlət siyasəti və subsidiyalar sahənin inkişafını dəstəkləyir. Alternativ enerji investisiyaları regional iqtisadiyyata töhfə verir. Bu sahədə təhsil və kadr hazırlığı uzunmüddətli perspektivi təmin edir. Alternativ enerji iqlim dəyişikliyi ilə mübarizədə mühüm alət kimi çıxış edir.

Tədqiqatın məqsədi. Tədqiqatın məqsədi regional inkişaf baxımından alternativ enerji mənbələrinin formalaşmasını və tətbiq imkanlarını araşdırmaqdır.

Tədqiqat metodları. Tədqiqat metodları kimi analitik təhlil, statistik məlumatların öyrənilməsi və sahə üzrə müqayisəli araşdırmalar istifadə olunmuşdur.

Materiallar və müzakirələr: Alternativ enerji mənbələrinin regional inkişafda rolu geniş şəkildə araşdırılmışdır. Bu sahədə əsas materiallar günəş, külək, biokütlə, hidro və geotermal enerji ilə bağlı məlumatları əhatə edir. Günəş enerjisi üçün fotovoltaik panellər və günəş kollektorları əsas avadanlıqlardır. Günəş enerjisinin potensialı ölkənin cənub bölgələrində daha yüksəkdir. Külək enerjisi üçün turbinlər və generatorlar əsas texniki vasitələrdir. Dəniz sahilləri və yüksək relyefli ərazilər külək enerjisi üçün əlverişlidir. Biokütlə enerjisi üçün kənd təsərrüfatı tullantıları, ağac qalıqları və sənaye tullantıları istifadə olunur. Bu enerji növü kənd təsərrüfatı və kiçik sənaye sahələrinə əlavə gəlir gətirir. Hidroenerji üçün su anbarları və kiçik hidroelektrik stansiyalar qurulur. Su ehtiyatlarının bolluğu hidroenerjinin səmərəli istifadəsini təmin edir. Geotermal enerji vulkanik və termal sahələrdə tətbiq olunur. Bu enerji növü dayanıqlı və ekoloji cəhətdən təmizdir.

Alternativ enerji layihələri yerli iş yerlərinin yaradılmasına töhfə verir. Eyni zamanda, texnoloji inkişafın sürətlənməsinə imkan yaradır. Enerji layihələrinin maliyyələşdirilməsi həm dövlət, həm də özəl sektor tərəfindən həyata keçirilir. Subsidiyalar və vergi güzəştləri sahənin inkişafını stimullaşdırır. Yerli icmaların layihələrdə iştirakı uğurun təminatıdır. Alternativ enerji istehsalı bölgələr arasında iqtisadi balansı gücləndirir. Elektrik enerjisinin şaxələndirilməsi sənaye və kənd təsərrüfatı üçün vacibdir. Enerji layihələri yerli biznes sektorunu stimullaşdırır. Texnoloji innovasiyalar enerji səmərəliliyini artırır. Enerji təchizatının davamlılığı sosial rifahı yüksəldir. Layihələrin planlaşdırılması zamanı ekoloji tələblər nəzərə alınmalıdır.



Bu qrafik göstərir ki, hər bir alternativ enerji növü regional inkişafın müxtəlif sahələrinə (iqtisadiyyat, məşğulluq, infrastruktur və s.) təsir edir.

Nəticə: Araşdırma göstərir ki, alternativ enerji mənbələri regional inkişaf üçün strateji əhəmiyyətə malikdir. Bu enerji növləri fosil yanacaqlara olan asılılığı azaldır və enerji təhlükəsizliyini təmin edir. Günəş və külək enerjisi bölgələrdə əlavə iqtisadi imkanlar yaradır. Biokütlə və hidroenerji kənd təsərrüfatı və sənaye sahələrinə əlavə resurs təqdim edir. Alternativ enerji layihələri iş yerlərinin yaradılmasına töhfə verir. Texnoloji inkişaf sahənin səmərəliliyini artırır və innovativ həlləri təşviq edir. Layihələrin maliyyələşdirilməsi dövlət və özəl sektor tərəfindən dəstəklənir. Yerli icmaların iştirakı layihələrin uğurunu təmin edir.

Tədqiqat işinin yeniliyi. Tədqiqat işinin yeniliyi ondadır ki, regional inkişaf kontekstində alternativ enerji mənbələrinin formalaşması və tətbiq imkanları sistemli şəkildə analiz edilmişdir.

Tədqiqat işinin tətbiqi əhəmiyyəti. Tədqiqat işinin tətbiqi əhəmiyyəti ondadır ki, alternativ enerji layihələrinin regional iqtisadiyyat və sosial inkişaf üçün potensialını müəyyən edir. Eyni zamanda, iş enerji siyasətinin planlaşdırılması və yerli icmaların layihələrdə iştirakını təşviq etmək üçün praktik tövsiyələr təqdim edir.

Tədqiqat işinin iqtisadi səmərisi. Tədqiqat işinin iqtisadi səmərəsi ondadır ki, alternativ enerji mənbələrinin istifadəsi yerli iqtisadiyyata əlavə gəlir və yeni iş yerlərinin

yaranmasını təmin edir. Bu, həmçinin enerji asılılığının azalması və resursların səmərəli istifadəsi ilə regionların davamlı inkişafını dəstəkləyir.

ƏDƏBİYYAT

1. Əliyev, R. "Alternativ enerji mənbələri və onların regional inkişafda rolu." Bakı, 2020.
2. Həsənov, T. "Günəş və külək enerjisinin iqtisadi potensialı." Bakı, 2019.
3. Məmmədova, L. "Bərpa olunan enerji və ətraf mühitin qorunması." Bakı, 2021.
4. Quliyev, S. "Regional inkişaf və enerji siyasəti." Bakı, 2018.

STUDY OF THE FORMATION OF ALTERNATIVE ENERGY SOURCES FROM THE PERSPECTIVE OF REGIONAL DEVELOPMENT

Gulsura Yusif Mehdiyeva
gulsura@list.ru
Gulshan Fazil Akhundova
gulsenaxundova2023@gmail.com
Azerbaijan Technological University

The formation of alternative energy sources from the perspective of regional development has acquired strategic importance in the modern era. These sources reduce dependence on fossil fuels and ensure energy security. Among the types of alternative energy, solar, wind, biomass, and hydropower occupy a significant place. The geographical and climatic characteristics of each territory play a crucial role in determining its energy potential.

Certain regions of Azerbaijan possess favorable conditions for the use of solar energy. Wind energy is most effective in coastal zones and areas with high relief. In biomass energy production, agricultural waste can be utilized. Hydropower is applied in regions rich in water resources.

Alternative energy projects bring additional income to the local economy and contribute to job creation.

Keywords: alternative energy, energy, regional development

ASSESSMENT OF INDUSTRIAL WASTE MANAGEMENT AND ITS IMPACT ON HUMAN HEALTH

Gulnare Asadova[1]
g.asadova@atu.edu.az
Gulay İsmayilova[2]
Yegane Aliyeva[2]
Fikrat Amiraslanov[1]
Azerbaijan Technological University[1]
Ganja State University[2]

Industrial waste is an inevitable byproduct of production activities, and its effective management is crucial for both environmental protection and economic development. This study examines the current state of industrial waste in the Baku economic region of Azerbaijan, highlighting the types, volumes, and environmental impacts associated with industrial activities. The region, as the country's largest industrial center, faces significant challenges related to waste generation from energy, petrochemical, metallurgy, and food processing sectors. Rapid industrial growth has increased pressures on soil, water, and air quality, posing risks to human health.

In countries like Azerbaijan, where the oil industry has developed intensively, issues related to the type, volume, processing, and disposal of industrial waste vary significantly from region to region. The aim of this study is to assess the current state of industrial waste in different economic-geographical regions of Azerbaijan, identify existing problems, and propose potential solutions for future implementation. [1, 3]

Although industrialization is one of the main driving forces of economic growth, it is accompanied by increased environmental pressure. The Baku economic region plays a leading role in shaping the national economy. In particular, the historical development of the oil industry has led to the formation of industrial zones in Baku and the surrounding areas of the Caspian Sea. The analysis shows that industrial waste remains a significant environmental safety issue in the Baku economic region. [2, 5]

To ensure sustainable development, the following measures are considered appropriate:

1. Increasing the recycling potential of industrial waste;
2. Implementing modern filtration and wastewater treatment facilities;
3. Strengthening environmental audit and monitoring systems;
4. Integrating circular economy principles and green technologies into industrial policy;
5. Expanding public oversight and awareness initiatives.

Thus, effective industrial waste management is a key condition for maintaining a balance between economic development and environmental safety and can ensure the long-term sustainable development of the region.

Abstract: Industrial waste is an inevitable byproduct of production activities, and its effective management is crucial for both environmental protection and economic development. This study examines the current state of industrial waste in the Baku economic region of Azerbaijan, highlighting the types, volumes, and environmental impacts associated with industrial activities. The region, as the country's largest industrial center, faces significant challenges related to waste generation from energy, petrochemical, metallurgy, and food processing sectors. Rapid industrial growth has increased pressures on soil, water, and air quality, posing risks to human health.

Keywords: Industrial waste, waste management, environmental safety, human health, pollution, sustainable development

REFERENCES

1. Əliyev, R. (2020). Sənaye tullantılarının idarə olunması və ekoloji təhlükəsizlik. Bakı: Təhsil nəşriyyatı.
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Sənaye və ətraf mühit üzrə statistik göstəricilər. Bakı.
3. Asadova G., Amiraslanov F., Mammadova Ye., Mammadov Kh., 2025 №69, pp. 3-6. Monitoring spatial changes in water resources with CİS DOİ: https://doi.org/10.5281/zenodo.17046545
4. Asadova G., Iskandarova T., Aliyeva Ye., Mahmudov S., Amiraslanov F. No 162 (2025). pp. 8-13. Monitoring the impact of climate change on local ecosystems. DOI: 10.5281/zenodo.15621839 The-scientific-heritage-No-162-162-2025.pdf
5. Асадова Г.А., Алиева Е.Д., Исмаилова А.Б. "Оцениван эко-географических условий земель Азербайджана". Международный научный журнал «ВЕСТНИК НАУКИ» № 4 (85) Том 3. АПРЕЛЬ 2025 г. 1123 – 1127 вестник- науки.рф/archiv/journal-4 -85 - 3.pdf#page=1123. journal-4-85-3.pdf

MƏSAFƏDƏN ZONDLAMA MƏLUMATLARININ TƏTBİQ SAHƏLƏRİ

Sevil Hüseyn Hüseynova
huseynova-1965@mail.ru
Azərbaycan Texnologiya Universiteti

Müasir dövrdə informasiya texnologiyalarının sürətli inkişafı müxtəlif elmi sahələrdə yeni metod və yanaşmaların yaranmasına səbəb olmuşdur. Bu baxımdan məsafədən zondlama texnologiyası Yer səthi və onun komponentləri haqqında operativ, dəqiq və geniş miqyaslı məlumatların əldə edilməsində mühüm rol oynayır. Məsafədən zondlama dedikdə, obyekt və ya hadisələr haqqında birbaşa təmas olmadan, əsasən peyk və ya hava platformaları vasitəsilə məlumatların toplanması nəzərdə tutulur [1].

Məsafədən zondlama məlumatlarının ən geniş istifadə sahələrindən biri kənd təsərrüfatıdır. Peyk şəkilləri vasitəsilə torpaq örtüyünün vəziyyəti, bitki inkişaf mərhələləri, suvarma ehtiyacları və məhsuldarlıq səviyyəsi haqqında məlumat əldə etmək mümkündür. Fermerlər bu məlumatlardan istifadə edərək əkin sahələrinin idarə olunmasını optimallaşdırır, gübrə və su ehtiyatlarından daha səmərəli istifadə edirlər [2]. Bundan əlavə, xəstəlik və zərərvericilərin erkən mərhələdə aşkar edilməsi də məsafədən zondlama vasitəsilə mümkün olur.

Ekologiya və ətraf mühitin mühafizəsi sahəsində də məsafədən zondlama mühüm rol oynayır. Meşələrin məhv edilməsi, torpaq eroziyası, səhralaşma və su ehtiyatlarının azalması kimi problemlər peyk məlumatları əsasında izlənilə bilər. Xüsusilə iqlim dəyişikliklərinin təsirlərinin qiymətləndirilməsi üçün uzun müddətli peyk müşahidələri böyük əhəmiyyət kəsb edir [3]. Bu məlumatlar ekoloji monitorinq sistemlərinin qurulmasında və təbii resursların davamlı idarə olunmasında istifadə olunur.

Geologiya və faydalı qazıntıların axtarışı sahəsində məsafədən zondlama texnologiyası yeni imkanlar açır. Müxtəlif spektral diapazonlarda əldə olunan məlumatlar vasitəsilə yeraltı strukturların xüsusiyyətləri müəyyən edilə bilər. Bu isə neft, qaz və digər mineral resursların axtarışını daha effektiv edir. Eyni zamanda, zəlzələ, sürüşmə və digər təbii fəlakətlərin risklərinin qiymətləndirilməsində də məsafədən zondlama mühüm vasitə kimi çıxış edir [4].

Şəhərsalma və infrastrukturun planlaşdırılması sahəsində də məsafədən zondlama geniş istifadə olunur. Şəhərlərin genişlənməsi, torpaq istifadəsinin dəyişməsi və nəqliyyat şəbəkələrinin inkişafı peyk şəkilləri vasitəsilə analiz edilir. Bu məlumatlar urbanizasiya proseslərinin idarə olunmasına və dayanıqlı şəhər inkişafının təmin olunmasına kömək edir. Həmçinin, fövqəladə halların idarə olunmasında – məsələn, sel, yanğın və zəlzələ zamanı – operativ məlumatların əldə edilməsi üçün məsafədən zondlama əvəzsizdir [1].

Meteorologiya sahəsində məsafədən zondlama hava şəraitinin proqnozlaşdırılmasında mühüm rol oynayır. Peyklər vasitəsilə bulud örtüyü, temperatur, rütubət və külək sürəti kimi göstəricilər davamlı olaraq izlənilir. Bu məlumatlar hava proqnozlarının daha dəqiq hazırlanmasına və təbii fəlakətlərin əvvəlcədən xəbərdar edilməsinə imkan yaradır [2].

Su ehtiyatlarının idarə olunması da məsafədən zondlama məlumatlarının tətbiq olunduğu vacib sahələrdəndir. Çayların, göllərin və su anbarlarının səviyyəsi, suyun keyfiyyəti və dəyişiklik dinamikası peyk müşahidələri vasitəsilə izlənilir. Bu məlumatlar su resurslarının səmərəli istifadəsinə və su çatışmazlığı problemlərinin həllinə kömək edir [3].

Nəticə etibarilə, məsafədən zondlama texnologiyası müxtəlif sahələrdə geniş tətbiq imkanlarına malikdir və müasir elmin ayrılmaz hissəsinə çevrilmişdir. Bu texnologiya sayəsində əldə olunan məlumatlar qərar qəbuletmə proseslərini daha əsaslı və effektiv

edir. Gələcəkdə texnologiyanın daha da inkişaf etməsi ilə məsafədən zondlamanın tətbiq sahələrinin genişlənəcəyi və daha innovativ həllərin ortaya çıxacağı gözlənilir. Məsafədən zondlamanın tətbiq sahələri mühüm ekoloji əhəmiyyət daşıyır.

Cədvəl 1. Məsafədən zondlamanın əsas tətbiq sahələri və istifadə istiqamətləri

Sıra №	Tətbiq sahəsi	İstifadə istiqamətləri
1	Kənd təsərrüfatı	Bitki monitorinqi, məhsuldarlığın qiymətləndirilməsi
2	Ekologiya	Meşələrin izlənməsi, səhralaşma, iqlim dəyişiklikləri
3	Geologiya	Faydalı qazıntıların axtarışı, yeraltı struktur analizi
4	Şəhərsalma	Urbanizasiya, torpaq istifadəsi analizi
5	Meteorologiya	Hava proqnozu, atmosfer müşahidələri
6	Su ehtiyatları	Su səviyyəsinin və keyfiyyətinin monitorinqi

Məsafədən zondlama məlumatları müxtəlif sahələrdə geniş istifadə olunur. Kənd təsərrüfatında bitkilərin inkişafı, məhsuldarlığın qiymətləndirilməsi və suvarma ehtiyacları izlənilir [1], [4]. Ekologiyada meşələrin vəziyyəti, səhralaşma və iqlim dəyişiklikləri müşahidə olunur [4], [7]. Geologiyada faydalı qazıntıların axtarışı və yeraltı strukturların analizi aparılır [3]. Şəhərsalmada torpaq istifadəsi və urbanizasiya prosesləri qiymətləndirilir [2]. Meteorologiyada hava proqnozu və atmosfer göstəriciləri izlənilir [4], [5]. Su ehtiyatları sahəsində çayların, göllərin və su anbarlarının səviyyəsi və keyfiyyəti monitorinq olunur [3].

ƏDƏBİYYAT

1. Mahmudova V. X. Geoinformatika və aqroekoloji məsələlərin həllində məsafədən zondlama metodlarının tətbiqi. Bakı: Adiloğlu 2021. 228 səh.
3. Cəfərov T. İ. Meşə torpaqlarının monitorinqində məsafədən zondlama məlumatlarından istifadə 2025. Elm.134 səh.
4. https://earthobservatory.nasa.gov
5. https://www.esa.int

APPLICATION FIELDS OF REMOTE SENSING DATA

Sevil Hüseyn qızı Hüseynova
huseynova-1965@mail.ru
Azerbaijan Technological University

Remote sensing is a modern technology that allows the collection of information about the Earth's surface without direct contact, mainly through satellites or aerial platforms. It provides timely, accurate, and large-scale data that is widely used in various fields. Remote sensing applications include agriculture, ecology, urban planning, meteorology, and water resources management. This technology plays a vital role in decision-making processes, environmental monitoring, and sustainable resource management.

Keywords: remote sensing, satellite data, GIS (Geographic Information Systems), agriculture, environmental monitoring, climate change, geology, urban planning, meteorology, water resources.

XƏZƏR DƏNİZİNİN ƏSAS ÇİRKLƏNMƏ MƏNBƏLƏRİ VƏ EKOLOJİ PROBLEMLƏRİ

Ləman Valeh qızı Nağıyeva
Nagiyevaleman9@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Ekoloji xarakteristikasına görə Xəzər dənizi çox vaxt digər qapalı hövzələr kimi öyrənilir. Buna səbəb isə Xəzər dənizinin okeana heç bir çıxışının olmamasıdır. Qapalı hövzələrin isə bir sıra problemləri var. Məsələn, təbii resursların kəmiyyətcə tükənməsi, antropogen və torpaqüstü təbii ekosistemlərin tənəzzülü, dəniz mühitininin çirklənməsi və su ekosistemlərinin tənəzzülü. Sonuncu ən böyük problem sayılır. Balıq təsərrüfatı və sanitar toksiki xüsusiyyətləri baxımından Xəzərin durumu hələ Sovetlər Birliyinin sonunda krizis dövrünün başlanğıcı kimi qiymətləndirilirdi. Belə ki, hələ 1992-ci ildən Volqa hövzəsi və Xəzərin sahil zonası "ekoloji fəlakət zonası" adlandırılmışdır.Hazırda Xəzərin ekoloji vəziyyəti olduqca gərgindir. Dənizin şelf zonasında problem daha da kəskinləşmişdir ki, artıq bu ərazilərdə ölü zonalar yaradılmışdır [1].

Xəzər dənizi problemləri içərisində səviyyə tərəddüdü ilə yanaşı,dəniz sularının çirklənməsi və bununla əlaqədar ekoloji şəraitin korlanması son dövrün ən mühüm problemidir. Zəngin təbii sərvətləri və müalicə əhəmiyyəti tarixən onun ətrafında çoxlu sayda insanların məskunlaşmasına səbəb olmuşdur. Xəzər dənizinin əsas çirklənmə mənbələri onun hövzəsində, sahillərində və akvatoriyalarında yerləşən şəhərlərin və sənaye obyektlərinin çirkab sulari, çay və dəniz nəqliyyatından,neft mədənlərindən daxil olan müxtəlif çirkləndiricilərdir. Əgər bu çirkli sular dənizin üst qatında bərabər paylansaydı,onda il ərzində həmin qatın qalınlığı 10-11 sm çatardı. Xəzərin sularının çirklənməsində Volqa, Kür və Ural çayları da az rol oynamır. Tblisi, Rustavi şəhərlərində sənaye müəssisələrinin çirkab suları, həmçinin kənd təsərrüfatında işlədilən müxtəlif toksiki maddələr Kür çayı vasitəsi ilə Xəzərə daxil olur. Bakı, Sumqayıt, Mahaçqala, Həştərxan, Türkmənbaşı, Rəşt, Ənzəli şəhərlərindən dənizə axıdılan çirkab suları onun əsas çirkləndiricilərindən hesab edilir [2].

Dəniz sularının çirklənməsi Xəzərin ekoloji şəraitində böyük gərginliyə səbəb olmuş, onun bir sıra sahil bölgələrində isə ekoloji böhran yaratmışdır.Dənizin ekoloji şəraitinə Volqa,Kür hövzələrində bir sıra sututarların yaradılması da mənfi təsir göstərmişdir. Bu sututarların miqdarının kəskin azalmasına səbəb olmuş, digər tərəfdən bir sıra olduqca qiymətli balıq növlərini ənənəvi kürü tökmək yerlərindən məhrum etmişdir.[1]

Qazaxıstan və Türkmənistanda da Abşeronda olduğu kimi neft-qaz istehsalı mərkəzləri açılıb. Bu regionların ekiloji durumu respublikamız ilə müqayisədə heç də yaxşı deyil. Çünki burada çıxarılan neftin tərkibində merkaptonların miqdarı çox,kükürdlü birləşmələr daha artıqdır. Belə nefti xüsusi yolla təmizləmək lazım gəlir ki, bu da əlavə problemlər və xərc tələb edir. Bu prosesdə ekoloji standartlar mütləq nəzərə alınmalıdır,əks halda Xəzərin bütün akvatoriyası pis hala düşə bilər. Bu çirklənmə mənbələri içərisində birinci yeri Xəzərə axan çaylar vasitəsilə gətirilən çirklənmə tutur. Xəzərətrafı ölkələr arasında dənizin mühafizəsi üçün yekdil saziş olmadığından brakonyerlik vüsət almışdır. Çirklənmənin və brakonyerliyin artması, Xəzərin ətrafında balıqartırma zavodlarının əvvəlki güclə işləməməsi dənizdə bir çox növlərin, xüsusən nərə balığının ehtiyatının tükənməsi problemini yaratmışdır.[2]

Cənubi Xəzərdə çirklənmə dərəcəsinə görə "ölü zona" adlandırılan bir sıra sahələr mövcuddur ki. Bura neft daşları Akvatoriyası, Bakı, Krasnovodsk buxtaları və Çeleken yarımadası sahilləri aiddir. Bakı buxtası əsl neft məhsulları anbarıdır. Burada qrunt 3,5-5-7m dərinlikdə neft məhsulları ilə doymuşdur. Ekoloji böhran sahələri Xəzər dənizində Bakı, Sumqayıt, Mahaçqala, Türkmənbaşı şəhərlərinin akvatoriyaları,istismarda olan dəniz neft yataqları rayonları aid edilir.Xəzər dənizi üçün ən təhlükəli çirklənmə tərkibində zərərli kimyəvi maddələr olan tullantılar ilə çirklənmədir. Bunlardan neft karbohidrogenləri,

karbohidrogenlər, karbonukleidlər və ağır metalları misal göstərmək olar. [2]Məlum mənbələrə əsaslanan hesablamalara görə Xəzərin xvalın epoxasının kəşfindən bəri dənizə 2,5 milyon ton xam neft axmışdır. Dənizdə olduqca çoxlu qəza hadisələri baş verir ki,60-cı illərdə Xəzərin Orta və Cənub şelfində qəza nəticəsində dənizə 4000 ton aylarla mənbədən sönməyən yanğın,fəaliyyətdə olan qrifonlardan 20 min ton qaz-neft kondensatı axmışdır.Şimali Xəzərin çirklənməsi əsasən çay axınları və dənizdəki neft yataqları ilə əlaqədardır. Qazma proseslərində müxtəlif dərəcədə toksikliyə malik olan xüsusi materiallardan və kimyəvi reagentlərdən istifadə olunur, texnoloji tullantılar əmələ gəlir, bütün bunlar Xəzərin flora və faunası üçün müəyyən təhlükə yaradır.

ƏDƏBİYYAT

1. Xəzər dənizinin ekoloji problemləri və çirklənmə mənbələri-hse.az, eco.gov.az
2. N.Ə.Səlimova,B.Ş.Şahpələngova "Mühəndis Ekologiyası" Bakı 2012
3. Məmmədov Qərib,Xəlilov Mahmud "Ekologiya və ətraf mühitin mühafizəsi" Bakı 2005
4. Milli Elmlər Akademiyası "Xəzər dənizinin ekoloji problemləri və çirklənmə mənbələri"-Bakı 2024, https://science.gov.az

MAIN POLLUTION SOURCES AND ENVIRONMENTAL PROBLEMS OF THE CASPIAN SEA

Ləman Valeh qızı Nağıyeva
Nagiyevaleman9@gmail.com
Azerbaijan University of Technology

As a result,the environmental problems of the Caspian Sea should be the focus of attention not only of the region but of the entire world. Marine pollution leads to the decline of marine flora and fauna ,the degradation of coastol ecosystem, the destruction of fisheries and the deterioration of the quality of water resources. Therefore it is important to strengthen cooperation between countries, use modern technologies and increase environmental control to improve the ecological state of the Caspian Sea.Only through joint efforts can the natural balance of the Caspian Sea be preserved and a healthy ecosystem passed on to future generations.

Keywords: Caspian Sea, dirty water, drilling wastewater, poaching, COP29

ЗАГРЯЗНЕНИЕ ОКРУЖАЮЩЕЙ СРЕДЫ: АНАЛИЗ ПРОБЛЕМЫ ЗАГРЯЗНЕНИЯ ПОЧВ

Эмин Гулиев
Гюльшан Намазова
eminguliyev612@gmail.com
Азербайджанский технологический университет

В современных условиях стремительного развития промышленности и сельского хозяйства проблема загрязнения окружающей среды приобретает глобальный характер. Особое место среди экологических проблем занимает загрязнение почв, поскольку почва является важнейшим компонентом биосферы и основой продовольственной безопасности. По данным экологических исследований, значительная часть сельскохозяйственных земель подвергается деградации и загрязнению [1].

Почва выполняет ряд жизненно важных функций: обеспечивает рост растений, участвует в круговороте веществ и служит средой обитания множества организмов. Однако в результате антропогенного воздействия её свойства существенно ухудшаются.

Согласно современным оценкам, ежегодно миллионы гектаров земель теряют свою плодородность вследствие загрязнения и нерационального использования [2].

Это приводит к снижению качества сельскохозяйственной продукции и ухудшению экологической ситуации в целом.

К основным источникам загрязнения почв относятся:

— промышленные отходы;
— сельскохозяйственные химикаты (пестициды, удобрения);
— бытовые отходы и пластик;
— нефтепродукты и тяжёлые металлы.

Промышленная деятельность сопровождается выбросами токсичных веществ, которые накапливаются в почве. В сельском хозяйстве широко применяются химические вещества, способные нарушать естественную структуру почвы.

Особую опасность представляют тяжёлые металлы, такие как свинец, кадмий и ртуть, которые обладают высокой токсичностью и способностью к накоплению в живых организмах [3].

Для снижения уровня загрязнения почв необходимо применение комплексного подхода:

— внедрение экологически безопасных технологий;
— сокращение использования химических удобрений;
— развитие системы переработки отходов;
— усиление экологического контроля со стороны государства;
— повышение экологической культуры населения.

Дополнительно следует развивать международное сотрудничество в области охраны почв, обмениваться передовыми практиками и внедрять инновационные методы мониторинга состояния земель. Важным направлением является экологическое образование, которое формирует ответственное отношение к природе у молодого поколения. Только комплексные меры, объединяющие усилия государства, общества и научного сообщества, способны обеспечить сохранение плодородия почв и устойчивое развитие сельского хозяйства.

ЛИТЕРАТУРЫ

1. FAO. Status of the World's Soil Resources. – 2019.
2. UNEP. Global Environment Outlook. – 2021.
3. Smith J. Soil Pollution and Human Health. – 2020.

ENVIRONMENTAL POLLUTION: ANALYSIS OF THE PROBLEM OF SOIL CONTAMINATION

Emin Guliyev
Gulshan Namazova
eminguliyev612@gmail.com
Azerbaijan Technological University

Soil pollution is a major environmental issue today. Industrial and agricultural growth has led to the loss of soil fertility across millions of hectares. Key sources include industrial waste, chemicals, household plastics, petroleum products, and heavy metals. Solutions require eco-friendly technologies, reduced fertilizer use, waste recycling, stronger regulation, and greater ecological awareness. International cooperation and environmental education are vital to preserving soil fertility and supporting sustainable agriculture.

Keywords: soil pollution, environmental degradation, industrial waste, agricultural chemicals, heavy metals, ecological safety, waste recycling, sustainable agriculture, environmental education, international cooperation

ВЛИЯНИЕ ВЫРУБКИ ЛЕСОВ НА БИОРАЗНООБРАЗИЕ В АЗЕРБАЙДЖАНЕ

Sevinc Kamalova
1sevusik1@gmail.com
Azərbaycan Texnologiya Universiteti

С каждым годом количество лесов, которые недаром называют зелеными легкими планеты, сокращается из-за вырубки, пожаров, ураганов. Биоразнообразие под угрозой, ведь лес - дом для многих животных, птиц, растений, насекомых. Их исчезновение лишит важного источника существования и почти два миллиарда человек: здесь и грибы, и ягоды, и дрова для обогрева жилища.[1]

Глобальное изменение климата влияет на людей, фауну и флору, ставя под угрозу существование жизни на нашей планете. В контексте борьбы с повышением температуры воздуха большая роль отводится озеленению. Действительно, деревья способны существенно сократить климатические угрозы.[2]

Основные последствия вырубки лесов для биоразнообразия Азербайджана:

Утрата среды обитания: Уничтожение лесов (особенно в горных зонах) разрушает дома многих видов животных, птиц и насекомых. Деградация экосистем: Вырубка приводит к нарушению экологического баланса, развитию эрозии почв и потере их плодородия. Угроза для уникальных лесов: Особенно страдают от вырубок, выпаса скота и антропогенного воздействия тугайные леса (в долинах рек) и горные леса. Ухудшение санитарного состояния: Разрежение лесов и неконтролируемая вырубка снижают способность лесов к самовосстановлению. Снижение видового разнообразия: Исчезновение лесных массивов напрямую связано с уменьшением количества диких видов растений и животных.[3,4]

Лесной покров Азербайджана составляет 11,8% от территории страны. Большая часть площади лесов (85%) расположена на Большом и Малом Кавказе, в Талышском горном регионе. Леса на территории Азербайджана в основном состоят из редких видов деревьев, среди которых дуб, бук, граб, липа, ясень.

Леса обеспечивают рабочие места. Деревья выполняют защитные функции: они предотвращают эрозию и потерю почв и смягчают последствия изменения климата. К тому же леса обеспечивают людей топливом и продовольствием. Для многих они являются важным источником дохода. Изменение климата создаёт дополнительную проблему для сохранения биоразнообразия в Азербайджане. Повышение температуры, изменение режима осадков и экстремальные погодные явления. Нарушают экологические процессы и экосистемы. Эти изменения могут привести к сдвигам в распределении видов, утрате пригодности среды обитания и повышению уязвимости к болезням. Изменение климата ставит под угрозу выживание многих уязвимых видов, включая албанский астрагал и щитомордник Радде.[5]

В заключение следует отметить, что сохранение биоразнообразия Азербайджана требует согласованных усилий по борьбе с угрозами, связанными с потерей среды обитания, загрязнением, изменением климата и нерациональной эксплуатацией природных ресурсов.

ЛИТЕРАТУРА

1.Касимзаде, Т.Э. Пустынная растительность Ширвана (Азербайджан) //-Нижневартовск:Ж.Бюллетень науки и практики,-2020.-Том 6. -№4., -с. 41-57.
2.Мамедов Г.Ш., Халилов М.Ю. Леса Азербайджана. Баку: «Элм», 2002, 472 с. (на азерб. языке).
3.Бюллетень науки и практики (статьи 2024-2025 гг.) — Анализ антропогенного влияния и состояния лесных экосистем.

4.https://media.az/society/azerbajdzhan-zanimaet-lidiruyushie-pozicii-v-regione-po-ozeleneniyu
5.https://azertag.az/ru/xeber/yunep_vyrubka_lesov_privodit_k_ischeznoveniyu_dikih_zhivotnyh_i_redkih_rastenii-1496445

THE IMPACT OF DEFORESTATION ON BIODIVERSITY IN AZERBAIJAN

Sevinj Kamalova
1sevusik1@gmail.com
Azerbaijan Technologyical University

Every year, forests, not without reason called the green lungs of the planet, are shrinking due to deforestation, fires, and hurricanes. Biodiversity is under threat, as forests are home to many animals, birds, plants, and insects.

Keywords. Biodiversity, deforestation, climate, forest, flora, fauna

XƏZƏRYANI ÖLKƏLƏRDƏ SUYUN SƏVİYYƏSİNİN AZALMA SƏBƏBLƏRİ VƏ PROBLEMİN HƏLLİ YOLLARI

Vilayət Fərhad oğlu Həsənov
vilayathasanov59@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Xəzər dənizinin sahəsi sürətlə azalır. Əsas səbəb iqlim dəyişməsi deyil. Gözlənilməz nəticələri olan ekoloji faciəni dayandırmaq üçün Xəzəryanı dövlətlərin birgə səyləri zəruridir. Azərbaycan həmin problemin həlli üçün BMT ilə də sıx əməkdaşlığa hazırdır". Göründüyü kimi Prezident İlham Əliyev BMT-nin Ali kürsüsündən Xəzərin ekoloji problemini ilk dəfə olaraq qlobal miqyasda qaldıraraq bütün dünya ölkələrinin iştirak etdiyi mötəbər tədbirdə bəyan edərək bu problemin heç də iqlim dəyişiklikləri ilə deyil insan fəaliyyəti nəticəsində ekoloji fəlakətə aparan bir proses olduğunu bildirmişdir [1].

Qazaxıstan Respublikasının Baş Naziri Oljas Bekenov problemlər barədə deyir ki, 2000-ci illərin əvvəlindən Xəzər dənizinin səviyyəsinin azalması ilə əlaqədar Qazaxıstan Xəzər Tədqiqat İnstitutu yaradılıb. Qazaxıstan mətbuatı yazır ki Xəzərin dayazlaşmasından çox zərər görür və məhz Xəzərin ən az sulu hissəsi neft hasilatı və gəmiçilik üçün sıradan çıxa bilər. Xəzərin ən az sulu hissəsi Qazaxıstan ərazisidir. Xəzəri də Araz dənizinin taleyi gözləyə bilər [3]. Qazaxıstan Prezidenti Tokayev 11 dekabr 2025-ci ildə Qazaxıstan-İran biznes formunda bildirib ki, bu ümumi problemi yalnız 5 dövlətin birgə səyi ilə həll etmək mümkündür. 1960-2009- cü illər arası Aral dənizinin sahəsi 67,499 km^2-dən 6.700 km^2-ə qədər azaldı. [2] Eyni sindrom Xəzərlə bağlı da yarana bilər. Deməli, Xəzərin səviyyəsinin azalmasının əsas səbəblərindən biri və başlıcası su balansının əsasını təşkil edən Volqa çayının hövzəsində " insan müdaxiləsi" səbəbi ilə dənizə yönəldilməsinin qarşısını almaqdır. Belə ki, son illərdə peyk monitorinqi və NASA tərəfindən aparılan məlumatlar əsasında maraqlı nəticələr ortaya qoyulur. Volqa çayı hövzəsində 13-ə yaxın su anbarları, bəndlər tikilmişdir. Bu qurğular suyun idarə olunmasını, su paylanması, enerji istehsalı, meliorasiyanı mümkün etsə də Xəzərə axan suyun miqdarına mənfi təsir göstərir. Bu su anbarlarının hamısı keçmiş SSRİ vaxtında tikilib. Bunlar Kuybişev, Saratov, Rubinsk, Ceboksarı, Volqoqrand, Kama, Yuxarı Volqa, Nijnekamsk, Qorki və.s bəndləridir. 2017-2025-ci illər üzrə aparılmış monitorinqin nəticələrinə görə məlum olur ki, Anbarların ümumi sahəsində ciddi dəyişikliklər müşahidə olunmayıb. Belə ki son 8 il ərzində su səthi sahəsində azalma 1 faizə qədərdir əkin sahələrinin artmasına baxmayaraq və su axınındakı azalmalardan sonra su səviyyəsində ciddi şəkildə dəyişikliyə səbəb olmayıb. Aparılan araşdırmalar və müşahidələr göstərir ki, Volqa çayının Xəzərə tökülən hissəsində suyun axını kəskin zəifləyib, ərazidə dayazlaşma baş verib. Nəticədə torpaq qatı üzə

çıxıb, axıntılar kiçik kanal halına keçib, bəziləri isə tamam quruyub. Kəskin azalmanın əsas səbəbi Volqa boyu ərazilərdə kənd təsərrüfatı sahələrinin sürətlə artması, su anbarlarının daim su ilə dolu saxlanmasıdır. [3] Ən əsası isə Volqadan Xəzərə daxil olan suyun həcmi illik 30-35 milyard kub\metr azalıb. Hər il suyun səviyyəsi may- iyul aylarında maksimum həddə çatır. Bu Volqa çayı hövzəsində qarın əriməsi və yaz daşqınları ilə bağlıdır. Yayın sonundan etibarən səviyyə kəskin azalır və sentyabr-mart aylarında aşağı səviyyədə qalıb Bununla belə, Volqa ətrafında su anbarları daim doludur. Halbuki yağıntının miqdarında 15.3% azalma var. Onda sual yaranır? Anbarlar nəyin hesabına dolur? Təbii ki təsərrüfat məqsədi ilə ayrılan suyun həcmi kəskin artırılıb, bu isə öz növbəsində Xəzərin qidalanmasında ciddi problemlərə səbəb olur NASA (ABŞ-ın Milli Aeronavtika və Kosmik idarəetmə Agentliyi) tərəfindən 1992- 2024-ci illər ərzində peyk məlumatları əsasında Xəzər dənizində səviyyənin 2 metrə-dək azaldığı görülür. 2024 cü-il dekabr ayında səviyyə -28,7 metr olub " Azərkosmos" un monitorinqinə əsasən Xəzərdə son illər baş verən dayazlaşma prosesinin kökündə Volqa çayından dənizə axıdılan suyun həcminin kəskin azalması durur. Problemin həllinə də məhz bu amilin aradan qaldırılması ilə başlamaq lazımdır. Belə ki, Xəzər Qazaxıstan sahilində 150 km, Azərbaycan sahilində 20 km çəkilib (Qızılağac qoruğu) və Xəzərin sahil xəttinin müxtəlif yerlərində dəniz suyunun qurumuş ərazilərinin sahəsi 33,823km–dir. [4]

30 yanvar 2026 cı ildə BMT–nin Cenevrədəki mənzil qərargahında Azərbaycanın Cenevredəki BMT bölməsi və Tehranın Konfensiyası Katibliyinin birgə təşkilatçılığı ilə "Xəzər dənizinin qorunmasının, ətraf mühitin idarə olunmasının və Beynəlxalq əməkdaşlığın gücləndirilməsi mövzusunda panel müzakirələri keçirilib. Tədbirdə çıxış edən Leyla Əliyeva Xəzər dənizinin üzləşdiyi təhdidlər və onun qorunması məqsədi ilə elmi-tədqiqatlara əsaslanan birgə fəaliyyətin əhəmiyyəti barədə məlumat verib. Leyla Əliyeva vurğulayıb ki, dəniz səviyyəsinin azalması və biomüxtəlifliyin itirilməsi prosesləri vaxtında və əlaqələndirilmiş tədbirlər görülmədiyi tədbirdə daha ciddi nəticələrə gətirib çıxara bilər. [2] BMT-nin Cenevrədəki ofisinin baş direktoru Tatyana Volovaya, BMT-nin Ətraf Mühit Proqramının Avropa üzrə regional direktoru Arnold Kraylhuber və başqaları çıxış edərək Xəzər dənizinin qorunması istiqamətində əməkdaşlığa çağırıblar. Xəzər dənizi ilə bağlı ümumi fikirlər əsasında belə nəticəyə gəlinib ki, Xəzər dənizi kiçilir, su səviyyəsi azalır, aşağı düşür. Əgər bu azalma 8 metrə çatsa Xəzər dənizinin 1\3 hissəsini itirə bilərik.

ƏDƏBİYYAT

1.M.Ə.Salmanov,A,A, Məmmədov, Ə.H.Özərən, Ə.H.Cəfərov "Ümumi və tətbiqi ekoloqiyanın əsasları Bakı 2016.
2. Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev 25 sentyabr 2025-ci il Nyu-York şəhəri:
3.Qazaxıstan Respublikasının Prezidenti K.C.Tokayev Astana 11 dekabr 2025.
4.Heydər Əliyev Fondunun Vitse-prezidenti L.Əliyeva cenevrə 30 yanvar 2026 –cı il

THE CAUSES OF DECLINING WATER LEVELS IN THE CASPIAN SEA REGION AND APPROACHES TO ADDRESSING THE PROBLEM

Vilayat Farhad oglu Hasanov
vilayathasanov59@gmail.com
Azerbaijan Technological University

The decline in the level of the Caspian Sea is mainly driven by a combination of climatic and human-induced factors. One of the primary reasons is the reduction of inflow from major rivers, especially the Volga River, which supplies the majority of the sea's water. Decreasing precipitation and rising temperatures in the region have led to increased

evaporation rates, further accelerating water loss. In addition, extensive water regulation, dam construction, and irrigation projects in countries such as Russia significantly reduce the volume of water reaching the sea. Anthropogenic activities, including industrial use of water resources and environmental mismanagement, also contribute to the imbalance of the sea's water budget. These combined factors have resulted in a continuous drop in the Caspian Sea level, posing serious ecological and economic challenges for the surrounding regions.

Keywords: Caspian Sea water level decline, climate change, evaporation, Volga River inflow, anthropogenic factors

SƏNAYE TULLANTILARININ DAYANIQLI İDARƏ OLUNMASI VƏ TƏBİİ RESURSLARIN QORUNMASI

Nəzrin Xəyal Muxtarova
Muxtarovanzrin46@gmail.com
Zeynəb Şahin Talıbzadə
z.talibzade@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Hazırda dünyada ətraf mühitlə bağlı ən ciddi problemlərdən biri sənaye tullantılarının artması və təbii resursların sürətlə tükənməsidir. Sənayeləşmənin sürətli inkişafı nəticəsində müxtəlif istehsal sahələrində yaranan tullantılar həm torpaq, su və hava mühitinə ciddi ziyan vurur, həm də insan sağlamlığı üçün təhlükə yaradır. Bu baxımdan sənaye tullantılarının dayanıqlı idarə olunması və təbii resursların qorunması müasir dövrün ən aktual məsələlərindən biri hesab olunur.Sənaye tullantıları istehsal prosesləri zamanı yaranan bərk, maye və qaz halında olan qalıqlardır. Bu tullantılar düzgün idarə olunmadıqda ətraf mühitin çirklənməsinə, ekosistemlərin pozulmasına və bioloji müxtəlifliyin azalmasına səbəb olur. Xüsusilə kimya, metallurgiya, neft-qaz və energetika sahələrində yaranan tullantılar daha təhlükəli hesab edilir. Bu tullantıların tərkibində olan zəhərli maddələr torpaq və su ehtiyatlarına daxil olaraq uzunmüddətli ekoloji problemlər yaradır.Dayanıqlı idarəetmə dedikdə tullantıların minimuma endirilməsi, təkrar istifadəsi və təhlükəsiz şəkildə zərərsizləşdirilməsi nəzərdə tutulur. Bu sahədə əsas yanaşmalardan biri "3R prinsipi"dir: azaltmaq (reduce), yenidən istifadə (reuse) və təkrar emal (recycle). Bu prinsip sənaye müəssisələrində tətbiq olunduqda həm tullantıların miqdarı azalır, həm də resurslardan daha səmərəli istifadə edilir.Tullantıların idarə olunmasında müasir texnologiyaların rolu böyükdür. Məsələn, filtrasiya sistemləri, bioloji təmizləmə üsulları və enerjiyə çevirmə texnologiyaları tullantıların ətraf mühitə təsirini minimuma endirməyə kömək edir. Biotexnoloji üsullar vasitəsilə bəzi mikroorqanizmlər tullantıların tərkibindəki zərərli maddələri parçalayaraq onları daha az təhlükəli hala gətirir.Təbii resursların qorunması isə dayanıqlı inkişafın əsas istiqamətlərindən biridir. Su, torpaq, meşə və mineral resurslar insan həyatının davamlılığı üçün vacibdir. Lakin bu resurslardan qeyri-səmərəli istifadə onların tükənməsinə gətirib çıxarır. Buna görə də resurslardan istifadə zamanı qənaət prinsiplərinə riayət olunmalı və alternativ enerji mənbələrinə üstünlük verilməlidir.Azərbaycanda da sənaye tullantılarının idarə olunması və təbii resursların qorunması istiqamətində mühüm addımlar atılır. Müxtəlif dövlət proqramları və ekoloji layihələr vasitəsilə tullantıların azaldılması, təkrar emalı və ətraf mühitin mühafizəsi həyata keçirilir. Xüsusilə sənaye müəssisələrində ekoloji standartların tətbiqi bu sahədə müsbət nəticələr verir.

ƏDƏBİYYAT

1. Əliyev R.H. – "Ekologiya və ətraf mühitin mühafizəsi", Bakı, 2015.
2. Hüseynov S.M. – "Təbii resursların idarə olunması", Bakı, 2018.
3. Məmmədov A.Q. – "Sənaye ekologiyası", Bakı, 2020.

ANALYSIS OF SUSTAINABLE MANAGEMENT OF INDUSTRIAL WASTE AND PROTECTION OF NATURAL RESOURCES

Nazrin Mukhtarova
Muxtarovanzrin46@gmail.com
Zeynab Talibzade
z.talibzade@atu.edu.az
Azerbaijan Technological University

The purpose of this study is to analyze sustainable management of industrial waste and protection of natural resources. Industrial development increases waste generation and environmental risks. Sustainable approaches such as recycling, reuse, and reduction help minimize damage. Modern technologies and environmental policies play an important role in protecting ecosystems.

Keywords: industrial waste, sustainable management, recycling, natural resources, environmental protection.

GƏNCƏ-QAZAX ZONASININ KƏND TƏSƏRRÜFATI

Nihad Niyazi oğlu Namazəlili
Elşad Ərşad oğlu Məmmədov
elshad1952@mail.ru
Azərbaycan Texnologiya Universiteti

Gəncə-Qazax zonasında 808.537 ha sahədən yalnız 303.350 hektar əkinçilik, üzümçülük və bağçılıq bitkiləri, qalan 505.061 hektar isə biçənək və otlaqlar üçün istifadə olunur. Bundan əlavə, ərazinin əhəmiyyətli bir hissəsi dövlət fonduna aid olan dağ meşələri ilə örtülüdür. Zonadakı torpaq sahəsinin yalnız 70%-i kənd təsərrüfatında istifadə olunur ki, bu da suyun olmaması ilə bağlıdır.

Bu zonada hər nəfərə 2,27 hektar şum yeri və 1,5 hektar əkin yeri düşür. Pambığın 14,6%-i, taxılın 9,1%-i, üzümün 10,2%-i, qaramalın 6,3%-i bu zonada yerləşir.

Respublikanın ümumi pambıq məhsulunun 19.5, taxılın 11.1, üzümün 28.1, yunun 18, südün isə 10.4%-i təşkil edir.

Beləliklə deyə bilərik ki, Gəncə-Qazax zonasında yerləşən təsərrüfatlar əsasən əkinçilik, üzümçülük və qoyunçuluqdur. Zonanın ümumi kənd təsərrüfatı gəlirinin 71,7%-ni əkinçilik və üzümçülük məhsulları verir.

Gəncə-Qazax zonası təbii və iqtisadi şəraitinə görə iki yarımzonaya bölünür: "A" və "B". "A" və "B" yarımzonaları özləri mikrorayonlara bölünür, hər mikrorayon əsas iqtisadi xüsusiyyətlərinə görə bir-birinə bənzər zonaları əhatə edir. Gəncə-Qazax zonasının ərazisi bir-birindən fərqlənən aşağıdakı mikrorayonlardan ibarətdir:

Suvarılmayan dağlıq mikrorayon. Bu mikrorayon əsasən ikinci dərəcəli olan kiçik təsərrüfatlarla əhatə olunmuşdur. Buraya daxil olan təsərrüfatlar şəkər istehsalı zonada böyük əhəmiyyət kəsb edir. Bu təsərrüfatlar zonada istehsal olunan taxılın 16,5%-ni (1957), üzümün 7,5%-ni, südün 15,6%-ni və yunun 20,8%-ni təmin edirdi. Bu mikrorayonda yerləşən təsərrüfatların sahəsi 86,2 min hektardır ki, bunun da 26,7 min

hektarını meşə üçün yararlı sahələr təşkil edir. Bu ərazinin 67,6%-ni taxıl, 5,2%-ni qarğıdalı, 16,8%-ni kartof, 3,8%-ni ot, 3,9%-ni silos bitkiləri, 0,85%-ni bağçılıq bitkiləri, və s. təşkil edir.

Suvarılan dağətəyi mikrorayon. Burada becərilən kənd təsərrüfatı bitkiləri xeyli yüksək məhsul verirlər.86,6 ha torpaq sahəsinə malikdir. Bundan 26,6 min ha şuma yararlıdır. Ümumi taxılın 16,4%-i zonanın payına düşür. Pambığın 17,9%-i, südün 18,8%-i, ətin 15,4%-i və yunun 15,5%-i burada istehsal olunur.

Pambıq və üzüm əsas məhsullar hesab olunur. Texnika ilə yaxşı təchiz olunub. Suvarılan ərazilərdə təsərrüfatlar pambıqçılıq, taxılçılıq və heyvandarlıq üzrə ixtisaslaşıb. Gələcəkdə bu torpaqlar digər sahələr üzrə də genişləndirilməlidir.

Kürqırağı mikrorayonu. Zonadakı ən böyük kənd təsərrüfatı bu mikrorayonda yerləşir. Yuxarı mikrorayona qədər məsafə 67.9 min. Burada şum yerlərinin 77.3%əkin üçün istifada edilir.

"B" yarımzonasındakı konuslar mikrorayonu. Bu mikrorayon 58,8 min hektar ərazini əhatə edir və zonanın şərqindəki konusları əhatə edir. Bu ərazinin 37,7 min hektarı əkin sahələridir. Zonada istehsal olunan pambığın 24,2%-ni, taxılın 17,2%-ni, südün və digər məhsulların 13,4%-ni buranın payına düşür.

Aran Şəraitli mikrorayonu. Zonada istehsal olunan pambığın 15,4%-i, taxılın 11,5%-i, tərəvəz-bostan məhsulunun 16,7 %-i, südün 9,7%-i, yunun 8%-i, ətin 10,7%-i bu ərazinin payına düşür.

Zonadakı bütün mikrorayonların torpağı və iqlimi dənli bitkilərin (əsasən buğda, arpa və qarğıdalı) becərilməsi üçün əlverişlidir. Bu bitkilər ümumi əkin sahəsinin 55,8%-ni, yəni 68.698 hektarını tutur. Bunlardan 47.507 hektarı buğda, 15.066 hektarı arpadır.

AGRICULTURE OF THE GANJA-GAZAKH REGION

Nihad Niyazi oghlu Namazalili
Elshad Arshad oghlu Mammadov
elshad1952@mail.ru
Azerbaijan Technological University

The Ganja-Gazakh economic zone is one of the important agricultural regions, characterized by favorable natural and economic conditions. The region specializes mainly in crop production, viticulture, and livestock farming. Despite the large land resources, agricultural activities are limited due to water scarcity. The zone plays a significant role in the country's production of cotton, grain, grapes, wool, and milk. Based on its geographical and economic characteristics, the region is divided into two subzones and several microregions.

Keywords: Ganja-Gazakh zone, agriculture, viticulture, crop production, livestock farming, land resources, microregions.

ENERJİ KEÇİDİ ŞƏRAİTİNDƏ BƏRPA OLUNAN ENERJİ MƏNBƏLƏRİNİN EKOLOGİYA VƏ İQTİSADİYYATDA ROLU

Gülsurə Mehdiyeva
g.mehdiyeva@atu.edu.az
Şəhanə Mikayılova
Azərbaycan Texnologiya Universiteti

Giriş. Tarixən dünya iqtisadiyyatının enerji bazası neft, qaz və kömür kimi fosil yanacaqlara söykənmişdir. Bu model sənaye artımını sürətləndirsə də, zaman keçdikcə onun ciddi ekoloji və iqtisadi məhdudiyyətləri üzə çıxmışdır. Ənənəvi enerji istehsalı yüksək karbon emissiyası, hava çirklənməsi, su resurslarına əlavə təzyiq, geosiyasi risklər və qiymət dəyişkənliyi ilə xarakterizə olunur. Bu şəraitdə enerji siyasətində daha təmiz, daha çevik və daha dayanıqlı texnologiyalara keçid zərurəti yaranmışdır. Bərpa olunan enerji mənbələri bu zərurətin praktik cavabı kimi meydana çıxır. Onların əsas üstünlüyü enerji istehsalını ekoloji təhlükəsizlik, iqtisadi səmərəlilik və uzunmüddətli sabitliklə uzlaşdırmaq imkanında görünür.

Beynəlxalq Enerji Agentliyinin proqnozlarına görə, 2024–2030 dövründə bərpa olunan enerji istehlakının əsas ssenari üzrə təxminən 60 faiz artacağı gözlənilir [2]. Bu göstərici bərpa olunan enerji mənbələrinin artıq enerji sisteminin periferiyasında deyil, qlobal transformasiyanın mərkəzində yer aldığını göstərir. Mövzu xüsusilə Azərbaycan üçün əhəmiyyətlidir. Ölkə ənənəvi enerji ixracatçısı olmaqla yanaşı, yüksək günəş və külək potensialına malikdir. Buna görə bərpa olunan enerji mənbələri Azərbaycan üçün həm ekoloji məsuliyyət, həm iqtisadi şaxələndirmə, həm də strateji modernləşmə vasitəsi kimi çıxış edir.

Bərpa olunan enerji mənbələrinin ekoloji rolu. Bərpa olunan enerji mənbələrinin ekologiyadakı ən mühüm rolu enerji istehsalı ilə iqlim dəyişmələri arasında mövcud olan birbaşa əlaqənin zəiflədilməsidir. Günəş və külək texnologiyaları istismar mərhələsində yanma prosesi yaratmadığı üçün onların birbaşa karbon emissiyası minimaldır. IPCC-nin Altıncı Qiymətləndirmə Hesabatında göstərilir ki, qlobal emissiya azaldılması üçün elektrik sektorunun dərin dekarbonizasiyası vacib şərtdir [3]. Həyat dövrü üzrə qiymətləndirmələr də sübut edir ki, günəş və külək texnologiyalarının emissiya profili fosil yanacaqlarla işləyən elektrik stansiyalarından xeyli aşağıdır [6;7].

Ekoloji baxımdan digər mühüm üstünlük hava keyfiyyətinin yaxşılaşmasıdır. Ənənəvi elektrik stansiyaları yalnız karbon qazı deyil, həm də kükürd dioksidi, azot oksidləri və hissəcik çirkləndiricilər ifraz edir. Bu maddələr tənəffüs və ürək-damar xəstəlikləri riskini artırır, səhiyyə xərclərini yüksəldir və əmək məhsuldarlığını aşağı salır. Günəş və külək enerjisində istismar mərhələsində bu çirkləndiricilərin olmaması bərpa olunan enerjini yalnız iqlim üçün deyil, ictimai sağlamlıq üçün də faydalı edir. Bundan əlavə, bu texnologiyalar termik stansiyalarla müqayisədə daha az su tələb etdiyindən, su ehtiyatlarına təzyiqi də zəiflədir.

Lakin bərpa olunan enerji mənbələrinin tamamilə təsirsiz olduğunu söyləmək düzgün olmaz. Günəş stansiyalarında torpaq istifadəsi, fotovoltaik panellərin istehsalında material və enerji sərfi, külək energetikasında isə quş və yarasa populyasiyalarına təsir, səs və landşaft dəyişiklikləri kimi məqamlar mövcuddur. Buna görə bərpa olunan enerjinin ekoloji faydası onun düzgün ərazi seçimi, ekoloji qiymətləndirilməsi və həyat dövrü idarəetməsi ilə birgə nəzərdən keçirilməlidir.

Bərpa olunan enerji mənbələrinin iqtisadi rolu. Son illərdə bərpa olunan enerji mənbələrinin iqtisadi əhəmiyyəti xüsusi şəkildə artmışdır. Əvvəllər günəş və külək enerjisi daha çox bahalı ekoloji seçim kimi təqdim edilirdisə, texnologiyanın inkişafı, istehsal miqyasının böyüməsi və qlobal təchizat zəncirlərinin genişlənməsi bu yanaşmanı dəyişmişdir. IRENA-nın 2024-cü il üzrə qiymətləndirməsinə əsasən, yeni quraşdırılmış bərpa olunan güclərin əksəriyyəti yeni fosil alternativlərdən daha aşağı maya dəyərinə malik olmuşdur [5]. Bu fakt bərpa olunan enerji mənbələrinin artıq subsidiyaya əsaslanan əlavə sektor deyil, bazar baxımından rəqabətqabiliyyətli texnologiyalar qrupu olduğunu sübut edir. Bu sahənin mühüm iqtisadi üstünlüklərindən biri yanacaq xərclərinin olmaması və ya çox aşağı olmasıdır. Fosil enerji sistemləri yanacaq bazarındakı geosiyasi və qiymət dəyişikliklərindən ciddi şəkildə

asılıdır. Günəş və külək energetikası isə yüksək ilkin investisiya tələb etsə də, sonrakı mərhələdə daha sabit xərcli enerji təmin edir. Bu isə enerji qiymətlərinin proqnozlaşdırılmasını asanlaşdırır, sənayenin planlaşdırma imkanlarını artırır və enerji təhlükəsizliyini gücləndirir.

Bərpa olunan enerji mənbələrinin iqtisadi rolu həm də yeni investisiya və məşğulluq imkanlarının formalaşmasında özünü göstərir. Bu sektor tikinti, montaj, mühəndislik, rəqəmsal nəzarət, servis və enerji saxlanc texnologiyaları kimi bir çox alt sahələrdə yeni dəyər zənciri yaradır. IRENA-nın məlumatlarına görə, 2023-cü ildə bərpa olunan enerji sektorunda qlobal məşğulluq 16 milyondan çox olmuşdur [4]. Beləliklə, bərpa olunan enerji mənbələri təkcə elektrik istehsalı sahəsini deyil, ümumi iqtisadi modernləşməni də sürətləndirir.

Azərbaycan kontekstində strateji əhəmiyyət. Azərbaycan üçün bərpa olunan enerji mənbələrinin rolu xüsusi strateji məna daşıyır. Ölkə ənənəvi olaraq neft və qaz ixracatçısıdır, lakin qlobal enerji keçidi şəraitində enerji portfelinin şaxələndirilməsi və yaşıl artım modelinə keçid getdikcə daha mühüm olur. Prezidentin təsdiq etdiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində "təmiz ətraf mühit və yaşıl artım ölkəsi" əsas prioritetlərdən biri kimi müəyyən edilmişdir. Bu, bərpa olunan enerji siyasətinin ölkədə yalnız enerji sektoru ilə məhdudlaşmadığını, bütövlükdə inkişaf modelinin tərkib hissəsi olduğunu göstərir.

Energetika Nazirliyinin məlumatlarına əsasən, Azərbaycanın bərpa olunan enerji mənbələri üzrə iqtisadi potensialı təxminən 27 GW kimi qiymətləndirilir. Bunun 23 000 MW-ı günəş, 3 000 MW-ı külək, 520 MW-ı dağ çayları, 380 MW-ı isə bioenerji potensialıdır [1]. Mövcud quraşdırılmış güc və yaşıl enerji istehsalında son illərdə müşahidə olunan artım göstərir ki, enerji keçidi ölkədə artıq nəzəri mərhələdən praktik mərhələyə keçmişdir.

Xüsusilə işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji zonası" konsepsiyasının tətbiqi bu sahənin regional inkişafla birləşdirildiyini nümayiş etdirir. Burada günəş və külək enerjisi yalnız elektrik istehsalı vasitəsi deyil, həm də dayanıqlı məskunlaşma, infrastrukturun yenilənməsi və yaşıl iqtisadi modelin qurulması üçün baza rolunu oynayır.

Nəticə. Nəticə etibarilə, bərpa olunan enerji mənbələrinin ekologiya və iqtisadiyyatda rolu enerji keçidinin əsas məntiqini formalaşdırır. Ekoloji baxımdan bu mənbələr karbon emissiyalarını, hava çirklənməsini və su resurslarına təzyiqi azaltmaqla dayanıqlı inkişafı dəstəkləyir. İqtisadi baxımdan isə onlar enerji xərclərinin sabitləşməsinə, investisiyaların və məşğulluğun artmasına, enerji təhlükəsizliyinin güclənməsinə və regional inkişafın sürətlənməsinə xidmət edir. Azərbaycan nümunəsi göstərir ki, bərpa olunan enerji mənbələri ölkə üçün yalnız ekoloji seçim deyil, həm də uzunmüddətli iqtisadi və strateji transformasiya vasitəsidir. Buna görə onların inkişafı texnoloji, institusional və sosial baxımdan kompleks şəkildə dəstəklənməlidir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Energetika Nazirliyi. (2025a). Azərbaycanda bərpa olunan enerji mənbələrindən istifadə.
2. IEA. (2024a). Renewables 2024: Analysis and forecast to 2030. International Energy Agency.
3. IPCC. (2022). Climate Change 2022: Mitigation of Climate Change.
4. IRENA. (2024b). Renewable Energy and Jobs: Annual Review 2024.
5. IRENA. (2025a). Renewable Power Generation Costs in 2024.
6. NREL. (2021). Life Cycle Greenhouse Gas Emissions from Electricity Generation: Update.
7. UNECE. (2021). Life Cycle Assessment of Electricity Generation Options.

THE ROLE OF RENEWABLE ENERGY SOURCES IN ECOLOGY AND ECONOMY UNDER ENERGY TRANSITION CONDITIONS

Gulsura Mehdiyeva
g.mehdiyeva@atu.edu.az
Shahana Mikayilova
Azerbaijan Technological University

In the modern era, energy transition has become one of the most relevant global priorities associated with climate change, energy security, and economic modernization. Within this transition, renewable energy sources serve not only as a technical alternative for electricity generation, but also as a strategic instrument for preserving ecological balance, reducing carbon emissions, increasing the resilience of energy systems, and creating new economic opportunities.

This thesis explains the role of solar and wind energy in ecology and economy on theoretical and scientific grounds, while summarizing global trends and the experience of Azerbaijan. The analysis demonstrates that renewable energy sources do not create a contradiction between ecology and economy; on the contrary, under appropriate technological and institutional approaches, they become a development platform that harmonizes these two objectives.

Keywords: energy transition, renewable energy, solar energy, wind energy, ecological sustainability, economic efficiency

BİTKİ YAĞI İSTEHSALININ ƏTRAF MÜHİTƏ TƏSİRİ

Əsmər Şahin qızı Qocamanova
qocamanovaasmar@gmail.com
İmmi Mahir qızı Əliyeva
İmmi.aliyeva@mail.ru
Azərbaycan Texnologiya Universiteti

Bitki yağları müasir iqtisadiyyatın və sənayenin müxtəlif sahələrində – qida sənayesində, kosmetika istehsalında, farmasevtikada və xüsusilə alternativ enerji mənbəyi kimi bioyanacaq istehsalında geniş istifadə olunan mühüm təbii resurslardır [1]. Qlobal əhali artımı, urbanizasiya və istehlak səviyyəsinin yüksəlməsi nəticəsində bitki yağlarına olan tələbat son onilliklərdə əhəmiyyətli dərəcədə artmışdır. Bu isə öz növbəsində yağlı bitkilərin becərilməsinin genişlənməsinə və istehsal proseslərinin intensivləşdirilməsinə gətirib çıxarmışdır. Lakin qeyd olunan proseslər ətraf mühitə həm birbaşa, həm də dolayı təsirlər göstərərək bir sıra ekoloji problemlərin yaranmasına səbəb olur.

Bitki yağlarının istehsalının əsas mərhələsi kənd təsərrüfatı fəaliyyəti ilə bağlıdır. Palma, soya, günəbaxan və kolza kimi yağlı bitkilərin geniş miqyasda becərilməsi üçün böyük torpaq sahələrinə ehtiyac yaranır [3]. Xüsusilə tropik regionlarda palma yağı istehsalının artırılması məqsədilə meşələrin kütləvi şəkildə qırılması müşahidə olunur. Meşələrin məhv edilməsi biomüxtəlifliyin azalmasına, ekosistemlərin deqradasiyasına və nadir flora və fauna növlərinin yox olma təhlükəsi ilə üzləşməsinə səbəb olur. Bundan əlavə, meşələrin qırılması nəticəsində atmosferə böyük miqdarda karbon qazı buraxılır ki, bu da iqlim dəyişmələri prosesini sürətləndirən əsas amillərdən biri hesab olunur.

Kənd təsərrüfatında məhsuldarlığın artırılması məqsədilə kimyəvi gübrələrdən və pestisidlərdən geniş istifadə edilir [2]. Bu maddələrin torpaqda və suda toplanması torpaq münbitliyinin azalmasına, yeraltı və yerüstü su ehtiyatlarının çirklənməsinə gətirib çıxarır. Nəticədə su ekosistemlərində yaşayan canlıların həyat fəaliyyəti pozulur, trofik zəncirlərdə dəyişikliklər baş verir və ekoloji tarazlıq zədələnir. Eyni zamanda, bu kimyəvi maddələr insan sağlamlığı üçün də potensial təhlükə mənbəyi hesab olunur.

Bitki yağlarının emalı və sənaye istehsalı mərhələsi də ətraf mühitə təsirsiz ötüşmür. Emal proseslərində istifadə olunan enerji resursları, texnoloji avadanlıqlar və kimyəvi maddələr nəticəsində atmosferə zərərli qazlar buraxılır, tullantı sular yaranır və bərk tullantılar əmələ gəlir. Bu tullantıların düzgün idarə olunmaması torpaq, su və hava mühitinin çirklənməsinə səbəb olur. Buna görə də müasir sənayedə ekoloji standartlara uyğun texnologiyaların tətbiqi, tullantıların azaldılması və təkrar emal mexanizmlərinin inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir [4].

Digər tərəfdən, bitki yağlarının bioyanacaq kimi istifadəsi onların ekoloji baxımdan müsbət tərəflərindən biri kimi qiymətləndirilir. Bitki mənşəli yanacaqlar bərpa olunan enerji mənbəyi hesab olunur və fosil yanacaqlarla müqayisədə daha az istixana qazı emissiyası yaradır. Bu isə iqlim dəyişmələrinin təsirlərinin azaldılmasına müəyyən dərəcədə töhfə verir. Lakin bioyanacaq istehsalının genişləndirilməsi kənd təsərrüfatı torpaqlarına olan tələbatı artırır və ərzaq məhsullarının istehsalı ilə rəqabət yaradır. Bu isə qlobal ərzaq təhlükəsizliyi baxımından ciddi problemlər doğura bilər.

Bitki yağlarının ətraf mühitə təsirinin azaldılması üçün davamlı kənd təsərrüfatı metodlarının tətbiqi vacibdir. Torpaq resurslarından səmərəli istifadə, növbəli əkin sistemlərinin tətbiqi, orqanik gübrələrin istifadəsi və pestisidlərin minimuma endirilməsi bu sahədə mühüm tədbirlər hesab olunur. Bundan əlavə, ekoloji cəhətdən təmiz texnologiyaların tətbiqi, alternativ enerji mənbələrinin inkişafı və istehsal proseslərinin optimallaşdırılması ətraf mühitin qorunmasına xidmət edir.

ƏDƏBİYYAT

1. Food and Agriculture Organization (FAO). Oilcrops and oilseed products: global market analysis and environmental impacts. Rome, 2021.
2. World Health Organization (WHO). Diet, nutrition and the prevention of chronic diseases. Geneva, 2020.
3. International Energy Agency (IEA). Biofuels for transport: technology and policy perspectives. Paris, 2022.
4. United Nations Environment Programme (UNEP). Sustainable consumption and production of vegetable oils. Nairobi, 2021.

ENVİRONMENTAL IMPACT OF VEGETABLE OİL PRODUCTİON

Asmar Shahin Qocamanova
qocamanovaasmar@gmail.com
İmmi Mahir Alıyeva
İmmi.aliyeva@mail.ru
Azerbaijan Technological University

This study examines the environmental impacts of vegetable oil production and use. It shows that the increasing demand for vegetable oils leads to agricultural expansion, deforestation, and a decline in biodiversity. In addition, the use of fertilizers and pesticides in production processes contributes to soil and water pollution. At the same time, the use of vegetable oils as biofuels has a positive effect by reducing greenhouse gas emissions. The study concludes that the application of sustainable agricultural practices and environmentally friendly technologies is essential to maintain ecological balance in this sector.

Keywords: Vegetable oils, Environmental impact, Sustainable agriculture, Deforestation

ВЛИЯНИЕ КРАСИТЕЛЕЙ НА ВОДНЫЕ ОБЪЕКТЫ

Айдан Эльхан кызы Мирзоева
aidanmirzoeva@mail.ru
Эльшад Аршад оглы Маммадов
Азербайджанский Технологический Университет

В настоящее время синтетические красители, являющиеся продукцией анилинокрасочной промышленности, находят широкое применение в разнообразных отраслях народного хозяйства. Значительную часть (80%) красителей используют в красильно-отделочных производствах предприятий легкой промышленности для окрашивания пряжи, тканей, кожи и меха; около 10% – в различных отраслях химической промышленности: производства пластических масс, химических волокон, товаров бытовой химии, резинотехнических изделий, лакокрасочных и других материалов; 4% - в целлюлозно-бумажной промышленности; 2% - в полиграфии; 4% -во всех других отраслях. Такое всестороннее применение красителей обусловливает специфические требования к ним: они должны иметь чрезвычайно разнообразное строение и обладать различными физико-химическими свойствами, обеспечивающими их взаимодействие со многими окрашиваемыми материалами.

Строение и свойства красителей обычно рассматривают с точки зрения теории и закономерностей возникновения цветности органических соединений и связи между их строением и окраской.

В большинстве водопотребляющих технологических процессов синтеза органических красителей и процессов с их использованием образуются окрашенные сточные воды.

Из всего многообразия источников образования сточных вод, содержащих красители, рассмотрим, как наиболее водоемкие, с высокой степенью загрязненности промышленных стоков предприятия анилинокрасочной, легкой промышленности и бытовой химии. При этом особое внимание уделим процессам, в результате которых образуются сточные воды, содержащие в основном растворимые в воде органические красители, - они представляют наибольшую трудность в технологии очистки окрашенных стоков. Нерастворимые красители могут быть удалены из сточных вод достаточно простыми методами физико-химической очистки (коагуляцией, напорной реагентной флотацией, электрофлотокоагуляцией и др.) с предварительной корректировкой pH и солевого состава.

Технологический процесс производства органических красителей на анилинокрасочных предприятиях состоит из двух стадий: получение промежуточных продуктов и красителей. Основным органическим сырьем при этом являются углеводороды ароматического ряда (бензол, толуол, ксилолы, нафталин, антрацен и их производные). В качестве вспомогательного сырья применяют разнообразные органические и неорганические вещества: метиловый и этиловый спирты, водород, хлор, бром и фосген, серную, соляную, азотную, уксусную и другие кислоты, каустическую и кальцинированную соду, сероводород сульфит натрия, сульфиды металлов и многие другие соединения. При синтезе красителей до 90% неорганического и до 30% органического сырья переходит в сточные воды, которые образуются главным образом на стадии фильтрования промежуточных и целевых продуктов, а также в процессе мойки технологического оборудования, коммуникаций, полов и т.п. В этих стоках, наряду с отходами исходного сырья, содержится около

10% всего выпускаемого количества красителей, что обусловливает их высокую цветность, оцениваемую, как правило показателем ИК - интенсивностью (кратностью) разбавления сточных вод дистиллированной водой до исчезновения окраски.

Удельный объем сточных вод, образующихся на стадии фильтрования, составляет в зависимости от марки выпускаемого красителя 8-40 м3 на 1 т готового продукта. Характерной особенностью этих стоков является высокое содержание минеральных солей — 150-300 г/л (в основном хлоридов натрия или калия) и красящих веществ - до 15 г/л; их показатель ИК доходит до $1:10^6$. Фильтраты некоторых марок красителей содержат еще ионы тяжелых металлов.

Сточные воды от промывки технологического оборудования и мойки полов менее загрязнены, однако они также интенсивно окрашены (ИК до 1: $16 \cdot 10^3$), содержат 0,3-2,5 г/л органических веществ, основную часть которых составляют полупродукты и красители, и до 4 г/л неорганических солей; их образуется значительно больше, чем фильтратов, - 160 $м^3$/т.

Основное водопотребляющее оборудование на предприятия легкой промышленности располагается в красильно-отделочных производствах, где текстильные, трикотажные, кожевенные и меховые изделия проходят последовательно механическую и химическую подготовку к крашению или печати, само окрашивание и заключительную отделку. Эти производства обычно выделяются в самостоятельный цех, а иногда представляют специализированную фабрику, обслуживающую несколько пред- могут быть у приятий.

IMPACT OF DYES ON WATER BODIES

Aydan Elkhan qizi Mirzoyeva
aidanmirzoeva@mail.ru
Elshad Arshad oglu Mammadov
Azerbaijan Technological University

Synthetic dyes are widely used in numerous industrial sectors due to their diverse chemical structures and physicochemical properties. However, the extensive application of dyes leads to the formation of highly polluted colored wastewater, especially in the aniline dye, light, and household chemical industries. Wastewater generated during the production and use of organic dyes contains large amounts of organic compounds, mineral salts, and toxic substances, including heavy metal ions. Water-soluble dyes represent the greatest challenge for wastewater treatment technologies because of their stability and intense coloration. Therefore, the development and implementation of effective physicochemical and technological methods for the purification of colored industrial effluents are essential for reducing environmental pollution and ensuring sustainable industrial development.

Keywords: synthetic dyes, organic dyes, industrial wastewater, colored effluents, wastewater treatment, aniline dye industry, water pollution, physicochemical properties, textile industry, environmental protection, water-soluble dyes, industrial pollution

PARTİKULYAR MADDƏLƏRİN TƏRKİBİ VƏ İNSAN SAĞLAMLIĞINA TƏSİRİ

Əfsanə Nəsrəddin Bədəlova
efsanealilaf@gmail.com
Zeynəb Şahin Talıbzadə
z.talibzade@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Havadan çıxan hissəciklər (PM) tək bir çirkləndirici deyil, əksinə bir çox kimyəvi növün qarışığıdır. Kiçik damcı maye, quru bərk parçalar və maye örtüklü bərk nüvələrdən ibarət olan bərk və aerozolların kompleks bir qarışığıdır. Parçacıqlar ölçülərinə, formasına və kimyəvi tərkibinə görə çox müxtəlifdir və tərkibində qeyri -üzvi ionlar, metal birləşmələri, elementar karbon, üzvi birləşmələr və yer qabığından olan birləşmələr ola bilər. Partiküllər hava keyfiyyətinin tənzimlənməsi məqsədləri üçün diametrləri ilə müəyyən edilir. Çapı 10 mikron və ya daha az olan (PM10) ağciyərlərə inhalyasiya olunur və sağlamlığa mənfi təsir göstərə bilər. İncə hissəciklər 2.5 mikron və ya daha az diametrli hissəciklər olaraq təyin olunur (PM2.5). Buna görə PM2.5 PM10 -un bir hissəsini təşkil edir.PM10 və PM2.5 tez - tez fərqli emissiya mənbələrindən qaynaqlanır və eyni zamanda fərqli kimyəvi tərkibə malikdir. Benzin, yağ, dizel yanacağı və ya odun yanması nəticəsində yaranan emissiyalar, açıq havada olan PM2.5 çirkliliyinin çoxunu və PM10 -un əhəmiyyətli bir hissəsini meydana gətirir. PM10 həmçinin tikinti sahələrindən, poliqonlardan və kənd təsərrüfatından toz, meşə yanğınları və fırça/tullantıların yandırılması, sənaye mənbələri, açıq torpaqlardan küləklə sovrulan tozlar, tozcuqlar və bakteriya parçalarını ehtiva edir.

PM ya birbaşa mənbələrdən (əsas hissəciklərdən) yayıla bilər və ya kükürd dioksid (SO) kimi qazların (ikincil hissəciklərin) kimyəvi reaksiyaları nəticəsində atmosferdə əmələ gələ bilər.2), azot oksidləri (NOX) və bəzi üzvi birləşmələr. Bu üzvi birləşmələr həm ağaclar, həm də bitki örtüyü kimi təbii mənbələrdən, həm də sənaye prosesləri və motorlu nəqliyyat vasitələrinin egzozu kimi süni (antropogen) mənbələrdən yayıla bilər. PM10 və PM2.5, qapalı və ya ətraf mühit havasında mövcud ola bilən çirkləndirici növü olan müxtəlif ölçülü hissəcik maddələrinə (PM) aiddir . Hər termində „PM"-dən sonra gələn rəqəm hissəciklərin aerodinamik diametrini göstərir. Xüsusilə, PM10 aerodinamik diametri 10 mikrometrdən (μm) kiçik olan hissəcikləri, PM2.5 isə diametri 2.5 μm-dən kiçik olan hissəcikləri əhatə edir. Xüsusilə, PM10 qaba toz, PM2.5 isə incə toz kimi təsvir edir.PM10 : Qaba hissəciklər kimi də tanınan bunlar əsasən yollardan və ya tarlalardan küləklə sovrulan toz və əzmə və ya üyütmə əməliyyatları kimi fiziki proseslərdən əmələ gəlir. Təbii mənbələrə dəniz püskürtməsi, vulkanik kül və tozcuq daxil ola bilər. Digər tərəfdən, süni mənbələr əsasən kənd təsərrüfatı işlərini, sənaye tullantılarını və yol hərəkətini əhatə edir. Yanma prosesləri də PM10-u buraxır, lakin bunlar daha çox daha incə PM2.5 hissəciklərinin buraxılması ilə əlaqələndirilir.PM2.5 : Xırda hissəciklər kimi də tanınan PM2.5, qazıntı yanacaqlarının (benzin və dizel kimi) yandırılmasından əmələ gəlir və ümumiyyətlə nəqliyyat vasitələrindən, elektrik stansiyalarından, sənaye proseslərindən, yaşayış yerlərində odun yandırılmasından, meşə yanğınlarından, kənd təsərrüfatında yandırılmadan və bəzi sənaye proseslərindən yayılır. Onlar kükürd dioksidin (SO2) və ya azot oksidlərinin (Nox) sulfat və nitrat hissəciklərinə çevrilməsi və ya atmosferdə his və mürəkkəb üzvi maddələrin əmələ gəlməsi kimi qaz və kondensasiya proseslərindən əmələ gəlir.Daxili hissəciklərin mənbələrinə toz, tütün tüstüsü, şam və ya buxur yandırmaq, daxili yemək bişirmək (məsələn, zəif izolyasiya olunmuş mətbəxlərdə və ya ofis kafeteriyalarında) və printerlər və surətçıxarma maşınları kimi ofis avadanlıqlarından çıxan

tullantılar daxildir. Xüsusilə yüksək səmərəli hissəcik havası (HEPA) filtri ilə təchiz olunmuş tozsoranlardan istifadə etmədən təmizlik kimi fəaliyyətlər də hissəcikləri qarışdıra və yüksək PM səviyyələrinə səbəb ola bilər. Cədvəllər göstərir ki, bu EPA dəyəri mövcud ABŞ peşə qaydalarından xeyli aşağıdır. Aerosolun inhalyasiyasının qarşısı müvafiq standarta malik respiratorlardan istifadə etməklə alına bilər.Vulkanik hissəcik emissiyaları havalandırma dəliyindən müxtəlif məsafələrdə problemlər yaradır və ən yüksək hissəcik səviyyələri vulkandan onlarla km uzaqlıqdakı ərazilərdə aşkar edilə bilər (məsələn, Yano və başqaları, 1990). Bundan əlavə, vulkanların qazsızlaşdırılması zamanı havalandırma dəliyinə yaxın sulfat aerozolunun (SO42-) səviyyəsi təhlükəli dərəcədə yüksək ola bilər:Masaya, Nikaraqua: 2001-ci ilin dekabr ayında krater kənarında qeydə alınan maksimum sulfat konsentrasiyaları təxminən 165 μg m -3 (6 saatlıq orta) idi (Mather və b., 2003). Orta dəyər təxminən 125 μg m -3 idi ki, bu da ABŞ-ın PM 2.5 üçün 24 saatlıq ətraf mühit təlimatından demək olar ki, iki dəfə çoxdur , baxmayaraq ki, PM10 peşə təlimatları qədər yüksək deyil. Sulfat aerozolu daim PM 2.5 ölçü diapazonunda olduğundan və ehtimal ki, güclü turşulu olduğundan, bu ölçmələr kraterdə işləyən vulkanoloqlar və krater kənarındakı avtomobil dayanacağına gələn turistlər üçün mümkün sağlamlıq təhlükəsi olduğunu göstərir..PM10-a qısamüddətli məruz qalma əsasən astma və xroniki obstruktiv ağciyər xəstəliyi (XOAX) da daxil olmaqla tənəffüs yolları xəstəliklərinin pisləşməsi ilə əlaqələndirilmişdir ki, bu da xəstəxanaya yerləşdirilməyə və təcili yardım şöbəsinə müraciətlərə səbəb olmuşdur.PM2.5-ə uzunmüddətli (aylardan illərə qədər) məruz qalma, xüsusən də xroniki ürək və ya ağciyər xəstəlikləri olan insanlarda vaxtından əvvəl ölümlə və uşaqlarda ağciyər funksiyasının azalması ilə əlaqələndirilir. PM10-a uzunmüddətli məruz qalmanın təsirləri daha az aydındır, baxmayaraq ki, bir neçə tədqiqat uzunmüddətli PM10 məruz qalması ilə tənəffüs yolu ölümü arasında əlaqə olduğunu göstərir. Beynəlxalq Xərçəng Tədqiqatları Agentliyi (IARC) 2015-ci ildə açıq hava çirkliliyindəki hissəciklərin ağciyər xərçənginə səbəb olduğu qənaətinə gələn bir araşdırma dərc etdi.Dizel PM : Xüsusi hissəciklər sinfi. Dizel işlənmiş qazlardakı bərk material dizel hissəcikləri (DPM) kimi tanınır. DPM-in 90%-dən çoxunun diametri 1 μm-dən azdır (insan saçının diametrinin təxminən 1/70-i qədər) və buna görə də PM2.5-in bir alt dəstidir.Hava çirkliliyi hələ də ictimai səhiyyənin mühüm problemi olaraq qalır.

COMPOSİTİON OF PARTİCULATE MATTER AND ITS EFFECTS ON HUMAN HEALTH

Afsana Nasraddin Badalova
efsanealilaf@gmail.com
Zeynab Shahin Talibzade
z.talibzade@atu.edu.az
Azerbaijan Technological University

The objective of this report is to address one of the most pressing environmental. Challenges of the modern era: atmospheric pollution caused by particulate matter (PM) and its detrimental effects on the human body. The primary aim of the study is to analyze the physicochemical composition of aerosol particles and to scientifically investigate their interactions with various organ systems.The research classifies the sources of PM10 (particles with a diameter of up to 10 microns) and the more hazardous PM2.5 (particles with a diameter of 2.5 microns or less). It has been established that the composition of these substances—consisting of heavy metals, sulfates, nitrates, and combustion by-products—is directly formed as a result of industrial emissions and transport activities.The

thesis further analyzes the proportionality between particle size and the degree of penetration into the human organism. Consequently, the study proves the critical role that particulate matter plays in stimulating chronic respiratory diseases, cardiovascular pathologies, and systemic inflammatory processes.
Keywords: particulate matter, human health, environmental

AĞIR METALLARLA ÇİRKLƏNMİŞ TORPAQLARDA GÜBRƏLƏRİN BİOAKKUMULYASİYA PROSESİNƏ TƏSİRİ

Lamiyə Şaxəli qızı Xəlilova
l.xelilova@list.ru
Gülnarə Asib qızı Əsədova
g.asadova@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Giriş. Biosferin əsas tərkib komponentlərindən olan torpaq, üzvi və mineral maddələrin əmələ gəldiyi, toplandığı və maddələr dövranına qoşulduğu bir məkan olmaqla yanaşı, canlı orqanizmlərin məskunlaşdığı bir mühitdir. Məlumdur ki, torpaq Yerin üst qatında müxtəlif canlı orqanizmlərin uzunmüddətli həyat fəaliyyəti nəticəsində əmələ gələn münbit bir təbəqədir. Son zamanlar dünya əhalisinin sayca artması, onların müxtəlif xarakterli təsərrüfat fəaliyyətlərinin genişlənməsi torpaqlara neqativ təsirin güclənməsi ilə xarakterizə olunmaqdadır. Başqa sözlə desək, ətraf mühitə antropogen təsirin güclənməsi, eyni zamanda torpaqların deqradasiyasına səbəb olur ki, bu da formalaşan bioekoloji tarazlıq halının pozulmasına gətirib çıxarmışdır.

Torpaq ehtiyatlarının deqradasiyasında onun texnogen yükünün artması, eləcə də torpaqların ağır metallarla çirkləndirilməsi ekoloji vəziyyətin gərginləşməsində xüsusi bir hal kimi qeyd olunmalıdır. Nəzərə alsaq ki, Azərbaycan Respublikasında "sənayeləşmiş şəhər" statusu şamil olunacaq Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan kimi şəhərləri uzun illərdir ki, texnogen çirklənməyə məruz qalmaqdadır. Bu istiqamətdə aparılacaq tədqiqatların zəruriliyinə ehtiyac olduğunu nəzərə alaraq torpaqda mineral, üzvi və üzvi-mineral gübrələmə sisteminin mikroorqanizmlərə təsirinin öyrənilməsi tədqiqatların başlıca vəzifələrindən biridir.

Aparılan işin məqsədi müxtəlif aqrosenozlar altında gübrələrin mikroorqanizmlərin say və növ tərkibinə təsiri və güclü texnogen və kimyəvi çirklənməyə məruz qalan Sumqayıt şəhəri ərazisində becərilən bitkilərin və bu torpaqlarda məskunlaşan mikroorqanizmlərin ağır metalları akkumulyasiya etmə xüsusiyyətlərinin tədqiqindən ibarət olmuşdur.

Material və metodlar. Tədqiqat ərazisi olaraq Abşeronun boz-qonur torpaqları və Sumqayıt şəhərində kimya zavodları yerləşən sahələr seçilmişdir.Tədqiqatların gedişində istifadə olunan torpaq nümunələri kimya zavodları yerləşən ərazilərdən, yer səthindən 0-10 sm və 0-20 sm dərinliklərdən götürülmüşdür. Əldə olunan torpaq nümunnələrində ağır metalların miqdarı mass-spektrofotometr üsulu ilə təyin olunmuşdur. Ağır metallarla çirkləndirilmiş torpaqlarda yayılan müxtəlif mikroorqanizmlərin növ müxtəlifliyi isə mikrobiologiyada geniş istifadə olunan metodlar əsasında aparılmışdır. Mineral gübrələr sahələrə təsiredici maddə hesabı ilə verilmişdir.

Cədvəl.1. Gübrələrin boz-qonur torpaqlarda məskunlaşan mikroorqanizmlərin inkişaf səviyyəsi və say tərkibinə təsiri

№	Gübrələrin miqdarı, kq/ha	Mikroorqanizmlərin inkişaf səviyyəsi	Mikroorqanizmlərin say tərkibi, kəv/q	
			Bakteriyalar	Göbələklər
1	Nəzarət (gübrəsiz)	Normal	$4,5\text{-}5,0 \cdot 10^6$	$2,0\text{-}2,5 \cdot 10^4$
2	Peyin 40 t/ha	ən yaxşı	$6,5\text{-}8,5 \cdot 10^6$	$3,5\text{-}4,5 \cdot 10^4$
3.	Peyin (20 t/ha) + $N_{60}P_{90}K_{120}$	Yaxşı	$5,5\text{-}7,0 \cdot 10^6$	$3,0\text{-}4,0 \cdot 10^4$
4.	Peyin (20 t/ha) $+N_{90}P_{100}K_{140}$	Orta	$3,5\text{-}4,5 \cdot 10^6$	$2,0\text{-}3,0 \cdot 10^4$
5.	$N_{120}P_{160}K_{180}$	zəif	$2,0\text{-}3,0 \cdot 10^6$	$1,5\text{-}2,0 \cdot 10^4$

Nəticələr və onların müzakirəsi. Aparılan tədqiqatlar nəticəsində müəyyənləşdirilmişdir ki, kimyəvi çirklənməyə məruz qalan torpaqların ağır metallardan təmizlənməsində müxtəlif yanaşmalardan, o cümlədən bioloji üsullardan istifadə oluna bilər. Bu zaman torpağın hansı tipdə olması, onun fiziki-kimyəvi xassələri, torpağın floristik tərkibi, orada formalaşan müxtəlif canlı orqanizm biotalarının növ müxtəlifliyi, bikilərin ağır metallarla selektiv münasibəti və mikroorqanizmlərin ağır metalları akkumulyasiya etməsi xüsusiyyətləri aparılan tədqiqatların əsas hissəsini təşkil etməlidir. Qeyd edək ki, ağır metallarla çirklənmiş torpaq sahələrinin təmizlənməsində həm bitkiərdən, həm də mikroorqanizmlərdən, eləcə də onlar arasındakı qarşılıqlı münasibətlərdən düzgün istifadə olunmalıdır.

Tədqiqatın gedişindən məlum olmuşdur ki, küknar ağacı və ya çuğundur bitkisi ətraf mühitin qeyri-əlverişli şəraitinə, başqa sözlə, torpaqların ağır metallarla çirklənməsi zamanı yaranan stres vəziyyətə məruz qaldıqda əlavə qida mənbələrinə və enerji ehtiyatlarına böyük ehtiyac duyurlar. Əks təqdirdə onlar intoksikasiya olunaraq məhv olurlar.

Məlum olmuşdur ki, üzvi və ya mineral gübrələrin ayrı-ayrılıqda və onların müxtəlif kombinasiyalarda qarışığının torpağa verilməsi ağır metalların bitkilər tərəfindən udulmasının və ya mikroorqanizmlər tərəfindən akkumulyasiyasının intensivliyinə bilavasitə təsir göstərir. Bu isə bitkilərin və ya mikroorqanizmlərin böyümə və inkişaf proseslərində özünü qabarıq şəkildə biruzə verir.

EFFECT OF FERTILIZERS ON THE BIOACCUMULATION PROCESS IN HEAVY METAL–CONTAMINATED SOILS

Lamiya Shakhali gizi Khalilova
l.xelilova@list.ru
Gulnara Asib gizi Asadova
g.asadova@atu.edu.az
Azerbaijan Technological University

Bioaccumulation of the heavy metals by the plants and microorganisms was investigated under the various agrocenosis and the contaminated gray-brown soils. It was determined that an application of organic fertilizers at 20-40 t/h norms on the phone of different norms and ratios of mineral fertilizers (with nitrogen, phosphorus and potassium) improved a development level of microorganisms (bacteria and fungus) by increasing their number structure.

Keywords: agrosenoses, polluted soil, heavy metals, bioaccumulation process, mikroorganisms

TƏBİİ FƏLAKƏTLƏRİN EKOSİSTEMLƏR VƏ TƏBİİ RESURSLARA TƏSİRİ

Elnarə Məhsim Məmmədova
Zeynəb Şahin Talıbzadə
z.talibzade@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Təbii fəlakətlər Yer kürəsinin geodinamik və iqlim sistemlərinin təbii inkişaf proseslərinin nəticəsi olmaqla yanaşı, son onilliklərdə antropogen təsirlərin güclənməsi fonunda daha tez-tez və daha intensiv şəkildə baş verən ekoloji hadisələrə çevrilmişdir. Zəlzələlər, vulkan püskürmələri, daşqınlar, quraqlıqlar, meşə yanğınları, sürüşmələr və fırtınalar kimi təbii fəlakətlər ekosistemlərin dayanıqlığını zəiflədir, bioloji müxtəlifliyi azaldır və təbii resursların keyfiyyət və kəmiyyət göstəricilərinə ciddi təsir göstərir. Bu baxımdan təbii fəlakətlərin ekosistemlərə və təbii resurslara təsirinin elmi əsaslarla araşdırılması dayanıqlı inkişaf və ekoloji təhlükəsizlik baxımından mühüm əhəmiyyət kəsb edir.

Ekosistemlər canlı orqanizmlər və onların yaşadığı mühit arasında qarşılıqlı əlaqələrdən formalaşan mürəkkəb təbii sistemlərdir. Bu sistemlər müəyyən ekoloji tarazlıq şəraitində fəaliyyət göstərir və enerji axını, maddələr dövranı, trofik strukturlar və biotik-abiotik əlaqələr vasitəsilə sabitliyini qoruyur. Lakin təbii fəlakətlər bu tarazlığı pozaraq ekosistemlərin struktur və funksional xüsusiyyətlərində ciddi dəyişikliklərə səbəb olur. Məsələn, meşə yanğınları geniş ərazilərdə bitki örtüyünü məhv edərək karbon dövranını pozur, daşqınlar torpaq və su ekosistemlərinin morfologiyasını dəyişdirir, quraqlıqlar isə məhsuldarlığın kəskin azalmasına və səhralaşma proseslərinin sürətlənməsinə gətirib çıxarır.[2]

Təbii fəlakətlərin ən mühüm nəticələrindən biri bioloji müxtəlifliyin azalmasıdır. Növlərin yaşayış mühitinin məhv olması, qida zəncirinin pozulması və ekosistemlərin parçalanması bir çox bitki və heyvan növlərinin məhvinə və ya miqrasiyasına səbəb olur. Xüsusilə endemik növlər fəlakətlərə qarşı daha həssasdır və onların itirilməsi ekosistemlərin adaptasiya qabiliyyətini zəiflədir. Bioloji müxtəlifliyin azalması ekosistemlərin özünübərpa potensialını aşağı salır və uzunmüddətli ekoloji balanssızlıq yaradır.[3]

Bundan əlavə, təbii fəlakətlər ekosistemlərin strukturunu ciddi şəkildə dəyişdirir. Meşə sahələrinin məhv olması, torpaq örtüyünün eroziyaya uğraması, çay və göllərin lil və çöküntülərlə dolması ekosistemlərin fiziki quruluşunu dəyişdirərək onların funksional fəaliyyətini məhdudlaşdırır. Nəticədə ekosistem xidmətləri — o cümlədən karbon saxlanması, suyun təmizlənməsi, iqlimin tənzimlənməsi və torpağın məhsuldarlığının qorunması — zəifləyir.

Təbii resurslar, xüsusilə torpaq, su, meşə və mineral ehtiyatlar, təbii fəlakətlərin birbaşa təsirinə məruz qalır. Torpaq resursları daşqınlar nəticəsində yuyulur, quraqlıqlar zamanı şoranlaşır və sürüşmələr nəticəsində tamamilə yararsız hala düşə bilər. Bu proseslər kənd təsərrüfatı məhsuldarlığını azaldır və ərzaq təhlükəsizliyinə mənfi təsir göstərir. Su resursları isə daşqınlar zamanı çirklənir, quraqlıqlar zamanı azalır və sürüşmələr nəticəsində su hövzələrinin struktur dəyişikliklərinə məruz qalır. Bu da içməli su təminatında ciddi problemlər yaradır.[1]

Meşə və biomassa resursları da təbii fəlakətlərdən ciddi zərər görür. Meşə yanğınları geniş ərazilərdə ağac örtüyünü məhv edərək karbon emissiyalarını artırır və iqlim dəyişikliyini sürətləndirir. Eyni zamanda, yaşayış mühitlərinin itirilməsi fauna növlərinin sayının azalmasına səbəb olur. Mineral və enerji resursları isə əsasən zəlzələlər və sürüşmələr nəticəsində infrastruktur zədələnmələri ilə üzləşir, bu da iqtisadi itkilərin artmasına gətirib çıxarır.[4]

Təbii fəlakətlər və iqlim dəyişmələri arasında qarşılıqlı əlaqə mövcuddur. Bir tərəfdən iqlim dəyişmələri daşqınların, quraqlıqların və ekstremal hava hadisələrinin tezliyini artırır,

digər tərəfdən isə meşə yanğınları və torpaq deqradasiyası kimi fəlakətlər atmosferə istixana qazlarının emissiyasını yüksəldərək qlobal istiləşməni gücləndirir. Bu qarşılıqlı təsir ekoloji riskləri daha da artırır və təbii sistemlərin dayanıqlığını zəiflədir.[5]

Bu problemlərin həlli üçün dayanıqlı idarəetmə yanaşmalarının tətbiqi vacibdir. Ekosistem əsaslı adaptasiya tədbirləri, o cümlədən meşələrin bərpası, bataqlıq ərazilərin qorunması və sahil zonalarının möhkəmləndirilməsi fəlakət risklərini azalda bilər. Müasir coğrafi informasiya sistemləri (CİS) və məsafədən zondlama texnologiyaları isə risklərin qiymətləndirilməsi, monitorinq və erkən xəbərdarlıq sistemlərinin yaradılmasında mühüm rol oynayır. Bundan əlavə, su və torpaq resurslarının inteqrasiya olunmuş idarə edilməsi, eləcə də meşə təsərrüfatında davamlılıq prinsiplərinin tətbiqi ekosistemlərin bərpasına və uzunmüddətli dayanıqlığın təmin olunmasına şərait yaradır.[1]

Təbii fəlakətlər ekosistemlərin struktur və funksional xüsusiyyətlərini pozaraq təbii resursların deqradasiyasına və bioloji müxtəlifliyin azalmasına səbəb olur. Bu təsirlər həm lokal, həm də qlobal səviyyədə ekoloji və iqtisadi nəticələr doğurur. Dayanıqlı inkişafın təmin olunması üçün ekosistemlərin qorunması, müasir texnologiyaların tətbiqi və təbii resursların rasional idarə olunması strateji əhəmiyyət daşıyır.

ƏDƏBİYYAT

1. Smith, K. (2013). Environmental Hazards: Assessing Risk and Reducing Disaster. Routledge.
2. Cutter, S. L. (2018). Hazards, Vulnerability and Environmental Justice. Routledge.
3. Wisner, B., Blaikie, P., Cannon, T., & Davis, I. (2004). At Risk: Natural Hazards, People's Vulnerability and Disasters. Routledge.
4. Oliver-Smith, A., & Hoffman, S. M. (Eds.). (2002). Catastrophe & Culture: The Anthropology of Disaster. School of American Research Press.
5. Pielke, R. A. (2010). The Climate Fix: What Scientists and Politicians Won't Tell You About Global Warming. Basic Books.

IMPACT OF NATURAL DISASTERS ON ECOSYSTEMS AND NATURAL RESOURCES.

Elnara Mahsim Mammadova
elnaramammadova24@icloud.com
Zeynab Shahin Talibzade
z.talibzade@atu.edu.az
Azerbaijan Technological University

This thesis examines the impacts of natural disasters on ecosystems and natural resources, highlighting how events such as floods, droughts, wildfires, and earthquakes disrupt ecological balance and reduce biodiversity. It shows that these disasters degrade soil, water, and forest resources while weakening ecosystem services and accelerating environmental decline. The study also emphasizes the importance of sustainable management approaches and modern technologies to reduce risks and enhance ecosystem resilience.

Keywords: Natural disasters, ecosystems, biodiversity loss, natural resources degradation, sustainable management

EKOLOJİ MÜHİT DƏYİŞKƏNLİYİ ŞƏRAİTİNDƏ ARI AİLƏLƏRİNİN İDARƏ OLUNMASINDA İNNOVATİV YANAŞMALAR

Samir Həsən oğlu Mahmudov
s.mahmudov@atu.edu.az
Fərid Xəqani oğlu Novruzzadə
Azərbaycan Texnologiya Universiteti
Heyvandarlıq və Balıqçılıq Elmi Tədqiqat İnstitutu

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən hər il keçirilən statistik müşahidənin nəticələrinə əsasən, 2025-ci ildə arıçılıqla məşğul olan 29456 təsərrüfatda mövcud olan 545,1 min arı ailəsindən 4757,0 ton bal, 122,9 ton mum, 7,5 ton vərəmum, 14,9 ton güləm və 254,0 kq arı südü əldə edilmişdir. İstehsalçılar üzrə balın 1 kiloqramının orta satış qiyməti 28,5 manat, mumun - 17,7 manat, vərəmumun - 135,3 manat, güləmin - 154,6 manat təşkil etmiş, arı südünün 1 qramının orta satış qiyməti isə 6,8 manat olmuşdur. 2024-cü illə müqayisədə 2025-ci ildə arı ailələrinin sayı 5,9 faiz, arıçılıqla məşğul olan təsərrüfatların hər birinə orta hesabla düşən arı ailələrinin sayı 2,1 faiz, bal istehsalı 7,9 faiz, mum istehsalı 6,9 faiz, vərəmum istehsalı 12,2 faiz, güləm istehsalı 11,2 faiz azalmış, arı südü istehsalı isə 6,2 faiz artmışdır [1].

Aparılan təhlillər onu deməyə əsas verir ki, azalmanın əsas səbəbi arı zərərvericiləri və xəstəliklərinin yayılması olmuşdur. Buna səbəb kimi qlobal iqlim dəyişikliyi, davamlı yağıntı və quraqlıq, arı zərərvericiləri ilə düzgün aparılmayan mübarizələr olmuşdur. Burada əsas məsələ ailələrdə yumurtasız dönəmin olmaması səbəbindən şanların qapalı gözlərində gizlənərək mübarizədən "qorunmuş" zərərvericilər olmuşdur. Ona görə də süni yolla açıq şanlı gözlərin olması ekoloji təsirə mühəndis qurğusu ilə müsbət nəticələrin alınmasında zəmin yaradır. Burada əsas məsələ ana arının izalyatora salınaraq təcrid olunması ilə yumurtaqoymada fasilə yaratmaqdır. Ana arının təcrid olunması mübahisəli bir mövzudur və koloniyanın həyatının müxtəlif mərhələlərində effektivliyi baxımından tam öyrənilməmişdir. Lakin aparılan təcrübələr və tədqiqatlar bal axını zamanı və qışlama dövründə ana arının təcrid olunmadığı digər koloniyalarla müqayisədə bu üsul təsirli olduğunu sübut etmişdir. Ana arının təcrid edilməsi, bal arılarından götürülmüş bir texnikadır və koloniyanın həyatının müəyyən dövrlərində ana arısının bala qoymaq qabiliyyətindən məhrum edilməsini nəzərdə tutur. Fərqli bal bitkiləri, böyümə mövsümləri, koloniya gücü, arıçıların məqsədləri və arıçılıq texnologiyaları ilə hər bir iqlim zonasının təcrid vaxtını və müddətini təyin edərkən nəzərə alınmalı olan özünəməxsus xüsusiyyətləri var. Əvvəlcə ana arısının təcrid edilməsi, koloniyanın bala dinamikasına təsir göstərməklə bal məhsuldarlığını artırmaq və qışda qida istehlakını azaltmaq məqsədi daşıyırdı. Təcrübə toplandıqca eyni məqsədə çatmaq üçün əlavə yollar ortaya çıxdı. Bunlara məhsuldarlığın artırılması, yayda ömrünün uzadılması və balın inkişafına və məhsuldarlığına geniş nəzarət yolu ilə kimyəvi zərərvericilərə və xəstəliklərə qarşı mübarizədən asılılığın azaldılması daxildir. Ana arıların təcrid olunmasının məqsədi işçi arıların potensialından daha ağıllı şəkildə istifadə etmək, onların ömrünü uzatmaq, güclü uçan arılar yetişdirmək və bal istehsalını əhəmiyyətli dərəcədə artırmaqdır. Bal axını və qış dövründə ana arıların təcrid olunması ilə bağlı çoxlu qızğın müzakirələr aparılıb. Kovalyov, Malıxin, Xmaranın metodları var [2, 3]. Milenin metodu bizim üçün ən faydalı olduğunu sübut edib. İzolyator, balanın və qış küçələrinin ölçülərini pozmadan və ya bitişik pətəkləri deformasiya etmədən bütün stasionar və səyyar arıxanalar üçün pətək dizaynlarında istifadə edilə bilər. O, pətəkdə daimi olaraq qalır və adi pətək kimi istifadə edilə bilər. Yuvaya ana arını yerləşdirərkən, o, yuvanın mərkəzinə, boş olan isə xarici yemləmə çərçivəsinin yerinə qoyulur. Ana arını qəfəs istifadə edilərək tutur və buraxma pəncərəsi açılaraq buraxırlar. İzolyator vaxtaşırı, mövsümi olaraq, payız və qış aylarında ana arının yumurta qoymaq üçün pətəklərə çıxışını məhdudlaşdırmaq üçün xidmət edir. Davamlı nəsilvermə üsulları ilə birləşdirildikdə, arıçının arı koloniyalarının idarə olunmasının səmərəliliyini artırmaq qabiliyyəti əhəmiyyətli dərəcədə artır. Bal istehsalını maksimum dərəcədə artırmaq və varroa gənəsinin yayılmasının qarşısını almaq üçün təcrid mövsümdə bir və ya iki dəfə aparılır. Bal istehsalını maksimum dərəcədə artırmaq üçün ana

arılar aktiv ifrazatların başlamasından 5-6 gün əvvəl yumurta istehsalından təcrid olunur və bitməsindən 3 gün əvvəl buraxılır. Profilaktik təcrid, qışlama nəsilləri böyüməyə başlamazdan əvvəl, balalar tam ortaya çıxana qədər ən azı 25 gün davam edir və ardından müəyyən edilmiş metoddan istifadə edərək gənə məhv edilir. Mövsümi təcrid ilk əsas bal bitkisindən bal axınının başlamasından 5-6 gün əvvəl aparılır və qışlama nəsilləri böyüyənə qədər davam edir. May-iyul aylarında yırtıcı quşlardan, həşəratlardan və hava hadisələrindən yaranan təbii itkiləri kompensasiya etmək üçün işçi arıların sayının saxlanılması hər on günlük müddətdə bir tam qapaqlı bal çərçivəsi ilə həyata keçirilir. (Bu, bal yığımının aparılmadığı koloniyalarda bal istehsalına əsaslanır.) Davamlı istiləşmənin və ilk tozcuq mövsümlərinin başlaması ilə yuvanın kənarına izolyatorlar quraşdırılır və koloniya inkişaf etdirmə texnikalarının tam spektri tətbiq olunmaqla açılır. İzolyasiya ana arıların yumurta istehsalına və arıların süd vəzilərinə müsbət təsir göstərir.

Nəticə. Aparılan tədqiqatlar və müşahidələr, təcrübələr, ailənin həyatının müxtəlif dövrlərində kraliçaları təcrid etmə metodunun olduqca təsirli olduğu qənaətinə gəlməyə imkan verdi. Qışda sağ qalmanın yaxşılaşması və xəstəlik hallarının azalması ilə yanaşı, ən vacib amillərdən biri bal axını zamanı məhsuldarlığın artmasıdır. Hər bir arıçı arı təsərrüfatını mümkün qədər gəlirli etməyə, xərcləri minimuma endirməyə və gəliri artırmağa çalışır. Təcrid üsulu bu baxımdan çox faydalıdır. Bal istehsalı artır, qışda yem istehlakı azalır və xəstəlik halları da azalır, buna görə də müxtəlif müalicələrə ehtiyac azalır.

ƏDƏBİYYAT

1. https://www.stat.gov.az/news/index.php?lang=az&id=6634&fbclid=IwY2xjawRFFedleHRuA2FlbQIxMABicmlkETFaZzh6YllTR0g3Y1FpTjYxc3J0YwZhcHBfaWQQMjIyMDM5MTc4ODIwMDg5MgABHtJgI4dFAhXldXl7wVk6wKPgu4zeOimZjZhaLctk1yy5Tdmfy6cSEnXWH_AV_aem_kgXVF_JEbA-DGCrxn-aXyw
2. Bal arılarının xəstəlikləri və zərərvericiləri: universitetlər üçün dərslik / D. G. Latypov, R. R. Timerbaeva, E. G. Kirillov. - Sankt-Peterburq: Lan, 2022. - 288 s.
3. V.E. Malıxin. İllik dövrdə ana arıların təcrid olunması - 2020 – 80 səh.

INNOVATIVE APPROACHES TO THE MANAGEMENT OF BEE FAMILIES IN THE CONDITIONS OF ECOLOGICAL ENVIRONMENTAL VARIABILITY

Samir Hasan oglu Mahmudov
s.mahmudov@atu.edu.az
Farid Khagani oglu Novruzzade
Azerbaijan Technologyical University
Scientific Research Institute of Animal Husbandry and Fisheries

The purpose of isolating queens is to use the potential of worker bees more wisely, extend their lifespan, breed strong flying bees, and significantly increase honey production. There have been many heated discussions about the honey flow and the isolation of queens during the winter period. There are methods by Kovalev, Malykhin, Khmara. Milen's method has proven to be the most useful for us. The isolator can be used in hive designs for all stationary and mobile apiaries without violating the dimensions of the brood and winter streets or deforming adjacent hives. It remains permanently in the hive and can be used as a regular hive. When placing the queen in the nest, it is placed in the center of the nest, and the empty one is placed in place of the external feeding frame. The queen is held using a cage and released by opening the release window. The isolator serves to periodically, seasonally, in the autumn and winter months to limit the access of the queen to the hives for laying eggs.

Keywords: queen bee insulator, ecological engineering, global climate change, drought, environmental conditions.

İNSAN HƏYATINDA TƏHLÜKƏSİZLİK QAYDALARININ ƏHƏMİYYƏTİ

Sevil Hüseyn qızı Hüseynova
huseynova-1965@mail.ru
Azərbaycan Texnologiya Universiteti

İnsan həyatının qorunması və sağlamlığın təmin edilməsi hər bir cəmiyyətin əsas məqsədlərindən biridir. Bu baxımdan təhlükəsizlik qaydalarına riayət etmək yalnız fərdi məsuliyyət deyil, həm də sosial borc kimi qiymətləndirilir. Təhlükəsizlik qaydaları insanların gündəlik həyatında rast gəlinən risklərin minimuma endirilməsinə, qəza və bədbəxt hadisələrin qarşısının alınmasına xidmət edir [1].

Müasir dövrdə texnologiyanın sürətli inkişafı ilə yanaşı, potensial təhlükə mənbələri də artmışdır. Elektrik cihazları, nəqliyyat vasitələri, istehsalat avadanlıqları və kimyəvi maddələr düzgün istifadə edilmədikdə ciddi təhlükələr yarada bilər. Məsələn, elektrik təhlükəsizliyi qaydalarına əməl olunmaması yanğınlara və ağır xəsarətlərə səbəb ola bilər. Eyni zamanda, yol hərəkəti qaydalarının pozulması dünyada ölüm hallarının əsas səbəblərindən biri hesab olunur [2].

Təhlükəsizlik qaydalarının əhəmiyyəti yalnız fiziki sağlamlıqla məhdudlaşmır. Psixoloji təhlükəsizlik də insanın rifahı üçün vacib amildir. İnsan özünü təhlükəsiz hiss etdikdə onun əmək məhsuldarlığı artır, stress səviyyəsi azalır və sosial münasibətləri daha sağlam olur [5].

Fövqəladə hallar zamanı düzgün davranış qaydalarını bilmək həyat qurtaran amillərdən biridir. Zəlzələ, yanğın, sel və digər təbii fəlakətlər zamanı panikaya qapılmamaq və əvvəlcədən öyrənilmiş təhlükəsizlik tədbirlərinə əməl etmək itkilərin azalmasına kömək edir [3]. Bu səbəbdən maarifləndirmə və təlimlər təhlükəsizlik mədəniyyətinin formalaşmasında xüsusi əhəmiyyət daşıyır.

Eyni zamanda, uşaqlara erkən yaşlardan təhlükəsizlik qaydalarının öyrədilməsi gələcəkdə daha məsuliyyətli və ehtiyatlı fərdlərin formalaşmasına şərait yaradır. Məişətdə, məktəbdə və ictimai yerlərdə təhlükəsiz davranış vərdişlərinin aşılanması uzunmüddətli perspektivdə cəmiyyətin ümumi təhlükəsizlik səviyyəsini yüksəldir [4].

Bundan əlavə, informasiya texnologiyalarının geniş yayılması ilə informasiya təhlükəsizliyi də aktual məsələyə çevrilmişdir. İnternetdən düzgün istifadə etməmək şəxsi məlumatların oğurlanmasına, kiberhücumlara və digər risklərə səbəb ola bilər. Bu baxımdan fərdlərin rəqəmsal təhlükəsizlik qaydalarını bilməsi və tətbiq etməsi müasir dövrdə zəruri hesab olunur [5].

İstehsalat və iş mühitində təhlükəsizlik qaydalarına əməl olunması işçilərin sağlamlığının qorunmasında mühüm rol oynayır. Əmək mühafizəsi qaydalarına riayət edilməsi istehsalat qəzalarının qarşısını alır, iş yerlərində təhlükəsiz mühit yaradır və əmək məhsuldarlığını artır [4]. Bu sahədə beynəlxalq standartların tətbiqi və işçilərin mütəmadi təlimatlandırılması xüsusi əhəmiyyət daşıyır.

Ekoloji təhlükəsizlik də insan həyatının ayrılmaz hissəsidir. Ətraf mühitin çirklənməsi, su və hava keyfiyyətinin pisləşməsi insanların sağlamlığına birbaşa təsir göstərir. Bu səbəbdən ekoloji təhlükəsizlik qaydalarına riayət etmək və təbiəti qorumaq hər bir insanın vəzifəsidir. Təmiz ətraf mühit sağlam gələcəyin əsas şərtlərindən biridir [5].

Nəticə etibarilə, təhlükəsizlik qaydalarına əməl etmək insan həyatının qorunmasının əsas şərtlərindən biridir. Bu qaydalar insanların gündəlik fəaliyyətini daha təhlükəsiz edir, riskləri azaldır və sağlam cəmiyyətin formalaşmasına töhfə verir. Hər bir fərd bu qaydalara riayət etməklə həm özünü, həm də ətrafındakıları mümkün təhlükələrdən qoruya bilər.

ƏDƏBİYYAT

1. Ümumdünya Səhiyyə Təşkilatı (WHO). Road Safety Report, 2023.
2. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi.
3. Təhlükəsizlik qaydaları və fövqəladə hallarda davranış, Bakı, 2022.
4. İLO (Beynəlxalq Əmək Təşkilatı). Occupational Safety and Health Guidelines, 2021.
5. A.Məmmədov. Həyat fəaliyyətinin təhlükəsizliyi, Bakı, 2020.

THE IMPORTANCE OF SAFETY RULES IN HUMAN LIFE

Sevil Huseyn qızı Huseynova
huseynova-1965@mail.ru
Azerbaijan Technological University

Safety rules are essential for protecting human life and ensuring overall well-being. They help prevent accidents, injuries, and fatalities in daily life, whether at home, on the road, or at work [1][2]. Following safety measures also supports psychological well-being, reduces stress, and promotes responsible behavior [5]. Teaching children safety rules and providing emergency preparedness training can save lives during natural disasters such as earthquakes, floods, or fires [3]. Modern life requires awareness of digital safety, workplace safety, and environmental protection to maintain a healthy and secure society [4][5]. Adhering to safety rules enables individuals to protect themselves and others, fostering a safer and more responsible community.

Keywords: Human life safety, safety rules, emergency preparedness, workplace safety, road safety, digital safety, environmental safety


TƏBİİ ƏRAZİLƏRDƏ LANDŞAFTLARIN KONSERVASİYASI ÜZRƏ MÜASİR YANAŞMALAR VƏ METODLAR

Gülnarə Asib qızı Əsədova
g.asadova@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Müasir dövrdə təbii ərazilərin mühafizəsi qlobal ekoloji siyasətin əsas istiqamətlərindən birinə çevrilmişdir. İnsan fəaliyyətinin genişlənməsi nəticəsində təbii mühitdə baş verən dəyişikliklər landşaftların strukturunu zəiflətmiş, onların funksional sabitliyinə mənfi təsir göstərmişdir. Bu səbəbdən landşaftların qorunması artıq yalnız mühafizə tədbiri deyil, həm də ekoloji təhlükəsizliyin təmin olunması vasitəsi kimi qiymətləndirilir [1].

Yeni yanaşmaların əsasını sistemli baxış təşkil edir. Landşaft yalnız ayrı-ayrı komponentlərin cəmi kimi deyil, qarşılıqlı əlaqədə olan vahid təbii kompleks kimi öyrənilir. Bu yanaşma Ekologiya və Landşaftşünaslıq sahələrinin qarşılıqlı əlaqəsi əsasında inkişaf edir və daha səmərəli idarəetmə qərarlarının qəbuluna imkan yaradır [2].

Sxem 1. Təbii ərazilərdə landşaftların konservasiyası üzrə müasir yanaşmalar:



Müasir təcrübədə geniş istifadə olunan istiqamətlərdən biri ***ekosistem yönümlü*** yanaşmadır. Bu yanaşma landşaft daxilində mövcud olan bütün təbii proseslərin və onların qarşılıqlı təsirlərinin nəzərə alınmasını tələb edir. Nəticədə həm təbii tarazlıq qorunur, həm də bioloji müxtəlifliyin azalmasının qarşısı alınır. Digər tərəfdən, dəyişən ekoloji şəraitə uyğunlaşmanı təmin edən ***adaptiv idarəetmə modeli*** də mühüm əhəmiyyət kəsb edir. Bu model idarəetmə tədbirlərinin daim yenilənməsini və real vəziyyətə uyğunlaşdırılmasını nəzərdə tutur.

Texnoloji inkişaf landşaftların qorunması sahəsində yeni imkanlar açmışdır. Xüsusilə coğrafi informasiya sistemləri və uzaqdan müşahidə üsulları ərazilərdə baş verən dəyişikliklərin izlənməsi üçün geniş tətbiq olunur. Bu vasitələr ekoloji vəziyyətin təhlilinə, risklərin qiymətləndirilməsinə və gələcək dəyişikliklərin proqnozlaşdırılmasına imkan yaradır [3].

Bununla yanaşı, zədələnmiş landşaftların bərpası istiqamətində də mühüm addımlar atılır. Torpaqların münbitliyinin artırılması, bitki örtüyünün yenidən formalaşdırılması və su balansının bərpası kimi tədbirlər ekosistemlərin əvvəlki vəziyyətinə yaxınlaşdırılmasına xidmət edir. Bu proseslər həm təbiətin bərpası, həm də iqtisadi fəaliyyət üçün əlverişli şəraitin yaradılması baxımından əhəmiyyətlidir [4].

Müasir yanaşmalarda iqlim amili də xüsusi diqqət mərkəzindədir. İqlim dəyişikliyi landşaftların sabitliyinə birbaşa təsir göstərərək eroziya, səhralaşma və bioloji müxtəlifliyin azalması kimi problemləri gücləndirir. Buna görə də mühafizə strategiyalarında iqlimə uyğunlaşma tədbirlərinin nəzərə alınması vacibdir [2].

Sonda qeyd etmək olar ki, landşaftların qorunması çoxşaxəli və davamlı yanaşma tələb edən bir prosesdir. Elmi biliklərin tətbiqi, müasir texnologiyaların istifadəsi və cəmiyyətin fəal iştirakı bu sahədə uğurlu nəticələrin əldə olunmasının əsas şərtləridir.

ƏDƏBİYYAT

1. Məmmədov, R. və b. (2021–2023). Azərbaycanın təbii landşaftları və onların mühafizəsi. Bakı: Elm nəşriyyatı.
2. Hüseynov,S.(2022). Ekoloji təhlükəsizlik və landşaftların qorunması problemləri. Bakı.
3. Asadova G., Amiraslanov F., Mammadova Ye., Mammadov Kh., 2025 №69, pp. 3-6. Monitoring spatial changes in water resources with CİS
DOİ: https://doi.org/10.5281/zenodo.17046545

https://www.lyon-science.com/wp-content/uploads/2025/09/Lyon_69.pdf
4. Iskandarova T., Asadova G., Aliyeva Ye., Mahmudov S., Amiraslanov F. No 162 (2025). pp. 8-13. Monitoring the impact of climate change on local ecosystems. DOI: 10.5281/zenodo.15621839 The-scientific-heritage-No-162-162-2025.pdf

MODERN APPROACHES AND METHODS FOR LANDSCAPE CONSERVATION IN NATURAL AREAS

Gulnara Asib Asadova
g.asadova@atu.edu.az
Azerbaijan Technological University

Landscape conservation in natural areas has become a critical component of environmental protection in the context of increasing anthropogenic pressure and global environmental change. Modern approaches emphasize integrated and ecosystem-based management, where landscapes are considered as dynamic and interconnected systems. These approaches aim to preserve biodiversity, maintain ecological balance, and ensure the sustainable use of natural resources. Advanced methods such as Geographic Information Systems (GIS), remote sensing, ecological monitoring, and restoration techniques play a significant role in assessing and managing landscape changes. Additionally, adaptive management strategies are increasingly applied to address the impacts of climate change. The involvement of local communities and the application of sustainable development principles further enhance the effectiveness of conservation efforts. Overall, modern landscape conservation requires a multidisciplinary approach combining scientific knowledge, technological tools, and social participation.

Keywords: Landscape conservation, natural areas, ecosystem-based management, biodiversity, GIS, remote sensing, ecological monitoring, sustainable development